**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

**KİFAYƏT AĞAYEVA**

# ABŞ-DA GENDER MƏSƏLƏLƏRİ

***Dərs vəsaiti***

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dillər Universitetinin "29" mart 2018-ci il tarixli "16" saylı iclas protokulundan çıxarışla dərs vəsaiti kimi təsdiq edilmişdir.

**"Elm və təhsil"**
**Bakı – 2018**

**Müəllif: f.ü.f.d., dos. KİFAYƏT CƏBI qızı AĞAYEVA**

**Rəyçilər: t.ü.f.d., dos. A. Ş. ŞAHMURADOV**
*(Azərbaycan Dillər Universiteti)*

**t.e.d., prof. N.M. QULİYEVA**
*(AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu)*

**Elmi redaktor: t.ü.f.d., dos. S. F. ƏLİYEVA**
*(Azərbaycan Dillər Universiteti)*

**Kifayət Ağayeva. "ABŞ-da gender məsələləri".**
**Bakı, "Elm və təhsil", 2018, 300 səh.**

**978-9952-37-048-5-İSBN**

**© Kifayət Ağayeva, 2018**
**©"Elm və təhsil", 2018**

# MÜNDƏRİCAT

**I FƏSİL**
**Gender araşdırmalarına giriş. Siyasi azadlıq uğrunda mübarizə və feminist hərəkat......................................................7**
Gender nədir?........................................................................8
Cins genderə qarşı...............................................................12
Gender sosial konstruksiya kimi.........................................19
Gender araşdırmaları fənnin paradiqması...........................20
Gender stereotipləri............................................................23
Gender diskriminasiyası.......................................................25
Güc kontekstində gender ayrı-seçkiliyi ..............................26
Patriarxallıq.........................................................................27
Zəif cins?..............................................................................28
Femininliyin meyarları.........................................................29
Maskulinlik .........................................................................31
Gender rolları və əlaqələr.....................................................32
Siyasi azadlıq uğrunda mübarizə və feminist hərəkat...................33
Struktural funksionalizm (və ya fuksionalizm) və gender rolları ..33
Qadın hərəkatı və feminizmin inkişafı.................................36
Siyasi bərabərlik uğrunda mübarizə.....................................38
Feminizm .............................................................................39
ABŞ-da səsvermə uğrunda mübarizə - feminizmin ilk dalğası .....40
Qərbdə feminist siyasi ideyalar - II dalğa...........................43
Feminizm - III dalğa ............................................................45
Liberal feminizm...................................................................47
Marksist feminizm ...............................................................49
Sosialist feminizm.................................................................52
Radikal feminizm..................................................................54
Kultural feminizm.................................................................56
Feminizmin vəd etdiyi imtiyazlar ........................................57

**II FƏSİL**
**Tarix və gender. Genderin sosial konstruksiyası başqa məkanlarda: əcdadlarımız və müasir preindustrial cəmiyyətlər.........................................................................64**
Sümüklər və daşlar: arxeoloji qazıntılar ..............................66
Əcdadlarımız və müasir insanabənzər primatlar.....................71

Genderin qərbsayağı konstruksiyası universaldırmı?
Müasir preindustrial cəmiyyətlər ..................................................73
Müasir preindustrial cəmiyyətlərdə gender münasibətləri.............74
Digər genderlər ..........................................................................82
Gender, təkamül və mədəniyyət...................................................84

**III FƏSİL**
**Tibb və gender: cinsi diferensiasiya ..........................................88**
Cins xromosomları və cinsi diferensiasiya ....................................88
Prenatal xətalar...........................................................................93
Qadın beyni, kişi beyni və gender rolları....................................101
Premenstrual sindrom (PMS).......................................................104
Postpartum depressiya sindromu (PDS) ......................................109
Biologiya ilə mədəniyyətin təması..............................................110
Gender cinsin sosiomədəni kateqoriyası kimi ............................ 111

**IV FƏSİL**
**ABŞ-da təhsil və gender...........................................................116**
ABŞ-da təhsil tarixi perspektivdən ............................................118
XX əsrdə qadın və kişilər təhsildə ..............................................121
Məktəbdə nəyi öyrədirlər? .........................................................123
Təhsildə qız və oğlanlar: ibtidai siniflər.......................................125
İbtidai siniflərdə müəllim şagird münasibətlərindəki
fərqlər........................................................................................127
Məktəb: yeniyetməlik dövrü .......................................................128
Qadınlar təhsildə: kollec və universitetlər ..................................130
Qadın və kişilər ali təhsilin üç pilləsində....................................131
Tələbə-müəllim münasibətində gender stereotipləri...................135
Dərsliklər...................................................................................136
Təhsilin idarəçilik strukturunda qadınlar azdır ...........................138
Təhsildə xoşagəlməz mühit - seksual təngəgətirmə.....................141
Daha pozitiv təhsil mühitinin yaradılması ..................................145
Gender, təhsil və güc.................................................................147

**V FƏSİL**
**ABŞ-da iqtisadiyyat, əmək və gender.......................................151**
Qadın iş yerləri tarixi perspektivdən və ABŞ cəmiyyətində

onların təmsili ....................................................................153
ABŞ-da menecerlikdə qadınlar və qadın ixtisaslarına
tarixi baxış...........................................................................161
Yaşlı qadınların əmək haqqı və iş yerləri ...................................165
Qadınların karyeralarında irəliləmələrinə mane olan baryerlər .. 166
İş yerlərində gender stereotipləri ...............................................168
İş yerlərində gender seqreqasiyası ............................................170
ABŞ-da mühəndislik və qadın ...................................................172
İş yerlərində gender diskriminasiyası və seksual təngəgətirmə...175
ABŞ-da iş yerlərində seksual təngəgətirmə ilə bağlı
məlumat kitabçası .....................................................................177
Nəticə .......................................................................................181

**VI FƏSİL**

**ABŞ-da dil, KİV və gender.......................................................184**
Dilin üslubunda gender aspektləri ............................................186
Fikrin, münasibətlərin qeyri-verbal ifadəsi və qeyri-verbal dilin
gender aspektləri .......................................................................189
ABŞ-da genderləşmiş KİV. KİV-in gender rollarına təsiri ..........193
Televiziya şouları .....................................................................196
Cizgi filmləri ............................................................................200
Kinolarda gender rollarında fərqlər ............................................201
Reklamlarda gender aspektləri...................................................203
Gender neytral dil uğrunda .......................................................206

**VII FƏSİL**

**ABŞ-da din və gender ..............................................................211**
Dinin gender aspektləri..............................................................212
ABŞ-da din və gender tarixi perspektivdən ................................213
Xristianlıqda qadına baxış..........................................................216
Katolik kilsəsində qadınların rolu...............................................218
Buddizm və qadın .....................................................................220
Amerika buddist qadınları..........................................................223
Dinlərdə gender stereotipləri.......................................................226
Dində gender konflikti ..............................................................228
ABŞ-da müsəlman qadınlar .......................................................230
9/11-dən sonrakı dövr ...............................................................231

Dini kitabların dilinin gender stereotipləşməsinə təsiri (İncil)....................................................................235

**VIII FƏSİL**

**ABŞ-da miqrasiya, multikulturalizm və gender ......................240**

Amerikada miqrasiya və multikulturalizmin tarixi aspektləri .....240

Multikulturalizm və gender bərabərliyi .......................................246

ABŞ-da miqrant qadınlar və mövcud problemlər........................249

Multikulturalizm və feminist hərəkat............................................256

Amerika multikultural cəmiyyətində feminist baxışlar ...............260

Miqrasiyanın gender aspektləri....................................................264

Müasir Amerika cəmiyyətində miqrant müsəlman qadın ............266

Islam Amerika multikulturalizmi üçün təhlükədirmi? ............ 272

ABŞ-da yəhudi miqrasiyasının gender aspektləri........................273

ABŞ-da etno-mədəni dəyərlərin nəsillərə ötürülməsində dərsliklərin rolu..........................................................................283

Nəticə ..........................................................................................287

# I FƏSİL

## Gender araşdırmalarına giriş. Siyasi azadlıq uğrunda mübarizə və feminist hərəkat

Gender araşdırmaları gender fenomenin akademik tədqiqatıdır. Gender araşdırmaları əxlaq qaydalarına femininlik və maskulinliklə assosiasiya olunan norma və nümunələr kimi baxır. Bu fənn femininlik və maskulinliklə əlaqəli xüsusiyyətləri özündə ehtiva edən norma və nümunələri öyrənir.

Gender nədir? Qadın və kişilər üçün stereotip nümunələr necə formalaşır? Onlar zamanla necə dəyişir və bunların dəyişməsinə təkan verən amillər hansılardır? Feministlərə görə "cins" və "gender" arasındakı fərq aşağıdakı kimidir. Əgər cins bioloji kateqoriya olaraq dişilik və erkəklik kimi anlaşılırsa, gender sosial kateqoriya olub femininlik və maskulinlik haqqında olan ideyaları özündə cəmləşdirir. Gender fərdin o xarakter və xüsusiyyətlərini özündə ehtiva edir ki, fərd dişilik və erkəkliyindən asılı olaraq öz sosial rolunu oynayır. Məsələn, qadın ailə daxilində qayğı və tərbiyə üçün məsuliyyət daşıyır, kişi isə ictimai sferada daha aktivdir. Ona görə də hər iki gender öz xüsusiyyətlərinə uyğun əmək sahələrində çalışır; bu da o inama gətirib çıxarır ki, qadınlar tibb başçısı kimi, kişilər mühəndis kimi daha adekvatdırlar. Bü xüsusiyyətlər maskulinlik və femininliklə assosiasiya olunur və cəmiyyət mədəniyyətə, həmçinin tarixi dövrə görə dəyişir.

Bəşəriyyət bərqərar olduğu gündən qadınlara Tanrıdan sonra ikinci insan həyatının yaradıcısı kimi baxmışlar, lakin bir çox

mənbələrdə onlar hər zaman kişilərdən intellektual səviyyəcə aşağı və həmçinin şər və pis nəfsin əsas mənbəyi hesab olunmuşlar. Yunan mifologiyasına görə, Pandora adlı qadın qadağan olunmuş qutunu icazəsiz açdığına görə bəşəriyyət vəba xəstəliyinə tutulmuş və bədbəxtliyə düçar olmuşdur. Qədim Roma qanununda qadınlar kişilərdən daha aşağı məxluq kimi, uşaqlarla bir sırada təqdim olunurdular.

Qədim xristian teologiyasında da belə fikirlərə tez-tez rast gəlirik. XX əsrdə xristian kilsəsində müqəddəs ata Cerom belə deyir: "Qadın cəhənnəmə açılan qapı, əxlaqsızlığa aparan yol, ilan xislətli, bir sözlə, çox qorxulu məxluqdur". XIII əsrin xristian ilahiyyatçısı Tomas Akvinas qadınlar haqqında belə deyir: "Düzdür, Tanrı qadını kişiyə köməkçi qismində yaratmışdır, lakin qadınların həyatdakı başlıca rolu dünyaya uşaq gətirməkdən ibarətdir. Başqa məsələlərdə kişilərə elə kişilər kömək etməlidir".

Şərqdə qədim zamanlarda qadına olan münasibət pis deyildi. Məsələn, qədim Hindistanda qadınlar evləndikdən sonra öz mülkiyyət və fərdi azadlıqlarından məhrum olmurdular, lakin sonradan din qadınları kişilərə tabe olmağı tələb etdi. Qadına mülkiyyət hüququ verilmirdi, qadın bir dəfədən çox ərə gedə bilməzdi. Həm Qərb, həm də Şərqdə oğlan övladlarına üstünlük verilirdi. Bütün bunlara baxmayaraq, qadınlar sonda dünyanın əksər ölkələrində azadlıq əldə edə bildilər.

**Gender nədir?** İnsan anadan olduğu andan gender sisteminin təsir obyekti olur. Ənənəvi cəmiyyətlərdə uşağın dünyaya gəlməsi ilə əlaqədar simvolik adətlər mövcuddur, bəzən isə heç dünyaya gəlməmiş uşağa cinsinə uyğun rəngdə geyimlər seçilir, oyuncaqlar alınır və hətta körpə uşağın cinsini bilmədən bu əlamətlərə görə onu təyin etmək mümkün olur. Bəzən dünyaya yeni gəlmiş uşaqlarla cinsinə uyğun rəftar edirlər; məsələn, valideynlər çox vaxt yeni dünyaya gəlmiş oğlan uşaqlarını çox yedizdirdikləri halda, qız uşaqlarını daha çox danışdırırlar.

Gender sözü ilk dəfə Ann Oukli tərəfindən qadın və kişilərin

bioloji və sosial xarakterlərini təsvir etmək üçün istifadə edilmişdir. Genderin ən sadə təsnifatı Ann Oukli tərəfindən belə verilmişdir: İnsanlar dişi və erkək doğulurlar, qız və oğlan kimi böyüməyi öyrənirlər, qadın və kişi kimi yetişirlər (Ann Oakley,1972). Onlara cinslərinə uyğun davranış, inam, münasibət, rollar, fəaliyyət və başqaları ilə necə rəftar etmək təlqin olunur. Bu öyrədilmiş davranışlar gender identikliyini yaradır və gender rollarını təyin edir. Qadın və kişilərin cəmiyyətdə oynadıqları həm bioloji, həm də sosial rollar çox önəmlidir, lakin sosial rollar bioloji rollardan daha çox əhəmiyyət kəsb edir. Həm bioloji, həm sosioloji rollar – mədəniyyətə, dinə, çoğrafi şəraitə görə dəyişə bilər.

Gender normaları ailədə uşaq tərbiyə etmə prosesində (valideyn və ya qohum qismində), təhsil sistemində (uşaq təşkilatlarında tərbiyəçi və ya müəllim qismində), bütünlükdə mədəniyyətdə (kitablar və ya KİV vasitəsilə) uşaqların şüuruna yeridilir, bəzı əxlaq qaydaları formalaşdırılır və *əsl kişi* və *əsl qadın* necə olmalıdır təsəvvürü yaradır.

Biz özümüzü müxtəlif yollarla təsvir edirik. Bunu ən çox *mən qadınam* və ya *mən kişiyəm* kimi bioloji əsaslara kökləyirik. Bu sözlərlə heç vaxt üzünü görmədiyiniz qeyriləri haqqında nəticə çıxarırıq. Bu şəkildə verilən təsvir insan anatomiyasının sadə təsvirindən kənara çıxır. Bu məlumat insanın təkcə cinsindən deyil, həmçinin şəxsi keyfiyyət və davranışından da xəbər verir. Yuxarıdakı ifadələri işlətməklə insanlar sizin nə geyinəcəyinizdən, özünüzü necə ifadə edəcəyinizdən, hətta həyat fəaliyyətinizdən də danışa bilirlər.

Əgər qadınsınızsa, onlar sizi donda təsəvvür edəcək, amma şalvarda da görsələr, təəccüb etməyəcəklər. Çoxlarına elə gəlir ki, qadınsınızsa, siz nisbətən passiv, qeyri-müstəqil fikirli, emosional və tez ağlayan olmalısınız. Siz digərlərinə qulluq etməkdən, uşaqların qayğısına qalmaqdan, bir sözlə, fədakarlıqdan zövq almalısınız. Xarici görünüşünüz sizin üçün çox önəm kəsb etdiyinə görə, onunla hədsiz məşğulsunuz, biznes məsələləri, dünyada ge-

dən proseslərlə o qədər də maraqlanmırsınız, texnikadan isə heç bir məlumatınız yoxdur. Əgər siz kişisinizsə, onlar sizi şalvarda təsəvvür edəcəklər, birdən sizi donda görsələr, təşfişə düşərlər, lap qorxa da bilərlər. Onlara elə gəlir ki, siz kişisinizsə, deməli, hədsiz inadkar, müstəqil və öz emosiyalarına nəzarət etməyi bacaran adamsınız. Onlara görə, siz öz işinizlə çox ciddi məşğul olan, ambisiyalı, işinizə vurğun, elmdən, idmandan, biznesdən yaxşı xəbərdar və dünyada baş verən hadisələrdən, texnikadan kifayət qədər məlumatlısınız. Beləliklə, cəmiyyət öz inamlarına uyğun kişi və qadınlarla fərqli rəftar edir və bəzən onları qarşı-qarşıya qoyur.

Başqa sözlə, bioloji verilmiş cins (yəni erkəklik və ya dişilik) sosial kateqoriyanın konstruksiyasını əmələ gətirmək üçün əsas baza kimi istifadə olunur və biz bunu *gender* - maskulinlik və ya femininlik adlandırırıq. Bu, o deməkdir ki, sizin bioloji cinsinizə uyğun təsvirinizdənsə, genderə uyğun sosial təyin olunmuş xarakterinizin təsviri haqqınızda daha aydın təsəvvür yarada bilər.

Əhəmiyyətlisi odur ki, bu diferensiasiya təkcə fərdlərarası səviyyədə deyil, cəmiyyətdə struktur səviyyədə də baş verir. Cəmiyyət özü üçün bu ştrixləri, davranışları və sosial qarşılıqlı təsiri cins üzərində cızır. Bu xüsusiyyətlər cəmiyyət institutlarında təsdiq olunur, yəni iqtisadiyyat, siyasət, təhsil sistemi, din, ailə və digər qurumlarda öz əksini tapır. Bu institutlaşdırılmış gender diferensiasiya modeli cəmiyyətdə *cins-gender sisteminə* aid edilir.

Cins-gender sistemi tarixən istər qarışıq mədəniyyətlərdə, istərsə də digər mədəniyyətlərdə müxtəlif cür təzahür etmişdir. Buna baxmayaraq, bu sistemdə ən azı üç qarşılıqlı komponent mütləq mövcuddur:

a) *bioloji cins əsasında gender kateqoriyaların sosial konstruksiyası;*

b) *əməyin cinsə görə bölünməsi, xüsusi tapşırıqlar cinsə əsasən bölünür və yerinə yetirilir;*

c) *seksuallığın sosial tənzimlənməsi, seksual ifadənin xüsusi*

*formaları ya pozitiv, ya da neqativ şəkildə sanksiyalar alır.*

Daha sadə dillə desək, birinci komponent o anlama gəlir ki, dünyaya erkək (XY xromosomları ilə) kimi gələn oğlan uşaqları sonradan kişi adlandırılır, dünyaya dişi (XX xromosomları ilə) kimi gələn qız uşaqları sonradan qadın adlandırılır. İkinci komponentə görə bütün cəmiyyətlərdə əmək genderə uyğun bölüşdürülür. Üçüncü komponentə görə isə, erkək özünü kişi kimi apararsa, mükafatlandırıla bilər, qadın kimi apararsa, cəzalandırıla bilər və ya əksinə.

Əslində, genderin konstruksiyası polyar (qütbləşmiş) və ziddiyyətlidir. Sosial normalar zaman-zaman dəyişir, gender asimmetriyası isə sabit qalır.

Cins-gender sistemi *sosial stratifikasiya* kimi funksiya göstərir, qadın və kişilər, onlara aid davranış və xüsusiyyətlər cəmiyyətdə qeyri-bərabər qiymətləndirilir. Gender sisteminin himayə və inkişafında insanların şüuru mühüm rol oynayır. Fərdlərin gender şüurunun konstruksiyası sosial və mədəni stereotiplərin, normaların dəstəklənməsi və yayılması vasitəsilə baş verir, cəmiyyət insanları etdiyi xətalara görə cəzalandırır.

Sosial qurumlarda mükafatlandırma və cəza vermə qəbul olunur, üstünlüklər mükafat kimi verilir, öhdəlik və qadağalar insanların cinslərinə uyğun (düzdür, burada başqa amillər də əsas götürülür: sinif, yaş, etnik mənsubiyyət, din və s. faktorlar) təyin edilir. Cins-gender sisteminin qadın-kişinin həyatına və həyat tərzinə çox böyük təsiri vardır. Bu an qadın statusu üzrə BMT Komissiyasının 1980-ci ildə verdiyi hesabatdan bir məqamı xatırlatmaq yerinə düşərdi: “Nəzərə alsaq ki, qadınlar dünya əhalisinin təxminən 60 %-ini təşkil edirlər, görülən işlərin üçdə ikisini yerinə yetirirlər, lakin dünya gəlirinin onda birinə sahibdirlər, dünya mülkiyyətinin 1 %-dən azı onlara məxsusdur”. Qeyd edilən statistikadan üç onillikdən çox bir zaman keçsə belə, verilən rəqəmlərdə ciddi bir dəyişiklik nəzərə çarpmır. İnsanı təəcübləndirən belə faktlar qadın və kişilərin *patriarxal* cins – gender sistemi

mövcud olan cəmiyyətdəki vəziyyətini əks etdirir. *Patriarxal* elə bir cins – gender sistemidir ki, cəmiyyətdə kişilər dominantlıq edirlər, maskulinlik femininlikdən daha yüksək qiymətləndirilir. Feministlər isə patriarxal cəmiyyətin əksi hesab olunan, cinslərin bərabərliyi prinsipləri üzərində bərqərar olan *eqalitar* cəmiyyətə üstünlük verirlər. Bu elə bir cəmiyyətdir ki, kişilərə məxsus olan hər bir hüquq və imkan qadınlar üçün də əlyetər olur. O da qeyd olunmalıdır ki, heç də kişilərin hamısı partiarxal cəmiyyətdən eyni cür faydalanmır, lakin bu da bir həqiqətdir ki, belə cəmiyyətdə qadınların üstünlükləri kişilərə nisbətən daha az olur.

**Cins genderə qarşı**. Mübahisələrə səbəb olan feminist nəzəriyyələr, gender sosiologiyası, gender psixologiyası və "Gender araşdırmaları"nın əsasını *gender* anlamı təşkil edir. Bir məsələni də qeyd etmək yerinə düşərdi ki, feminizmin gender konsepsiyasına və *genderin* üzünə olan münasibət eyni deyildir: Bəzi feministlərə görə *genderə* əsaslanan tədqiqat diqqəti daha çox aktuallıq kəsb edən *qadın məsələlərindən* yayındırır və bu məsələləri kölgədə qoyur.

Əslində, genderlə bağlı məsələlərdə marağa səbəb feministlərin *müasir cəmiyyətdə* mövcud olan qadına qarşı diskriminasiyası ilə əlaqəli tədqiqatın nəticəsidir. Antropoloq Geyl Rubin "*Seksual iqtisadiyyat: hetereoseksual əlaqələrdə sosial mübadilə üçün cins qadın resursu kimi*" adlı məqaləsində *genderi* "ictimai fəaliyyətin predmeti olan bioloji cinsin tənzimlənməsində kompleks razılaşma" kimi təyin edir (Gayle R., 1975). 1980-ci illərdə bu təyinat müxtəlif konsepsiyalar üçün əsas oldu. Bir çox Avropa ölkələrində və ABŞ-da "Gender araşdırmaları" tədris olunur və elmi dissiplin kimi rəsmi status alıb, hətta bu fənni bilmək sosial işçilər və bir çox dövlət məmurları üçün məcburidir.

Feministlər bu termini sosial aspektdən fərqliliyini diqqətə çatdırmaq məqsədi ilə irəli sürmüşlər. Erkək və dişi arasındakı fərqi nəzərə çatdırmaqdan ötrü *cins* deyilərkən onun bioloji fərqi diqqətə çatdırılır. Söhbət genderdən gedirsə, o zaman

onun sosiomədəni fərqi, yəni kişi, qadın anlaşılır və burada da söhbət onların sosial vəziyyətlərindəki fərqlərdən gedir (Hornsby J., 1995: 305).

Amerikalı tədqiqatçıların irəli sürdüyü iddialara əsaslanan E.Qiddensdən (1989) də bir sitatı gətirmək yerinə düşərdi: "Qadın və kişi arasında bədən quruluşu və fiziki fərqdən bəhs olunursa, bu, cinsi fərqdir, gender isə qadın və kişi arasındakı psixoloji, sosioloji xüsusiyyətləri və onların fərqlərini özündə ehtiva edən fərqdir. Əgər fərdin cinsi bioloji olaraq təyin olunmuşdursa, gender mədəni və sosial olaraq verilir. Beləliklə, iki cins (erkək və dişi) və iki gender (qadınlıq-femininity və kişilik-masculinity) mövcuddur" (Anthony Giddens, 1989). Belə təyinatın özü təsdiq edir ki, kişi dominantlığı və cinsi diskriminasiyası ilə müşayiət olunan patriarxal rejimin şərtləri daxilində kişi ilə qadın arasındakı sosial fərqlərə biganə qalmaq olmaz. Bu mənada genderin təyinatını ən yaxşı təqdim edən, gender metodologiyası üzrə məşhur nəzəriyyəçi alim hesab edilən C.Skott bunu belə ifadə edir: "Cinslər arasındakı fərqin qəbulu elə güc münasibətlərinin mahiyyətinə aparan yola əsaslanan sosial münasibət elementidir" (Scott J., 1986:106).

Feminist alimlər *gender* deyərkən həm təbii olanlara (bioloji amillərə), həm də sonradan qazanılanlara (sosial, mühit amilləri) önəm verirlər, çünki insan dünyaya gələn kimi dərhal öyrənmə prosesinə qoşulur. Onlara görə gender anadangəlmə olmaqdan çox, sonradan yaranmadır. Gender sosial gözləntilərin yarandığı və ötürüldüyü sosial öyrənmə prosesidir. Həmin o gözləntilər ki, sonradan onlar bizim şəxsiyyətimizin komponentlərinə çevrilirlər.

İlk feminist alimlərdən hesab edilən Meri Votistonkraft özünün "Qadınların hüquqlarının müdafiəsi" (1792) adlı əsərində bərabərsizliyin əsasını tərbiyədə görür: "Əgər qadınlar özlərini, həqiqətən də təfəkkürlü mövcudat kimi apararlarsa, onlarla qul kimi və yaxud ev heyvanları kimi, yəni insanların (çox yəqin ki, kişilər nəzərdə tutulur) ağılca fərqli dostları kimi rəftar etmək olmaz. Xeyr, qadınların səhhətini qorumaq, həyat prinsiplərini ar-

tırmaq, ağlını inkişaf etdirmək lazımdır və qoy qadınlar da özlərini ləyaqətli hiss etsinlər, qoy onlar təkcə Tanrıdan asılı olsunlar… Ola bilsin, bunlara utopik arzular kimi baxsınlar. O insanlara dualar ediləcək ki, o məni həvəsləndirsin, o, mənim ağlıma inamımı artırsın ki, mən ona bütün işlərimin dəstəkləyicisi kimi baxım, öz fikirlərimi deməkdə cəsarət tapım, mənim bütün həmcinslərimin buna ehtiyacı vardır" (Wotistonecraft M., 1994: 6). Müəllif "*mən*" dedikdə, qadınları, *"o"* dedikdə kişiləri nəzərdə tutur.

Bütün bunlara baxmayaraq, *eqalitar* cəmiyyət hələ də utopiya olaraq qalmaqdadır və bunların həyata keçirilməsi hələ ki, kişilərin, *güclü cinsin ürək yumşaqlığından* asılı vəziyyət kimi görünür. Lakin bunu heç də utopiya hesab etməyən Simona de Bovuar (1949) "*Ikinci cins*" adlı kitabında qadının özünüqiymətləndirmə və özünüdərketmə keyfiyyətlərinə əsaslanaraq belə yazır: "Mənə etiraz edə bilərlər ki, bütün bu deyilənlər utopiyadır, cünki *qadını yenidən dəyişdirmək* üçün cəmiyyətdə kişi və qadınlara eyni cür real şərait yaratmaq lazımdır, qadınları kişilərlə bərabərləşdirmək əsas şərtlərdəndir. Mühafizakarlar hər zaman qapalı çevrələrə üz tuturlar. Əlbəttə, cəmiyyətin bir hissəsini alçaldıcı vəziyyətdə saxlamaqla, cəmiyyəti natamam edə bilməzsən. Sözsüz, belə qapalı çevrələri devirməyə azadlığın gücü çatar; zəncilərə səsvermə hüququ versəniz, onlar səs verməyə layiq ola biləcəklər; qadınlara cəmiyyətin məsuliyyətini həvalə etsəniz, onlar bunun öhdəsindən gələcəklər, lakin bunun könüllü verilməsinə inanmaq əbəsdir. Yeri gəlmişkən, hər zaman əzilənlərin üsyanı imtiyazlı silklərin daxilində yeni situasiyalar, dəyişikliklər meydana gəlməsi ilə nəticələnmişdir. Kişilər öz maraqlarından, qismən də olsa, imtina etməlidirlər, qadınlara emansipasiya verilməlidir: Qadınların isə oyanışı davamlı olmalıdır, bunlar dəstəklənsə, uğur əldə ediləcək; onsuz da bir neçə vaxtdan sonra iqtisadi və sosial bərabərlik qaçılmazdır, ən əsası bundan sonra onların daxilində gedən dəyişikliklərdir" (Бовуağ де, С, 1997).

XX əsrin əvvəllərində struktural antropologiya və sosiologi-

ya cəmiyyətdə cinslərarası sosial münasibətlərin təhlilini yeni perspektivdən təqdim etdi. Marqaret Mid (1935) etnoqrafik tədqiqatlarında göstərir ki, sivilizasiya tarixində cəmiyyətdəki gender rollarının başqa ifaları, başqa təqdimatları da mövcuddur. Bu gün qadınlara "sırınan" bütün bu gender rolların təbiətlə heç bir əlaqəsi yoxdur. Marqaret Mid Cənubi Amerika və Afrika cəmiyyətlərindəki preindustrial tayfaların yaşayış tərzlərini müşahidə etmiş və bu nəticəyə gəlmişdi ki, gender rollarının bugünkü şəkildə bölünməsinin təbiiliyinin tarixlə əsaslandırılması Qərb patriarxal cəmiyyətinin uydurmasından başqa bir şey deyil. Marqaret Midin müşahidələrinə görə, cinsə əsaslanan iş bölgüsünün, həqiqətən, təbiətlə heç bir əlaqəsi yoxdur, çünki hətta bu gün də bizim ulu əcdadlarımızın həyat tərzinə bənzər yaşayışa malik bəzi tayfalarda kişi işi, qadın işi və ya kişi dominantlığı yoxdur, bütün işlərin icrasında hər iki cins iştirak edir və istədikləri işi görür. Kimsə cinsinə uyğun fəaliyyət göstərib-göstərməməsinə görə nə mükafatlandırılır, nə də cəzalandırılır (Margaret Mead, 1935).

XX yüzillikdə formalaşan cins problemi və digər fəlsəfi problemlər üçün xarakterik olan iki əsas yanaşmadan (essensialist və konstruktivist) söz açmaq olar. Gender fəlsəfəsində klassik təfəkkür müasir, postklassik təfəkkürlə əvəz olundu. Birinci tip fəlsəfədə obyektiv reallığın təbiətinə dair, ruh ilə materiyanı üz-üzə qoymaqla, subyektivlik və obyektivlik, daxili və xarici, kişi və qadın və s. məsələlər müzakirəyə qoyulur. Ikinci tip yanaşmanın dərinliyində Kant fəlsəfəsi durur (nikah qadını avtomotik olaraq ərinin xidmətçisi edir və qadın avtomatik olaraq nikahdan sonra aktiv vətəndaşlıqdan çıxarılır), həyat fəlsəfəsi XX əsrin linqvistik inqilabından bəhs edir, subyektiv şəkildə ifadə edilən dünya təqdim olunur. Əsas tədqiqat məsələsi bu təsəvvürün necə formalaşması, bunun necə ifadə və mübadilə olunmasıdır. Ənənəvi cins nəzəriyyəsindən fərqli olaraq gender tədqiqatının qarşısında duran məsələnin əsas spesifikası da elə budur; sosial struktur, fərdi-şəxsiyyətlərarası münasibətlər səviyyəsində gender simvolla-

rının funksiyası və formalaşması.

Genderin necə təyin edilməsinə dair başqa yanaşmalar da mövcuddur. Məsələn, O.A.Voronina genderin anlaşılması və gender araşdırılması ilə bağlı üç istiqamət təqdim edir:

a) gender sosial analizin instrumenti kimi;

b) genderin qadın araşdırmaları çərçivəsində anlaşılması;

c) gender kulturoloji interpretasiya kimi.

Birinci istiqamət *sosial-demoqrafik kateqoriya* və *sosial konstruksiya* kimi səciyyələndirilir, ikinci istiqamət *gender subyektivlik, gender ideoloji konstrukt, gender şəbəkə, gender texnologiyası* kimi təyin edilir" (Воронина О. А., 1997:31).

Əvvəllər Qərbdə *Qadın araşdırmaları* adı altında tədris olunan gender məsələləri yalnız 1980-ci illərdə *Gender araşdırmaları* ilə əvəz olundu və bununla da, *Qadın araşdırmaları Gender araşdırmalarından* ayrıldı. Bunun bir çox səbəbləri mövcuddur. Birincisi, *gender* termini müasir dünya ilə sıx bağlıdır. Ikincisi, tədqiqatçıların təkcə qadın problematikası ilə deyil, daha geniş mövzuları tədqiq etmə zərurətini hiss etmələri, gender anlayışının daha əhatəli şərhə ehtiyacı olması səbəbi bu addıma təkan verdi. Genderin tədqiqat predmeti daha genişdir, o, öz formulasında gender feminist stereotipindən daha azaddır. Tədricən *gender* termini simvolik konstruktiv konsepsiyanın əsasını təşkil etməyə başladı. Üçüncüsü, gender bioloji cinsin sosial ifadəsidir. Belə təyinat o sosioloji tədqiqatlara geniş şəkildə daxil olmağa başladı ki, orada gender təhlili cinsi kateqoriya kimi anlaşılmır. Sosial strukturun müxtəlif kateqoriyalarının meydana gəlməsi və törəmə səbəblərini izah etmə cəhdi, məhz prosesin özünə olan maraq müasir yanaşmalar üçün xarakterikdir.

XX əsrin ortalarında psixoanalitik Lkan, fransız poststrukturalistləri və onların Amerikada olan davamçıları iddia edirdilər ki, özünüidentifikasiya və sosial rolun seçilməsində *simvolika, dil, mədəni* amillər mühüm rol oynayır. *Bioloji* amillər burada sadəcə təxribat xarakteri daşıyır. Qiddenzə istinad edən Levontin öz

kitabında bu haqda belə yazır: "Insanın özünü kimlə – kişi və ya qadınla identifikasiya etməyə başlaması onun xarakterinin əsas qismini təşkil edir, ideya və istəklər ilk növbədə onun uşaqlıqda özünü hansı cinslə identifikasiya etməsi ilə əlaqəlidir. Normal inkişaf zamanı *qazandığı* cins onun xromosomlar, hormonlar və morfologiyasındakı bioloji fərqlərə uyğun gəlir" (Lewontin R., 1982:142). Məhz buna əsaslanan cinsi fərqlər anlamına uyğun genderin müasir konsepsiyası meydana gəlmişdir.

E.Qross genderə təyinat və identifikasiya kimi deyil, seksual diferensiasiyanın metaforu kimi baxır. T. de Lauretis isə M.Fukonun ideyalarına istinad edərək özünün "Genderin texnologiyası" adlı əsərində yazır ki, gender sadəcə, anatomik-bioloji cinsin törəməsi deyil, onun sosial konstruksiyasıdır, reprezentasiyasıdır, daha doğrusu, diskursiv və vizual reprezentasiyanın əsas effektidir. Mən də Fuko kimi hesab edirəm ki, gender müxtəlif ictimai qurumların məhsuludur: Təkcə ailə, təhsil sistemi, KIV, tibb və ya hüquq deyil, o həmçinin dil, ədəbiyyat, kino və elmi nəzəriyyədir (Лауъетис де, Т. 1998: 136).

Gendərə insan mədəniyyətinin məhsulu kimi baxılmalıdır. Bu bizim zəmanəmizdə ona görə aktualdır ki, cinsin, genderin mədəniyyəti bəşər cəmiyyətinin mühüm hissəsidir. Beləliklə, gender nəzəriyyəsi bu və ya digər mədəniyyətdə cinsi dimorfizm (morfo-fizioloji: morfoloji - insan bədənin forma və strukturunun xüsusiyyətlərinə görə mövcud olan fərqlər) və münasibətə uyğun meydana gələn özünəməxsus metamədəni nəzəriyyədir.

Çox uzun illər biodetermistlər cinslə gender terminini eyniləşdirməyə çalışmışlar. "Gender"in sosial konstruksiyasını anlamaqla bunları fərqləndirmək olar, çünki genderlə cinsi eyniləşdirməklə əksər cəmiyyətlərdə qadınların tabeçilik, kişilərin dominant statuslarına bəraət qazandırmış oluruq. "Cins" isə bioloji və fiziolji xarakter hesab olunur və fərdin erkək və dişiliyinin göstəricisidir.

Cəmiyyətdə qadın və kişilər üçün fərqli rollar nəzərdə tutul-

muşdur və onların fərqli öhdəlikləri vardır. Bu, nəyə görə belədir? Bu, təbiətdən gələn xarakterlərdir, yoxsa bu qaydaları cəmiyyət nizamlamışdır? Qeyd etdiyimiz kimi "gender" qadın və kişilər üçün nəzərdə tutulan sosial konstruksiyalı rolu, davranışı, fəaliyyəti və atributları ehtiva edir. Gender aksenti sosial, mədəni və psixoloji amillərin məhsulu olan femininlik və maskulinliyin üzərinə qoyur və fərd tərəfindən qadın və kişi olma prosesində qazanılır. "Gender" təbiətin faktı kimi yenidən formalaşır, çünki bioloji cins yenidən təyin edilir, təqdim edilir, dəyərləndirilir və bir-birindən asılı və fərqli rollar qismində yönləndirilir.

Cins anatomik-fizioloji xarakterə malikdir və bioloji dişi və erkəklik xüsusiyyətləri özündə cəmləşdirdiyi halda, gender sosial konstruksiya olub femininlik və maskulinlik xüsusiyyətlərini özündə ehtiva edir. Beləliklə, gender fərdin sosializasiyası prosesində əldə edilmiş sosial, mədəni və psixoloji amillərdən ibarət faktdır. "Gender" konsepsiyasının əhəmiyyəti nədir? Genderdən yəni femininlik və maskulinliyin sosial və mədəni konstruksiyasından bəhs etdikdə, insanın təbii amillərə deyil, sosial amillərə əsaslanan rol və şəxsiyyətinin meyarları anlaşılır. Buna görə də, genderlə əlaqəli bəhs etdiyimiz subordinasiya və diskriminasiya dəyişə bilər. Elə bu səbəbdən də, femininlik və maskulinlik dəyişkən xarakterə malik olduğu üçün cins və genderin mahiyyəti cəmiyyət və mədəniyyətlərə görə fərqlənə bilər.

Bu terminləri fərqləndirən əsas əlamətlər:

| **CİNS** | **GENDER** |
|---|---|
| Təbiidir | Sosial konstruksiyadır |
| Biolojidir<br>Vizual olaraq fərqlənir və müxtəlif reproduktiv funksiya daşıyır | Sosio-mədəni konstruksiyaya malikdir və femininlik və maskulinliyin xüsusiyyətlərini, davranış nümunələrini, uyğun rollarını, öhdəliklərini və s. özündə ehtiva edir. |

| | |
|---|---|
| Universaldır | Zamanın, coğrafi və sosio-mədəni parametrlərin təsirindən dəyişə bilər. |

**Gender sosial konstruksiya kimi**. İnsanlar böyüdükləri zaman cəmiyyətdə mövcud olan gender rollarını təkcə mənimsəməklə kifayətlənmirlər, həmçinin ona uyğun davranırlar. Beləliklə, genderləşmiş feminin və maskulin identifikasiyalarına uyğun rollarını oynayırlar. Uşaqlar bunları müşahidə edirlər və tədricən müxtəlif mühit və mənbələrdən mənimsədikləri genderləşmiş davranışlara sahib olurlar. Uşaqların gender - differensiyalaşdırılmış fəaliyyətləri onların davranışlarına elə bir şəkildə bərkidilir ki, sonradan davranışlarındakı gender fərqi özünü dişi və erkək davranışlarında büruzə verir. Gender əslində elə cəmiyyətdə mədəni konstruksiyalı rolların qadın və kişilər tərəfindən oynanılmasıdır. Gender zaman və məkan arasında vahid olaraq görülür, həyatın fərqli aspektlərində (məişət, əmək bazarı, təhsil və siyasi qurumlarda) qadın və kişilər arasında mövcud olan bərabərsizliyin struktur əlaqələrini təhlil etmək üçün konseptual vasitədir. Cins isə zaman və məkan arasında uniforma kimi görünən dişi ilə erkək arasında bioloji fərqləri əks etdirən konseptual vasitədir. Buna görə gender cinslər arasındakı fərqlərin ictimai və ideoloji quruluşu və təqdimatı kimi başa düşülən bir anlayış qismində təsbit edilə bilər.

Gender çox mürəkkəb bir proses keçərək sosial və mədəni konstruksiyaya sahib olur. Fərd sosializasiya prosesində öz genderini mənimsəyir, yəni şəxs olaraq sosial inkişaf kursunda ya feminin, ya da maskulin bədənə sahib olur. Femininliyin və maskulinliyin konstruksiyası müxtəlif qurumların, xüsusilə də ailənin formalaşmasında mühüm rol oynayır. Genderin cəmiyyətə olan münasibətinin anlaşılması qadın və kişilər arasında movcud güc münasibətlərinin əks olunmasına aparıb çıxarır. Uşaqlar cəmiyyət və dövrün tələbinə uyğun gender rollarını yerinə yetirirlər.

Məsələn, az yaşlı qıza gəlinciklə oynamaq, bir az böyük qıza isə ev işləri ilə əlaqəli oyunlar oynamaq tövsiyə olunur. Bununla da onlar özlərinə uyğun davranış kodlarını öyrənirlər və davranış normalarına uyğun yaşayırlar.

Qısası, cinsi xüsusiyyətlər biolojidir, zamana və cəmiyyətə görə dəyişmir. Gender xüsusiyyətləri isə sosial münasibətlərin təsiri ilə formalaşır, zamanla dəyişir, müxtəlif cəmiyyətlərdə fərqli xarakter daşıya bilər. Genderə aid təsəvvürlər təkcə zaman və məkanla dəyişmir. Eyni cəmiyyətdə insanların "femininlik" və "maskulinlik" xüsusiyyətləri haqqında təsəvvürləri insanın yaşı, sosial mövqeyi, etnik qrupu, dini, ailə statusu və başqa amillərdən asılı olaraq fərqlənir.

**Gender araşdırmaları fənnin paradiqması**. *Gender araşdırmaları* fənninin predmeti mövcud cəmiyyətdə, kişi və qadın keyfiyyətləri haqqında təsəvvürlər və onları fərqləndirən xüsusiyyətlərdir. Qısası, bu təsəvvürlər *maskulinlik* və *femininlik* terminləri ilə bağlı bütün məqamları özündə tam cəmləşdirir. *Gender araşdırmaları* aşağıdakı xüsusiyyətləri – ictimai şüurun faktı kimi (bu sosioloji tədqiqat predmetidir) neytral və obyektiv şəkildə, siyasi pozitiv-demokratik tendensiya kimi (məsələn, seksual azlıqdan bəhs edilərkən), tənqidi şəkildə (söhbət reklamda ənənəvi maskulinlik və femininlikdən gedərsə) nəzərdən keçirə bilər. *Gender araşdırmaları* insanların qəbul etdiyi şəkildə təyin edilmiş stereotiplər və insanlararası münasibətlər, davranış və qiymətləndirmənin şəxsi ekpressiv modelindən bəhs edir.

Paradiqma nədir? Ümümi anlamda fənnin bəhs etdiyi məsələləri elmi çərçivədə ortaya qoyan fundamental imicə *paradiqma* deyilir. Lakin elmi ədəbiyyatlarda paradiqmanın müxtəlif formalarda izahına təsadüf olunur. Paradiqma elmdə problemin qoyuluşu və həlli üçün nümunə sayılacaq model, amillər, biliklər məcmusudur və ya elmi ictimaiyyətin əksəriyyəti tərəfindən qəbul edilən nəzəri müddəalar, anlayışlar və terminlərdir. Paradiqma müəyyən tarixi dövr ərzində elmdə mövcud konseptual

sxem, problemin qoyuluşu, həlli və öyrənilmə modeli, tədqiqat metodunu bildirən əsas elmi baxış, cərəyandır. Paradiqma müəyyən bir sahədə fəaliyyət göstərən alimlərin, tədqiqatçıların sahib olduqları ortaq dəyər, paylaşdıqları düşüncə tərzidir və problemin tədqiqində istifadə olunan ortaq modeldir.

Paradiqma tədqiqatçı alimə öyrəniləcək problemləri qabartmağa, bundan ötrü zəruri olan metodları seçməyə və izah etməyə yardım edir. Paradiqmanın üstün cəhəti odur ki, o, tədqiqatçının diqqətini birmənalı olaraq aktual hesab edilən məsələlərin üzərinə çəkir, məhdud cəhəti də odur ki, digər az əhəmiyyəti olmayan məsələlərdən onların diqqətini yayındırır. Digər fənlərdə olduğu kimi, *Gender araşdırmaları*nda da elmi tədqiqata yanaşma həm obyektiv, həm də subyektiv ola bilir.

*Gender araşdırmaları* fənni nəyi öyrənir? Məlumdur ki, iqtisadiyyat fənninin tədrisi zamanı iqtisadi məsələlər, siyasi elmlərin tədrisində isə siyasi məsələlər öyrənilir. *Gender araşdırılmaları*nı öyrənəndə, çox güman ki, *femininlik* və *maskulinlik*dən bəhs edilməlidir.

*Gender araşdırmaları* fənninin məqsədi təkcə qadın və ya kişilərin təcrübələrini gözdən keçirmək deyil, burada həmçinin eyni işi həyata keçirən genderlərin müxtəlif cür dəyərləndirilmələrinə diqqət yetirməkdir. Eyni fəaliyyət kişilər üçün bir cür (çox vaxt müsbət anlamda), qadınlar üçün isə başqa cür (çox vaxt mənfi anlamda) qiymətləndirilir.

Bu günə qədər *Qadın araşdırmaları*nın mərkəzində, əsasən, ailə məsələləri, qadının əmək fəaliyyəti, abort, ailə planlaşdırması, uşaqla əlaqəli məsələlər dururdu. Toxunulan məsələlərin bilavasitə kişilərə də aid olmasına baxmayaraq, nədənsə kişilər bu məsələlərdən kənarda qalırdılar. *Gender araşdırmaları* bir elm olaraq qadın-kişilərin həyat və təcrübələrinin fərqliliyini öyrənməyə və bu kontekstdə bir çox *niyə*lərin cavabını açıqlamağa çalışır. Düzdür, bu yeni elm, əsasən, qadınlarla bağlı məsələlərə aydınlıq gətirir, amma cəmiyyəti yarı-yarı öyrənməyin özü də

absurddur. Qadın məsələlərinin öyrənilməsinə verilən üstünlük tarixən qadın məsələlərinin tədqiqatdan kənar qalması səbəbindəndir. Elə o səbəbdən də bu tədqiqatın əsasını qadın məsələləri təşkil etsə də, bunlara digər genderin fikirləri, davranışı, rolları ilə müqayisə edərkən aydınlıq gətirilməlidir. Qadınla kişi arasında əlaqəni təhlil edərkən onların bir-biri haqqında düşüncələrini və onların bir-birilərinə təsirini də nəzərdən keçirmək önəmlidir. Yalnız hər iki genderin həyatını hərtərəfli öyrənməklə, cəmiyyəti tam anlamaq olar. Gender, erkək və dişinin mədəni konstruksiyası, yəni sosial strukturun ən vacib hissəsidir. Heç vaxt genderi dərk etmədən cəmiyyətin nə strukturunu, nə də fəaliyyətini anlaya bilmərik. Ola bilsin ki, *Gender araşdırmaların*ın qadınlarla bağlı digər fənlərdən ən mühüm fərqi bu fənnin təbiəti, onun bugünkü həyatla bağlılığında olan skeptisizmdir.

Beləliklə, *Gender araşdırmaların*ın məqsədi təkcə informasiyaların ziddiyyətliliyini deyil, həmçinin əldə etdiyimiz informasiyaları yeni baxış bucağından qiymətləndirmədir. Əsas məsələ *nəyi* bilməyin vacibliyidir.

*Gender araşdırmaları* həm bizim, həm də digər insanların qadın/kişi haqqında düşüncələrini, qadınlara olan tənqidi reaksiyanın qiymətləndirilməsini özündə ehtiva edir. Həm qadın, həm də kişilər anlayırlar ki, *Gender araşdırmaları* – qadın və kişilərlə bağlı məsələləri akademik çərçivədə öyrənməyi və öyrətməyi nəzərdə tutur. Qadın hərəkatının liderləri anlayırlar ki, əsas məsələ insanların bugünkü həyatlarını formalaşdıran sosial qüvvələrin öyrənilməsidir. Müxtəlif feminist alimlər eyni ideya və münasibətləri müxtəlif perspektivdən öyrənə bilərlər, amma onların hamısını bir istək birləşdirir: Qadınlar öz həyatlarına özləri nəzarət etsin, cəmiyyətdə təkcə iştirakçı qismində deyil, həm də lider olaraq fəaliyyət göstərməyə qabil olsunlar.

Feminist paradiqma həm kişilər, həm də qadınlar üçün tətbiq oluna biləndir. Düzdür, feministlər cəmiyyətdə daha çox qadının tərəfində dururlar. Bu da səbəbsiz deyil, çünki tarix boyu qadın

təcrübəsinə dəyər verilməmişdir və elmi tədqiqatlarda buna etinasız yanaşılmışdır. Bunun səbəbi cəmiyyətdə patriarxallıq, kişi sözünun önəmli hesab edilməsi olmuşdur.

Cəmiyyətdə heç də bütün qadın və kişilərin statusu eyni deyil, buna görə də burada bir çox amillər nəzərə alınmalıdır. Eycizm (ageism-yaş), klassizm, təhsil, mədəniyyət, iqtisadiyyat, din, dil və digər amillər qadının sosial statusuna fərqli təsir edə bilən faktorlardır. Ona görə də qadın və kişilər dedikdə, müxtəlif tip qadın və kişilər nəzərdə tutulmalıdır. Feminist tədqiqat bütün tip qadın və kişilərin həyat təcrübəsini özündə ehtiva edir. Müasir dövrdə feminist sosioloqlar sosial dəyişikliyin vəkilidirlər və gender bərabərsizliyini aradan qaldırmaqdan ötrü əllərindən gələni etməyə hazırdırlar.

**Gender stereotipləri.** Gender stereotipləri gender atributları haqqında sadələşdirilmiş ümumiləşdirmələrdir. Gender stereotipləri – bugünkü cəmiyyət üçün qadın və kişi haqqında formalaşan təsəvvürlərdir. Bu stereotiplər həm fərd, həm də cəmiyyət səviyyəsində funksionallaşır. Stereotiplər həm pozitiv, həm də neqativ ola bilər, lakin bu informasiyalar, çətin ki, adı çəkilən genderi dəqiq ifadə etsin. Gender təkcə məişətdə, gündəlik həyatımızda deyil, o, əsrlərdir ki, dində, fəlsəfədə və ədəbi əsərlərdə mövcuddur və bizimlədir. Ta qədim zamandan bu günümüzə qədər mövcud olan əsərlərdən misallara nəzər salaq: "Qadın kişiyə nisbətən daha ürəyinazikdir və gözyaşlarına hakim ola bilmir... Lakin kişilər... təhlükəli vəziyyətdə yardım etməyi bacarır və qadınlara nisbətən daha cəsarətlidirlər". Bu, Aristotelin zamanında da belə olmuşdur (Florence Denmark and eds, 2008: 326). "Qadını zəif cins adlandırmaq ona olan haqsızlıqdır; bu qadına qarşı ədalətsizlikdir. Əgər güclülük kobudluqdursa, o zaman razılaşmaq olar, çünki qadınlar kişilərdən daha az kobuddurlar. Əgər söhbət əxlaqi güclülükdən gedərsə, o zaman qeyd-şərtsiz bu üstünlük qadına aiddir. Qadında intuisiya daha güclüdür, o, fədakardır, daha dözümlüdür. Qadınsız kişi çox şeyi bacarmaz" (Mahatma Gandhi,

1967). "Kişi başı ilə, qadın ürəyi ilə; kişi əmr edir və qadın tabe olur; qalan şeylər əfsanədir" (Alfred, Lord Tennyson, 1842). Düzdür son onilliklər ərzində gender stereotipləri kifayət qədər dəyişmişdir, gender rollarında da dəyişikliklər baş vermişdir, lakin hələ də gender fərqləri haqqında inamlar güclüdür.

İnsanlar arasında qadının stereotipik rolu haqqında ən çox yayılan fikir onun ev qurması haqqında olan deyimlərdir. Qadın hər zaman ailəsinin mənafeyini öz şəxsi mənafeyindən üstün tutur; qadın sevgi hissi ilə doludur, ürəyiyumşaqdır, qayğıkeşdir, diqqətlidir, simpatikdir, emfatikdir. Kişinin rolu fərqlidir, çünki o, ailənin təminatçısıdır. O, həmçinin rasional, iddialı, rəqabətçil, müstəqil, aqressiv, cəsarətli, səmərəli, karyera yönümlü və praqmatik olmalıdır.

Bu cür stereotiplər olduqca zərərlidir və fərdin şəxsi və peşəkar inkişafına, eləcə də özünüifadə qabiliyyətinə və yaradıcılığına mane ola bilər. 1960-cı illərdə aparılan bir tədqiqata görə, tədqiqatçılar kişi və qadınlara xas olan xüsusiyyətlərin siyahısını təqdim etdilər.

| **Instrumental / Maskulin xüsusiyyətlər** | **Ekspressiv / Feminin xüsusiyyətlər** |
|---|---|
| Yetkin, səriştəli | Empatik |
| Rasional | Həssas |
| İnadkar | Passiv |
| Müstəqil | Qeyri-müstəqil |
| Aqressiv | Sözəbaxan |
| İtiağıllı | Qayğıkeş |
| Dominant | Emosional |
| Aktiv | Passiv |

| | |
|---|---|
| Kobud | Nəzakətli |
| Qəddar | Xeyirxah |
| Verbal | Analitik |

Yuxarıdakı cədvəldə sadalanan xüsusiyyətlərlə razılaşırsınız? Bütün bunlar ətrafınızda gördüklərinizə uyğun gəlir?

**Gender diskriminasiyası**. Genderinə görə ayrı-seçkiliyə məruz qalmaq gender diskriminasiyası adlanır. Başqa sözlə, "*hər hansı bir şəxsə və ya bir qrupa ədalətsiz davranma diskriminasiyadır. Bəzən bu ədalətsizliyin səbəbi yaş, gender, din və ya irq ola bilər*". Cəmiyyətdə qızlarla davranışda müşahidə olunan qeyri-bərabərlik bütün səviyyələrdə iyerarxiyaya aparıb çıxarır. Belə tərəfkeşliklər təkcə evdə ailə daxilində deyil, həmçinin ictimai qurumlarda və sosial strukturun bütün sahələrində müşahidə olunur. Bu, o deməkdir ki, belə tərəfkeşliklər fiziki, iqtisadi, mədəni, psixoloji amillərə söykənir. Bu fərqlər təbii fərqlər deyil, onlar patriarxal cəmiyyətdə sosial konstruksiya olunmuş fərqlərdir, bu da onları praktik edir və cəmiyyət tərəfindən normal qəbul olunur.

Bu diskriminasiya qadınların həyatının bir hissəsinə çevrilmişdir. Bu elə hamiləliyin birinci günündən, dünyaya gələcək uşağın cinsi məlum olan andan başlayır. Bu həyat boyu davam edən diskriminasiya bir sıra situasiyalarda asanlıqla, açıqcasına həyata keçirilir. Bunun nəticələri həm fərdlərə, həm də cəmiyyətə təsirsiz ötüşmür.

Belə neqativ davranış fərdlər və cəmiyyət arasında təsadüf olunur və bəzən də onlar əsas hüquqlardan məhrum olur. Bu ayrı-seçkilik yalnız müxtəlif səviyyələrdə açıq şəkildə deyil, gizli formada da ola bilər. Patriarxal cəmiyyətdə təsadüf olunan ayrı-seckilik təkcə qadınlara qarşı deyil, həmçinin kişilərə qarşı da baş verir.

O zaman ki, bir kateqoriya ali, digəri aşağı olur, diskriminasiya dərhal baş verir. Gender əsaslı diskriminasiya müxtəlif situasiyalarda müxtəlif cür cərəyan edə bilər, lakin onun kökü

ideologiyaya, yəni insanların düşüncələrinə söykənir. Qadınların kişilərdən olan iqtisadi asılılığı kişilərə qadınların üzərində nəzarət etmə imkanına zəmin yaradır. Bəzi yerlərdə mədəni amillər kişilərin qadınlar üzərində nəzarətini dəstəkləyir və hətta buna qadınları məcbur edir. Ola bilsin ki, bu, şəhər və kənd yerlərində fərqli həyata keçirilir, lakin əksər hallarda bu hər yerdə oxşardır.

**Güc kontekstində gender ayrı-seçkiliyi**. Bütün yeni elmlər kimi Gender araşdırmaları da elmə çoxsaylı yeni terminlər gətirmişdir. Bu terminlər təkcə Gender araşdırmalarında deyil, bir çox humanitar elmlərin terminologiyasında da müntəzəm istifadə edilir. Lakin Gender araşdırmaları bir elm olaraq bu terminlərə yeni məna verir. Məsələn, ümumişlək söz kimi *güc* dedikdə, adətən, canlıların fiziki işgörmə qabiliyyəti nəzərdə tutulur: Fizikada güc - işin onun görüldüyü zamana nisbəti ilə ölçülən kəmiyyətdir və "*N*" hərfi ilə işarə olunur. Gender araşdırmalarında isə *güc* birinin istəyini digərinə qəbul etdirə bilmək qabiliyyətidir. Cəmiyyətin güclü üzvləri, yəni kişilər sosial resurslara (pul, mülkiyyət, təbii resurslar və s.) nəzarət etdiklərinə görə güclüdürlər.

Material, insan, intellektual və maliyyə resursları üzərində nəzarətin dərəcəsi müəyyən bir insanlar/qurumlar/təşkilatlar tərəfindən müəyyənləşdirilir. Beləliklə də, bu resursların üzərində olan nəzarət gücün mənbəyinə çevrilir. Bu dinamika sosial, iqtisadi və siyası əlaqə şəklində fərdlər və qruplar arasında müşahidə olunur. Bu fərdlərin, qrupların təbii resurslar üzərindəki nəzarəti qeyri-bərabər paylanmışdır. Bu əlyetərlik və nəzarət fərdin sahib olduğu güclə təyin olunur. Gücün dayanıqlılıq dərəcəsi sosial stratifikasiyadan (gender, sinif, kasta və s.) asılı olur.

Güc səlahiyyətdən asılı olaraq müxtəlif cür anlaşıla bilər: bu ali və ya aşağı dərəcəli (dominantlıq/tabeçilik statusuna uyğun) ola bilər. Gücün dərəcəsi fərdin qərar qəbul etmə səlahiyyətinə, problem həll etmə qabiliyyətinə görə dəyişə bilər.

Bu güc kollektiv məqsədlərə çatmaq üçün ümumi məqsəd və anlaşmanı nəzarətdə saxlayır. Güc fərdlərdə özünə inamı, qətiy-

yəti və məqsədyönlülüyü təlqin edir. Fərdlərin təcrübələrini təhlil etmələrində, qətiyyətli olmalarında güc önəmli amildir.

**Patriarxallıq**. Patriarxal sözünün mənası ‘ata qaydası’ deməkdir. Gender araşdırmaları fənni daxilində bu elə bir sosial sistemə aiddir ki, orada kişilər qadınların üzərində dominantlıq edir. Kişi dominantlığı bir neçə yolla ifadə olunur – məsələn, ailə qurumu daxilində hüquqların çoxu kişilərə verilir, sahibkarlıq və resurslara nəzarətdə də kişilər daha çox dominantlıq edirlər.

Sosial və tarixi kontekstdə patriarxallığın müxtəlif formaları mövcuddur, çünki patriarxallıq elə bir sistemdir ki, o həm cəmiyyət tərəfindən formalaşır, həm də cəmiyyət onun tərəfindən formalaşır. Patriarxallıq müxtəlif icma, iqtisadi sistem şəklində fəaliyyət göstərir.

Patriarxal cəmiyyət elə bir cəmiyyətdir ki, bu cəmiyyət kişilər tərəfindən nəzarətə götürülür və yönəldilir. Qanunları kişilər təsbit edir, böyük qərarları onlar verir və ev, icma, biznes və dövlətdə öz dominant mövqelərini qoruyub saxlayırlar. Kişilərin qanunların qəbul olunmasındakı rolu böyükdür və onlar həm ailə daxilində, həm də ailədənkənar sferalarda dominantlıq edirlər. Belə cəmiyyətlərdə qadınlar kişilərin nəzarəti altında icraçı və köməkçi qismində (hər bir uğurlu kişinin arxasında bir güclü qadın var) fəaliyyət göstərirlər, uşaq dünyaya gətirirlər və ev işlərini yerinə yetirirlər. Əsrlərdir ki, əksəriyyət mədəniyyətlərdə bu, qeyd etdiyimiz şəkildədir.

XX əsrin əvvəllərində feministlər kişilərin qadınlar üzərində dominantlığın sosial təşkilini aydınlaşdırmaqdan ötrü patriarxallıq konsepsiyasından istifadə etmişlər. Patriarxal cəmiyyətin əsas ideologiyası bütün üstünlükləri kişilərə verməkdir. Patriarxal cəmiyyətə xas olan xüsusiyyətlər ondan ibarətdir ki, kişilər qüdrətli, azad fikirli, zəkalı, nə edəcəyini yaxşı bilən, ailənin qanuni mirasının sahibi, dominant, zorakı, qüdrətli, sirr saxlayandırlar və digər üstün keyfiyyətlərə sahibdirlər.

Beləliklə, patriarxal strukturda kişilər dominant statusdadırlar və birmənalı olaraq onların qərar verməyə absolyut əlyetərlikləri

vardır. Kişilər belə cəmiyyətlərdə yüksək gəlirlərə mənsubdurlar və bütün iqtisadiyyat üzərində nəzarətləri mövcuddur. Belə cəmiyyətlərdə kişilər zorakılıq, fiziki və ya mental gücləri sayəsində verdikləri qərarı həyata keçirə bilirlər. Belə cəmiyyətlərdə qadınlar kişilər tərəfindən yaradılan dünyanın kişi interpretasiyası vasitəsilə təqdim olunurlar. Əksər tarix kitablarında müharibə haqqında məlumat veriləndə, kişi qəhrəmanlardan bəhs edilir və qadınlar haqqında məlumat qıtlığı müşahidə olunur. Qadınların bu şəkildə təqdimatı onlar haqqında az məlumat almağımıza səbəb olur və bu onların rol model olmasına əngəl yaradır. Əslində matriarxal cəmiyyətlərdə qərarları qadınlar verir, icma liderləri qadınlar olur, ailə, icma və cəmiyyətin mərkəzində duran fiqur qadın olur. Nə patriarxal, nə də matriarxal cəmiyyətlər bəşəriyyətin tərəqqisi üçün adekvat hesab olunmur. İdeal cəmiyyət o cəmiyyət hesab olunur ki, burada genderinə görə fərdlər diskriminasiyaya məruz qalmırlar, insanlar bilik, bacarıq və səriştələrinə görə bir-birilərindən üstün ola bilirlər və verilən qərarlar paritetliyə söykənir. Belə cəmiyyətlərdə bərabərlik hökm sürür və qadın və kişilər bərabər hüquq və imkanlara sahib olurlar. Bu kimi cəmiyyətlər *eqalitar* cəmiyyət adlanır.

**Zəif cins?** Qadınlar uzun əsrlərdir ki, təbiətən kişilərdən zəif məxluq hesab olunurlar. Kişilər hesab edirlər ki, qadınların həm fiziki gücü, həm də intellektual səviyyəsi kişilərdən azdır və onlar heç bir zaman kişilər kimi ola bilməzlər və onlarin görgükləri işləri görə bilməzlər. Bir çox preindustrial cəmiyyətlərdə ev və məişət qayğıları qadınlara, daha "ağır" işlər, məsələn, ov etmək, kotan və xışla tarlada işləmək kimi tapşırıqlar isə kişilərə həvalə olunmuşdur. Onlar uşaq qayğısına qalmağı, ailənin xəstə və yaşlı üzvlərinə qulluq etməyi, ev yığışdırmağı, inək sağmağı və sairə işləri ağır iş hesab etmirdilər. Qadınları zəif məxluq hesab edənlərə bugünkü testlərlə yaxşı cavab vermək olar. Aparılan tibbi tədqiqatlara görə qadınlar kəskin bədən ağrılarına daha dözümlüdürlər, ağır xəstəliklərə müqavimət qabiliyyətləri daha yüksəkdir və daha uzun ömürlüdürlər.

Bəzən qadınların bioloji rolu kimi təqdim edilən analıq vəzifəsinə qadının əsas sosial rolu kimi də baxırlar. “Qadının yeri evdir” stereotipini formalaşdıranlar, bu ideyanı dəstəkləyənlər bununla da qadını yalnız özəl sektora qapatmaq istəyirlər.

Əlbəttə, bu gün əksər qadınlar öz həyatlarına özləri nəzarət etmək iqtidarındadırlar, çünki onların yüksək təhsil alma, təhsillərinə uyğun karyera qurma imkanları vardır. Onların ailədə uşaqlarının sayını əvvəlcədən planlaşdıra bilmə, onları uyğun qayğı mərkəzlərində yerləşdirib işə getmə imkanları onlara həm təhsillərində, həm də karyeralarında irəliləmə şansı verir. Xöşbəxtlikdən müasir dövrdə istehsalın elə bir sahəsini tapmaq olmaz ki, orada qadınlar özlərini sınamasınlar, uğur qazanmasınlar. 1960-cı illərin tədqiqatlarına istinadən onu demək olar ki, bu dövrdə Amerikada qızlar yuxarı siniflərlə müqayisədə aşağı siniflərdə daha çox uğur qazanırdılar. Müəyyən bir yaşdan sonra qızlar təhsil və karyeradan çox ailə qurmaq haqqında düşündükləri üçün onların məktəbdəki uğurları azalırdı. Lakin son dövrlərdə bu tendensiyalar dəyişməyə başlamışdır, çünki qadınlar gec ailə qururlar və karyeralarını möhkəmləndirməkdə israrlıdırlar.

Məlum olduğu kimi, keçmişdə qızlar bəlli bir yaşa qədər təhsil ala bilirdilər. Onların təhsili sistemli deyildi. Onlar yalnız oğlanların işi-gücü çox olan dövrlərdə məktəbə gedirdilər və müvəqqəti təhsil alırdılar. Əksəriyyət ölkələrdə, qızların sistemli təhsil ala bilmə imkanı XIX əsrin sonlarına gedib çıxır.

**Femininliyin meyarları**. Gender araşdırmaları fənninin öyrənilməsində bir sıra terminlərin izahına böyük ehtiyac vardır. Bunlardan biri olan femininlik, mədəni və sosial konstruksiya kimi qız və ya qadın mənasında anlaşılır. Femininliyin hansı xüsusiyyətləri vardır? Qızlar incə, qayğıkeş və təvazökar görünürlər və özlərini qurban verə bilmək dərəcəsində fədakardırlar, lakin əksər kişilərdə bu qabiliyyətlər yoxdur. Qız və qadınlar həmçinin fiziki görünüşlərinə - paltar, makiyaj və saçlarına çox önəm verirlər və gözəl görünmək üçün çox vaxt sərf edirlər. Qızlar erkən

yaşlarından gələcək ailələri barədə xəyal qururlar, necə ana, necə həyat yoldaşı olmaqları barədə çox düşünürlər. Əlbəttə, bu xüsusiyyətləri bütün qızlara qeyd-şərtsiz aid etmək düzgün olmazdı, çünki çox ciddi qızlar vardır ki, idman, biznes, elmdə uğurlar onlar üçün xarici görünüşlərindən qat-qat irəlidə gəlir. Bu qadınlar gec yaşlarında ailə qurmaq barədə fikirləşir və ya ümumiyyətlə, bəzən bu barədə heç düşünmürlər.

Bu terminin izahını belə də cavablandırmaq olar ki, qadınlıq bir şəxsin və onun ətrafında olan insanların onlar haqqında gözləntilərinə əsaslanan bir konstruksiyadır. Femininlik elə bir davranış xüsusiyyətlərinin toplusudr ki, qız və qadınlar cəmiyyətin ideal qız-qadın üçün nəzərdə tutduğu davranış xüsusiyyətlərinə sahib olmalıdırlar. Qızlar vaxtaşırı “qeyri-adekvat” davranışlarına görə danlanırlar, onun davranışını ideal hesab etdikləri hər hansı bir qızın davranışı ilə müqayisə edirlər.

Femininlik modeli müəyyən edilmiş bir sıra rollarla (qadınlıq və analıq) assosiasiya olunur, çünki hər bir gənc qız gələcəkdə hökmən hər hansı bir kişinin  həyat yoldaşı və övladının anası olacaqdır.

Sahibkarlar gənc qadını işə daha rahat qəbul edirlər, onlar düşünürlər ki, subay qızlar evə tələsmir, çünki onlar özlərini işə sərf etmək üçün kifayət qədər vaxta sahibdirlər. Hətta işləyərək təhsil alan gənc qızlar da *iş- şəxsi həyat balansı*nı qorumağı daha yaxşı bacarırlar.

Femininliyin ən mühüm meyarlarından biri də qadınların gündəlik həyatlarında çeşidli iş fəaliyyətlərini yerinə yetirə bilmək qabiliyyətidir. Onlar məişət işlərini də səliqə ilə yerinə yetirirlər, əmək fəaliyyətlərini də davam etdirirlər, könüllü kimi də çalışırlar, hətta hobbilərini də təxirə salmırlar. Başqa sözlə, qadınlar çoxsaylı işləri icra etmək qabiliyyətinə malik olsalar da, onlar üçün əsas ailə və uşaqlardır. Onların evlə, ailə ilə əlaqəli qabiliyyətləri seçdikləri peşədə də özünü göstərir. *Əsl qadın* o qadındır ki, o həm işi, həm də ailəsi üçün zaman ayıra bilir. Bu səbəbdən

də müəllimlik, tibb bacısı, sosial işlə bağlı peşələri çox vaxt qızlar seçirlər.

**Maskulinlik**. Maskulinliklə bağlı xüsusiyyətlər hansılardır? Oğlanlar fiziki cəhətdən güclü, bir az kobud, özünə əmin, qətiyyətli, tədbirli, aqressiv, adamla yola getməyən təsiri bağışlayırlar. Qızların əksinə olaraq onlar daha rasional və praktikdirlər. Lakin reallıqda bütün kişilər bu xüsusiyyətlərə malik deyillər, çünki mövcud olan fiziki fərqliliklərin bioloji səbəblərlə əlaqəsi yoxdur. Heç də gündəlik həyatda təsadüf etdiyimiz bütün kişilər qətiyyətli, tədbirli, rasional, praktik deyillər. Onların arasında kifayət qədər maskulinliklə uzlaşmayan emosional xarakterli və həssas olanları da var. Femininlik xüsusiyyətlərinə malik oğlanları (ev yığışdırmağa, səliqə-səhmana, bişirməyə meyilli) *ana uşağı* adlandırıb cırnandırlar. Qaranlıqdan qorxduğunu dilə gətirən oğlana dərhal güclü və cəsur olmalı olduğunu xatırladırlar. Bu rolları təlqin etməyin mahiyyəti nədən ibarətdir? Oğlanlardan gözlənilən bu xarakterləri hər an onlara xatırlatmaqda məqsəd nədir? Bu xüsusiyyətlər oğlan və ya kişinin ev üçün deyil, böyük dünya üçün yetişdirildiyi, ailə təminatçısı olduğu fikrini əks etdirir. O, utancaq, qorxaq deyil, sona qədər hədəfinə getməyi bacaran, qabiliyyətli olmalıdır. O, məhsuldar bir karyera əldə etmək üçün çalışmalı, faydasız, səmərəsiz işlərə vaxt sərf etməməlidir və çox ciddi bir iş sahibi ola bilmək üçün əlindən gələni etməlidir. Beləliklə, kişiliyin dəyəri onun maskulinliyi ilə, ailəsini təmin etməsi ilə ölçülür.

Maskulinliyin meyarlarından ən əsasları ailədəki qızlara, qadınlara nəzarət etməkdir. Bu nəzarət müxtəlif üsullarla həyata keçirilə bilər, məsələn, qardaşlar bacıların hara getdiyini, kiminlə görüşdüyünü soruşa bilərlər, hətta bacıların və ya qızların görüşdükləri kişilər xoşlarına gəlməsə, bu görüşə birbaşa və ya dolayısı ilə mane ola bilərlər. Onlar ailələrindəki qızın seçdiyi təhsilin növünə, təhsilin hansı pilləyə qədər olması məsələsinə də qarışa bilərlər. Böyük maliyyə ilə bağlı qərarların verilməsində onların

rolu daha böyükdür. Bu, o demək deyil ki, Amerikada yaşayan bütün kişilər maskulinliklə bağlı sadaladığımız bütün deyilən xüsusiyyətlərə malikdirlər.

Maskulinliyin ən əsas xüsusiyyətlərindən biri də ailənin təminatçısı olub ailənin maddi tələblərini yerinə yetirə bilməkdir. Heç də kişilərin hamısı xəstələnməməkdən, yaxşı gəlirli iş tapa bilməməkdən sığorta olunmamışlar. Bir çox ailələrdə hətta hər iki valideynin işləməsinə baxmayaraq, yenə də ehtiyacı ödəyəcək qədər pul qazana bilməyən ailələr vardır.

Ona görə də ideal femininlik olmadığı kimi, ideal maskulinlik də yoxdur. Ümumiyyətlə, cəmiyyətdə dixotamik şəkildə təlqin olunan femininlik/maskulinlik xüsusiyyətləri mütləq dərəcədə yoxdur. Belə tələblərə cavab verməyən qadın və kişilər cəmiyyət tərəfindən məqbul qəbul olunmur.

**Gender rolları və əlaqələr**. Gender rolları o rollardır ki, fərd öz genderinə uyğun sosial fəaliyyət göstərir. Bunlar da müxtəlif sosial, mədəni və tarixi kontekstlərdə fərqli olurlar və müxtəlif cəmiyyət, mədəniyyət, sinif, yaş dövrünə görə dəyişə bilərlər. Gender – spesifik rol və öhdəliklərə, resurslara olan əlyetərliklə, qlobal iqtisadiyyatın təsiri və digər yerli amillərlə (ekoloji şərait) şərtlənir.

Gender rolları mədəniyyət və cəmiyyət daxilində hüquq, öhdəlik qadın və kişilərin bir-birilərinə olan münasibətlərində formalaşan identifikasiya aspektləridir. Qadın və kişilər müxtəlif situasiya və şəraitlərə müxtəlif cür reaksiya verirlər, əlbəttə, bunlar bioloji xüsusiyyətlərə görə deyil, onlara təlqin olunmuş sosial və mədəni rollara görədir; ona görə də onların bilik və bacarıqları fərqlidir. Dünya bərqərar olduğu gündən cəmiyyətdə qadınla kişi arasında diferensiasiya mövcuddur və hər bir genderin özünün spesifik həyat tərzi, öhdəliyi və funksional sferası formalaşmışdır. Gender münasibətlərini məhdudlaşdırmaqda cəmiyyətdəki sosio-mədəni normalar böyük rol oynayır. Bu normalar sosio-mədəni mühitdə qadın və kişilərə bir-biriləri ilə münasibət qurmasına

yol göstərir və nəticədə bu gender-əsaslı gücün üzə çıxmasına gətirib çıxarır. Bu ailə daxilində daha aydın görünür, məsələn, ailədə çox vaxt qərar verən və ailə təminatçısı kişi, ailənin və uşaqların qayğısına qalan isə qadın olur. Belə güc bölgüsü kişi tərəfkeşliyi ilə müşayiət olunur, çünki kişinin həm maddi, həm hüquqi, həm də sosial rolu daha üstün olur. Nəzərdə tutulan atributlar, rollar və sosio-mədəni normalar davranış sxemini dizayn etməyə gətirib çıxarır. Bu normalara riayət etməyənlər cəmiyyətin standartlarına uyğun gəlmir və deviant (anormal) kimi görünür. Əksəriyyət cəmiyyətlərdə ailə sistemləri belə gender rollarına əsaslanan oxşar strukturun üzərində qurulur və nəzərdə tutulmuş bu strukturlu rollar ailə qurumunda ailə üzvlərini öz öhdəliklərini ciddi şəkildə yerinə yetirməyə məcbur edirlər.

Gender rolları cəmiyyət və mədəniyyətə uyğun da ola bilər, fərdi də ola bilər. Bütün bunlar cəmiyyət kontekstində qadın və kişiləri necə düşünmək, necə danışmaq, necə geyinmək və necə əlaqə saxlamaq üçün tənzimləyir. Müxtəlif sosial qurumların insanlara təlqin etdikləri normalar gender rollarının formalaşma prosesinə əhəmiyyətli şəkildə təsir edir. Müxtəlif sosial agentlər – valideyn, müəllim, tay-tuş, şəxsi təcrübə, incəsənət, dil, din və s. gender rollarını təlqin edir və gücləndirir. Düzdür, sadalananlardan ən cox valideynlərin təsiri olur. Gender rolları bir qrup insan tərəfindən mənimsənilir və həmin qrup buna assimilyasiya olur və cəmiyyət də bu qrupun təsirinə məruz qalır. Ümumilikdə, cəmiyyətdə qadın və kişi müxtəlif amillərin təsiri altında olur. Bu amillər regionun, mədəniyyətin, coğrafi şəraitin, iqlimin, tarixi dövrün, ideologiyanın və təcrübələrin təsiri ilə dəyişir.

**Siyasi azadlıq uğrunda mübarizə və feminist hərəkat**

**Struktural funksionalizm (və ya fuksionalizm) və gender rolları**. Funksionalistlər cəmiyyəti həmrəyliklə stabilliyi əldə saxlaya bilən bir kompleks sistem kimi görürlər. Bu yanaşmaya görə, cəmiyyət sosial sistem kimi strukturlardan ibarətdir və bu strukturların öz funksiyaları var. Bu yanaşma ilə cəmiyyətə

makro səviyyəli bir istiqamətdə baxılır və cəmiyyəti bütövlükdə formalaşdıran sosial strukturlara diqqət yetirilir. Bu nəzəriyyəyə görə ki, gender bərabərsizliyində pis bir şey yoxdur və bu, əməyin bölünməsi üçün effektiv bir yol kimi mövcuddur. Belə ki, əhalinin bir qismi müəyyən bir işi yerinə yetirmək üçün məsuliyyət daşıyırsa, digər qismi də başqa bir işi yerinə yetirmək üçün məsuliyyət daşıyır. Feministlərə görə, funksionalistlər qadının ailə daxilində istismar olunmasına laqeyd qalırlar.

Funksionalistlərə görə, gender rolları əməyin bölünməsi zərurətindən formalaşmışdır, çünki əməyin genderə görə düzgün bölünməsi stabil ailə və stabil cəmiyyətin təməlini qoyur. Elə bu səbəbdən də, qızlar və oğlanlar özlərinə uyğun işləri görə-görə gender rollarına sahib olurlar və həyata baxışlarını formalaşdırırlar. Oğlanlara məqsədyönlü şəkildə instrumental rollara sahib olma təlqin olunur və onlar cəmiyyətin ictimai strukturuna köklənərək tərbiyə olunurlar. Qızlar isə daha ekspressiv olurlar və digərlərinə qarşı emosiyalarını aydın ifadə edirlər. 1950-ci illərdə Parsonz və Şrill ailələrin stabil qalmasında kişilərin "instrumental rolu"nu (çörək pulu qazanmaq) və qadınların "ekspressiv rolunu" (ailəni bir arada saxlamaq) yüksək qiymətləndirirlər. Hər iki valideyn işləmək məcburiyyətində qalarsa, onların arasında rəqabət yaranar və ailədə nizam və stabillik pozular. Əməyin genderə görə bölünməsi hər zaman mövcud olmuşdur və onlara görə bundan təbii heç bir şey ola bilməz (Parsons T., 1955: 23).

Bir çox hallarda, funksionalistlər gender rolları, gender bərabərliyi haqqında irəli sürdükləri fikirləri əsaslandıra bilmirlər. Onların gender bərabərliyi haqqında iddiaları 1950-ci illərin reallıqlarına əsaslanırdı və gender bərabərliyinin fuksionalist perspektivi elə o zamanların məhsulu idi. Onların fikirlərindən fərqli olaraq, həmin dövrdə də reallıq ondan ibarət idi ki, çoxsaylı qadın həm ailə qayğıları ilə məşğul olurdu, həm də ödənişli işlərdə çalışırdılar. İş tapa bilmədiklərinə görə evdə oturan kişilər də bu müddətdə uşaqlarına qayğı göstərir, ev işlərində ailə üzvlərinə

kömək edirdilər. Funksionalistlərin gender rolları haqqında söylədikləri fikirlər postindustrial cəmiyyətdə özünü doğrultmurdu və heç də iddia edilən stabillik onların dediyi kimi gender rolların ənənəyə uyğun bölünməsi səbəbinə görə deyildi.

Funksionalizm və ya struktural funksionalizmə görə cəmiyyətin bütün elementləri bir-biriləri ilə sıx əlaqədardır, insanlar edilən dəyişikliklərdə çox ehtiyatlı olmalıdırlar, çünki cəmiyyətdəki hər hansı bir elementin dəyişdirilməsi bu cəmiyyətdə əsrlərlə bərqərar olan sabitliyi, harmoniyanı zədələyə bilər. Funksionalistlər cəmiyyətin stabil qalmasında əhəmiyyətli rolu olan əsas elementləri müəyyənləşdirmək istəyirlər, çünki əsas sosial ehtiyacların düşünülmüş şəkildə qarşılanması cəmiyyətin başlıca elementlərinin funksiyasına təkan verir. Sosial stabillik, tarazlıq üçün cəmiyyətin hər bir elementinin yeri və rolu var. Onlara görə, yalnız ictimai nəzarətin mexanizmləri effektiv və səmərəli fəaliyyət göstərdiyi halda, cəmiyyətdə tarazlıq mövcud ola bilər. Sosial nəzarət və stabillik o zaman dayanıqlı olur ki, insanlar arasında konsensus mövcuddur və onlar ümumi inam və dəyərləri bölüşürlər. Bu xüsusiyyətlər sosial dəyişikliklərə mane olmaq üçün ən əsas elementlərdir. Bu nəzəriyyənin dəstəkləyicilərinə görə, gender rollarında, evlilikdə, ailədə sosial tarazlığın pozulmaması çox önəmlidir.

Funksionalizmə görə, cəmiyyət bütöv şəkildə o zaman stabilliyi, harmoniyanı saxlaya bilər ki, burada cəmiyyətin norma və ənənələrini əlində əsas tutan mövcud qurumlar müştərək fəaliyyət göstərsin. Herbert Spenserin təbirincə, insanın "bədən"inin fəaliyyəti, onun "orqanlar"ının necə fəaliyyət göstərməsindən çox asılıdır.

1940-cı və 1950-ci illərdə gender bərabərsizliyini funksionalist perspektivdən formalaşdıran ən məşhur sosioloqlardan biri də Talkot Parsonsdur (1902-1979, ABŞ). Talkot Parsons struktural funksionalist məktəbin yaradılmasında əsas fiqurlardan hesab olunur. Onun çox maraqlı nyuklear ailə modeli var idi. Onun

fikrincə, ailədəki əmək bölgüsündə gender bərabərsizliyini təbii qəbul etmək lazımdır, çünki ailə üzvlərinin hər birinin fərqli vəzifəsi vardır. Belə bölgü ailənin stabilliyinə xidmət edir və gender rolları tamamlayıcı xarakter daşıyır: qadın ev-eşiyə görə, kişi ailənin təminatına görə məsuliyyət daşıyır. Bununla da, gender digər sosial qurumlar kimi, cəmiyyətin bütövlükdə stabilliyinə təkan verir.

Funksional prerekvizitlər (qida, sığınacaq, geyim və pul) sosioloji tədqiqatda ən çox önəm verilən elementlərdir, çünki bunlar olmadan fərd yoxsulluq xəttindən yuxarı qalxa bilmir. Funksional prerekvizitlərin mövcudluğu üçün cəmiyyət sosial nizamı saxlamalıdır.

Funksionalistlərə görə əməyin genderə görə bölünməsi ənənəsi saxlanılmalıdır, çünki bundan ən çox cəmiyyət faydalanar.

**Qadın hərəkatı və feminizmin inkişafı**. Feminizm yeni bir nəzəriyyə olmaq etibarı ilə eyni zamanda, “hüquq bərabərliyi, insanlıq şərəfi və qadınların müstəqil qərar vermə haqqı” əldə etmək məqsədilə meydana gələn siyasi hərəkatdır. Feminizm hərəkatının aparıcı qüvvələri qadınların genderinə görə diskriminasiyaya məruz qalma halları ilə barışmır və cəmiyyətdə hər iki genderə eyni cür dəyər verilməsi üçün mübarizə aparırlar.

Feminizm ilk dəfə sosial filosof Çarlz Furye (1772-1837) tərəfindən gündəmə gəlmişdir. İlk dəfə olaraq o, qadınların müstəqilliyinin mümkünlüyü barədə fikirlər irəli sürmüşdür.

XIX əsrin sonlarında bir çox Avropa ölkələrində, Amerika və Avstraliyada feminizm və qadın hərəkatının ilk dalğası başladı. Bu hərəkatın başlanmasına səbəb qadınların kişilərlə yanaşı siyasi bərabərliyə nail ola bilmə və istədikləri ixtisası seçərək arzu etdikləri universitetlərdə təhsil ala bilmə hüququnu əldə etmə ehtiyacından irəli gəlirdi. Bunun təsiri bir çox ölkələrə də keçdi və bu, kütləvi hal aldı. Bir çox ölkələrdə (Almaniya, Sovetlər Birliyi, Böyük Britaniya) qadınlara ilk dəfə olaraq seçki hüququ verildi. Qadınların səsvermə hüquqları ölkələr və illər üzrə aşağıdakı kimidir:

| **Ölkələr** | **İllər** | **Ölkələr** | **İllər** |
|---|---|---|---|
| Yeni Zelandiya | 1893 | Hindistan | 1950 |
| Avstraliya | 1902 | Kolumbiya | 1954 |
| Finlandiya | 1906 | Malaziya, Zimbabve | 1957 |
| Norveç | 1913 | Əlcəzair | 1962 |
| Danimarka | 1915 | Iran, Mərakəş | 1963 |
| Kanada, Rusiya | 1917 | Liviya | 1964 |
| Avstriya, Almaniya, Polşa, Rusiya | 1918 | Ekvador | 1967 |
| Hollandiya | 1919 | İsveçrə | 1971 |
| ABŞ, SSRİ-inin bəzi respublikaları | 1920 | Banqladeş | 1972 |
| İsveç | 1921 | İordaniya | 1974 |
| Britaniya, Irlandiya | 1928 | Portuqaliya | 1976 |
| İspaniya | 1931 | Namibiya | 1989 |
| Türkiyə | 1934 | Qərbi Samoa | 1990 |
| Fransa | 1944 | Cənubi Afrika | 1994 |
| Italiya | 1945 | Küveyt | 2005 |
| Argentina, Yaponiya, Meksika, Pakistan | 1947 | BƏƏ | 2006 |
| Çin | 1949 | Saudiyyə Ərəbistanı | 2011 |

Bəzi ölkələrdə hələ də qadınların səsvermə hüquqları yoxdur. Yəmən, Livan, Hindistanın bəzi bölgələri (səbəb kimi bu bölgələrdə yolların təhlükəli olduğu göstərilir), Vatikan Siti və s.

İngiltərə və ABŞ-da burjua cəmiyyətin hüquq sisteminin formalaşması tarixi ənənələrə təkan verdi. Əvvəllər ər və arvad arasında oturuşmuş qanunlar mövcud idi: Ərə gedəndən sonra qadın nəinki əri ilə bərabər siyasi hüquqa iddia edə bilməzdi, o hətta öz vətəndaşlıq hüququnun saxlanılmasını (əgər onun vətəndaşlığı ərininkindən fərqli idisə), mülkiyyətini və ödənişli işdə çalışmaq haqqını itirirdi. Məhz bu səbəblər qadın hərəkatın bir sıra ölkələrdə baş qaldırmasına təkan oldu.

**Siyasi bərabərlik uğrunda mübarizə**. Feminizmə görə, gender bərabərsizliyinin kökündəki haqsızlıq ondan ibarətdir ki, qadın və kişilərin mülki hüquqlara, yəni müəyyən sosial resurslara, təhsilə, iqtisadiyyata, siyasətə, iş yerlərinə olan əlyetərliyi qeyri-bərabərdir.

Qadın hərəkatının təkanverici qüvvələrindən hesab olunan Meri Votistonkraft "*Qadınların hüquqlarının müdafiəsi*" (1792) adlı kitabında hüquqsuz qadınların vəziyyətini dərindən təhlil edir, onların zəifliyinin və az inkişafının səbəbini müasir tərbiyə sistemində görür. Müəllif bunu aşağıdakı kimi tənqid edir: "Erkən uşaqlıq dövründən qadınlara özlərini necə aparmaq öyrədilir və qızlar bütün bunları anaların timsallarında görürlər; onların sözəbaxan, yumşaq xarakterli görünmələri və bicliyi uğurlu tətbiq edə bilmə bacarıqları sonda kişilərin onlara boyun əymələri ilə nəticələnir". Yəni qadınların ikili standartlarla yaşamalarına əslində kişilər rəvac verirlər.

Elə həmin dövrlərdə Fransada Olimpiya de Quj "Qadınlar və qadın vətəndaşlar haqqında deklarasiya" (1791) adlı əsərini yazır. Müəllif öz əsərində göstərir ki, qadınların vətəndaş azadlıqlarından istifadə edə bilmə və ölkə idarəetmə bacarıqları heç də kişilərinkindən az deyil. Buna reaksiya müəllif üçün faciəvi olur və sonda Fransa kral ailəsi onun üçün ölüm hokmü verir.

XIX əsrin sonu və XX əsrin əvvəli feminizmin *birinci dalğası* dövrü adlanır. Bunların ən bariz nümayəndələri sufrajistlər idilər ("*suffrage*" ingilis sözüdür, mənası səsvermə deməkdir) və onlar bütün mübarizələrini qadınların səsvermə hüququ qazanmaları istiqamətində aparırdılar. Bu hərəkatın aktivləri İngiltərədə Harriet Teylor, Marqaret Fuller, Harriet Martini, Amerikada Elizabet Kedi Stanton, Susan Bronel Antoni və Lukresiya Mott idilər. Onlar iddia edirdilər ki, əgər qadınların da hüquqları kişilər qədər olsa, o zaman qadınlar kişilərdən daha az asılı olarlar və bu asılılıq tədricən aradan qalxar. Bu da bütünlükdə cəmiyyətə böyük fayda verər.

Feministlər ilk sənəd kimi 1848-ci ildə Seneka-Folzda (Nyu-York) öz proqramlarını qəbul etdilər və ona "Hisslərin deklarasiyası" adını verdilər. Bu proqramda, o dövrdə ABŞ-dakı ədalətsiz vəziyyət xüsusi qeyd edilirdi, qadınların ağır vəziyyətə düşməsi gündəmə gətirilirdi. Bir növ ailə quran qadınlar üçün vətəndaşlıq anlayışı yoxa çıxırdı, öz əmək haqqını alma hüququ qalmırdı, təhsil alma imkanları olmurdu, çünki ailə quran qadınların üzünə bütün kollec və universitetlərin qapısı bağlanırdı. Deklarasiya Amerika Konstitusiyasının mətnini apelyasiyaya verdi, bununla da bəyan etdi ki, vətəndaşların hüququ təkcə kişilərin hüququndan ibarət deyil, ora qadın hüquqları da daxil edilməlidir (Попкова Л., 1999).

**Feminizm**. Yeni ictimai təzahürün - qadınların siyasi hüquqlarının müdafiəsi hərəkatının baniləri fransalı Olimpiya de Quj, ingiltərəli Meri Volstonkraft, amerikalı Abiqay Adamzdır. Feminizmin ilk sənədi 1790-cı ildə Olimpiya de Quj tərəfindən yazılan "*Qadınlar və qadın vətəndaşlar haqqında deklarasiya*" əsəri olmuşdur.

Hər şeydən əvvəl feminizmin mahiyyətini aydınlaşdırmaq lazımdır. Feminizm qlobal ideya kimi o deməkdir ki, qadın və kişilər eyni cür imkana, hörmətə və sosial hüquqlara malikdirlər. Feminizm qadın-kişi ayrı-seçkiliyinə qarşı çıxaraq cinslər arasın-

dakı siyasi, iqtisadi və ictimai bərabərliyi müdafiə edən bir yanaşmaya sahib olmaqdır. Onlar gender bərabərliyi zəminində qadınların vəkilidirlər. Ümumilikdə isə, feministlər o insanlardır ki, genderinə görə hər növ diskriminasiyanın əleyhinədirlər və buna son qoymağı tələb edirlər. Feministlərə görə, tarix boyu əksər cəmiyyətlərdə kişilər qadınlardan daha çox hüquqa malik olmuşlar.

Feminizmin əsas tənqid hədəfi, qadının cəmiyyət tərəfindən kişidən az qiymətləndirilməsi məsələsi olmuşdur. Sinfindən, irqindən, millətindən və dinindən asılı olmayaraq, dünyanın hər bir yerində qadınlar az, ya çox bu problemlərlə qarşılaşırlar. Tarixin daha əvvəlki dövrlərində az qala insan kimi qəbul olunmayan qadınlar, ilk dəfə XVII əsrdə İngiltərədə öz haqq səslərini yüksəltməyə başladılar. Feminizmdən bəhs edən ilk sanballı əsər Meri Volstonkraftın XVIII əsrdə yazdığı “Qadın hüquqlarının müdafiəsi” adlı kitabdır və həmin əsərdə müəllif qadınların da təhsil, hüquq və siyasət sahələrində kişilərlə eyni hüquqlara sahib ola bilmə fikrini irəli sürür. Volstonkraftın yazdığı bu kitab bir çox inqilabi hərəkatlara təkan verdi. Müəllif əsərdə qızlarla oğlanların bərabər təhsil almaq imkanlarına mane olan burjualara qarşı mübarizə aparan fransız inqilabçılardan bəhs edir. Ona görə, qadınların ev işinə məhkum edilməsi, qadın potensialından istifadə edilməməsi onlara qarşı işlədilən ən böyük günah idi. Volstonkraftın o illərdə bəhs etdiyi fikirlərin bir yarım əsr sonra yenidən gündəmə gəlməsi qadın hüququ uğrunda mübarizəni reallaşdırdı.

Bəzən “feminist” sözünün mənasını yanlış anlayırlar və bəzilərinə görə_feministlər çox acıqlı, kişiləri gözü götürməyən, onları sevməyən qadınlar kimi qiymətləndirirlər. Lakin bu stereotipləşmiş məna ilə reallıq arasında çox böyük fərq vardır. Bunları daha aydın dərk etməkdən ötrü ilk növbədə dünyada çox yayılmış feminizm növlərindən bəhs etmək yerinə düşərdi.

**ABŞ-da səsvermə uğrunda mübarizə - feminizmin ilk dalğası**. Real qadın hərəkatı yalnız XVIII əsrdə Fransada Böyük Fransa İnqilabı (1789), Şimali Amerikada isə müstəqillik uğrun-

da mübarizə (1775-1783) zamanı başlanır. Feminizm hərəkatı ilk dəfə ABŞ-da (feminist hərəkatı ilə eyni vaxtda) hələ Amerika inqilabı dövründə, qadınlara tam vətəndaşlıq hüquqları verilməsi tələbləri irəli sürülmüşdü (1775). 1824-cü ildə Frensis Rayt İngiltərədən Amerikaya gəlir və burada qadın hüquqları və köləliyinin ləğvi uğrunda mübarizə kampaniyası aparır.

Beləliklə, ilk dalğa "liberal feminizm" şüarı ətrafında toplanan səsvermə, təhsil, mülkiyyət huququ tələblərini əhatə edən dövrdə başlayır. Liberal feministlərə görə, məhz patriarxal quruluş qadına haqq və azadlıqlarını hüquqi çərçivədə vermir. Liberal feminist yazıçılarından hesab olunan Votistonkraft qadınla kişi arasında elə də böyük bir fərqin olmadığını və mövcud patriarxal quruluşun onların arasında bərabərsizlik yaratdığını qeyd edir. Ona görə, cəmiyyətdə əsl bərabərsizlik yaradan səbəb elə qadınların mükəmməl təhsilə əlyetərliklərinin az olmasıdır.

Avropanın bəzi yerlərində az da olsa, mülk sahibi olan qadınların səsvermə hüququ var idi, qalan qadınların səsvermə hüququ yox idi. Bəzi yerlərdə qadın səsvermə hüququna sahib olmaqdan ötrü mütləq ərdə olmalı, bəzən ərdə olmaq da kifayət etmirdi, qadının əri mal-mülk sahibi olmalı idi. Əslində, yalnız ağdərili qadınlar səs verə bilərdi, lakin məlum olduğu kimi hətta əksər ağdərili qadınların da səsvermə hüququ yox idi. Amerikada isə yalnız qaradərililərin və qadınların səsverməsi qadağan idi. Sonralar, bu vəziyyət dəyişdi, qullar azad oldular və qaradərili kişilərə səsvermə hüququ verildi. Qadınların parlamentə seçilmə şansı, demək olar ki, yox səviyyəsində idi.

İlk qadın hüquqları konvensiyası 1848-ci ilin iyulunda Seneka Folzda (Nyu-York) baş tutdu. Müstəqillik Deklarasiyasından sonra Elizabet Kedi Stanton tərəfindən yazılmış yeni deklarasiya cəmiyyətə təqdim olundu. Deklarasiyada qeyd olunurdu ki, "bütün kişi və qadınlar Tanrı tərəfindən bərabər yaradılmışdır" və "bəşəriyyət tarixi ədalətsizlik və zorakılıqla doludur ki, bunlar da əsasən qadınların payına düşmüşdür." Bir çox narazılıqlarla dolu

olan siyahıda sonda bərabər hüquq, bərabər təhsil, əmək sahəsində bərabər imkan və səsvermə hüququ yer almışdı.

ABŞ-da qaradərililərə verilən azadlıqdan sonra qadınlar düşünürdülər ki, növbəti qanun qadınlara verilən səsvermə hüququ olacaqdır, təəssüf ki, 1868-1870-ci illərdə Konstitusiyanın düzəlişində yalnız qaradərililərə vətəndaşlıq hüququ verildi. Bundan narazı qalan qadınlar 1869-cu ildə qadın hüquqları uğrunda hərəkata başladılar. Qul hərəkatında vəkil qismində olan Ellizabet Kedi Stanton və Susan Antoni Nyu-Yorkda Milli Qadın Sufrajist Assosiasiyasını yaratdılar.

Eyni zamanda Lusi Ston da Bostonda Amerika Qadın Sufrajist Assosiasiyasını (AQSA) yaratdı. Lusi Stonun yaratdığı təşkilat qadın-sufrajist hərəkatının qəbul etdiyi düzəlişin Federal Konstitusiyaya əlavə olunmasını təkid edirdi və AQSA bunu bütün ştatlarda təbliğ etməyi öz öhdəsinə götürmüşdü. 1890-cı ildə ayrı-ayrılıqda eyni missiyanı yerinə yetirən iki təşkilat - Milli Qadın Sufrajist Assosiasiyası (MQSA) və AQSA - Milli Amerika Qadın Sufrajist Assosiasiyası adı altında birləşdi. Lusi Ston icraçı komitənin sədri, Elizabet Keidi Stanton bu təşkilatın ilk prezidenti oldu. Daha sonra Keri Çepman Katt və Anna Houard Şo təşkilatın prezidentləri seçildilər.

Qadın bərabərliyi uğrunda azadlıq mübarizəsinin sələfləri Elizabet Stanton və Susan Antonidir. 1851-ci ildə Stanton məşhur abolişinist (qul olmağa qarşı mübarizə aparanlar) Susan B. Antoni ilə əməkdaşlıq etməyə başlamışdır. Yaradılanda iki nəfərdən ibarət olmalarına baxmayaraq, sonradan böyük bir komanda şəklində fəalliyyət göstərdilər. Qadın hərəkatının təşkilatçılığında və biznes işlərində daha bacarıqlı Antoninin fəaliyyətini səliqə ilə qələmə alan Stanton, mübarizə dövründə sənədləşmə işləri ilə məşğul olurdu. Onlar birlikdə 1868-ci ildən 1870-ci ilə qədər "Revolution" adlı qadın qəzetini də nəşr edirdilər. Bu iki qadın ABŞ-ın bütün ştatlarını qarış-qarış gəzir və qadın hərəkatını gücləndirmək istiqamətində işlər görürdülər.

Uzun illər fasiləsiz fəaliyyətlərinə rəğmən, Bərabər Hüquqlar haqda düzəliş ratifikasiya olunmadı. Əsası 1848-ci ildə Seneka Falzda qoyulan, çoxu qadınlardan ibarət abolişinist fəallar qrupunun qarşısında duran əsas vəzifə qadın hüquqları uğrunda mübarizə idi. Düzəlişin ratifikasiya olmasında çətinliyin səbəbini sıralarındakı savadlı qadınların az olmasında görən abolişinist fəallar qrupu daha sonrakı dövrdə qadın sufrajist hərəkatının uğuru üçün dəstəyi gücləndirmək qərarına gəldilər və bu istiqamətdə ABŞ-ın bütün ştatlarında təbliğat aparmağa başladılar.

Səsvermə uğrunda başlayan mübarizə yolu uzun və məşəqqətli idi. 1869-cu ildə Vayominq ərazisində, 1870-ci ildə Yutah ərazisində, 1893-cü ildə Kolorado ştatında, 1896-cı ildə Aydaho ştatında qadınlara səsvermə hüququ verilsə də, ABŞ-ın Cənub ştatlarında qadınlara səsvermə hüququna qarşı ciddi müqavimət var idi. 1878-ci ilə qədər qadın-sufrajist hərəkatının təklif etdiyi düzəliş dəfələrlə Federal Konstitusiyaya, Konqresə təqdim olundu və hər dəfə də bu qanun qəbul olunmadı.

Amerika qadınlarına bu hüququ qazanma şansı yalnız ABŞ-ın o illərdəki prezidenti Vudru Vilsonun dəstəyi ilə mümkün oldu. Nyu-York 1917-ci ildə qadınların səsvermə hüququnu tanıdı, ABŞ prezidenti Vudru Vilson bu hüququ dəstəklədi və vəziyyət qadınların xeyrinə dəyişməyə başladı. 1919-cu il 21 mayda, düzəliş Nümayəndələr Palatası tərəfindən qəbul olundu və iki həftə sonra Senatlıqda da bu istiqamətdə proses başladı. 1920-ci il 18 avqustda ratifikasiya olunmuş Amerika qadınlarına səsvermə hüququ ABŞ Konstitusiyası tərəfindən qəbul olundu. Nəhayət ki, ABŞ-da dövlətin kişilərə verdiyi bütün hüquqlardan qadınlar da bəhrələnə bildi.

**Qərbdə feminist siyasi ideyalar - II dalğa.** *İkinci dalğa* XX əsr 60-cı illərin əvvəllərindən 70-ci illərin sonlarına qədər davam etmişdir. Bu dalganın başlamasında və ideologiyasının yayılmasında Simone de Bovuarın çox böyük təsiri olmuşdu. Müəllif "İkinci cins" adlı üç cildlik əsərində yazır: "qadınların qurtulu-

şu onların qarınlarından başlayır". Sonralar onun məşhur kəlamı "*Qadın qadın kimi doğulmur, onu cəmiyyət qadın edir*" feminist qadınların əsas şüarına çevrilmişdi.

Bu hərəkat ABŞ-da, Fransada və digər Avropa ölkələrində tələbələr tərəfindən, daha doğrusu, radikal feminist tələbə qrupları tərəfindən başlamışdır və radikal feminizm bir-biri ilə ziddiyyət təşkil edən bir neçə qrupa bölünmüşdü. Bu qruplar arasında fərq ondan ibarət idi ki, onlar qadınlar üçün sadəcə azadlıq tələb etmirdilər. Bu qrupları birləşdirən cəhət, onların hamısının bütün cəmiyyətə *müharibə* elan etməsi idi. Radikal feministlər mövcud cəmiyyəti *kişilər tərəfindən yaradılan kişi cəmiyyəti* adlandırırdılar.

Qərbdə feminizm hərəkatının "*ikinci dalğa*"sına start verilmişdi və artıq söhbət təkcə təbii hüquqlardan deyil, qadınların sosial (əmək, təhsil, siyasət və s.) hüquqlarından gedirdi.

*İkinci dalğa* feminizminə görə də cəmiyyətdə dominantlıq edən sistem təkcə açıq zorakılıqdan istifadə etməklə kifayətlənmirdi, bəzən bu sistem cəmiyyətin əsas *qurumlar*ında (ailə, nikah, məhəbbət və s.) gizli şəkildə insan azadlığına qarşı zorakılıq halları tətbiq edirdi. Radikal feminizmin ideologiyasının *sistemi* rolunda patriarxat (belə patriarxatlıq müxtəlif sosial mexanizmlərdə özünü büruzə verir) əsas fiqur hesab olunur, bütün kişilər qadınlar üzərində ağalıq edirlər. Radikal feminizm faktiki olaraq *cins* və *sinfi* eyniləşdirir, lakin Roksana Danbarın fikrinə görə, cins tamamilə iqtisadi siniflə üst-üstə düşmür – bu *kastadır*, yəni "insanın doğulandan mənsub olduğu və çıxa bilmədiyi sosial kateqoriya görünüşüdür" (Dunbar R., 1971:183). Kişilərə *düşmən*, *istilaçı*, *istismarçı* adı verilir və onlarla olan hər hansı bir münasibətə *kollaborasionizm* (düşmənlə əməkdaşlıq) kimi baxılır. Liberal feministlərdən fərqli olaraq, özünəməxsus xüsusiyyətlərə malik olan kişi və qadınların anlaşması da daxil olmaqla, aksent insanların oxşarlığının üzərinə deyil, fərqliliyinin üzərinə qoyulur. *Qırmızı corablar* qrupu öz manifestlərində belə yazırlar: "Ki-

şilər öz üstünlüklərindən istifadə edib, iqtisadi, seksual və psixoloji xeyirlərini əldə edirlər...”

II dalğa feminist hərəkatın əsas tələblərindən biri də reproduktiv azadlıq idi ki, onlar ailə planlaşdırılmasının önəmini qabardaraq dövlətdən aborta icazə verilməsini tələb edirdilər, çünki qeyri-leqal abort nəticəsində ABŞ-da minlərlə qadın həyatını itirirdi. Beləliklə, 1973-cü ildə ABŞ-da abortun leqallaşmasına dövlət səviyyəsində baxıldı və icazə verildi. Ümumiyyətlə, abortun leqallaşması məsələsinə ABŞ-da heç də birmənalı baxmırdılar və bunun əleyhinə çıxanlar arasında təkcə kişilər deyil, qadınlar da var idi. Onlar abortla deyil, başqa qoruyucu vasitələrlə ailə planlaşdırılmasına nail olmağı daha məqbul hesab edirdilər. Hazırda da ABŞ-ın müxtılif ştatlarında abortla əlaqəli fərqli qanunlar mövcuddur.

Feministlər ABŞ Konstitusiyasında Bərabər hüquqlar haqqında düzəlişi (Equal Rights Amendment) qəbul etdirməyə cəhd göstərsələr də, Konqresdə bu qəbul olunmadı (Hansen, Karen Tranberg and Philipson, Ilene J., 1990).

**Feminizm - III dalğa**. Ikinci Dünya müharibəsindən sonra feminist hərəkat yenidən fəallaşır. “Qadın dirçəlişi” 60-cı illərə təsadüf edir. Onun mərkəzi məhz o vaxtlar demokratik proseslərin canlanması ilə seçilən ABŞ-a keçir. Bu dövrdə feminist hərəkatın tərəfdarları patriarxal mədəniyyəti tənqid atəşinə tutur, genderlər arasındakı bütün mövcud sosial münasibətlər sistemini dəyişməyə çağırışlar edirlər.

1963-cü ildə işıq üzü görmüş “Qadınlığın mistikası” adlı kitab (B.Fridand) qadınların mübarizəyə qoşulmasına və aktivləşməsinə qüvvətli təkan verdi. Bu kitabın əsasını sosioloji tədqiqatlar təşkil edirdi. Kitab təbliğat maşını tərəfindən yaradılmış ideal burjua ailəsini, amerikasayağı qadın xöşbəxtliyini və istehlakçı – qadın stereotipini tamamilə ifşa edirdi.

1970-ci illər və sonrakı dövrdə bu dalğanın feministləri ilə ikinci dalğa feministləri arasında narazılıqlar başlandı. 1970-ci

illərdə bütün Qərb universitetlərində qadın və yaxud feminist tədqiqat mərkəzləri yaradılır, elmə yeni "gender anlayışı" gətirilir. Feminist xarakterli problemlərin həllinə yönəlmiş elmi araşdırmaların inkişafı, əhatə dairəsi daha geniş olan yeni məzmunlu, yeni xarakterli elm sahəsinin təşəkkülünə yol açır.

Məlum olduğu kimi 1980-ci illərin axırlarında Qərbdə Qadın araşdırmaları elmi "Gender araşdırmaları" adı altında müstəqil elm sahəsi kimi fəaliyyət göstərirdi.

Simona de Bovuarın ekzistensialist (azad seçim sahibi olan fərdin özünü tənzimləyən agent kimi unikal mövqeyə sahib olması) çərçivədə irəli sürdüyü "qadınları nə üçün ikinci cins hesab edirlər?" sualı da, bu feminist cərəyanın yaranmasında böyük əhəmiyyət daşımışdır. Postmodernist feminizm, ekzistensializmin təsiri altında, qadın probleminə yanaşmağı təklif edirdi. Bu nəzəriyyə qadınlarla bağlı ümumiləşdirici fərziyyələr əvəzinə, fərqlilikləri önə çıxarmağı təklif edir, yəni bir cür femininlik deyil, çeşid-çeşid femininlikdən bəhs edir. Ekzistensializmə görə, poststrukturalizm və psixoanalizin təsiri ilə yaranan fransız feminizmi də feminizmin "postmodern" dövrünə təsadüf edir. Bu mütəfəkkirlərin başında Culiya Kristeva, Lyus İriqarey və Helen Sikus durur. Bu üç fransız feminist tədqiqatçı, qadının ikinci dərəcəli statusunun iqtisadi, siyasi strukturlardan deyil, dilin özündən qaynaqlandığını iddia edir.

1960-cı illərdə qadın hərəkatında ekstremist qanadın nümayəndələri əks genderə yəni, kişilərə nifrət təbliği kompaniyası ideyası üzrə iş aparırdılar. Onlar keçmiş matriarxal cəmiyyətdən fərqli olaraq, ərə getmir, qüvvətli "cinsin"- kişilərinə heç bir sahədə tabeçiliyi qəbul etmir və bunu qəti surətdə rədd edirdilər. Feminist ərli qadınlar kişiyə tabe olmamağın bir forması kimi "missis" müraciət formasını qəbul etmır, onlara "mz" (ms.) deyə müraciət etməyi tələb edirdilər. Əsas səbəb isə o gətirilirdi ki, "missis" müraciət forması məhz qadının bir şəxsiyyət kimi kişidən asılı olduğunu, onun tabeçiliyində qaldığını açıq aydın diqqətə çatdirirdi.

**Liberal feminizm**. Liberal feminizmə o feminist cərəyan aid edilir ki, qadınlar öz qabiliyyətləri və gücləri hesabına bərabərlik əldə edirlər, bunu öz fəaliyyət və seçimləri ilə həyata keçirirlər. Liberal feministlərə görə cəmiyyətdə qadınlar haqqında yanlış fikir formalaşmışdır, guya onlar təbiətləri etibarilə intellektual səviyyələri aşağı, fiziki cəhətdən zəif olan məxluqdurlar. Bunları əllərində əsas tutan kişilər onlara qarşı diskriminativ münasibət bəsləyirdilər, özlərinin daha dominant olduğu sahələrdə akademiya, iqtisadiyyat və cəmiyyət üçün önəmli olan digər qurumlarda qadınları sıxışdırırdılar.

Feminizmin ilk dalğasına aid edilən "liberal feminizm"in mübarizə fəaliyyəti dövrü, qadınların səsvermə, təhsil, mülkiyyət tələbləri ilə gündəmə gələn dövrdür. Liberal feminizm gender bərabərsizliyin kökünün patriarxal quruluşdan qaynaqlandığını iddia edir və bu strukturu qadına haqq və azadlığın verilmədiyi bir sistem kimi qiymətləndirir. Liberal feministlərin barışa bilmədikləri ən əsas məsələlərdən biri də qadınlara kişilər qədər təhsil imkanın verilməməsi idi.

Liberal feministlər qadınların səsvermə hüququnun olmaması problemini XIX əsrin sonu və XX əsrin əvvəllərində dünyanın müxtəlif yerlərində müxtəlif şəkildə gündəmə gətirirdilər. Avropanın çox az bölgələrində müəyyən qədər mülkə sahib olan qadınlardan başqa digər qadınların səsvermə hüququ yox idi. Bəzi yerlərdə evli olan, bəzi yerlərdə həm evli, həm də əri mülk sahibi olan ağdərili qadınlar səsvermə hüququna malik idilər, lakin bütövlükdə, əksər qadınların səsvermə hüququ yox idi. Amerikada da qaradərili vətəndaşların səsvermə hüququ yox idi. Ümumiyyətlə, Amerika qadınlarının siyasi sferada iştirakı da az qala yox səviyyəsində idi. Amerikada səsvermə hüququ uğrunda mübarizə qaradərili qadınların ağdərili qadınlarla mübarizəsi ilə eyni zamanda başlandı.

Liberal feministlər inanırlar ki, "qadınların tabeçilik statusda olmasının kökü bir çox ənənəvi və leqal adətlərə söykənir ki,

bu da qadının bir çox sahələrə daxil olmasına çətinliklər yaradır və onların ictimai sferada uğur qazanmalarına mane olur". Onlar gender bərabərliyini siyasi və leqal islahatların vasitəsilə əldə etməyə cəhd göstərirlər (Ferguson, A. & Hennessy, R., 2010).

Liberal feministlərin fikrincə, əgər qadınlar 1800-ci illərin sonu və 1900-cu illərin əvvəllərində səsvermə hüququ əldə etsəydilər, bu daha sonra onların fərdi azadlığına gətirib çıxara bilərdi. Onlar ümid edirdilər ki, bərabərlik adı altında əldə edilən azadlıq nəticəsində kişilərin qadınlar üzərindəki qəddarlığına son qoyulacaq və azadlıq imkanı onlara tam şəxsiyyət olma şansını verəcəkdir. Bundan sonra heç bir dövlət və ya adət-ənənə onların şəxsi azadlığına mane ola bilməzdi. İlk liberal feministlərə görə, təkcə ağ kişilər tam hüquqlu vətəndaş hesab oluna bilərdilər. Feministlərdən Meri Volstonkraft, Cudit Sargent Murre və Franses Vrayt qadınların tam siyası azadlığı üçün qadınlara vəkillik edirdilər. 1920-ci ildə, ABŞ-dakı fəal qadınların təxminən 50 illik səyi nəticəsində, qadınlara səsvermə hüququ və həmçinin onların dövlət sektorunda işləməsinə icazə verildi.

Liberal feministlər səsvermə hüququnu qazandıqdan sonra düz dörd onillik səssiz qaldılar. 1960-cı illərdə vətəndaş hüquqları hərəkatı dövründə liberal feministlər irqi diskriminasiya və cinsi diskriminasiya qarşı paralel mübarizə aparırdılar. Onlar qadın hüquqları uğrunda Qadınlar üçün Milli Təşkilat və Qadınların Bərabərlik Aksiyası Liqası adı altında qrup şəklində mübarizə aparırdılar. ABŞ-da bu qruplar Bərabər Hüquqlara görə düzəlişin ratifikasiyası və ya "Konstitusiyada Bərabərliklə bağlı düzəliş" üçün birgə işləyirdilər və ümid edirdilər ki, bunu həyata keçirə bilsələr, demokratik qanunlar çərçivəsində qadın və kişilərin bərabərliyi öz-özünə təmin olunar (Ferguson, A. & Hennessy, R., 2010). Bu da öz növbəsində qadınların həyatının mühüm sahələrinə (reproduktiv funksiya, əmək və bərabər maaş da daxil olmaqla) yaxşı təsir edər. Liberal feministlər başqa sahələri də önəmli hesab edirdilər, məsələn, aborta icazə, səsvermə, təhsil, uşaqlara

qayğı, qadınlara qarşı məişət zorakılığı ilə mübarizə və s (Maurice Dobb, 1979).

**Marksist feminizm**. Marksist feministlər iddia edirlər ki, qadınlar kapitalizm quruluşuna və xüsusi mülkiyyətə görə təzyiqə məruz qalırlar. Marksist feministlərə görə, qadınlar o zaman azad ola bilərlər ki, kapitalist iqtisadiyyatında radikal islahatlar aparılsın, çünki qadınların iqtisadiyyatdakı statusu kişilərlə eyni deyildir. Buna görə qadınlara maliyyə kompensasiyası olunmalıdır (Yenə orada).

Marksist feministlər qadın və kişilər arasında mövcud olan diskriminasiyanın kökündə sosial, sinfi bərabərsizliyin və bu bərabərsizliyin kökündə isə qadınların kişilərdən iqtisadi asılı olması faktorunun durduğunu iddia edirlər. Bir sözlə, marksizmə görə, bütün mövcud problemlərin kökündə qadınların kişilərdən iqtisadi asılı olması amili durur. Ümumiyyətlə, marksizmə görə, əksəriyyət problemlərin kökündə kapitalizm rejimi durur, rejim aradan götürülərsə və bu, sosialist rejimi ilə əvəz olunarsa, bütün problemlər avtomatik aradan qalxar.

Karl Marks və Fridrix Engelsin "*Kommunist Manifesti*" (1848) adlı əsərində onlar kapitalizmlə insanlara olan istismar arasındakı əlaqədən yazır və bunu bir diskurs səviyyəsinə gətirib çıxarır. Marks bunu daha da inkişaf etdirərək (1859), tarixi materializmin nəzəriyyə və metodlarını hazırlayaraq iddia edir ki, cəmiyyəti bütövlükdə quran iqtisadi sistemlərdir və bunlar gündəlik həyat və təcrübəyə təsir göstərir. Tarixi materializm iqtisadi və texniki amillərin əvəzedilməz rolunu qeyd edir və onlar cəmiyyətin əsas strukturunu müəyyənləşdirir. Baza strukturu fəhlə sinfinin istismara məruz qalmasını, hakimiyyətin maraqlarını inkişaf etdirmək məqsədini güdür. Marks (1859) qeyd edir ki, bu sistem hakim sinif tərəfindən öz maraqlarına uyğun tənzimlənir və hakim sinfin iqtidarda qalması üçün siniflər arasında münaqişəni qoruyub saxlayır (Marx, K. & Engels, F., 1848).

K.Marks "*Yəhudi məsələsi*" (1843) adlı məqaləsində belə bir fikir irəli sürür ki, *insanın emansipasiyası* tam halda o zaman baş verir ki, qadın bu emansipasiyanı özü dərk edir, uğrunda mübarizə aparmaqla bu emansipasiyaya nail olur. 1884-cü ildə Engels "*Ailə, xüsusi mülkiyyət və dövlətin mənşəyi*" adlı əsərini dərc edirdi və həmin əsərdə qeyd edir ki, feodalizmdən xüsusi sahibkarlığa keçid nəticəsində qadınların statusunda müəyyən qədər dəyişikliklər oldu. Xüsusi sahibkarlıq sistemində o fərdlərin ki, torpağı və ya istehsal üçün bir vəsaiti yoxdursa, onlar kapitalı olan sahibkarlar üçün işləməlidirlər. Engels (1884) izah edir ki, belə növ sistemə keçid ayrıca ictimai və özəl sektorun yaranmasına səbəb olur və sonda insanlara qeyri-bərabər əmək haqqı verilir.

Engels (1884) iddia edir ki, qadının tabeçilik statusunun onun bioloji yaranışı ilə heç bir əlaqəsi yoxdur, bu sosial əlaqələrin nəticəsidir və kişilər həm qadının əməyi üzərində nəzarət edir, həm də onun çinsi statusunu nəzarətdə saxlayır. Məsələyə marksist tarixi perspektivdən yanaşan Engels (1884) hesab edir ki, qadının cinsi əxlaqla əlaqəli sosial fenomenini yəni zinakarlıq edən qadınların şiddətlə cəzalandırılması və bacı-qardaşlıq münasibətindəki bərabərsizlik (qardaşın bacı üzərində olan səlahiyyətləri) və qadınların ərlərinə tabe olması ədalətsizlikdir.

Ailədə əmək bölgüsü kişi ilə qadın arasında mülkiyyət bölgüsünü şərtləndirdi; ailədə əmək bölgüsü əvvəlki halında qalmışdı, lakin ailədən kənarda əmək bölgüsü dəyişmişdi. Artıq kişinin peşə əməyinə nisbətən qadının ev işi öz əhəmiyyətini itirmişdi; kişi əməyi hər şey, qadın əməyi isə cüzi bir əlavə hesab olunurdu. Belə ki, qadın ictimai məhsuldar əməkdən kənarda qaldıqca və ev əməyi ilə kifayətlənməyə məcbur olduqca, qadının azad olması, hüquqi cəhətdən kişi ilə bərabərliyi nə indi, nə də gələcəkdə mümkün olacaqdır. Qadının azadlığa çıxması yalnız o zaman mümkün olacaqdır ki, o, istehsalda ictimai miqyasda iştirak edə bilsin, ev işi isə onun yalnız cüzi vaxtını alsın. Bu isə yalnız müasir iri sənayenin inkişafı sayəsində mümkün ola bilər; sənayeləş-

mə nəinki qadın əməyinin böyük miqyasda inkişafına yol verir, hətta bunu açıq-aydın tələb edir. Xüsusi ev əməyi isə getdikcə daha artıq dərəcədə ictimai istehsalda əriməyə başlayır.

Evdə kişinin hökmranlığının qərar tutması ilə onun təkbaşına hakimiyyəti yolundakı son maneələr aradan qalxdı. Bu təkbaşına hakimiyyət ana hüququnun devrilməsi, ata hüququnun tətbiq edilməsi, monoqamiyaya keçilməsi nəticəsində möhkəmlənib əbədiləşdi. Bu isə qədim qəbilə quruluşuna zərbə vurdu: həmçinin ailə qəbiləyə qarşı duran zəhmli bir qüvvə oldu.

Beləliklə, marksist feminizm qadınlara təzyiq edilməsinin (kapitalist mövqeyindən) izahı üçün marksist nəzəriyyənin potensialından istifadə edən nəzəri cərəyandır. Marksist feminizmin meydana gəlməsində K.Marks, F.Engels və onların ardıcıllarının, qadın fəhlə və sosialist hərəkatı nəzəriyyəçilərinin, o cümlədən Klara Setkin və Aleksandra Kollantayın mühüm rolları olmuşdur. 1970-ci illərdə bu nəzəriyyə daha fəal şəkildə işlənilmişdir. Marksist klassiklər qadınlara təzyiq məsələsini sinfi bərabərsizlik baxımından təhlil edirdilər. F.Engels hesab edirdi ki, əməyin cinsi əlamətə görə bölünməsinin bütün dövrlərdə mövcüd olmasına rəğmən, kişi və qadınlar tərəfindən yerinə yetirilən işin eyni cür qiymətləndirilməsi zəruri olmuş və "ibtidai bəşəriyyət" gender baxımından eqalitarlıq təşkil etmişdir. Lakin adi məhsulun (əmək alətlərinin dəyişməsi və onun məhsuldarlığının artması nəticəsində) və varidat toplamaq imkanlarının meydana çıxması ilə kişilər varislik modellərinin formalaşmasında maraqlı olmuşlar. Nəticədə, qadın üçün kəskin şəkildə ümumi və xüsusi sferaya ayrılan monoqam "əxlaq" yaradılır ki, bununla da qadın seksuallığına nəzarət mümkün olur.

F.Engels seksuallığı və reproduksiyanı iqtisadi nəzəriyyəyə daxil etməklə bu sahədə böyük cığır açmış oldu. Lakin o, ev təsərrüfatında sərf olunan sosial zəruri əməyin makroiqtisadiyyata necə daxil edilməsini aydınlaşdırmağa cəhd göstərməmişdir. Markisist feminizm 1960-1970-ci illərin sol təmayüllü gənclə-

rin və vətəndaş hərəkatların köməyilə kapitalist iqtisadiyyatı ilə ev iqtisadiyyatı arasında əlaqəni göstərmişdir. O, qeyd edir ki, qadınların ailədə istismarı cinsi qəbildən olan məsələlərə dəstək verməyə xidmət edir: qadın ev işlərinə hansısa kişiyə “xidmət” etməkdən daha çox, ucuz və səmərəli işçi qüvvəsi olduğuna görə cəlb olunur. Marksist feminizmin bəzi nəzəriyyəçiləri qadın ev əməyinin ödənişli olması tələbini öz strategiyalarına daxil etmişdilər. Bu cərəyan bir tərəfdən kapitalizmə, digər tərəfdən də patriarxata qadınlara təzyiq göstərən bir sistem kimi baxırdı. Marksist nəzəriyyəyə görə, qadınların və fəhlə sinfinin məqsədləri eynidir və kapitalist quruluşunu aradan qaldırmaqla qadınların azadlığı təmin olunacaqdır. Lakin sonradan məlum oldu ki, bu belə deyil. Təəssüf ki, qadın “inqilabı” ideyası orada özünə lazımi qədər yer tapa bilmədi. Ona görə ki, mübarizənin bu metodu zorakı, yənı, maskulin kimi qiymətləndirildi.

**Sosialist feminizm**. Sosialist feminizmin yaranma tarixi 1960-1970-ci illərə təsadüf edir. Sosialist feministlərə görə, gender bərabərsizliyinin kökünü axtararkən patriarxal sistemlə kapitalizmi ayrı-ayrılıqda deyil, bir-biri ilə əlaqəli şəkildə götürmək vacibdir. Söhbət mütləq azadlıqdan gedirsə, o zaman qadın istismarının əsas qaynağı olan iqtisadi və mədəni mənbələrə son qoymaq lazımdır. Marksist feminizmdən bəhrələnən sosialist feminizm də qadınların istismarında kapitalizmin böyük rolu olduğunu iddia edir. Sosialist feministlər patriarxallığı qadın istismarının başlıca qaynağı hesab edən radikal feministlərin iddialarını qəbul etmirlər (Buchanan, Ian., 2011). Sosialist feministlərin düşüncələrinə görə, kişidən maliyyə cəhətdən asılı olan heç bir qadın azad və ya müstəqil ola bilməz. Mal-mülkün çox hissəsinə kişilər sahib olduqları üçün qadınlar onlar qədər müstəqil ola bilmirlər. Qadınların tabeçilik mövqeləri onları tam azad olma imkanından məhrum edir. Sosialist feministlərə görə insan azadlığının ən vacib şərti hesab olunan elementlər qadınlarda yoxdur və onlara olan münasibətdə sosial, iqtisadi və siyasi ədalət mövcud deyildir.

Sosialist feministlər qadın azadlığı uğrunda aparılan mübarizə zamanı çox mühüm amilləri (irqi, sinfi, iqtisadi status) də nəzərə almağı tövsiyə edirlər.

Qeyd etdiyimiz kimi, sosialist feminizm marksizmdə olan bir çox konsepsiyalara, yəni insanların həyatlarındakı maddi və tarixi şəraitə əsaslanır. Sosialist feministlərə görə seksizm və əməyin genderə görə bölünməsi bütün dövrlərdə iqtisadi sistemlə şərtlənmişdir. Bu şərtlər kapitalizmin patriarxallıqla əlaqələri çərçivəsində ifadə olunur. Lakin sosialist feministlər marksistlərin sinif və sinfi mübarizə anlayışını qəbul etmirlər və hesab edirlər ki, bunlar tarixi və iqtisadi inkişafı təyin edən aspektlərdir (Harriss, Kathryn, 1989: 38). Marksa görə sinfi istismar dəf olunarsa, genderə görə istismar da avtomatik aradan götürülər. Sosialist feministlərə görə isə sinfi istismarla genderə görə istismarın heç bir əlaqəsi yoxdur, sadəcə istismarla imtiyazın fərqli formaları mövcuddur və bunların arasındakı əlaqələrin hansı şəkildə qurulması onların nə qədər uğurlu və uğursuz işləmələrinə təkan ola bilər. Sosialist feministlər iddia edirlər ki, genderə görə istismar heç bir zaman marksist feministlərin iddia etdiyi kimi, sinfi istismarın tərkib hissəsi ola bilməz. Marksist feministlər qadının sinfi statusu, ərin sinfi və ya vəzifə statusun törəməsi olduğunu qeyd edirlər. Məsələn, əgər hər hansı bir vəzifəli kişi öz katibəsi ilə evlənirsə, katibə həyat yoldaşının sinfi statusunu əldə edir.

1972-ci ildə "*Sosialist feminizm qadın hərəkatı üçün strategiyadır*" (Socialist Feminism a Strategy for the Women's Movement") adlı əsərdə "sosialist feminizm" termini istifadə edilmişdir; bu əsəri Çikaqo Qadın Azadlıq Birliyi çap etdirmişdi (Margaret "Peg" Strobel and Sue Davenport, 1999).

Digər bir uzun ömürlü Amerika sosialist feminist təşkilatı, Radikal Qadınlar və Azadlıq Sosialist Partiyası da Karl Marks və Fridrix Enqelsin "*Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi*" və Oqust Bebelin "*Qadın və sosializm*" adlı əsərlərinə müraciət etmişlər, onlar genderə görə istismar və sinfi istismarla bağlı ide-

yalara yenidən aydınlıq gətirmişlər. Onlar bununla bir daha qeyd etmək istəmişlər ki, marksist feminizmlə sosialist feminizm heç bir zaman eyni ola bilməz. Onların fikrincə, sosialist feminizmin prinsipləri tam fərqlidir, "Sosialist feminizm seksizm, irqçilik və sinfiliyin ortaq kökü olduğunu qeyd edir". Sosialist feminizm sosial dəyişikliklər üçün inkluziv üsuldur. Onlar qarşıdurma və rəqabətdən çox sintez və əməkdaşlığı qiymətləndirirlər.

Sosialist feminizm radikal feministlər qədər ekstrimist cərəyan olmasalar da, onlar da böyük sosial dəyişikliklər etməyin tərəfdarıdır. Sosialist feminizm kapitalizmə son qoymağa çağırış edir, lakin bunu inqilabla deyil, iqtisadiyyatda islahat etməklə həyata keçirməyin tərəfdarı olduğunu göstərir. Sosialist feminizm kapitalizmi seksist quruluş hesab edir, çünki bu quruluşun kişiləri güc və pula sahibdirlər. Kişilər öz güc və pullarına qadınları şərik etmək fikrində deyillər və qadınların pul və gücə sahib olmaq imkanı çox azdır. Elə bu səbəbdən, kişilər güclüdür və qadınlar onların nəzarəti altında qalmağa məhkumdurlar.

Qısası, sosialist feminizm əsas diqqəti iqtisadiyyat və siyasətə yönəldir. ABŞ-da iş yerlərində qadınlara kişilərdən daha az maaş verirlər. Bu, təxminən bu şəkildə olur, əgər bir iş üçün qadına $0.70 verirlərsə, analoji işin qarşılığında kişilərə $1 verirlər. Sosialist feministlərə görə, bu fərqli ödənişin kökündə kapitalist sistemi durur.

**Radikal feminizm.** Bu cərəyan nəinki cəmiyyətin əksər üzvləri tərəfindən, ümumiyyətlə, digər feminist qruplar tərəfindən də birmənalı qarşılanmır. Radikal feminist cərəyan heteroseksual şəxslərarası münasibətlərin və sosial qurumların strukturunun əleyhinə olub, kişisiz cəmiyyət qurmağın tərəfdarıdır.

Radikal feministlər islahatlara cəhd göstərmirlər, cəmiyyətdə mövcud problemləri inqilabla həll etmək istəyirlər və bu inqilab sosial xarakter deyil, bioloji xarakter daşıyır. Sulamif Fayerstoun özünün "*Cinsin dialektikası: feminist inqilabın problemi*" kitabında yazır: "*Əsas bərabərsizliyi elə təbiətin özü yaradır – insan*

*irqinin yarısı sonradan kişilərin marağını gücləndirən qurum qismində olan ümumi uşaqları daşımalı və yedirtməlidir*” (Curthoys A., 1988:131). Azad olmaqdan ötrü qadın analıq funksiyasından canını qurtarmalıdır; təbiətlə əlaqəni tam qırmaq lazımdır və *uşaqların istehsal*ına keçmək lazımdır. Patriarxatı tam rədd edən radikal feministlər kişi təsirindən azad olan qadının necə fikir yürütməsi, özünü aparması barədə ideyalar irəli sürürlər. Feminist qadınlar onların təbiiliyinə xələl gətirən imiclərin əksini istəyirlər, onlar hündürdaban ayaqqabı geyən, gözəl görünmək üçün narahat geyimdən istifadə edən, bir sözlə, bəzək-düzəkli qadınları qəbul etmirlər. Radikal feminizm özünün *kulturoloji* istiqamətini təyin etmək üçün qadın fəlsəfəsini, mədəniyyətini və s. yaratmağı təklif edir. Liberal feminist təşkilatların dəqiq strukturu mövcuddursa, radikal feministlər *lidersizlik* prinsipini əllərində əsas tuturlar. Onlar mütəmadi şəkildə kiçik qadın qruplarından olan təşkilatlarına yığışırlar, nə iş görəcəklərini müzakirə edirlər. Radikal feministlərin siyasi mübarizə metodları da digər feministlərdən fərqlidir. Onlar üçün lobbizm, KİV vasitəsilə təbliğat aparmaq, etiraz nümayişi mübarizə vasitələri deyildir. İnqilabi əhvali-ruhiyyəli olduqları üçün 1960-cı illərin radikal feministləri tez-tez zorakılıq aktları təşkil edirdilər (məsələn, kişiləri girov götürürdülər). Radikal feministlərin etiraz nümayişləri də ekstravaqant formalarda təzahür edir (məsələn, onlar etirazlarını cadugər geyimində, lüt halda küçələrə çıxmaqla bəyan edirlər).

Radikal feministlərə görə dünya kapitalist-maskulin iqtisadiyyatın təsiri altındadır və kapitalist sistem təbiəti etibarı ilə kişilərin qadınları istismar etməsinə səbəb olur. Radikal feministlər mövcud problemin həlli yolunu kişisiz cəmiyyətdə görürlər.

Radikal feminizm, “şəxsi həyat siyasidir” şüarı ilə şəxsi həyatda yaşanan bərabərsizliklərin, şəxsi həyatda qadına tətbiq olunan təzyiqdə patriarxal siyasətin təməli olduğunu vurğulamışdır. Ailədə qeyri-bərabər iş bölgüsü (qadınların daha çox yüklənməsi), hetereoseksual ailələrdə kişilər tərəfindən törədilən ailə-

daxili zorakılıq radikal feminizmin əsas hədəfləridir. Ailədə qadın haqqının olmaması, cəmiyyətdə qadınlar üçün mövcud olan köləlik sistemi bütün feministlərin ən çox müzakirə etdiyi mövzular olmuşdur.

Radikal feminizm elə bir hərəkatdır ki, onlar gender bərabərsizliyinin kökünün cəmiyyətdəki *seksizm*lə əlaqəli olmasına inanırlar və ona görə də onlar gender anlayışının tamamən aradan qaldırılmasının tərəfdarıdırlar. Bu mümkündürmü?

Radikal feministlər dəyişikliklər də təklif edirlər, belə ki, onların iddiasına görə, qadının bətni daxilində deyil, texnologiyanın gücü sayəsində uşaq yaradıb dünyaya gətirmək mümkündür. Bununla da, dünyaya uşaq gətirmək istəyən qadının analıq məzuniyyətinə ehtiyacı qalmayacaqdır. Beləliklə, qadınlar işə götürüləndə bu səbəbə görə kişilərlə rəqabətdə uduzmayacaqlar. Faktiki olaraq, radikal feministlər bütün ənənəvi ailə sisteminin seksist olduğunu iddia edirlər. Kişilər evdən kənarda işləyib pul qazanırlar, qadınlar evdə uşaqlara qayğı göstərir və məişət işləri ilə məşğul olurlar. Radikal feministlər qeyd edirlər ki, belə ənənəvi dixotomiya kişilərin qadınlardan güclü olmasına gətirib çıxarır və bu səbəbdən də radikal feministlər ənənəvi ailə modelini qəbul etmirlər. Radikal feminizm, tamamilə gender anlayışını aradan qaldırmağın tərəfdarıdır.

**Kultural feminizm**. Kultural feminizm, feminizmin elə bir qoludur ki, burada müasir cəmiyyətdə maskulin davranışa deyil, feminin davranışa üstünlük vermək tövsiyə olunur.

Bununla kultural feministlər nəyi nəzərdə tuturlar? Onlara görə müasir dünyada kişilər aqressiv və rəqabətcildirlər. Müasir dünyada bu keyfiyyətlər daima təbliğ edilir. Bu gün biznesdə uğur qazanan kişilərin hamısında bu keyfiyyətlər müşahidə olunur. Bu keyfiyyətlər yüksək çinli məmurlarda, senatorlarda və hətta prezidentlərdə də təsadüf edilir. Ola bilsin ki, rəqabət qabiliyyəti və aqressivlik bəzi kontekstlərdə faydalıdır, lakin kultural feministlər iddia edirlər ki, insanlara bu keyfiyyətləri aşılamaqla onlara

neqativ hislər ötürülür və nəticədə cinayətlərin – qətllərin, məişət zorakılığının sayı artır.

Kultural feministlər iddia edirlər ki, aqressiv kişi davranışı əvəzinə ənənəvi qadın davranışları tətbiq olunsa, cəmiyyət bundan udar. Bununla hansı xüsusiyyətlər nəzərdə tutulur? Bunlar xeyirxahlıq, qayğıkeşlik və əməkdaşlıqdır. İnsanlar bu keyfiyyətlərə üstünlük versələr, cəmiyyət daha fərqli olar. Bütün qurumlarda (ailə, məktəb, səhiyyə və s.) proqres olar. Kultural feministlər əmindirlər ki, feminin keyfiyyətlər dünyanı pislikdən xilas edə bilər.

Feminizmin gender bərabərsizliyini aradan qaldırmaq üçün irəli sürdüyü ən əsas arqument ondan ibarətdir ki, qadını kişi istismarından azad etmək lazımdır, çünki qadın zəif olduğuna görə deyil, sosial və mədəni amillərə görə kişi istismarına məruz qalır. Bunu düzəltməkdən ötrü ilk növbədə, qadınlara da kişilərin sahib olduğu hüquq və imkanlar verilməlidir. Bunlar olarsa, qadınlar da kişilərin əldə etdiyi eyni üstünlüklərə sahib ola bilərlər.

**Feminizmin vəd etdiyi imtiyazlar**. Feminizmin əldə etdiyi nailiyyətlər içərisində ən uğurlusu qadınların təhsildə bərabərliyə sahib olmalarıdır. Müasir dövrdə ABŞ-da qadınlar nəinki kişilərin təhsil aldığı bütün qurumlarda eyni hüquqa malikdirlər, həmçinin onların təhsil ocaqlarındakı bütün ehtiyacları dövlət tərəfindən ödənilir və kişilər üçün əlyetər olan hər bir imkan onlar üçün də eyni cür nəzərdə tutulmuşdur. Beləliklə, feminizm bir faktı hər zaman əlində əsas götürür ki, qadın və kişilər eyni cür bərabər hüquq və imtiyazlara sahib olmalıdırlar. Buradan belə çıxır ki, qadın və kişilər düşdükləri situasiyalardan asılı olmayaraq, eyni şərtlərlə yarışmalıdır, eyni sahədə, eyni səviyyədə olmağı bacarmalıdırlar. Düzdür, feminizmin müxtəlif qolları mövcuddur, onların prinsipləri fərqlidir, lakin onları birləşdirən bir ideya mövcuddur - gender bərabərliyi onların strategiyalarının mərkəzi xəttidir. Qadınların istismarı probleminin izahı təkcə qadınların bərabər hüquqa və ya resurslara olan məhdud əlyetərliyi deyil. Təkcə

bunları aradan qaldırmaqla gender bərabərsızliyi problemini həll etmək olmaz. Qadınların istismarının kökündə olan səbəbləri tapmaq lazımdır. Ümumiyyətlə, qadın və kişilərin münasibətinə nəzər yetirdikdə hökmən ona patriarxallıq perspektivindən yanaşmaq lazımdır. Bu, elə bir sistemdir ki, bu sistemdə qadınlar kişilər tərəfindən istismar olunurlar, ailənin malı, mülkü, sərvəti və hətta qadının produktiv və reproduktiv imkanları da kişi nəzarəti altında olur. Patriarxallıq konseptinə görə, qadınlara sistemli şəkildə zülm edilməsinə bəraət qazandırılır və patriarxallıq elə qadınlar üzərində həyata keçirilən kişi nəzarəti kimi başa düşülür. Siyasətçilərə elə gəlir ki, qadınlara da kişilərin mənsub olduğu hüquq və imkanlar verilsə, bərabərlik təmin olunar. Əslində, əsas məsələ sistemdəki təzyiqdir. Bu vaxta qədərki tədqiqatlarda da patriarxallıqla başqa sistemlərin arasındakı əlaqəyə diqqət edilmişdir, çünki bu sistemdəki proseslərdə qadınlar hər zaman təzyiqə məruz qalırlar.

Qadınların tarixi dəyərlərinin işıqlandırılması bəşəriyyətin yarı tarixinin canlandırılmasıdır. Cəmiyyətin hansı inkişafından söz açmaq olar ki, hələ bu gün də əhalinin yarısından çoxunu təşkil edən qadınların yaradıcılıq və təcrübəsinin üstündən xətt çəkməyə cəhd göstərənlərin sayı kifayət qədərdir. Əgər biz bəşər tarixinin öyrənilməsinin əhəmiyyətini dərk ediriksə, genderlərarası münasibətlərin tarixinin öyrənilməsinin vacibliyini də dərk etməliyik.

Müxtəlif prizmalardan qadın yaradıcılığının işıqlandırılması faktına diqqət yetirərkən aydın olur ki, bu iş lazımi səviyyədə aparılmamışdır. Bəzi məqamlar oxuculara hələ də qaranlıq qalmışdır. Əslində, elmin bütün sahələrində qadınlar öz sözlərini demişlər, istər tarix elmində, istər ictimai elmlərdə, istərsə də digər sahələrdə onlar əhəmiyyətli dərəcədə yaradıcılıqla məşğul olublar. Bütün bunlara nəzər salmaqda məqsəd müxtəlif cəmiyyət və müxtəlif dövrlərdə gender rolların diapazonuna aydınlıq gətirmək, onun əhəmiyyətini dərk etmək, onların hansı funksiya daşı-

dığını anlamaq, cəmiyyətin inkişafını bu istiqamətdə dəstəkləmək və cəmiyyəti lazımi dəyişikliklə təmin etməkdir. Elə buna görə tarixən qadının passiv və yaradıcılıqdan uzaq olması prinsipinə müasir qadın tədqiqatçıları etiraz edirlər və bunu androsentrizmin (kişilərin qadınlardan üstün olması fikrini dəstəkləyən baxış) nəticəsi hesab edirlər. Qadın tədqiqatı feminizmlə möhkəm tellərlə bağlıdır. Lüğət kitablarının birində feminizmin izahı belə verilir: "Feminizm – qadınların azadlıq hərəkatının əsasında duran cinslərin bərabərliyi nəzəriyyəsidir". Daha ümumiləşmiş şəkildə feminizmə aşagıdakı təyinatı vermək olar: "Feminist – o adamdır ki, digər insanlarla cinsi əlamətinə görə mənfi münasibətdə deyil və qadınların siyasi, iqtisadi, mənəvi, seksual bərabərliyi istiqamətində fəaliyyət göstərir. Qadının şəxsiyyəti məsələsində feministlər mədəniyyətdə cinsin inkişaf forması və şəxsiyyətin realizə məsələsini yenidən müzakirəyə qoyurlar." "Əgər Tanrı qadını kişidən fərqli yaratdısa, cəmiyyət qadını insandan fərqləndirdi" (Sulamif Fayerston).

Müasir cəmiyyətdə qadın problemi keçmişdəki qədər olmasa da, hələ də mövcuddur. Minlərlə kişi zülmünə tuş gələn qadınlarımız hələ də diqqətdən kənarda qalıblar. Onlara yardım etmək, onların haqlarını qorumaq hər bir ədalətli vətəndaşın borcudur. Qadınlara, haqsızlığa düçar olanlara yardım etməyə çalışanların bir adı var: feminizm...

Feministlərin tələb etdiyi bərabərlik Tanrının insanlara bəxş etdiyi bərabər dünyayagəlmə prinsipinə söykənir. Bəzən səhv olaraq belə güman edirlər ki, feminizmin məqsədi qadınların kişilərdən daha üstün olmaqlarını sübuta yetirməkdir. Ona görə də feminizmdən danışıldıqda onu kişilərə düşmən bir anlam kimi qəbul edirlər. Feminizm kişilərə düşmən olmaq deyil, əksinə, kişilərin dostu olmaqdır. Bu, təkcə kişilərə olan dost münasibət kimi yox, həmçinin insanlığa olan dostluq anlamında təqdim olunmalıdır. Feminizmdə qorxulu və çəkinməli heç nə yoxdur. Hətta feminizmin Qərb cəmiyyətlərini uçuruma aparması haqqında iddialar

irəli sürənlər də tapılır. Halbuki feminizm və onunla bağlı nəzəriyyələrin düzgün anlaşılması həyatımızda uğurlu addımlar ata bilməyimiz üçün özül ola bilər.

Bərabərlik bütün inkişaf etmiş və özünü demokratik vətəndaş cəmiyyəti quruculuğu yolunda hesab edən ölkələrin bir nömrəli vəzifəsi olmalıdır. Bir zümrənin digər zümrəyə zülmü, bir insanın digər insandan özünü üstün tutması sonda əzilənlərin üsyanı ilə bitir. Bu gün bərabərlik deyəndə biz bu bərabərliyi cəmiyyətin bir qisminə deyil, bütün təbəqələrinə şamil etməliyik. İnsanlar bərabərdirlər! Bu deyim bərabərliyə bir genderin sahib çıxması anlamına gəlmir, bu hər iki genderin nümayəndələrinə şamil olunur. Əks halda, cəmiyyətin tərəqqi edə bilməsi ehtimalını düşünmək belə xətadır.

Feminist nəzəriyyələrdə marqinallıq geniş mənada təkcə qadınların mövcud olduqları kontekstdə deyil, bütün ədalətsizlik, bərabərsizlik və istismardan əziyyət çəkmək kontekstində nəzərdən keçirilməlidir. Əhalinin böyük əksəriyyətinin mövqeyi siyasi cəhətdən nəzərə alınmalıdır.

Bu gün həm sosial, həm özəl sektorda əsas tələb, insana qadın və kişiliyindən asılı olmadan, insan kimi baxa bilən və insanın ruhuna, duyğularına və mənəviyyatına cinsiyyətçi bir baxışla deyil, tam neytral insani bir baxışla yanaşan, hörmət edən sağlam bir cəmiyyət qura bilməkdir. Dünyamızda belə cəmiyyətləri öz ölkələrində uğurla qura bilən onlarla ölkə mövcuddur. Bütün dünya insanları əzəldən bəri bir-birilərindən öyrənmiş və öz cəmiyyətlərinin proqresi üçün müsbət olanları tətbiq etməyə səy göstərmiışdir.

Kimsənin kimsəyə hökm etmədiyi bir dünyada yaşadığımızı düşünək. Qadınlarla kişilərin bir-birilərinə bənzəmədiyi, amma əlaqələrimizi formalaşdıran yaşam fəlsəfəsinin qarşılıqlı əsası üzərində qurulduğu eqalitar bir cəmiyyətdə sülh içərisində yaşadığımızı düşünək. Bunları yalnız feminist ideyaları qəbul etməklə və onları həyatımıza tətbiq etməklə mümkün edə bilərik. Qadın-

lı-kişili mütərəqqi, sivil və ədalətli bir cəmiyyət üçün bu gün dünyaya feminizm gərəkdir. Feminizm təkcə qadın üçün deyil, hər kəs üçündür.

**Ədəbiyyat:**
**İngilis dilində**


1. Alfred, Lord Tennyson, “*Poems*”, London, 1842
2. Ann Oakley, “*Sex, Gender, Society*”, Maurice Temple Smith Ltd, 1972
3. Anthony Giddens, “*Sociology*”, Cambridge: Polituy Press, 1989
4. Buchanan, Ian., Socialist Feminism, “*A Dictionary of Critical Theory”,* Oxford Reference Online. Oxford University Press, 2011
5. Dunbar R., “*Women Liberation as a Base of Social Revolution // The New Feminism in Twentieth Century America*.” Lexington (Mass.), 1971. P.183
6. Curthoys A., “*For and Against Feminism*.” , Sidney,1988. P.131
7. Ferguson, A. & Hennessy, R., “*Feminist Perspectives on Class and Work”*, Stanford Encyclopedia of Philosophy, 2010
8. Gayle R., “*The Traffic in Women: Notes on the Political Economy of Sex // Toward an Anthropology of Women*”, N.Y., 1975
9. Harriss, Kathryn,*“New Alliances: Socialist-Feminism in the Eighties”,* in the journal of “Feminist Review”, (31): 34–54, 1989
10. Hornsby J., “*The Oxford Companion Philosophy*”, N.Y., 1995, p. 305
11. Lewontin R., “*Human Diversity*”, London, 1982, p. 142

12. Mahatma Gandhi, "*The mind of Mahatma Gandhi*", Ahmedabad, Navajivan, Pub. House, 1967
13. Margaret Mead, "*Sex and Temperament in Three Primitive Societies*", William Morrow and Company, 1935
14. Margeret "Peg" Strobel and Sue Davenport, *"The Chicago Women's Liberation Union: An Introduction", 1999,* The CWLU Herstory Website, University of Illinois
15. Marx, K. & Engels, F., "*The Communist Manifesto*", [1], 1848
16. *"A Contribution to the Critique of Political Economy"* edited by Maurice Dobb, London, Progress Puba lishers, 1979
17. Parsons T., 1955, "*The American Family: Its Relations to Personality and to the Social Structure*," Pp.3-33 in T. Parsons and R.F. Bales (Eds.), Family, Socialization and Interaction Process, Glencoe, IL: The Free Press
18. "*Psychology of Women: A Handbook of Issues and Theories*", edited by Florence Denmark, Michele Antoinette Paludi, Westport, Connecticut, London, 2008, p.326
19. Scott J., "*Gender: A Useful Category of Historical Analysis// American Historical*

*Review*", 1986. N/ 1053-1075, p.106
20. Wotistonecraft M., "*Vindication of the Rights of Women // Feminism: The Essential Historical Writings*", N.Y., 1994. p. 6

**Rus dilində**

21. Бовуар де, С, "Второй пол". СПб., Заключение, 1997
22. Воронина О. А.,"Введение в гендерные исследования", (Тезисное изложение лекции) // Материалы Первой Российской летней школы по женским и гендерным исследованиям "Валдай-9". М., 1997, С. 31

23. Лауретис де, Т. “Американский Фрейд // Гендерные исследования”, 1998. № 1. С.136
24. Попкова Л., Гендерная реконструкция политических систем, “СТРАТЕГИИ ЖЕНСКОГО ПОЛИТИЧЕСКОГО УЧАСТИЯ”, на примере выборов 1999 г. в Самаре

# II FƏSİL

## Tarix və gender. Genderin sosial konstruksiyası başqa məkanlarda: əcdadlarımız və müasir preindustrial cəmiyyətlər

İnsanların yaranışı, mənşəyi, mahiyyəti, yaşam tərzi, tələbatları və ünsiyyət vasitələrinin tədqiqi hər zaman aktual olmuşdur. Bəşəriyyətin yaranışı ilə bağlı bir sıra nəzəriyyələr mövcuddur. Bəziləri hesab edirlər ki, insan meymundan əmələ gəlib, təkamül nəticəsində insan şəklinə düşmüşdür. Lakin təkamül nəzəriyyəsi, darvinizm bu problemlə bağlı heç bir dəlilə malik deyildir. Bəzilərinə görə isə insanı Tanrı elə əvvəlcədən insan şəklində yaratmışdır. Aramızda olan insanlardan kimsə milyon il bundan qabaq yaşamasa da, hər kəsin bəşəriyyətin yaranışı, əcdadlarımızın yaşayışı haqqında müəyyən təsəvvürləri mövcuddur.

Bu vaxta qədər oxuduğumuz tarix kitablarında, izlədiyimiz tarixi filmlərdə əcdadlarımızın yaşayış tərzi oxşar şəkildə bizə təqdim olunmuşdur. Ən qədim insanlar kiçik kollektiv şəklində yaşayır, birlikdə işləyir, mənsub olduqları əmlak isə bütün kollektivə məxsus idi.

Hamımız üçün mahiyyət etibarı ilə önəmli olan əcdadımız hesab edilən mağara adamının yaşayış tərzi belədir: Əli dəyənəkli, bədəni tüklü yarı insan, yarı meymun şəkilli güclü mağara kişisi yanında ondan yardım gözləyən və bu səbəbdən də ondan asılı olan qadın və uşaqları yeməklə təmin edir, düşmənlərdən müdafiə edir. Bəs bu ssenaridə qadının yeri haradadır? “Hətta qadın bu ssenaridə yer alsa belə, o, yəqin ki, səhnənin görünməz bir küncünə düşər. Məsum görkəmli, qucağında körpə, ocağın qarşısında dizlərini

yerə dayayaraq əyləşən qadın yemək tədarük edir". Bu nəzəriyyə elə bir elmi həqiqət kimi qəbul olunmuşdur ki, kimsəni bunun həqiqət olmamasına inandırmaq çətindir (Bieier, R, 1984:116).

Bəşər övladının dünyaya göz açdığı andan mövcud olmaq üçün ilk məşğuliyyəti yığıcılıq və ovçuluq olmuşdur. Onlar meyvə və bitki kökləri, toxum, yumurta toplamaqla məşğul olmuşlar. Bu məşğuliyyət növü yığıcılıq adlanır. Qədim insanların yaşayışını təmin edən digər vasitələrdən biri də ovçuluq olmuşdur. Bəzən tarix boyu yığıcılıq məşğuliyyət növünün qadınlara, ovçuluğun isə kişilərə aid olması fikri dəstəklənir.

Əlbəttə, son dövrlərdə bunun əksini söyləyən, yeni elmi nəticələr ortaya qoyan tədqiqatçılar da mövcuddur. Bu dərsdə insan təkamülündə mərkəzi yer alan *Ovçu Kişi* nəzəriyyəsindən və onu tənqid edən digər nəzəriyyələrdən bəhs olunacaqdır. Qərb alimləri qeyd edirlər ki, insanların əsas yemək ehtiyacı ovçuluqla təmin olunmuşdur və bu səbəbdən də kişilər daha dominant olmuşdur. Onlara görə bu gün kişi üstünlüyü və qadın tabeçiliyi ilə müşayiət olunan cəmiyyət təbii qəbul olunmalıdır, çünki dünya bərqərar olduğu gündən bu, belə olmuşdur və bunu dəyişmək cəmiyyəti məhvə apara bilər. Lakin feminist tədqiqatçılar bütün bu məsələlərə yenidən nəzər salmaq istəyirlər, çünki onlar qadınların iştirakını heçə salan tarix kitablarını yenidən yazmaq istəyirlər. Onlar təkamül prosesində qadının da fəal rolu olduğuna əmindirlər, çünki dünyanın yarı-yarı inkişafı absurddur, qadınlarsız təkamül prosesi mümkün deyildir. Ovçuluqdan az əhəmiyyəti olmayan yığıcılığın da insanların ehtiyaclarının ödənilməsində böyük rolu olmuşdur. Belə bir alternativ təkamül prosesini ortaya qoymaqla insanların tarixi gender rolları haqqında müəyyən təsəvvürlər yaratmaq  mümkündür. Bunun üçün əsas qaynaqlar aşağıdakılardır:

1. keçmişimizi özündə saxlayan arxeoloji qazıntılar;
2. primatlardan, məsələn şimpanzelərdən bəhs edən elm, primatologiya;

3. alimlərin əcdadlarımıza bənzədiklərini zənn etdikləri müasir preindustrial cəmiyyətlərdə yaşayan tayfalar barədə antropoloji araşdırmalar.

**Sümüklər və daşlar: arxeoloji qazıntılar**. Maddi mədəniyyət abidələri (yaşayış yerləri, qəbir abidələri, qayaüstü təsvirlər və s.) və tədqiqat nəticəsində əldə edilmiş materiallar (əmək alətləri, silahlar, bəzək əşyaları və s.) qədim keçmişi öyrənmək üçün son dərəcə əhəmiyyətli tarixi-kulturoloji mənbələrdir. Bu abidələr vasitəsilə qədim insanların yaşayış tərzi, istifadə etdikləri əmək alətləri, adət-ənənələri, dini baxışları haqqında məlumatlar əldə edilir, onların davranış və məişət həyatı, məşğuliyyəti və ictimai münasibətləri kulturoloji baxımdan öyrənilir və tədqiqat obyektinə çevrilir (İ.Hüseynov və N. Əfəndiyeva, 2009: 6).

Feminist alimlər təkamülə uğramış tariximizə yenidən baxmaqdan ötrü bir sıra tarixi məsələlərə yenidən nəzər salırlar. Bildiyimiz kimi, qədim dövrlərdə insanlar vəhşi heyvanlardan qorunmaq üçün daş və dəyənəklərdən istifadə edirdilər. İnsanın ilk əmək aləti sivri daş, dəyənək və yer qazmaqdan ötrü istifadə etdiyi itiuclu çubuq olmuşdur. Təəssüf ki, arxeoloji qazıntılar ya yetərli deyil, ya da olanlar tam halda deyildir (R. Hubbard, 1979: 65). R. Hubbard demişkən "davranış özündən sonra qalıq buraxmır". Alimlər sadəcə, çox az və ümumi ipuculara - çənə və kəllə sümüklərinə, diş, daş ovuntularına əsaslanıb hansısa elmi nəticələrə gələ bilirlər. Daha çox keçmişə döndükcə daha az dəlillər əldə edirik. Bəzi tarixi dövrlər barəsində çoxsaylı mübahisələr mövcuddur, məsələn, 8-9 milyon, 4-5 milyon illər öncəki dövr haqqında əlimizdə sanballı dəlillər yoxdur. Bəzən tapılan daş və ya sümüyə görə nələrisə ehtimal etmək olar, lakin üzvi materiallar - qamış, bitki, qabıqlar bizim zamanımıza qədər gəlib çatmamış, çürüyüb torpağa qarışmışdır. Nəticə olaraq, "bizə gəlib çatan qalıqlar bizə planetimizdə qədim dövrdə yaşayan əcdadlarımız haqqında konkret fikir söyləmək imkanı vermir" (Bieier, 1984: 122-3). Bu qalıqlar nə qida, nə də istifadə edilən alətlər haqqında

dəqiq məlumat verə bilir. Coun Duprenin təbiricə desək, tarix və insan təkamülü haqqında bildiklərimiz "miflərin mənşəyi" dərəcəsindədir (Dupre, J., 1990: 45).

Bütün bu bəhs olunan çətinliklərə rəğmən, arxeoloqlar və antropoloqlar insanlara qədim dövrün *Kişi Ovçu* nəzəriyyəsi haqqında hansısa bilgiləri əldə etmək imkanı verir. Bununla əlaqəli ehtimal olunan bir neçə versiya mövcuddur. Bunlardan bəziləri ilə sizi tanış edirik.

Ənənəvi rekonstruksiyaya görə 12-28 milyon il bundan əvvəl meymunabənzər əcdadlarımız havaların quraqlıq keçməsi ilə əlaqədar artıq ağaclarda yaşaya bilmir və digər yaşayış yerlərinə üz tuturlar. Yeni yerlərdə yaşamağa məhkum olan əcdadlarımız yeni vərdişlərə uyğunlaşmaq məcburiyyətində qalırlar. Bu vərdişlərdən biri də, *baypedalizmdir* (iki ayaq üstündə duraraq gəzmək bacarığı). Bununla da, onların iki qabaq ayaqları artıq əl funksiyasını yerinə yetirmək imkanını əldə edir. Beləliklə, onların iki əli əşyaları qırmaq, cırmaq, tutub saxlamaq imkanına malik olur. Ayaq üstə gəzəndən sonra onların orqanizmlərində bir çox dəyişikliklər baş verir, məsələn, onların çanaqları böyüyür, dilləri inkişaf edir, bədən ölçülərinə uyğun olaraq baş ölçüləri və beyin çəkiləri də artır. Lakin bunlarla bərabər, onlar bəzi çətinliklərlə də üzləşirlər, əvvəlki zamanlarla müqayisədə hamiləlik dövrü tez başa çatır və yeni doğulan körpələr analarının digər fəaliyyətlərini məhdudlaşdırır. Çoxsaylı körpə uşağa görə, qayğı göstərməyə məhkum olunan qadınlar çox uzaqlara gedə bilmirlər və bununla da, kişilər yeganə qida əldə edə bilən qüvvəyə çevrilirlər.

Qida tapmağa məcbur olan kişilər də xüsusi çətinliklərlə üzləşirlər. Meşələrdəki darısqallıq ucbatından savannaya köçməyə məcbur olan qədim insanlar yeni çətinliklərə məruz qalırlar. Savannadakı bitkilər çox sərt olduğuna görə onlar yemək üçün uyğun olmur, həzm prosesində çətinliklər yaradır. Artıq *yığıcılıq* deyil, *ovçuluq* daha önəmli hesab olunur. İnsanların qidasının çox hissəsini ət təşkil edir. Uğurlu ovçuluq kooperativ sürətdə fəaliy-

yət tələb etdiyinə görə, onlar birlikdə ov etməyə məcbur olurlar. Hər uğurlu ovdan sonra kişilər ovdan əldə etdikləri payı evə gətirirlər və qadınlar ondan yemək hazırlayırlar (Gough, K., 1975: 57). Bununla da, kişilər əsas qida təminatçısı olurlar.

Həmin dövrdə əmək genderə görə aşağıdakı kimi bölünür – qadınlar mağaradakı işlərin məsuliyyətini daşıyırlar, kişilər qadın və uşaqları yeməklə təmin etməklə yanaşı, həm də onların müdafiəsində dururlar. Bunları uğurla həyata keçirə bilən insanların mövcud olma şansları çoxalır. Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, deyilənlər qadınlara daha emfatik, qayğıkeş, asılı olmaq vərdişlərini aşılayırdısa, kişilərdən daha cəsur, emosiyasız və aqressiv olmağı tələb edirdi. Sonralar bu adaptiv xüsusiyyətlər təkamül prosesinə təkan verdi (Lovejoy, O., 1981: 349).

Əcdadlarımızın qədim sosial həyatı haqqında yuxarıda verilən bu təsvir eyni ilə bu gün Qərb dünyasının tarix kitablarında təsvir olunan orta sinif ailəsi haqqında yazılarla üst-üstə düşür. Digər elmi dissiplinlər kimi, antropologiya da Amerika və Qərb sənaye ölkələrində (İngiltərə, Fransa və digər inkişaf etmiş Avropa ölkələri) orta və yuxarı-orta sinfin insanları tərəfindən idarə olunur və onların nümayəndələri bu elmdə dominantlıq edirlər. Bu kimi bilgilər bizim cəmiyyətin bütün insanlarına ciddi təsir edir, nəhayət dünyanı necə anlamağımızı onlar yönləndirirlər. Feminist alimlər bu sahədə (insan təkamülü) tərəfkeşliklə müşayiət olunan iki növ cərəyan aşkarlamışdır: *etnosentrizm və androsentrizm.*

*Etnosentrizm* bir xalqın mədəni inam və təcrübələrinin digərlərindən daha üstün hesab edilməsi kimi anlaşılır. *Ovçu Kişi* arqumentində biz iki cür etnosentrizmə təsadüf edirik. Birincisi, istər tarixi, istərsə də, qarışıq-mədəni nöqteyi-nəzərdən müasir Qərb gender münasibətləri bizə universal dəyər kimi təqdim olunur. Başqa sözlə, onlara görə qadın və kişi rolları dünyanın hər yerində eyni cür olmuşdur və bu gün gender rollarının bu şəkildə (bizə təlqin edilən kişi işi, qadın işi) bölünməsində təəccüblü heç bir şey yoxdur. Biz bunları təbii rollar kimi qəbul etməliyik. İkinci və

ən əsas olan arqument ondan ibarətdir ki, gender rollarının müasir Qərb modeli tamamilə düzgündür və uyğundur, çünki bu təbii və adaptasiyaya gedə biləndir (Wylie, A, 1991). Biz *Ovçu Kişi* perspektivində olan ikinci tip tərəfkeşliyə aydınlıq gətirdikdən sonra bu tənqidi yanaşmaya bir də geri dönəcəyik.

*Androsen*rizm kişi tərəfkeşliyi ilə müşayiət olunan yanaşmadır. *Ovçu Kişi* nəzəriyyəsində açıq-aydın kişi davranışı qabardılır, "təkamül saqasında bir sonrakı nəsli dünyaya gətirməkdən xaric, qadının yeri ya lap azdır, ya da ümumiyyətlə, heç yoxdur" (Tanner, N., and Zihlman, A., 1976: 601). Kooperasiya və bölüşmə, rəqabət və aqressiya, ünsiyyət və texnologiyanın inkişafı müstəsna olaraq, kişiyə şamil olunur və bu, *Kişi Ovçu* nəzəriyyəsinin tərkib hissəsidir. "Hər iki cins və onların münasibətləri daxil edilmədiyinə görə, bu araşdırma bəsit hesab olunur və bu araşdırma natamam və yanlışdır" (Yenə orada).

Elə bu səbəbdən, feminist antropoloqlar mövcud etnosentrizm və kişi tərəfkeşliyinə tənqidi yanaşmaqla, arxeoloji qalıqlarda "qadınları tapmaq"la insan təkamülünə düzəliş etmək istəyirlər. Geniş araşdırmalar nəticəsində, onlar mövcud təkamülü alternativ rekonstruksiya etmək istəyirlər. Məsələn, Tanner və Zihlmana görə insanabənzər meymunların meşədən sıxışdırılıb çıxarılması və onların savannaya getmək məcburiyyətində qalması inandırıcı deyildir. Feminist nəzəriyyəçilərin fikirlərinə görə, onlar meşəni ona görə tərk ediblər ki, oralar yaşamaq üçün darısqal olub və meşənin digər sakinləri ilə rəqabət aparmaq çətinləşmişdir. Meşədən kənarda qida kimi istifadə oluna bilən çoxlu sərt bitkilər, müxtəlif yemək növləri, qoz və toxumlar, meyvə, giləmeyvə, yumurta, həşərat və digər kiçik heyvanlar mövcud idi. Bu mənbələrin uğurlu tapıntısı, yeni məkanda mövcudolma strategiyaları və adaptasiyalar yaşamaq üçün yeni üsullar tələb edirdi. Bu üsullardan biri də *baypedalizm* idi.

Qərb kişi alimlərinin qeyd etdiyi kimi, heç də baypedalizm qadınların qida tapmaq üçün mövcud fəaliyyət imkanlarını məh-

dudlaşdırmır, əksinə, onların innovativ yaşam strategiyalarını artırır. Onlar əllərinin azad olması imkanından yaxşı bəhrələnirlər. Onların qida tapmaq imkanları ona görə azalır ki, onlar yeni yaşayış yerlərində yeni həyat tərzinə keçirlər. Bədənlərində gedən dəyişikliklər onların yeni vəzifələrin öhdəsindən gələ bilmək bacarığına təkan verir. Bədənlərindəki tüklərin tökülməsi (əvvəllər körpə uşaqlar tüklərdən asılmaqla anaları ilə birgə hər yerə gedirlər) onların uşaq daşıma imkanları azalır və onlar uşaqları daşımaq üçün yeni asqılar kəşf etməli olurlar (Yenə orada).

Əlbəttə, feminist alimlərin təqdim etdikləri bu nəzəriyyənin alimlər tərəfindən qeyd-şərtsiz qəbul olunmasını gözləmək absurddur, sadəcə bu nəzəriyyənin təklif olunması mövcud nəzəriyyələrə alternativ bir nəzəriyyə kimi qiymətləndirilir. Onlar qeyd edirlər ki, bəlkə də, ilk kəşf ov ovlamaq üçün əldə edilən alət və ya istifadə edilən silah yox, qadınların uşaq daşımaq üçün kəşf etdikləri asqı olmuşdur. Bununla onlar demək istəyirlər ki, heç də qədim qadınlar Qərb alimlərinin bütün dünyaya təqdim etdikləri kimi kişilərdən asılı, passiv qadın tipləri deyillər, onlar da insan təkamülündə yaxından iştirak edən, ona öz töhfəsini verə bilən varlıq olmuşlar. Əksini də güman etmək olar, bəlkə də onlar Qərb alimlərin təqdim etdiyi şəkildə deyil, uşaqları ilə birlikdə yaşayan ana-xaqanlar qrupu halında yaşamışlar.

Tarixi təkamülü yenidən konstruksiya etməyə cəhd göstərməklə, Vili (Wylie) arxeoloji qazıntılarda olan *gender atributlarına* yenidən nəzər salmağı tövsiyə edir. Gender atributlarına yenidən nəzərsalma o prosesdir ki, arxeoloji qazıntıları araşdıran zaman kişi və qadınların bunlarla əlaqəsi eyni cür təhlil edilir. Qadın və kişilərin tarix boyu fəaliyyətləri paralel şəkildə araşdırılır. Arxeoloji qazıntıların araşdırılmasında müəyyən olunmuşdur ki, ov üçün istifadə edilən alət və silahlar 100.000 il bundan əvvəl kəşf edilmişdir. Ən qədim alət hesab olunan ətin kəsilib xırdalanması üçün istifadə edilən kiçik əl boyda daşların (bundan qadınlar istifadə etmişlər) 2,5 milyon yaşı vardır. İnsan dişlərinin tədqiqi

onu deməyə imkan verir ki, onlar ət yeməkdən daha çox tərəvəz çeynəmişlər. Bu da ona sübutdur ki, ov deyil, yığıcılıq yeməyin əsas hissəsi olmuşdur.

Sözsüz ki, feminist alimlər bu tədqiqatları apararkən, yəni *Kişi Ovçu* nəzəriyyəsinə alternativ kimi verilən *Qadın Yığıcı* nəzəriyyəsinin tədqiqi zamanı kifayət qədər çətinliklərlə üzləşmişlər. Feministlərin təklif etdikləri *caynacentrizm* (qadın tərəfkeşliyi ilə müşayiət olunan yanaşma) androsentrizmin cavabıdır. Bununla da, nəzəriyyədən yeni bir nəzəriyyə doğmuşdur.

Beləliklə, onlar genderin bütün parametrləri ilə işləməsini görmək istəmişlər: Gender ideologiyasını, gender rollarını sosial həyatın bütün sferalarının mühüm mənbəsi hesab etməklə tədqiq etmişlər. Böyük bir sual meydana gəlir. Hər zamanmı əmək genderə görə bölünmüşdür? Əmək bölgüsünün hansı alternativ formaları mövcud olmuşdur? Əməyin deyilən şəkildə bölünməsindən “gender” yaranmışdır?

Feminist alimlər tədqiqatlar zamanı əsasən ənənəvi sahə hesab olunan ticarət, siyasət və dövlət deyil, insanlararası əlaqəni və məişət fəaliyyətini nəzərə almışlar, çünki qədim dövr üçün əhəmiyyət kəsb edən sahə məişət idi. Bundan əlavə feminist alimlər keçmişdən yazmağın yeni üsullarını təklif etməklə, ənənəvi yazı modelinə alternativ versiya təqdim etmişlər.

Gender münasibətləri ilə əlaqəli keçmişə baxışda, qeyd etdiyimiz kimi, təkcə arxeoloji qazıntılara deyil, həmçinin primatologiyaya da nəzər salmaq vacibdir.

**Əcdadlarımız və müasir insanabənzər primatlar**. Arxeoloji qazıntılarla bağlı mövcud olan mübahisələrlə yanaşı feminist alimlər əldə olan parçaları tam hala gətirmək üçün də əlavə mənbələr axtarışındadırlar. İnsanabənzər primatlar bu sahədə çox faydalı mənbə ola bilər. Son dövrün araşdırmaları bizə onu deməyə imkan verir ki, bioloji cəhətdən insanabənzər meymunlar, xüsusilə də şimpanzelər bizə qədim əcdadlarımızın davranışları haqqında bəzi ehtimallar verə bilər. Şimpanzelərin DNA ana-

lızları bizə onların insanlara çox yaxın olmaları barədə düşünmə imkanı verir. Əbəttə, yadımızdan çıxartmamalıyıq ki, biz milyon il bundan əvvəlki əcdadlarımızdan söhbət edirik. Lakin onların bugünkü davranışları əcdadlarımızın davranışı haqqında azacıq da olsa, bilgilərimizə işıq sala bilər.

Əlbəttə, bu yanaşmada da kifayət qədər problemlər mövcuddur. "Bu sahədə aparılan araşdırmalar zamanı bunlar insan davranışı prizmasından həyata keçirilmişdir. Ona görə də bu araşdırmalar ehtimal edilən kimi olmaya da bilər". İkincisi, primatlar çeşid-çeşiddir və onlar həm anatomik, həm də davranış nöqteyi-nəzərindən fərqli ola bilərlər. Bu çeşidlərin sayı 200-dən çoxdur və bunların dişi cinslərinin 40 %-i ya dominantdır, ya da bərabərdir (Wright, P.C., 1993: 134). Bəzi alimlər hesab edirlər ki, insanlar təkamül prosesindən keçdikləri kimi, primatlar da bu prosesdən keçmişlər.

Bu günə qədər bu barədə aparılan tədqiqatlar kişi tədqiqatçılar tərəfindən aparılmışdır. Aparılan araşdırmalar səthi olmuşdur və yalnız bir neçə növ primatın üzərində aparılmışdır (babon, makaka, vervet və sairə). Bu primatlarda erkək dominantlığı müşahidə olunur, lakin başqa primatlar arasında aparılan tədqiqatlar göstərir ki, bu heç də hər zaman belə deyildir. Təxminən 200 növ primat qruplarında aparılan araşdırmalardan bəlli olur ki, hər on primatdan altısında erkəklə dişi ya bərabər, ya da dişi üstünlüyü ilə müşayiət olunur (Yenə orada).

Bildiyimiz kimi, şimpanzelər ünsiyyət sevəndirlər və qrup şəklində yaşayırlar. Qrupun lideri bədən ölçüsünə görə olmur. Prioritetlik qidanın təşkilində aktiv iştirakla ölçülür.

Həm erkək, həm də dişi şimpanzelər qidanın təşkilində iştirak edirlər. Əvvəlki illərin yazılarının əksinə olaraq, şimpanzelər nə ətyeyəndirlər, nə də yalnız tərəvəzlə qidalanandırlar. Onların arasında vegetarian da yoxdur. Onların qidasının 95 %-ini meyvə və tərəvəz təşkil edir. Onlar əti ovla əldə edirlər. Beş-altı şimpanze birlikdə kiçik heyvanlara pusqu qurur və ov edirlər. Əldə etdikləri ovu aralarında bölürlər.

Yuxarıda deyilənlərdən hansı nəticəni çıxarmaq olar? Təəssüf ki, əldə etdiyimiz bilgilər bizə təxmini və məhdud məlumatlar verir.

**Genderin qərbsayağı konstruksiyası universaldırmı? Müasir preindustrial cəmiyyətlər.** Genderin qərbsayağı konstruksiyasına görə kişilər hər zaman dominant, qadınlar tabeçilik statusunda olmuşlar. Bununla onlar demək istəyirlər ki, kişilər hər yerdə və hər zaman qadınlardan üstün olmuşlar, kişilərin yerinə yetirdikləri iş daha mühüm və ya daha dəyərli olmuşdur. Heç də təəccüblü deyildir, çünki bu nəzəriyyə əsasən Qərb kişi antropoloqların təqdim etdiyi nəzəriyyədir və bu da onların bütün cəmiyyətlərə özlərinin mədəniyyəti prizmasından baxmalarının nəticəsidir. Kişi dominantlığını əsas götürərək onlar qadınların roluna önəm verməmiş və ya kişi informasiyasına istinad etmişlər (Rogers, S.C., 1978: 145). Bu zaman sualı bir də təkrar edirik: Qərb gender konstruksiyası universaldırmı?

Təxminən 1930-cu illərdə antropoloqların pioneri hesab olunan Marqaret Mid bu suala cavab verməyə çalışmışdı. O tədqiqatını Yeni Gveniyanın üç primitiv cəmiyyətində apardığı araşdırmalara əsaslandıraraq etmişdi. Midin müşahidə etdiyi cəmiyyətdə kişilər utancaq və qayğıkeş, qadınlar aqressiv və rəqabət aparan idilər (M.Mead., 1935). M.Midin bu barədə yazdığı əsər çap olunandan sonra genderin qarışıq cəmiyyətlərdə tədqiqi dəb halına gəldi və bu, bir çox feminist tədqiqatçını bu istiqamətdə tədqiqat aparmağa həvəsləndirdi. Qərbin təqdim etdiyi mövcud gender və ya gender bərabərsizliyi konstruksiyasına bu tədqiqatlar yaxşı cavab idi. Əslində, o dövrün ədəbiyyatlarında gender sözünə təsadüf olunmur, sadəcə bu araşdırmalarda bizim bu gün anladığımız genderdən bəhs edilirdi.

Hər bir cəmiyyətdə əməyin genderə (başqa amillər də əsas götürülə bilər) görə bölünməsi mövcuddur, lakin bir cəmiyyət üçün kişi işi hesab olunan bir iş, digər cəmiyyət üçün qadın işi hesab oluna bilir. Bu mədəniyyətdən mədəniyyətə dəyişə bilir. Məsələn,

bir cəmiyyətdə qadın ev tikir, digərində bu sırf kişi işidir. Bir çox cəmiyyətlərdə qadınlar adətən yemək bişirirlər, lakin cəmiyyətlər də vardır ki, bu kişilərin cavabdehliyindədir. Tədqiqatçı bu üç primitiv cəmiyyətdə gender rollarını araşdırır və əməyin genderə görə bölünməsini cədvəl şəklində təqdim edir. Fakt budur ki, aşağıda verilən cədvəldə az işlər mövcuddur ki, orada qadın və ya kişi hansısa işi yerinə yetirməkdən tam təcrid olunsun. Qadınların yerinə yetirə bilməkdən tamamilə təcrid olunduğu iş böyük dəniz heyvanlarının ovudur. Az da olsa, cəmiyyət mövcuddur ki, orada qadınlar metal əritmə ilə məşğul olurlar. Məsələn, Aqta Fillipində qadınlar maral ovlayır və ya vəhşi qabanları oxla, bıçaqla öldürürlər. Nadır də olsa, elə tayfalar var ki, orada qadınlar metalqayırmada, dülgərlikdə və böyük heyvanların ovu prosesində iştirak edirlər (Estioko-Griffin, 1987). Lakin qadınlar ovçuluq fəaliyyətlərində nizə, yay, ox, iri dəyənəklərdən istifadə etmirlər. Bəzi tədqiqatçılara görə, fiziki zorakılıq üzərində hələ də kişi monopoliyası vardır. Bəzilərinə görə, qadınların da arasında döyüşçü və əsgərlər vardır. Qadınların da kişilər qədər aqressiv ola bilməsi faktları məlumdur. Əgər rəqabət varsa, hətta qadınlar söyüş söyürlər (Lepowsky M.,1994:202).

Xüsusi diqqət qabaqcıl texnologiyadan xəbəri olmayan cəmiyyətlərin üzərinə qoyulur ki, bu cəmiyyət yalnız ovçüluq və yığıcılıqla (preindustrial cəmiyyətlər) güzəranlarını keçindirirlər. Antropoloqların ehtimallarına görə, bugünkü preindustrial cəmiyyətlər əvvəlki cəmiyyətlərin sosial təşkili üçün dəqiq model olmaya bilər. Bu cəmiyyətlər də sosial və ətraf mühit dəyişikliyinə məruz qalıblar, lakin onlar son 600 il ərzində Avropa və Amerika istismarına tuş gəlməmişlər (Leacock, E., 1989:363). Belə cəmiyyətlər bizə bugünkü yüksək texnologiyası olan cəmiyyətlərin gender konstruksiyasına alternativ ola bilər və bu çox dəyərli araşdırma hesab edilə bilər.

**Müasir preindustrial cəmiyyətlərdə gender münasibətləri**. Bildiyimiz kimi, preindustrial cəmiyyətlər *ovçuluq-yığıcılıq*

*cəmiyyəti* hesab olunurlar, çünki onlar ehtiyaclarını ov ovlamaqla və meyvə-tərəvəz toplamaqla (əlbəttə, başqa qida növləri də mövcuddur) yerinə yetirirlər. Bu ehtiyacların yerinə yetirilməsi zamanı çeşidli tapşırıqlar mövcuddur. Araşdırılan bir cəmiyyətdə kişilər iri heyvanlar ovlayır (dərin dənizdə böyük heyvanları da ovlayırlar), qadınlar isə əsasən yığıcılıqla və kiçik heyvan ovu ilə məşğul olurlar, yemək hazırlayırlar, ev tikirlər, uşaqların qayğısına qalırlar (O'Kelly və Carney, 1986). Bir çox cəmiyyətlərdə əməyin genderə görə bölünməsinə baxmayaraq, buradakı insanların çoxu çəkinmədən, utanmadan qarışıq gender tapşırıqlarını yerinə yetirirlər.

**CƏDVƏL - əməyin cinsə görə bölünməsi (185 cəmiyyət) Tapşırığı yerinə yetirən cəmiyyətlərin sayı _**

| № | Əməyin növü | Kişi cöxluğu ilə | Əsasən kişilər | Hər iki cinsin bərabər iştirakı | Qadın coxluğu ilə | Yalnız qadın-lar | |
|---|---|---|---|---|---|---|---|
| 1. | Böyük dəniz heyvanların ovlanması | 48 | 0 | 0 | 0 | 0 | 100.0 |
| 2. | Metaləritmə | 37 | 0 | 0 | 0 | 0 | 100.0 |
| 3. | Metalyonma | 85 | 1 | 0 | 0 | 0 | 99.8 |
| 4. | Dülgərlik | 135 | 4 | 0 | 0 | 0 | 99.4 |
| 5. | Böyük heyvanların ovlanması | 139 | 5 | 0 | 0 | 0 | 99.3 |
| 6. | Taxtayonma | 159 | 3 | 1 | 1 | 0 | 98.8 |
| 7. | Quş ovlama | 132 | 4 | 3 | 0 | 0 | 98.3 |
| 8. | Müsiqi alətlərinin hazırlanması | 83 | 3 | 1 | 0 | 1 | 97.6 |
| 9. | Kiçik heyvanların tələyə salınması | 136 | 12 | 1 | 1 | 0 | 97.5 |
| 10. | Qayıqçılıq | 84 | 3 | 3 | 0 | 1 | 96.6 |
| 11. | Daşyonma | 67 | 0 | 6 | 0 | 0 | 95.9 |
| 12. | Sümükdən, buynuzdan əşyaların hazırlanması | 71 | 7 | 2 | 0 | 2 | 94.6 |
| 13. | Şaxtaçılıq | 31 | 1 | 2 | 0 | 1 | 93.7 |
| 14. | Sınıqçılıq | 34 | 6 | 4 | 0 | 0 | 92.7 |
| 15. | Qəssablıq | 122 | 9 | 4 | 4 | 4 | 92.3 |
| 16. | Yabanı balın yığılması | 39 | 5 | 2 | 0 | 2 | 91.7 |
| 17. | Torpağın təmizlənməsi | 95 | 34 | 6 | 3 | 1 | 90.5 |
| 18. | Balıq tutma | 83 | 45 | 8 | 5 | 2 | 86.7 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 19. | Böyük heyvanların qayğısına qalma | 54 | 24 | 14 | 3 | 3 | 82.4 |
| 20. | Evtikmə | 105 | 30 | 14 | 9 | 20 | 77.4 |
| 21. | Torpağın səpinə hazırlanması | 66 | 27 | 14 | 17 | 10 | 73.1 |
| 22. | Şəbəkədüzəltmə | 42 | 2 | 5 | 1 | 15 | 71.2 |
| 23. | Kəndirdüzəltmə | 62 | 7 | 18 | 5 | 19 | 69.9 |
| 24. | Yanğınsöndürmə | 40 | 6 | 16 | 4 | 20 | 62.3 |
| 25. | Bədən qüsurlarını düzəltmə | 36 | 4 | 48 | 6 | 12 | 60.8 |
| 26. | Dəri hazırlama | 39 | 4 | 2 | 5 | 31 | 54.6 |
| 27. | Kiçik heyvanların toplanması | 27 | 3 | 9 | 13 | 15 | 54.5 |
| 28. | Əkinəkmə | 27 | 35 | 33 | 26 | 20 | 54.4 |
| 29. | Dəri əşyaların tikilməsi | 35 | 3 | 2 | 5 | 29 | 53.2 |
| 30. | Məhsulun yığılması | 10 | 37 | 34 | 34 | 26 | 45.0 |
| 31. | Məhsula qulluqetmə | 22 | 23 | 24 | 30 | 32 | 44.6 |
| 32. | Sağın | 15 | 2 | 8 | 2 | 21 | 43.8 |
| 33. | Səbətqayırma | 37 | 9 | 15 | 18 | 51 | 42.5 |
| 34. | Yükdaşıma | 18 | 12 | 46 | 34 | 36 | 39.3 |
| 35. | Kiçik xalcaların hazırlanması | 30 | 4 | 9 | 5 | 55 | 37.6 |
| 36. | Kiçik heyvanlara qulluq | 19 | 8 | 14 | 12 | 44 | 35.9 |
| 37. | Ərzağın hazırlanması | 23 | 2 | 3 | 3 | 40 | 32.9 |
| 38. | Toxuculuq | 18 | 0 | 6 | 8 | 50 | 32/5 |
| 39. | Kiçik dəniz heyvanların əldə olunması | 11 | 4 | 1 | 12 | 27 | 31.1 |
| 40. | Yanacağın hazırlanması | 25 | 12 | 12 | 23 | 94 | 27.2 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 41. | Geyimin hazırlanması | 16 | 4 | 11 | 13 | 78 | 22.4 |
| 42. | İçkilərin hazırlanması | 15 | 3 | 4 | 4 | 65 | 22.2 |
| 43. | Gildən qabqayırma | 14 | 5 | 6 | 6 | 74 | 31.1 |
| 44. | Yabanı bitkilərin toplanması | 6 | 4 | 18 | 42 | 65 | 19.7 |
| 45. | Ağartı məhsullarının hazırlaması | 4 | 0 | 0 | 0 | 24 | 14.3 |
| 46. | Yun əyirmə | 7 | 3 | 4 | 5 | 72 | 13.6 |
| 47. | Paltaryuma | 5 | 0 | 4 | 8 | 49 | 13.0 |
| 48. | Su daşıma | 4 | 4 | 8 | 13 | 131 | 8.6 |
| 49. | Xörəkhazırlama | 0 | 2 | 2 | 63 | 117 | 8.3 |
| 50. | Tərəvəzin hazırlanması | 3 | 1 | 4 | 21 | 145 | 5.7 |

**Mənbə:** G.P.Murdock and C.Provost, 1998

O’Kelli və Karni ovçuluq və yığıcılıq cəmiyyətlərində əməyin genderə görə bölünməsi modelini aşağıdakı kimi təsnif etmişdir:

* kişilər ovçuluq edir, qadınlar da bu procesdə iştirak edirlər;

* kişilər ovçuluq edir, qadınlar yığıcılıqla məşğul olurlar;

* kişilər ovculuq edir, kişi və qadınlar yığıcılıq edirlər;

* kişilər ovçuluq və balıq tutmaqla, qadınlar ovçuluq və yığıcılıqla məşğul olurlar;

* kişilər və qadınlar müstəqil şəkildə ovçuluq, balıqçılıq və yığıcılıqla məşğul olurlar;

* kişi və qadınlar müştərək şəkildə ovçuluq və yığıcılıqla məşğuldurlar (O’Kelly and Carney, 1986).

Birinci tip modeldə (eskimoslar üçün uyğundur) ət və balıq qidanın əsasını təşkil edir, yeməyin əsas təminatçısı kişilərdir. Es-

kimoslar başqa tələbatlarını digər cəmiyyətlərə ət və balıq verib özlərinə lazım olanı almaqla ödəyirlər. Qadınlar onlardan asılıdırlar və bu səbəbdən də kişilərin işi daha prestijli və mühüm hesab olunur. Lakin bu cəmiyyətdəki qadınlar heç də gücsüz deyillər və ya onların gördükləri işlər az əhəmiyyətli hesab olunmur. Qadınlar özlərini qorumağı bacarırlar, şamanlıqla məşğuldurlar, yaşlı qadınlar siyasi hərbi məsləhətçi qismində çıxış edə bilərlər. Qadınlar geyim, ov və balıqçılıq üçün lazım olan ləvazimatları hazırlayırlar (Yenə orada). Nəticədə, "*kişilərin mövcud olması üçün qadınların bu vərdişləri önəmlidir və bu, kişilər tərəfindən də belə qəbul edilmişdir... Nə daha yaxşıdır (və ya önəmlidir), yaxşı ovçu və ya yaxşı geyim hazırlayan? Bu, eskimoslar üçün mənasız sualdır; hər ikisi mühümdür*".

Birinci model gender tamamlayıcı olduğu üçün digər ovçuluq-yığıcılıq cəmiyyətlərinə nisbətən az eqalitar hesab olunur. Kung kolluqlarında yaşayan cəmiyyətin 60 %-dən 80 %-ə qədəri öz ərzaq tədarüklərini yığıcılığın hesabına yerinə yetirirlər. Bu cəmiyyətin Kalahara səhrasında yaşayan sakinləri ikinci modelə uyğun gəlir. Lakin cəmiyyət ovçuluqla əldə olunan ərzaqdan az asılıdır, dediyimiz kimi onlar əsasən öz ərzaq tədarüklərini yığıcılığın hesabına yerinə yetirirlər. Bu cəmiyyətin qadınları kollar haqqında müstəsna bilgilərə malikdirlər. Yığıcılığın uğurlu olması onların bitkilər haqqında bilgilərindən çox asılıdır. Onlar hansı bitkinin yeməli olub-olmamasını çox yaxşı bilirlər (Draper, P., 1975: 103). Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, onlar təkcə bitkilər haqqında deyil, həmçinin ovçuluq üçün mühüm hesab olunan digər bilgilərə də malikdirlər. Onlar ov heyvanlarının ayaq izləri ilə onların növünü, hansı istiqamətə və nə zaman getməsini də təyin edə bilirlər. Kişilərin hər zaman qadın məsləhətinə ehtiyacı olur. Hətta suların yerini də qadınlar çox yaxşı bilirlər (Yenə oarada)

Kunqda da əmək genderə görə bölünür, lakin qadın və kişilərə bir-birilərinin işlərini yerinə yetirməyi kimsə qadağan etmir. Ki-

şilər heç bir utancaqlıq hissi keçirmədən "qadın işi hesab olunan" tapşırığı yerinə yetirirlər. Burada ümumiyyətlə, aqressivlik yaxşı qarşılanmır. Onlar deyirlər ki, biz oğlanlarımıza uşaq vaxtından insanları deyil, heyvanları öldürməyi öyrətmişik. Burada bir cins digərindən artıq qiymətləndirilmir.

Altıncı tip modeldə Zair Mbuti piqmilər kollektiv fəaliyyətə üstünlük verirlər. Aqta fillipinlilər də bu modelə daxildirlər. Aqta qadınları və kişiləri bıçaq, ox və nizədən istifadə etməklə ov edirlər. Onlar hətta dənizin dərinliyində iri balıqları nizə ilə ovlayırlar ki, bu da xüsusi fiziki dözümlülük tələb edir (Estioko-Griffin, A., 1987). Bu cəmiyyət, yuxarıda deyildiyi kimi, ən eqalitar cəmiyyət hesab olunur. Bu cəmiyyətdəki kooperativ əməkdaşlıq, yüksək eqalitar gender rollarından xəbər verir.

Bir şeyi də qeyd etmək lazımdır ki, eqalitar gender münasibətləri təkcə ovçu-yığıcı cəmiyyətlər üçün xarakterik deyildir. Eqalitar münasibətlərin mövcud olduğu digər cəmiyyətlər də vardır. Lepovskinin qeyd etdiyi *bağbançılıql*a məşğul olan digər cəmiyyətlər (Papua Yeni Qveniyanın Cənubi-Şərqində balaca adada yaşayan Vanatinai xalqı) də vardır ki, əməyin bölgüsü və digər sosial əlaqələr yüksək eqalitarlıqla müşayiət olunur. Vanatinainın həm kişiləri, həm də qadınları əkib-becərirlər, ailəyə birgə qayğı göstərirlər. Düzdür, nizə ilə ov ovlamağın üzərində kişi monopoliyası vardır, qadın kiçik heyvanları tələyə salmaqla ov edir. Uşaqların qayğısına qalmaq məsuliyyətini qadınlar daşısalar da, kişilər də bu işi məmnuniyyətlə görürlər. Hər iki cinsin nümayəndələri magiya ilə, hərbi fəaliyyətlə məşğul olur, sülh və icmanın qərarlarının qəbul edilməsi prosesində, dənizdə bahalı məmulatların tapılması ekspedisiyasında iştirak edir. Qısası, Vanatinai cəmiyyətində eqalitar gender rolları bu xalq üçün təəccüblü deyildir.

Bu cəmiyyətlər üçün bir neçə maraqlı məqam da xarakterikdir. Birincisi, genderin müasir Qərb konstruksiyası universal deyildir. Aparılan tədqiqatlardan aydın olur ki, qarışıq mədəniyyətlərdə gender münasibətləri çeşid-çeşiddir, bəzilərində bu mü-

nasibətlər tam eqalitardır. Nəzərə alsaq ki, bu cəmiyyətlər bizim əcdadlarımızın yaşadığı cəmiyyətlərə bənzər şəkildə yaşayırlar, o zaman şahid oluruq ki, onların gender münasibətləri Qərbin bizə təqdim etdiyi modeldən çox fərqlidir. Burada müşahidə olunanlarla *Kişi Ovçu* cəmiyyəti haqqında yazılanlar heç bir halda düz gəlmir. Əksinə, buradan belə nəticəyə gəlmək olar ki, onlar kooperativ şəkildə yaşamışlar.

İkinci əsas məsələ ondan ibarət idi ki, *əməyin genderə görə bölünməsi* heç də *gender bərabərsizliyinə* gətirib çıxarmır. Burada əsas onların gördükləri işin qiyməti idi, burada bu işi hansı genderin yerinə yetirməsinin əhəmiyyəti yox idi. Qadın və kişilər müxtəlif tapşırıqları yerinə yetirmək üçün cavabdeh idilər. Buradakı qadınlar da kişilər qədər qərar qəbuletmə və iqtisadiyyat prosesində iştirak edə bilirdilər. "Buradakı sinifsiz cəmiyyətlərdə diferensial dəyərə translyasiya olunan diferensiasya problemi yox idi" (O'Kelly, G.G., and L.S.Carney, 1986).

Üçüncü və dördüncü əsas məqam qadınların dünyaya uşaq gətirə bilməsi ilə əlaqədardır. Bir az əvvəl qeyd edilmişdi ki, qadınların reproduktiv funksiyası onları qida əldə edə bilmə imkanından məhrum edir (struktural funsionalistlərə görə). Lakin bir şey aydındır ki, qadınlar ona görə bir çox funksiyalardan avtomatik xaric olunmuşlar ki, onlar uşaqlara qayğı göstərirlər, əksinə, kişilər avtomatik uşağa baxmaq imkanından ona görə xaric olunmamışlar ki, onlar bunu qadınlar qədər yaxşı bacarmırlar.

Araşdırılan preindustrial cəmiyyətlərdə qadınlar uşaq dünyaya gətirmə və uşağa qayğı göstərməyə görə digər vəzifələrdən azad olunmamışlar. Əksinə, qadınların uşağa baxa bilmə, onları böyütmə, onlara qəyyumluq edə bilmə bacarığı onların statuslarını daha da yüksəltmişdir.

Buradan belə nəticə çıxır ki, "kişi işi" və ya "qadın işi"ni bioloji amillərdən daha çox, qeyri-bioloji amillər - mühit resursları, qrupun ölçüsü, iqtisadiyyat və ideologiya təyin edir.

Bununla da, Ziqmund Freydin dediyi "*anatomiya bizim ta-*

*leyimizdir*” ifadəsi öz təsdiqini tapmır. Buna biz digər genderləri nəzərdən keçirəndən sonra daha çox əmin ola bilərik.

**Digər genderlər**. Bu günə qədər biz genderi dixotamik kateqoriya kimi müzakirə edirdik, lakin məlum olur ki, genderin mahiyyətinin bu şəkildə təsvir etmək yanlışdır. Bəzi cəmiyyətlərdə hətta üç, dörd gender mövcuddur. Buna Asiya, Sakit Okean sahillərinin cənubunda və Şimali Amerikada yaşamış *berdakilər* yaxşı misaldır. *Berdakilər* əks cinsin gender davranışına yiyələnən fərdlərdirlər. Qadınların da arasında *berdaki*lərin olmasına baxmayaraq, təəssüf ki, ən əsas tədqiqatlar kişilərin arasında olan *berdaki*lərlə aparılmışdır.

*Berdakilər* əks cinsin yaşadığı kimi yaşayır, onların işlədiyi kimi işləyir, onların geyindiyi kimi geyinirlər. Bununla belə, onlar hər iki cinsin nümayəndələrinin yerinə yetirdiyi işləri görürlər (Roscoe, W, 1991). *Mohaveler* (etnik qrup) cəmiyyətlərindəki qadın və kişilərə qarışıq gender tipi kimi yaşamalarına icazə verirlər. Qız oyuncaqları ilə oynayan və onlar kimi geyinən oğlanların yeniyətməlik dövründə *əlihə*liyi qəbul etmə imkanı olur. *Əlihə*lər qadın adını qəbul edirlər, icmalarındakı qadınlar kimi üzlərini boyayırlar, qadın işlərini yerinə yetirirlər və kişilərlə evlənirlər. Onlar bunların hamısını teatr şəklində - rituallar etməklə edirlər. Reallıqda, bu ondan o yana getmirdi (Martin M.K., and B.Voorhies, 1975).

*Mohave* qadını da kişi həyat tərzini özünə yaxın bilirsə və onlar kimi yaşamaq istəyirsə, onlar üçün heç bir problem yaranmır. Bunu qəbul edən qızlara *hvamilər* deyirlər. *Hvamilər* kişilər kimi yaşayır, ov ovlayır, fermerlik edir, şamanizmlə məşğul olur, müharibə zamanı hətta liderlik pozisiyasında da ola bilirlər. Bəzi qadınlar övlad dünyaya gətirəndən sonra *hvamilik* edirlər. Bu cəmiyyətlərdə nə *hvamilik,* nə də *əlihəlik* qeyri-normal, deviant hesab olunur.

Antropoloq Vil Roskou Zuni *berdakilər* (Amerika induslaı onları *İlamana* adlandırırlar) barəsində geniş araşdırma apar-

mışdı. Onun fikrincə, bu insanların genderi qarışıq olsa da, onlar bəzi tədqiqatçıların hesab etdikləri kimi nə transvestit, nə də transseksualdırlar. Onların belə geyimləri bu tayfaların rituallarına görədir. *Berdakilər* də homoseksual deyillər. Genderin belə təşkili fərdin identifikasiyasının və davranışının coğrafiyasını genişləndirir. Roskou qeyd edir ki, *berdaki* statusunda utanacaq bir şey yoxdur, çünki onlar öz cəmiyyətlərində neqativ deviant anlamında qəbul olunmurlar. Bununla da, Zuni konsepsiyasına görə onu demək olar ki, kimsə genderi ilə birlikdə döğulmur, gender bütün həyat boyu qazanılır, inkişaf edir və dəyişir. Faktiki olaraq, altı yaşına qədər uşaqda gender mühüm atribut hesab olunmur və hər iki cinsin uşaqlarına "oğlan", "qız" kimi deyil sadəcə, "uşaq" kimi münasibət göstərilir.

Zuni fəlsəfəsinə görə birinin kişi, qadın və ya berdaki statusu onun mədəniyyətinin məhsulu, sosializasiyanın nəticəsidir, gender rolları, bir və ya bir neçə gender təcrübəsinin adaptasiyasıdır. Bütün bunlar zunilər üçün arzuolunandır.

Feminist alimlər təəssüflə qeyd edirlər ki, berdakilərin təkamülü və genderin geniş konsepsiyası imkanı onların "ağlar"ın mədəniyyətlərinə qarışmasından sonra tədricən yoxa çıxdı. İkinci dünya müharibəsinin sonuna qədər *berdakilər* mövcud idi, lakin yerli amerikalıların onları lağa qoyması və *berdaki* olmaqlarına görə utandırması onların tam yoxa çıxmasına səbəb oldu. Onlara edilən təzyiqə davam gətirməyən *berdakilər*, *berdaki* olmaqlarını gizlətdilər və öz hisslərini daxillərində boğdular. Roskou araşdırma apararkən, Şimali Amerika cəmiyyətlərinin içərisində *berdakizmi* yenidən kəşf etdi.

Belə qarışıq gender nümunələrinə Tahitian mədəniyyətində, Oman müsəlmanlarının, Hindistanın Hicras tayfalarının arasında da təsadüf etmək olar (Nanda, S., 1972). Müəllif iddia edir ki, genderə stabil sosial kateqoriyadansa, proses kimi yanaşmaq daha düzgün olardı. Fərd bütün həyatı boyu gender dəyişikliyinə məruz qalır. Huada maskulin insanların yüksək statusu vardır, lakin

onlara görə onlar zəifdirlər. Burada feminin insanlar zəif olmasalar da, çirkaba bulanmışlar. Uşaq anadan olanda qadın, dünyaya gələcək körpəsinə femininliyi ötürə bilir. Beləliklə, çoxlu uşaq dünyaya gətirən qadının çirkabı azalır və uşaqların sayı artıqca o paklaşır. Üç uşaqdan sonra o artıq çirkaba bulanmış hesab olunmur. Qadın müzakirələrdə və rituallarda iştirak edə bilər və kişiyə aid olan yüksək status və gücə sahib ola bilər.

Hua kişisi oğlan uşaqların doğum rituallarında iştirak etdikcə, tədricən maskulinliyini itirir. Bundan sonra kişilər fiziki olaraq zəif olmasalar da pak hesab olunmurlar. Tarlada cavan gəlinlə birlikdə işləyən yaşlı kişinin sosial gücü azalır. Gender bir şəxsdən digərinə ötürülür və beləliklə də, gender bir ömür boyu inkişaf edir, dəyişir və əks cinsin xarakterini qəbul edir (Gailey, C.W., 1987). Araşdırılan nümunələrdə genderin iki deyil, çox sayda, həm də kriativ olması faktı məlum olur.

**Gender, təkamül və mədəniyyət**. Bu fəsildə biz genderi təkamül perspektivindən araşdırmağa çalışdıq. Ovçu kişi nəzəriyyəsinə görə, gender bərabərsizliyi və asimmetriyası maskulinlik və femininliklə bağlıdır. Onlara görə, müasir Qərb industrial cəmiyyətləri tarix və mədəniyyətlərə görə universaldır. Bunu ona görə belə hesab edirlər ki, keçmişdə hamiləlik və analıq qayğıları ucbatından qidanın təşkilində və özünümüdafiə məsələsində qadın kişidən asılı olmuşdur. Qadınlar evə çox bağlı olmuşlar, kişilər müdafiə və qida əldəetmə imkanına görə ictimai sferada daha üstün olmuşlar. Kişilərin birgə kooperativ ov ovlamağı onlara dili yaradıb inkişaf etdirmək və maddi texnologiyanı kəşf etmək imkanı vermişdir.

Kişi ovçu nəzəriyyəsinin əksinə olaraq, feministlər iddia edirlər ki, yuxarıda verilən üç mənbə (arxeoloji qazıntılar, primatologiya, antropoloji araşdırmalar), əsasən də, müasir ovçu-yığıcı cəmiyyətləri onlara yeni alternativ nəzəriyyə təqdim etmək imkanı verir. Hər iki nəzəriyyədə kifayət qədər çatışmazlıqlar gözə dəysə də, təqdim olunan alternativ nəzəriyyə tarixi, keçmişimizi

yenidən konstruksiya etmə imkanını verir. Ovçu kişi nəzəriyyəsini kişi tərəfkeşliyinə görə tənqid edən feminist alimlər, özləri də bilmədən yeni nəzəriyyədə qadın tərəfkeşliyindən (*caynasentrizm*) çıxış edirlər. Lakin ən azı aparılan çoxsaylı tədqiqatlar bunu deməyə imkan verir ki, bəzi yerlərdə insanlar icmalarının sosial təşkilində kooperativ əməkdaşlığa üstünlük verirlər və bir-birinə güzəştə getməyi bacarırlar.

Həmçinin qadınlar passiv və asılı olmaq əvəzinə qidanın təşkilində aktivdirlər, həm də onlar müasir texnologiyanın kəşfində də yaxından iştirak edirlər. Ovçuluq-yığıcılıq cəmiyyətlərində hər iki cins hər növ işlərin yerinə yetirilməsində aktiv iştirak edir. Onların yaşayışında ovçuluq nə qədər önəmli olsa da, insanların yaşayışı yığıcılıqdan daha çox asılıdır. Hər iki cins mövcudolma fəaliyyətində çox fəaldır. Çoxsaylı genderin mövcudluğu bir daha bizə onu deməyə imkan verir ki, onlar müstəqil kateqoriyalardır. Nə gender, nə də cins dixotomikdir, hər ikisi çoxyönümlüdür.

Bir maraqlı sual meydana çıxır. Əgər bəzi cəmiyyətlərdə bu qədər yüksək eqalitarlıq varsa, niyə Qərb cəmiyyəti hələ də patriarxal olaraq qalır? Əlbəttə, bunlar bioloji amillərdən deyil, iqtisadi, siyasi və sosial səbəblərdən irəli gəlir.

## Ədəbiyyat:

**Azərbaycan dilində**

1. İ.Hüseynov və N. Əfəndiyeva, “*Qədim dünya mədəniyyəti*”, Bakı, 2009, səh.6

**English**

2. Bıeier, R, “*Science and Gender*”, New York: Pergamon Press, 1984, p.116-123
3. Draper, P. “*!Kung Women: Contrasts in Sexual Egalitarianism in Foraging and Sedentary Contexts*,” Pp. 77-109 in R.R.Reiter (Ed.). *Toward an Anthropology of Women*. 1975, New York: Monthly Review Press

4. Dupre, J., "*Global Versus Local Perspectives on Sexual Difference*," in D.L. Rhode (Ed.), *Theoretical Perspectives on Sexual Difference*, New Haven, CT: Yale University Press, 1990, Pp.42-62
5. Estioko-Griffin, A., "*Daughters of the Forest*," Natural History 95, 1987
6. Gailey, C.W., "*Evolutionary Perspectives on Gender Hierarchy*", Pp.32-67 in B.B. Hess and M.M. Ferree (Eds.), Analyzing Gender Newbury Park, CA: Sage, 1987
7. Gough, K., "*The Origin of the Family,*" Pp. 51-76 in R.R.Reiter (Ed.), *Toward an Anthropology of Women*, New York, 1975
8. G.P.Murdock and C.Provost, "*Factors in the Division of Labor by Sex: A Cross-Cultural Analysis*," *Ethnology* 12:207; and D.S.Eitzen, *In Conflict and Order*; Boston: Allyn and Bacon, Inc., 1998
9. Hubbard, R, "*The Political Nature of Human Nature*," Yale University Press, 1979, pp. 63-73
10. Leacock, E., "*Women In Samoan History: A Further Critique of Derek Freeman*," New York: Cambridge University Press, 1989, Pp. 351-365 in B.D. Miller (Ed.), Sex and Gender Hierarchies.)
11. Lovejoy, O., "*The Origins of Man*," Science, 211, 1981,Pp. 341-350
12. Lepowsky M., "*Women, Men and Agression in an Egalitarian Society*," Sex Roles 30, University oif Pennsylvania Press, 1994, Pp.199-211
13. Martin M.K., and B. Voorhies, "*Female of the Species*", New York: Columbia University Press, 1975
14. M. Mead., "*Sex and Temperament in Three Primitive Societies*," New York: Dell, 1935
15. Nanda, S., "Neither Mn Nor Woman: The Hijras of India", Belmont, CA: Wadsworth, 1972

16. O'Kelly, G.G., and L.S.Carney "*Women and Men in Society: Cross-cultural Perspectives on Gender Stratification"*. Belmont, CA: Wadsworth, 1986
17. Rogers, S.C., "Woman's Place: A Critical Review of Anthropological Theory," *Comparative Studies in Society and History*, 20, 1978, 123-162
18. Roscoe, W, "*Zuni Man-Woman*", Albuquerque: University of New Mexico Press, 1991
19. Tanner, N., and Zihlman, A., "*Women in Evolution. Part I: Innovation and Selection in Human Origins*," Signs 1:585-608, 1976
20. Wright, P.C., "*Variaton in Male-Female Dominance and Offspring Care in Non-human Primates*," in B.D. Miller (Ed).), *Sex and Gender Hierarchies*. New York: Cambridge University, 1993, Pp. 127-145
21. Wylie, A "*Gender Theory and the Archeological Record: Why is There No Archeology of Gender*? Pp.31-56 in J.M Gero and M.W. Gonkey (Eds.), Engendering Archeology. New York: Basil Blackwell, 1991

# III FƏSİL

## Tibb və gender: cinsi diferensiasiya

Bioloji-elmi nöqteyi-nəzərdən cins nədir? Əgər söhbət insandan gedirsə, biz bu və ya digər fərdin cinsi mənsubiyyətini bir sıra fiziki əlamətlərin köməyi ilə təyin edirik (bədən quruluşunda olan fərqlər, ikinci dərəcəli cinsi əlamətlər, genitaliyanın quruluşu), lakin digər canlıların təyinatında biz yuxarıda toxunulan əlamətlərdən bu dərəcədə istifadə etmirik. Daha dəqiq desək, dişi məxluq iki X-xromosom, erkək məxluq isə XY xromosomun daşıyıcısı olur. Belə yanaşma bəzi canlılara şamil edilsə də, bunları biz balıq, amfibiya və quşlara tətbiq edə bilmərik. Erkəklərdə iki qısa, dişilərdə isə daha uzun X-xromosomu olur. Ümumiyyətlə, heyvanların cinsini təyin edən universal metodlar mövcuddurmu? Bəli, bunu təyin etmək olur. Bioloji cins döl hüceyrələri ilə təyin edilir ki, onlar da orqanizmi formalaşdırır.

Əgər heyvanda böyük olçülərlə, az hərəkətliliyi və bəzi bəsləyici (qidalı) maddələr ehtiyatı ilə fərqlənən qametlər – başqa sözlə desək, yumurta hüceyrəsi əmələ gəlirsə, bu fərd dişi hesab olunur. Əgər cinsiyyət hüceyrələri kiçik, hərəkətlidirlərsə və bəsləyici (qidalı) maddələr ehtiyatı saxlamırlarsa, onlar erkək hesab olunurlar. İnsanlarda isə bunlar çox mürəkkəbdir.

**Cins xromosomları və cinsi diferensiasiya**. Orqanizmin hər bir hüceyrəsi hər hansı bir informasiya proqramını saxlayır, ona uyğun olaraq fəaliyyət göstərir. Bu proqram hüceyrə nüvəsində olan xromosomlarda yerləşir. Hər bir hüceyrə bölünməsinin xüsusi görünüşündə heç bir qamet (reproduktiv hüceyrə) fərqi yoxdur, bu ya yumurta hüceyrəsi, ya da spermotozoid olsun, cəmi

23 cüt xromosoma malikdir. Lakin insan inkişafı prosesi bizim ağlımıza gəlməyən dərəcədə mürəkkəbdir.

Dediyimiz kimi yumurta hüceyrəsi və spermotozoidin hər birində 23 sayda xromosom vardır. Mayalanma zamanı bunların birləşməsi nəticəsində yeni orqanizm hüceyrəsi əmələ gəlir və onun da daxilində 46 sayda (23 sayda anadan + 23 sayda atadan) xromosom olur. Birləşməyə (mayalanmaya) hazır olan cinsi hüceyrələr (yumurta hüceyrələri və spermotozoidlər) qamet adlanırlar. Qadın qametləri yalnız bir növə malik olur – 23, X. Kişi qametləri isə iki növ olur – 23, X və 23, Y. Qadın cinsi hüceyrəsini X-spermatozoid və ya Y-spermotozoid mayalandıra bilər. Buna görə də, əgər qadın cinsi hüceyrəsini X- spermotozoid mayalandırarsa, qız (23, X ana + 23, X ata + 46, XX) uşağı, Y-spermotozoid mayalandırarsa oğlan (23, X ana – 23, Y ata + 46, XY) uşağı dünyaya gəlir.

Yuxarıda qeyd etdiyimiz kimi, insan orqanizminin bütün hüceyrələrində (dəri, əzələ, sümük, müxtəlif orqan və toxuma hüceyrələri) olan 46 sayda xromosomun 22 cütü insanın müxtəlif əlamətləri və xüsusiyyətləri barədə məlumatların daşıyıcılarıdır. Bu hüceyrələrin daxilindəki sonuncu bir cüt xromosom isə cinsi xromosomlardır. Qadınlarda cinsi xromosomlar eyni cür olur, yəni iki X, kişilərdə isə müxtəlif - biri X, biri Y olur. Beləliklə, qadın xromosom dəsti – 46, XX, kişi xromosom dəsti isə 46, XY-dir (Winter, J.S.D., Faiman, C., and Reyes, F.I., 1977 :45).

Müstəsna hallarda bu belə olmaya bilər. Bu cütlərin biri atadan, digəri anadan təkan alır. Xromosomların bir cütü cins xromosomu olduğu üçün bu xromosom mayalanmış yumurtanın erkək və dişi cinsi olmasında başlıca rol oynayır. Genetik normal erkəkdə cins xromosomları X və Y olduğu halda, genetic normal dişi cinsində iki X-dır. Beləliklə, uşağın anası hər zaman XX xromosomuna təkan verdiyi üçün, əsasən, atanın genetik təkanı uşağın cinsini təyin edir ("SRY gene". *US National Library of Medicine*, 2015, Pp. 1-5)

Ana bətnində olan bu rüşeymin xarici və daxili cinsiyyət sistemi nə zaman yaranır və necə inkişaf edir? Bunun hamiləliyin hansı dövrünə təsadüf etdiyini ətraflı öyrənməkdən ötrü bu barədə tibbi məlumat əldə etməyimiz əsas şərtlərdəndir. Bəzi alimlərin iddiasına görə, təxminən menstruasiya dövrünün 14-cü günündə toxum hüceyrəsi yetkinləşir və mayalanmaya hazır olur. O, yumurtalıqdan çıxır və uşaqlıq yoluna (fallopian) düşür. Fallopiona daxil olan spermatozoid yumurta ilə qarışır və təkhüceyrəli rüşeym – ziqota əmələ gəlir. Mayalanmış toxuma hüceyrəsi fallopian yolu ilə aşağıya doğru hərəkət edərək daha çox hüceyrələrə bölünür. Mayalanmanın təxminən 4-cü günündə toxuma hüceyrəsi uşaqlıq boşluğuna gedib çatır. Bu dövrə qədər həmin maye kürə şəklini alır. Çox kiçik olduğu üçün o qədər seçilməsə də, 100 hüceyrəni özündə birləşdirir. İlk 8 həftədə mayalanmadan əvvəl mövcud olan təkhüceyrəli orqanizmdən yaranan döl insanı bir şəkildə xəbərdar edərək embriona çevrilir. Embrionun xarici hüceyrələrinin tükcükləri uşaqlığı əhatə edən epiteli qatına daxil olur və nəticədə cift əmələ gətirmək üçün uşaqlıqdan qan damarları ilə birləşir. Digər heceyrələr göbəkbağında və dölü mühafizə edən örtükdə inkişaf edir. Daxili hüceyrələr üç təbəqəyə bölünərək müxtəlif orqan və toxumalar törədirlər. Beş-altı həftəlik embrion maye ilə dolmuş kisəcikdə üzür. Beyin, onurğa sütunu, mərkəzi sinir sistemi əmələ gəlir. Başcıqda dörd çüxur formalaşır – bunlar uşağın gələcək gözləri və qulaqlarıdır. Həzm sistemi, ağız və çənə rüşeym halında olur. Mədə və döş qəfəsi inkişaf edir, urək görünür və dövrün sonunda döyünməyə başlayır. Qan damar sistemi formalaşır. Əzaların kiçik rüşeymi əmələ gəlir. Embrionun həcmi alma çəyirdəyi boyda olur. İstər doğulacaq uşaq qız (XX) olsun, istərsə də oğlan (XY), altıncı həftəyə qədər embrional inkişaf elə olur ki, bütün rüşeymlər bipotensial olur. Bəzi ehtimallara görə embrional inkişafın altıncı həftəsindən Y xromosomunun üzərindəki yenicə təcrid edilmiş gen cinsi diferensiasiya üçün təkan ola

bilər və bu da rüşeymin tam tanına bilən həddə çatmasına imkan verir (Faust-Sterling, 1985: 78).

Üçüncü ayda körpənin uzunluğu təqribən 9 sm olur, cift öz quruluşunu tamamlayır və onun cinsiyyət üzvü özünü göstərməyə başlayır. Bəs cinslərin diferensiasiyası hansı dövrə düşür?

Mayalanmadan 8 həftə sonraya qədər qız və oğlan embrionu praktiki olaraq eyni cür görünüşə malik olur. Bir həftə sonra uşağın cinsini təyin etmək olur. 11-ci həftədə xarici cinsi orqanlar xarakterik görünüşə malik olurlar (Yenə orada).

Alimlərin iddialarına görə qeyri-müəyyən cinsiyyət vəzisinin erkək cinsiyyət vəzisinə transformasiyasını SRY (xromosomun cins təyin edən hissəsi) da təyin edə bilər. Uzun illər ehtimal olunurdu ki, H-Y antigen erkək cinsiyyət vəzisinin inkişafında başlıca rol oynayır, amma bir neçə erkək siçanın üzərində təcrübə aparılandan sonra məlum oldu ki, digər amillər də buna əsas ola bilərlər.

İnkişaf edərək erkək cinsiyyət vəzisi androgenlər adlanan hormonlar qrupuna sintez etməyə başlayır. Androgenlərin ən əsasları mülleran ləngidici maddə və testesterondur. Müllerian ləngidici maddə dişi boru sisteminin degenerasiyasına səbəb olur, testesteron isə erkək boru sisteminin sonrakı inkişafına təkan vermiş olur. (Testesteron elmi mənbələrdə bəzən kişi aqressivliyinin səbəbi kimi verilir, cinslər arasında davranış və səxsiyyətin xüsusiyyətlərindəki fərqlərin başlıca amili hesab olunur).

Beləliklə, dihidrotestesteron (DHT) hormonun ifrazı səkkizinci həftədə xarici cinsiyyət orqanlarının formalaşmasına təkan verir. DHT həmçinin, kişi beynin maskulinləşməsində başlıca rol oynayır (McLaren, A, 1990: 216-17).

İnsanın fərdi inkişaf xüsusiyyətləri qız və oğlan üçün eyni deyildir: Orta hesabla qız üçün çəki 3,17 kq və oğlan üçün 3,4 kq-dır. Urək və ağ ciyərin ölçüsü də qızlarda nisbətən azdır. Erkən uşaqlıq dövründə qızla oğlan eyni sürətlə böyüyürlər, lakin qızlar oğlanları skeletin möhkəmlənməsi və diş çıxarma prosesində ötüb keçirlər (Faust-Sterling, 1985).

Bəs dişi rüşeymin inkişafı haqqında bizə bu günə qədər hansı faktlar məlumdur? Təəssüf ki, hazırda bu proses alimlər tərəfindən tam xırdalığına qədər tədqiq edilib öyrənilməmişdir. Əvvəllər belə zənn edilirdi ki, Y xromosomun olmaması və testesteron produksiyasının çatışmamazlığı ucbatından hamiləliyin təxminən on ikinci həftəsində XX embrionu qeyri- müəyyən cinsiyyət vəzisinin yumurtalığa transformasiya edilməsinə təkan verir. Belə təsəvvür yaranır ki, erkək xromosomu olan Y-in olmaması ucbatından dişi rüşeym inkişaf edir. Buna parallel hipotezalar da mövcuddur. Erkək cinsiyyət vəzilərinin inkişafı üçün təkanverici amillər olduğu kimi, dişi yumurtalığını formalaşdıran amillər də vardır. Bəzi alimlərə görə dişi cins hormonu hesab olunan estrogen yumurtalıqda sintez edilib dişi cinsiyyət vəzilərinin inkişafı üçün əsas ola bilər. Bütün bu deyilənlər də hipoteza hesab olunur.

Yuxarıda söylədiklərimizdən savayı, müxtəlif hormonlar da cinslər arasındakı fərqlilik üçün əsas ola bilər. Yeni suallar meydana çıxır: Erkək və dişilər arasındakı mövcud davranış və şəxsi keyfiyyət fərqlərinə xromosom və hormonlar səbəb ola bilərmi? Əgər həqiqətən belədirsə, bu nə dərəcədədir? Bioloji əsaslı fərqliliklər dəyişkən ola bilərmi?

İnsandakı cinsi diferensiasiyanı aşağıdakı kimi xarakterizə etmək olar:

1) xromosom cinsi bütün cins xromosomlarının tərkibindən asılı olur;

2) qonadın cinsi formalaşmış qonadın tipindən asılı olur;

3) hormonun cinsi hasil edilən cins hormonlarının keyfiyyət və kəmiyyətindən asılı olur;

4) somatik və ya fenotipik cins xarici cinsiyyət orqanlarından, ikinci dərəcəli cinsi əlamətlərdən, bədənin mütənasibliyindən və başqa amillərdən asılı olur;

5) psixi cins fərdin psixoseksual oriyentasiyasından və fərdin gender mənsubiyyət anlamından asılı olur. Dəfələrlə qeyd etdiyimiz kimi, cins-şəxsiyyətin bioloji statusu olduğu halda, gender

onun müxtəlif sosio-mədəni faktorların təsiri altında olan sosio-psixoloji statusudur.

Hər bir xromosom minlərlə sayda genlərə malik olur. Hər bir gen isə insanın yalnız bir əlaməti (məsələn, gözlərin, dərinin rəngi, maddələr mübadiləsinin xüsusiyyətləri və s.) barədə məlumatın daşıyıcısı olur.

Doktor L.Şettlizin nəzəriyyəsinə görə, gələcək körpənin cinsinə mayalanmanın vaxtı da təsir edə bilir. Onun zəninncə, X xromosomlu spermotozoidlər qadın orqanizmində daha çox yaşayır. Buna görə də ovulyasiyadan 1-4 gün əvvəl baş verən mayalanma dünyaya gələcək uşağın qız olması ehtimalını artırır. Bu nəzəriyyəyə görə uşağın oğlan olması üçün tərəflər cinsi əlaqəyə ya ovulyasiyaya 12 saat qalmış, ya da ovulyasiya zamanı girməlidirlər. Ovulyasiya dövrü hansı dövr hesab edilir? Bu yumurtalıqdan yetişmiş yumurta hüceyrəsinin çıxdığı dövrdür.

Müasir dövrdə dünyaya gələcək körpənin cinsinin müəyyən edilməsində ən yayılmış üsullardan biri də Çin cədvəli üzrə hesablamadır. Bu üsulla uşağın cinsi mayalanma baş verən aydan hesablanır və bu qadının yaşından asılıdır. Bu nəzəriyyəni dəstəkləyənlərə görə bu hesablama 99% doğrudur. İndi bu hesablamalar haqqında məlumatları müxtəlif kitablarda tapmaq mümkündür. Bu, belə hesablanır: Valideynlərin mayalanmaya qədərki (mayalanma baş verən aya qədər) tamam olmuş yaş illəri və ayları götürülür. Ananın rəqəmi dördə, atanın rəqəmi üçə bölünür. Nəticələri müqayisə edəndə, rəqəmdəki vergüldən sonra rəqəmlər kimdə daha çoxdursa, o cins qalib gəlmiş deməkdir.

**Prenatal xətalar**. Prenatal xətalar nadir hallarda baş versələr də, istisna xarakterli olsalar da belə, təəssüf ki, bəzən bu hallar qaçılmaz olur. Baş verən bu xətalar cinsi xromosomların və hormonların inkişafının genderə olan təsirini öyrənmək üçün unikal imkanlar açır. Bu sahədə aparılan ilk tədqiqatların məkanı Conz Hopkinz Universitetinin nəzdindəki Gender İdentifikasiya Klinikasıdır.

Dişi döl androgen xarakterli olarsa, nə baş verə bilər? Dişi kimi dünyaya gəlsə də hərəkətlərində həm dişi, həm də erkək davranışlı ola bilər. Belə zənn edilir ki, genetik disfunksiya ucbatından, erkək dölün hüceyrələri androgen ifrazatına qeyri-həssaslıq göstərə bilər. Belə olan halda, dünyaya gələn uşaq feminin xarakterli, yoxsa maskulin xarakterli olacaqdır?

Prenatal xətalar hansılardır? Nəzərinizə çatdırmaq istədiyimiz ilk prenatal xəta sindromu *adrenogenital sindromdur* (AGS). Bu, ananın və ya dölün böyrəküstü vəzinin və ya ananın hormonun təsirə uğraması nəticəsində əmələ gələn disfunksiyadır. AGS-li fərdlərdə androgen yüksək dərəcədə olur və əlbəttə, bu vaxtında aşkar olunmazsa, fərd bütün həyatı boyu mütəmadi olaraq kortisol qəbul etməzsə, bu fərdin vəziyyəti heç də ürəkaçan olmaz (Hoyenga, K.B., and K.T.Hoyenga, 1993). Həm erkəklər, həm də dişilər androgen sindromla dünyaya gələ bilərlər. Bunlar genetik olaraq dişidirlərsə, onların daxili reproduktiv orqanları dişi xarakterlidir, lakin xarici cinsiyyət üzvləri erkəklərdə olduğu kimidir. Onların daxili reproduktiv orqanları [yumurtalıqları, uşaqlığın (fallop) borusu və uşaqlığın özü] normal olur və demək olar ki, hamiləlik qabiliyyətinə malikdirlər, sadəcə, onların xarici cinsiyyət oqanlarının kosmetik cərrahiyəyə ehtiyacı vardır.

Bütün həyatları boyu hormon əvəzedici terapiya qəbul etmələrinə baxmayaraq, bu sindromla doğulan dişilərdə yeniyetməlik dövründə qəribə hallar müşahidə olunur və elə bu qəribəliklər də alimlərdə böyük marağa səbəb olmuşdur. Bu sindromla doğulan uşağın gender identifikasiyası və davranış xüsusiyyətləri onlar üçün əsas tədqiqat obyekti olmuşdur. Dişi doğulanların uşaqlıq dövründəki gender rollarına kişi hormonları təsirsiz ötüşmür. Conz Hopkinz Universitetinin nəzdindəki Gender İdentifikasiya Klinikasında müalicə alan AGS-li qızlar alimlər tərəfindən müşahidə olunmuşdur və onlarla müsahibə aparılmışdır. Müsahibənin əsas sualları aşağıdakılar olmuşdur: Onların geyimlərində üstünlük verdikləri əsas elementlər, boş vaxtlarını hansı şəkildə

keçirmələri, gələcək məqsədləri və s. Onlar androgen sindromu ilə doğulmuş qızları normal qızlarla müqayisə etmişlər. Androgen sindromlu qızlar normal doğulmuş qızlarla nisbətdə daha oğlansayağı oyunlar oynamağa üstünlük verirlər, onlara məxsus geyimləri, məsələn, dondansa şalvar və şortlar geyməyi çox sevirlər. Oğlanlar üçün olan oyuncaqlar onlar üçün daha maraqlıdır. Onlar öz karyeraları barədə daha çox düşünürlər. Bu sindromla doğulan qızlar heç də aqressiv deyillər, romantik hisslərə yer verirlər, evlənməyə və ana olmağa həvəslidirlər (Baker S.W., 1980).

Sonralar da, bu sindromla doğulan qızların həyatını müşahidə etməkdə davam edən tədqiqatçılar iddia edirlər ki, müsahibədə iştirak edən qızların dediklərinə görə onların əks cinslərlə bağlı heç bir problemi olmamışdır. Müsahibədə iştirak edən qızlardan dördü normal ailə həyatı qurub, ana olmuşdu. Sadəcə, qızlardan bəziləri oğlanlarla gec münasibət qurmağa başlamışlar. Alim-tədqiqatçılar heteroseksual qızlarla, androgen sindromlu qızların davranışı arasında belə bir ciddi fərqin olduğunu qeydə almamışlar.

Bəs androgen sindromlu oğlanlar haqqında nə deyə bilərik? Bu oğlanların erkəyə məxsus XY xromosoma malik olmalarına baxmayaraq, onları bəzən XY dişilər qrupuna aid edirlər. Onların daxili cinsiyyət vəziləri normal erkəklərdəki kimi olsa da, xarici cinsiyyət orqanları dişilərdən az fərqlənir. Onlar doğulandan qıza bənzədiklərindən valideynləri tərəfindən elə qız kimi də böyüdülürlər, lakin onlarda olan XY xromosomu onları kişiliyə meyilli edir. Tədqiqatçı-alimlərə görə, bu oğlanlar çox feminin olurlar, hətta onlarda olan femininlik XX xromosomlu qızlardan daha çox olur. Bu cür sindromlu oğlanlar qızlara məxsus hesab edilən oyuncaqlarla, məsələn, gəlinciklərlə oynayırlar, qızların geyimlərini geyməyə üstünlük verirlər (Brooks-Gunn, J., and Matthews W.S., 1979).

Digər bir disfunksiya *5-alfa-ferment çatışmazlığı* (5-alpha-reductase deficiency) sindromu ilə doğulan uşaqlardır. Bu sindrom da prenatal xətalar sırasına daxildir. Bu tam mənada androgen

sindromu olmasa da, qismən androgen sindromu hesab olunur. Bu sindromla doğulan fərdlərdə, dihidrotestesteron (DHT) hormonu üçün lazım olan ferment qeyri-normal dərəcədə ya az olur, ya da bu həmin fərddə bu ferment ümumiyyətlə olmur. Qeyd etdiyimiz kimi, DHT o hormondur ki, erkəklərin xarici cinsiyyət orqanlarının formalaşmasına təkan verir. Xarici cinsiyyət orqanlarına görə, dişilərə bənzəyən ferment çatışmazlıqlı sindromlu oğlanlarda, yeniyetməlik dövründə testesteron hormonu çox hasil olunduğuna görə onların xarici cinsiyyət orqanları inkişaf edib fiziki olaraq normal oğlanlardan fərqlənməsə də, onlarda eyakulasiya sidik kanalında baş verir. Spermatozoidlərin inkişafı da mümkündür (Hoyenga, K.B., and Hoyenga K.T., 1993).

Alimlər ferment çatışmazlığı sindromlu oğlanlardakı hormonların onların gender identifikasiyasına necə təsir etməsi məsələsi ilə ciddi maraqlanıblar. Adətən, bu sindromla doğulan erkəklər dişilər kimi böyüdülüb tərbiyə olunurlar. Bu cür sindromla dünyaya gələn oğlanları araşdıran tədqiqatçılar iddia edirlər ki, onlar yeniyetməlik dövründə böyük çətinliklər çəkirlər. Birdən-birə xarici cinsiyyət orqanlarının maskulinləşməsi onları çaş-baş vəziyyətə salır. Yetkinlik dövrünə qədər özlərini dişi hesab edən bu erkəklər kişi olmaqlarını çox qorxu hissi ilə qarşılayırlar. Uzun illər dişi kimi (9-11 il) sosializasiyaya gedən fərdlər üçün birdən-birə erkək kimi davranmaq məcburiyyətində qalmaq, onları çox çətin vəziyyətə salır. Bəzi hallarda, erkən yaşlarında valideynlər bu sindromu hiss edirlər, lakin bunun tam mahiyyətini anlamadıqları üçün övladlarının cinsiyyət orqanlarında kosmetik əməliyyat etdirməklə işlərini bitmiş hesab edirlər. Lakin yeniyetməlik dövründə üzləşdikləri vəziyyət onlarda çaşqınlıq yaradır. Bu sindromlu erkəkləri başqa sözlə, məçihembra (kişi-arvad) da adlandırırlar.

Tibbdə digər xromosom anormallıqları da mövcuddur ki, onlar da tədqiqatçıların nəzərlərindən qaçmamışdır. Bu disfunksiyanın mənbəyi qeyri-düzgün sperma hasil etməklə başla-

yır. Məsələyə daha spesifik yanaşsaq, onda bizim üçün bir çox məsələlər aydın olar. Sperma hasilatı zamanı xromosomlar iki mərhələli proses zamanı bölünür və çoxalırlar (meiosis prosesi). Bu zaman iki növ sperma hasil olunur – bunların bəziləri Y xromosom daşıyıcısı və bəziləri isə X xromosom daşıyıcısı olurlar. Bəzi hallarda sperma düzgün şəkildə bölünmür və bu nekroz fokusu ətrafında canlı toxumaların olmaması (mitoz vaxtı xromosomların parçalanmaması) problemidir. Bu problem birinci mərhələdə (reduksion bölünmə) baş verirsə, iki növ sperma hasil olunur: ya həm X və Y, ya da nə X, nə də Y. Əgər bu spermalardan biri normal yumurtanı mayalayarsa, nəsil ya XXY, ya da XO olacaqdır. Əgər nekroz fokusu ətrafında canlı toxumaların olmaması problemi ikinci mərhələdə (reduksion bölünmə) baş verirsə, üç növ sperma hasil edilir: XX, XY və ya heç bir cins xromosomu olmayan. Bu spermalarla mayalanan yumurtalardan XXX, XYY və ya XO xromosomlu nəsil alınacaqdır.

XO xromosomlu fərdləri *Turner* sindromlular adlandırırlar. Y xromosomu olmadığına görə onlar erkək kimi inkişaf edə bilmirlər. İkinci X xromosomu olmadığına görə cinsiyyət vəzisinə məxsus toxumaları olmur və onlar heç bir cins xromosomu hasil etmirlər. Onlar qız kimi böyüdülürlər, cünki onların xarici cinsiyyət orqanları dişilərdə olduğu kimidir. Cins hormonun çatışmazlığına baxmayaraq, Turner sindromlu dişilərin tədqiqi göstərir ki, onların davranışı həddən artıq feminin xarakterlidir. Bu fərdlər davranışlarında qız kimi davranmağa və bəzək-düzəkli paltarlar geyinməyə çox üstünlük verirlər (Money J., and A.A.Ehrhardt, 1972).

Artıq X xromosomu olan (XXX və XXY) qadın və kişilər də fərqlidirlər. *XXX xromosomlu qadınlarda* qeyri-normal əlamətlər azdır, sadəcə onlar çox hündür olurlar. Bundan fərqli olaraq XXY xromosomlu (bu *Klaynfelter* sindromu adlanır) erkəklərdə kifayət qədər fiziki anomaliya hallarına təsadüf olunur. Onların xarici cinsiyyət orqanlarının az inkişaf etməsinə baxmayaraq, onlar daha çox erkəyə bənzəyirlər. Yetkinlik dövründə onların yançaqları qız

yançağına bənzəyir, döşləri böyük olur, cinsiyyət orqanları böyümür, sperma hasil etmirlər, səsləri dəyişib kobudlaşmır, normal erkəklərdə olan kimi onların üzlərində və digər lazımi yerlərində tüklər əmələ gəlmir. İnsanlarla münasibət qurmaqda çətinlik çəkirlər, utancaq olurlar, qadınlarla münasibət qurmaqda maraqlı deyillər. *XXY xromosomlu erkəklər* XY xromosomlu erkəklərdən emosional və sosial xarakterlərinə görə kəskin fərqlənirlər.

Maraqlı sindromlardan biri də *XYY xromosomu* ilə doğulan erkəklərdir. Bu insanların vücudu çox böyük olduğuna görə bəzən onları asanlıqla kriminal aləmin insanları hesab edirlər. Bu insanlar XY xromosomu ilə doğulan erkəklərdən fiziki cəhətdən çox böyük olduqlarına görə nəzər-diqqəti öz üzərilərinə tez çəkirlər. Fəslin əvvəlində qeyd edildiyi kimi, Y xromosomu, əsasən, seks hormonu olan testesteronu ifraz edir, testesteron hormonu hər zaman aqressivliklə assosiasiya olunur. Bu ikinci əlavə Y xromosomun olması belə bir hipotezaya əsas verir ki, bu tip insanlar daha aqressiv ola bilərlər. Hətta belə güman olunur ki, bu insanlar daha çox cinayət törədə bilərlər. Aparılan tədqiqatlar göstərir ki, bu xromosomla doğulan erkəklər xırda cinayətlərə meyilli olsalar da, güman edildiyi kimi normal XY xromosomu ilə doğulanlardan çox aqressiv deyillər. Bildiyimiz kimi, bu anomaliya halları kasıblar arasında daha çox təsadüf olunur, bunun da səbəbi qeyri-düzgün qidalanma, vitamin çatışmamazlığı, adekvat qayğı ilə əhatə olunmamalarıdır. Onların boylarının hündür olması onlara daha təhlükəli görünüş verir. Əlbəttə, bunlara olan münasibətdə sosial tərəfkeşlik də öz işini görür. Cəmiyyətdə formalaşan fikrə görə aşağı sinfin nümayəndələri arasında cinayət hallarına daha çox təsadüf olunur. XYY erkəklərin intellektual səviyyələrinin aşağı olması da ehtimal olunan iddialardandır. O zaman bütün bu hipotezalar bizə bioloji və sosioloji əlaqələrin güclü olmasından xəbər verirmi? Biz sadəcə, təkcə bioloji determinizmə etibar edə bilmərik.

Çox nadir hal sayıla bilən sindromlardan biri də *psevdohermafroditizmdir*. Psevdohermafroditizm sindromlu fərdlər o in-

sanlar hesab olunurlar ki, onların cinsi diferensiasiyası qarışıq və ya natamamdır. Onlarda həm yumurtalıq, həm də xaya olsa da, onlar nə funksional sperma, nə də yumurta hasil etmə qabiliyyətinə malikdirlər.

Money və Ehrhardt (1972) belə bir maraqlı məqamı da müşahidə etmişlər. Xromosomu və fiziki quruluşu normal olan iki əkiz oğlan sünnət olunurkən onlardan birinin cinsiyyət orqanı tamamilə zədələnir. Valideynləri onu bu vəziyyətdən çıxarmaq üçün cərraha müraciət edirlər və on yeddi aylıq oğlan cərrah tərəfindən rekonstruksiya olunur. Cərrahi əməliyyatdan sonra həkim oğlana ömürlük hormon müalicəsi tövsiyə edir. Həmin oğlan qız kimi böyüdülür və qız kimi uğurlu sosializasiya olur. Təbii, o, qız geyimləri geyinir, qız oyuncaqları ilə oynayır və əkiz tayından fərqli olaraq çox təmiz, səliqəli gəzib-dolanır və anasına ev işlərində yardım edir. Daha sonralar, bu məqamla digər tədqiqatçılar da maraqlanmağa başlayırlar və onun üzərində müşahidə aparırlar. On üç yaşına çatanda bu yeniyetmə ciddi problemlərlə üzləşir, belə ki, o ciddi emosional problemlər yaşayır, maskulin görkəm alan yeniyetmə tay-tuşları tərəfindən cırnadılır. Cırnatmalardan bezən yeniyetmə yenidən cərrahi əməliyyat olunur və bu dəfə də erkək olmağa üstünlük verir (Diamond M.A., 1982).

Bu hadisəni müşahidə edən tədqiqatçılar gender identifikasiyasının bioloji köklərinin güclü olması faktını vurğulayırlar. Bunu da qeyd etmək yerinə düşərdi ki, fərdin identifikasiyası bioloji və sosioloji amillərin bir-birinə olan təsirindən də çox asılıdır. Yetkinlik yaşında əkiz tayının görünüşünün maskulin formaya düşməsi, tay-tuşların onunla deviant (hamı kimi olmamaq, qeyri-normal hesab edilmə) kimi rəftar etmələri və onun psixoloji stres keçirməsi belə təsirdən doğan bir məqamdır. Bu onun öz qız tay-tuşlarından fərqli yetkinlik dövrü yaşaması, aybaşı olmaması ilə də izah oluna bilər. Valideynləri on üç yaşlı yeniyetməyə hələ də uşaqlıqda sünnətlə bağlı başına gələn xoşagəlməz hadisə barədə bir kəlmə söyləməmişdilər. Beləliklə, gender identifikasiyası-

nın inkişafının bioloji və ya sosioloji amillərlə əlaqəsi bizə çox şey deməyə imkan verir.

Bəs bu prenatal xətalar bizə gender haqqında nələr söyləməyə imkan verir? Yuxarıda müzakirə olunan prenatal xətalar az tədqiq olunduğundan, həmçinin çox nadir hallarda təsadüf edilən xətalar olduğundan bu barədə ümumiləşdirmələr aparmaq çətindir. Tədqiqatçılar hər zaman kiçik qeyri-tipik qruplarla tədqiqat aparmış və onların verdiyi informasiyaya əsaslanmışlar. Məsələn, AGS sindromlu qızlarla aparılan tədqiqat o qədər də obyektiv hesab edilə bilməz, çünki onlar artıq klinikalarda bu tip qızlarla yaxından tanış idilər və onlarla normal qızların fərqləri haqqında müəyyən bilgilərə malik idilər.

Bütün bu və digər çətinliklərə baxmayaraq, bu tədqiqat bizə xromosom və hormonların genderlə əlaqəsi barədə mühüm dərs verir. Tədqiqatçılara görə maskulin və feminin kimi inkişaf üçün XY və ya XX xromosomların olub-olmamasının əhəmiyyəti yoxdur və bundan asılı olmayaraq, gender identikliyi tamamilə müstəqildir. Tədqiqatçılar bir daha əminliklə qeyd edirlər ki, nə cins (təkcə dişi-erkək kimi bölünmür), nə də gender (təkcə feminin-maskulin kimi bölünmür) dixotomik deyildir. Cinsdən danışanda xromosom cinsi, hormonal cins, qonadal və ya genital cins də bura şamil olunmalıdır. Bəzi fərdlərdə dişi və erkəklik kateqoriyası daimi olsa da, tədqiqat bunların bəzən qeyri-daimi olduğunu da sübut edir. Cinsin dixotomik münasibətli, birxəttli xarakterindən bəhs olundu. Maskulinlik və femininlik adlandırılan gender özündə geniş spektrli, bütün həyat boyu dəyişikliklərə məruz qalan münasibət, davranış və sosial gözləntiləri ehtiva edir. Sözsüz, bizim qadın və kişi kimi kim olmağımızda biologiya rol oynayır, fərdin cinsindəki komponentlər (xromosom, hormon, gonad və genitallar) fərdin genderi ilə hər zaman üst-üstə düşmür (məsələn, XX xromosomu ilə dünyaya gələn dişi hər zaman feminin, XY xromosomu ilə dünyaya gələn erkək hər zaman maskulin olmur). Tədqiqatların göstərdiyi kimi, daha önəmli olan

validеynlərimiz və cəmiyyətin cinsimizə uyğun bizi tərbiyə edib böyütmələridir.

Şübhəsiz, xromosom və hormonların genderə olan təsiri bu kimi kiçik bir müzakirəyə sığa bilməz, çünki, bu mövzu çox böyük bir elmi tədqiqatın mövzusudur.

**Qadın beyni, kişi beyni və gender rolları**. Kişilər qadınlardan fərqlidirlər. Onları bəşəriyyətin eyni növünün üzvü kimi ümumiləşdirmək mümkündür, lakin onların eyni bacarıq, vərdiş və ya davranış sahibi olmalarını iddia etmək, cəmiyyətin bioloji və elmi yalanlara əsaslandığını iddia etmək deməkdir.

Cinslər fərqlidir, çünki onların beyinləri müxtəlifdir. Həyatın ən əsas administrativ və emosional orqanı olan beyin kişi və qadınlarda müxtəlif şəkildə konstruksiya olunmuşdur; bu informasiyanı müxtəlif cür istiqamətləndirir ki, bu da müxtəlif anlama, prioritet və davranışla nəticələnir (Moir A., and Jessel D., 1989).

Kişi və qadın beyninin fərqli olması anlayışı yeni bir fikir deyil. XIX əsrdə alimlər belə hesab edirdilər ki, kişilərlə qadınların intellektual səviyyəsi ona görə fərqlidir ki, kişilərin beyinlərinin çəkisi qadınların beyinlərinin çəkisindən daha ağırdır. Bu məntiqə əsaslanmaqla belə bir maraqlı məqam ortaya çıxdı ki, əgər bu, həqiqətən belədirsə, o zaman fildən intellektual səviyyəli canlı ola bilməz. Bundan sonrakı müzakirələrdə beynin çəkisi məsələsi bir müddət gündəmdən çıxdı. Sonralar yenidən belə bir iddia irəli sürüldü ki, beynin çəkisi əsas deyil, beynin bədən çəkisinə uyğun proporsional bölünmüş çəkisi daha məntiqli hesablama ola bilər. Sübut olunanda ki, bu proporsional bölümdə hesablama qadınların xeyrinədir, bu hipotezanın ömrü çox olmadı (Harrington A., 1987).

Yuxarıdakı sitata nəzər salanda biz bu iddianın yoxa çıxmadığının, yalnız formasının dəyişdiyinin şahidi oluruq. Bu gün başqa iddialar ortaya qoyulsa da, qadınla kişi beyinin çəkisinin onların intellektual səviyyələrinə heç bir dəxli yoxdur, söhbət qadınla kişilərin beyinlərinin strukturundan getməlidir. Amerika alimləri sübut etmişlər ki, beynin strukturunun kişi və qadınlarda fərqli-

liyi, onların davranışlarının və hətta seksual oriyentasiyalarının fərqliliyinə gətirib çıxaran ən əsas amildir.

1970-80-ci illərdə beyin strukturunun və funksiyasının cinsi fərqlərə təsir etməsi ehtimalı barədə gedən uzun-uzadı diskussiyalar o nəticəyə gətirib çıxartdı ki, buna səbəb beynin lateralizasiya (asimmetriya) fenomenidir. 1960-cı illərin sonunda Dr. Roger Speri və onun həmkarları epilepsiya xəstəliyindən əziyyət çəkən pasientlərlə işləyərkən belə nəticəyə gəlmişdilər ki, beynin sağ və sol hemisferası fərqli funksiya və vəzifələr üçündür (Sperry R., 1982). Bu spesializasiya hemisferik asimmetriyaya və ya beyin lateralizasiyasına yönəldilmişdir. Bu tədqiqatlardan aydın oldu ki, sol hemisfera (bədənin sağ tərəfinə nəzarət edir) əsasən, nitqə nəzarət etdiyi halda, sağ hemisfera başqa funksiyalarla yanaşı, ən əsas, vizual-görmə qabiliyyətinə nəzarət edir. Düzdür, qadın və kişi beynin fərqliliyi məsələsindəki bu tapıntıdan da öz fikirlərini əsaslandırmağa və sui-istifadə etməyə çalışan bir çox alimlər tapıldı.

Beyin lateralizasiyası və davranış fərqləri arasında əlaqə ilə bağlı hipoteza bir çox həlli çətin olan və ziddiyyətlərə gətirib çıxaran yeni diskussiyalar üçün zəmin oldu. Beyin insan orqanizmin sona qədər öyrənilməmiş orqanıdır. 1992-ci ildə alimlər sübut etdilər ki, genlər spesifik beyin hüceyrələrinin funksiyalarını təyin etməyə qabil deyillər. Alimlər onu da sübut etdilər ki, beynin neyronları daha asanlıqla təsirə məruz qala bilir və bədənin hər hansı bir hissəsindəki dəyişikliklərə görə öz iş qabiliyyətlərini tənzimləyirlər (Walsh C., and C.L.Cepko, 1992). Sonradan bəzi alimlər sübut etməyə çalışdılar ki, qadınlarda lateralizasiya kişilərə nisbətən azdır (yəni heç bir hemisfera dominant deyildir). Digər alimlər sübut etməyə çalışdılar ki, qadınların beyinlərində lateralizasiya daha çoxdur və onlarda sol hemisfera dominantdır. Bu məsələlərə müxtəlif baxışlar mövcud idi.

Son tədqiqatlarda vurğu *hipotalamusun* (seksual yetişkənlikdə hormonların hasil olunmasına nəzarət edən beyin hissəciyi) üzərinə qoyulmuşdur. Əlbəttə, bu tədqiqatların əksəriyyəti hey-

vanlar üzərində aparılmışdır. Siçovullarla aparılan tədqiqat zamanı aydın olmuşdur ki, dölun inkişafı zamanı testesteronun ifrazının olub-olmaması hipotalamusun hüceyrə quruluşuna təsir edir və beynin funksiyasında erkək və ya dişi xarakterliyinə səbəb olur. Bunun gender əsaslı davranışına təsir edə bilmə qabiliyyəti haqda olan saysız-hesabsız ehtimallara baxmayaraq, bunun insan beyninə təsiri hələ də qeyri-aydın olaraq qalır (Kemper T.D., 1990).

Beyindəki *əsas kallosum* (beynin iki hemisferasını birləşdirən toxuma kütləsi və sinir lifləri) qadınlarda kişilərə nisbətən 23% çoxdur (Allen L.S., and R.A. Gorski 1992). Əsas kallosumun faizinin qadınlarda çox olması onlardakı iki hemisfera arasında daha çox əlaqə qurma, ünsiyyət qabilliyyətinə təkan verməsinə səbəb ola bilər. Bəlkə də, qadınların beyni zədələnəndə kişilərə nisbətən tez sağalması faktı elə bununla əlaqədardır. Əlbəttə, bu da hipotezadır (Witelson, S.F. 1989). Bəzi tədqiqatçılara görə, bu, qadın və kişilərdə fərqli nitq və vizual-görmə qabilliyyətinin olmasına səbəb ola bilər. Tədqiqatlara görə, məsələn, qadınlar sözləri oxuyanda hər iki hemisferanın köməyindən istifadə etdikləri halda, kişilər yalnız sol hemisferadan istifadə edirlər. Beləliklə, qadınların beyinlərindəki bu iki hemisfera arasında olan böyük kommunikasiya onların verbal qabiliyyətini asanlaşdıra və onların visual qabiliyyətlərini ləngidə bilər.

Müşahidə oluna bilən sinir əlaqələrindəki fərqlər yetkinlik dövründə özünü göstərməyə başlayır. 13 yaşına qədər qızlarla oğlanların beyinləri arasında az fərq olduğu halda, 14-17 yaş arasında onların beyinlərində dəyişikliklər formalaşmağa başlayır. Filadelfiyadakı Pensilvaniya Universitetinin Psixologiya Professoru Ragini Vermaya görə qadınların və kişilərin bəzi məsələlərdə bir-birindən üstün olmasının səbəbi beyindəki bu sinir əlaqələri arasındakı fiziki fərqlər kimi müşahidə edilir.

Kembric Universitetində aparılan bir araşdırmaya görə 82 nəfər üzərində aparılan bir testdə, kişilərin 17 %-i qadın beyninə, qadınların isə 17 %-i kişi beyninə sahib olduğu məlum olmuşdur.

Lakin aparılan araşdırmaların nəticələrinə görə, qadın və ya kişi beynində bəzi fərqliliklər olmasına rəğmən, qadın və kişi beyninə tamamilə fərqli demək səhvdir.

Qadın və kişi beyinlərinin strukturu üzərində aparılan tədqiqatlar davam edir və yenilənir, lakin onların davranışındakı cinsi fərqlərin əhəmiyyəti ətrafındakı mübahisələr səngimir. Yaxınlarda istehsal olunan yeni texnologiyaların inkişafı imkan verir ki, beynin strukturu daha mükəmməl öyrənilsin. MRT (maqnit rezonans təsvir) aparatı beyin fəaliyyətini və beyinlə bağlı digər məsələlərin dərindən öyrənməsinə imkan açır. Alimlər bu aparatın köməyi ilə qadın və kişi beynini müqayisə edirlər və beynin quruluşuna mədəni amillərin təsir edə bilməsi faktorunu araşdırırlar. Gorman bu barədə çox maraqlı bir fikir söyləyir. Şübhəsiz hər bir hadisə və öyrənmə aktı beynin biokimyasına və fiziologiyasına təsir edir. Beləliklə, sonda heç kəs bilmir ki, təbiət (cins anlamında) harada qurtarır və inkişafa olan qayğı (gender anlamında) harada başlayır, çünki onların hər ikisi bir-biri ilə çox əlaqəlidirlər (Gorman C., 1992). Bununla müəllif təbii amillərlə sonradan qazanılan amillərin bir-biri ilə olan əlaqəsini nəzərdə tutur.

**Premenstrual sindrom (PMS).** Səhiyyənin gender aspektindən təhlili zamanı bir çox maraqlı məqamlara təsadüf olunur. Bunlardan biri də premenstrual sindromdur (PMS). Aparılan sosioloji tədqiqatlar göstərir ki, biososial hadisə hesab olunan PMS qadının cəmiyyətdəki statusuna arzuolunmaz təsirlər göstərə bilər.

Son araşdırmalarda tədqiqatçılar premenstrual sindroma bioloji hadisə kimi deyil, biososial hadisə kimi qiymət verirlər. Niyə görə PMS bioloji hadisəlikdən daha geniş anlama gəlib çıxmışdır? Yəqin ki, PMS mədəni dəyərlərdən, həmçinin sosial amillərdən təsirlənə bildiyinə görə belə hesab olunur.

Əvvəllər də bu sindrom haqqında tibbi ədəbiyyatlarda bəzi yazılar gedirdi, lakin 1980-ci illərdə ilk dəfə PMS geniş mənada KİV-də müzakirəyə çıxarıldı. Buna səbəb bəzi Amerika və Avropa

məhkəmələrində bir neçə ölüm hadisəsini törədən qadınların bu sindroma görə ağır cəzadan yaxa qurtararaq bəraət qazana bilməsi faktı oldu. Qadınları müdafiə edən vəkillər həmin hadisəni törədən zaman onların PMS-dən əziyyət çəkmələrini arqument kimi məhkəməyə təqdim etdilər və qadınları qəsdən adam öldürmə maddəsi cəzasından, çox yüngül bir cəza almalarına qədər (icbari iş) müdafiə edə bildilər.

Bu hadisələr ictimaiyyəti bərk narahat etdi və alimlər bu hadisəni tədqiq etmək qərarına gəldilər. Gələcəkdə də bu sindromdan hakimlərin, xüsusilə də qadın hakimlərin bəraət formasında geniş istifadə edəcəklərindən ehtiyatlanan kişi tədqiqatçılar bu sindromu hərtərəfli araşdırdılar. Bəzi kişi tədqiqatçıları hətta bu faktı qadınlara qarşı da istifadə etdilər və ümumiyyətlə, qadınların təbiətən yüksək vəzifələr üçün uyğun olmadıqları haqqında iddialar irəli sürdülər. Onlar belə bir misal çəkirdilər ki, bundan sonra heç kəs ayda bir dəfə cinayət xislətli qadınlara etibar edə bilməz.

Əgər sənin bankda investisiyan varsa, sən istəməzsən ki, bankın prezidenti ayda bir dəfə hormonlardan əziyyət çəkən birisi olsun. ... Bu fiziki və psixoloji tutmalar qadınların potensialını məhdudlaşdırır (Parlee M.B., 1983).

Bu feminist alimləri bərk qəzəbləndirdi. Feminist həkimlərdən biri onlara belə cavab verdi: Düşünmürəm ki, PMS qədər qadınları geri salan nə isə ola bilsin... Hesab etsək ki, qadınlar fizioloji səbəbdən ayda bir dəfə cinayətkar olurlar, bu elə birdəfəlik qadınlara təbiətən cinayətkar adı vermək deməkdir (Glass R., 1982).

Amerika və Avropada PMS-ə görə, bəraət qazanmağa nail olan cinayət hadisələrindən bir onillik sonra PMS haqqında yazılar azaldı. Hadisələr haqqında söhbətlər azalsa da, bundan biznes üçün istifadə halları genişləndi. ABŞ-da yüzlərlə PMS-lə bağlı klinika fəaliyyətə başladı və müalicə üçün saysız-hesabsız dərmanlar, tibbi ləvazimatlar satışa buraxıldı (Chisler, J.C. and K.B. Levy, 1990). PMS-lə yanaşı hormonla bağlı digər sindromlar da diqqəti cəlb etməyə başladı. Müxtəlif suallar meydana çıxır. PMS

nədir? Buna səbəb nədir? Bunun qadının şəxsi keyfiyyətlərinə və davranışına real təsiri nə dərəcədədir?

PMS, adətən, səksəninci illərin xəstəliyi adlansa da, əslində bu yeni bir xəstəlik deyildir (Eagan, A, 1983). 1931-ci ildə Dr. Robert T.Frank PMS-ə aşağıdakı kimi tərif vermişdir: "7-10 gün aybaşıdan əvvəl inanılmaz gərginlik və narahatlıq, əsəbiliyə səbəb olma ... və axmaq və yaramaz hərəkət etməklə özündə rahatlıq tapmaq" (Vrazo F., 1983). 1950-ci illərdə Dr. Katarina Dalton da öz əsərlərində PMS-dən bəhs edir. Müəllif iddia edir ki, aybaşının premenstrual mərhələsində qadınlar etibarsız, məsuliyyətsiz, aqressivliyə meyilli, hətta zalım və intihar məqsədli ola bilirlər. Onun və digərlərinin iddiasına görə 20 %-dən 100 %-ə qədər qadın PMS-dən əziyyət çəkir, bunlardan 20-40 %-in əqli və ya fiziki qabiliyyəti aşağı düşür (Fausto-Sterling A., 1985). Bəzi tədqiqatçılar isə bunun faizinin az, təxminən 10 % olduğunu yazırdılar.

PMS-in dəqiq tərifini bir çox alim və tədqiqatçılar verməyə çalışmışlar. Bəzilərinə görə, bu, sadəcə menstrual nizamsızlıqdır və bəzilərinə görə, bunun 150 simptomu vardır ki, bunlardan ən əsasları aşağıdakılardır: başağrı, ürəkbulanma, şor və şirin yeməklərə güclü meyl, üzün dərisində sızanaqların əmələ gəlməsi, depressiya və əsəbilik (Golub S., 1992).

PMS-in tədqiqatında alimlər ciddi metodoloji çətinliklərlə üzləşirlər. Araşdırmalar zamanı premenstrual simptomların təyin edilməsində qadınların dediklərinə əsaslanırlar. Bəzi qadınların adi halda, aybaşıdan əvvəlki dövrdə yadlarına bu simptomlar düşmədiyi halda, onlara bu dövrü xatırladanda hökmən bu əlamətlərin onlarda baş verdiyini iddia edirlər. Bəzi araşdırmalar göstərir ki, sosial və psixoloji faktorların da PMS simptomların təəssüratına öz təsiri vardır. Bir çox alimlərin fikrincə, bəzi mədəniyyətlərdə aybaşıya olan münasibət qadının özünün buna olan reaksiyasına böyük təsir göstərir. Uzun illər aybaşı qadının həyatında neqativ bir hadisə kimi qiymətləndirilmişdir. Qadınları inandırmışdılar ki, onlar aybaşı zamanı davranışlarına məhdudiy-

yət qoymalıdırlar. Məsələn, dinamik həyat tərzi, idmanla məşğul olmaq, çimmək, üzgüçülük hovuzunda üzmək və s. qadınların orqanizminə çox ziyandır. Müsahibəyə cəlb olunan qadın və kişilərin əksəriyyəti qadınlardakı PMS-i belə təsvir edirlər: Onlar çox qəribə görünürlər və onlara az fiziki hərəkət etmək tövsiyə olunur.

Alimlər tələbələrlə sorğu aparıblar, onları bir neçə qadınla qarşılaşdırıblar, əvvəlcədən tələbələrə onların premenstrual mərhələdə olduqlarını söyləyiblər və bu qadınların fizioloji hallarını təsvir etməyi onlara tapşırıq kimi veriblər. Əslində, bu qadınların heç biri həmin vaxt bu dövrdə olmamışdır. Qadınların həqiqətən premenstrual dövrdə olduqlarını zənn edən tələbələr onları aşağıdakı kimi təsvir ediblər: Onlar aqressiv, neqativ davranışlıdırlar və s. Digər bir qrup tələbə də qadınlarla qarşılaşdırılıb və eyni tapşırığı alıblar. Tələbələr eyni sözləri onlar üçün də söyləyiblər. Deməli, həqiqət deyil, gözləntilər əsas götürülür.

Yuxarıda söylənilənlərə onu da əlavə etmək lazımdır ki, bu dövrdə qadının üzləşdiyi problemlər, gündəlik çətinliklər də bu simptomlara öz təsirini göstərir. Eyni qadın PMS zamanı özünü bir ay bu cür, gələn ay başqa cür hiss edə bilər. Əlbəttə, əhvali-ruhiyyədəki neqativ dəyişiklikləri təkcə PMS-lə əlaqələndirmək absurddur. Qadınların gündəlik qayğıları, məsələn, uşağa qayğı, ev işləri və evdən kənar işlər PMS-lə üst-üstə düşərsə, bu halda qadının davranışındakı neqativliyi anlamaq çətin olmaz. Məsələn, bu dövr həftənin iş günlərinə düşəndə qadınların əhvali-ruhiyyələri daha aşağı olur, bu, həftə sonuna təsadüf edəndə isə əhvali-ruhiyyələri xeyli yaxşı olur. Alimlərin fikirlərinə görə, kişilərin ay ərzində diskomfort hiss etdikləri günlərin sayı qadınlarla müqayisədə daha çoxdur. Bir tədqiqatçı göstərir ki, səhərə yaxın saat 4-də kişilərdə testesteronun səviyyəsi pik həddinə çatır və axşam saat 8-də bu ən aşağı səviyyəyə düşdüyü üçün onlar gündəlik hormonal siklin subyektidirlər. “Bəzən insanlar deyirlər ki, qadınlara etibar etmək olmaz, çünki onlar hər ay aybaşı olurlar, onlara mə-

nim cavabım budur. Kişilər hər gün aybaşı olurlar və beləliklə, kişilərlə sülh haqqında danışıqları yalnız axşamlar aparmaq olar” (Gorman C., 1992).

Tədqiqatçıların bəzilərinin fikrinə görə, bu dövrdə qadınların iş qabiliyyətinin aşağı düşməsini sübut edən elə bir akademik mənbə yoxdur. Araşdırmaların əksəriyyətində göstərilir ki, vəzifə yerinə yetirməklə, iş icra etməklə menstrual sikl arasında heç bir əlaqə yoxdur. “Menstrual siklin əhvali-ruhiyyəyə və tapşırığın necə yerinə yetirilməsinə çox təsiri vardır; yəni bunun pozitivliyinin neqativlikdən daha çox olduğunu desək, daha düzgün olardı” (Ripper M., 1991).

Bütün yuxarıda söylənilənlər PMS-nin nə mövcudluğunu, nə də mövcud olmadığını birmənalı şəkildə sübuta yetirmir, sadəcə bütün bunlar problemin tədqiqatı və əldə olunan nəticələr haqqında oxuculara az da olsa məlumat verir. Minlərlə qadın PMS-nin müalicə formaları ilə tanış olur və müalicə alırlar. PMS-in təsirini azaltmaqdan ötrü təklif edilən müalicələrin mövcud olduğuna baxmayaraq, müalicə zamanı istifadə edilən dərmanların fəsadları barəsində də yazılara təsadüf olunur. Bu dövrdə həkimlər progesteron hormonun azalmasını göstərirlər və buna görə də PMS dövründə qadın orqanizmində progesteron hormonun stabilləşdirilməsi üsulu bu simptomu müalicə edən ən əsas vasitə hesab olunur. Tədqiqatçılar bu hormonun fəsadlarının olması barədə çox yazırlar; döş ağrıları, uşaqlıq yolu və yoğun bağırsaqlarda sişlər, aybaşı olmayan periodlarda qanaxmalar və s. Hətta uzunmüddətli araşdırmalardan sonra bəlli olmuşdur ki, progesteronla müalicə döş vəzilərində şiş və servikal xərcəngə də gətirib çıxara bilər. Bundan əlavə bu həm də progesterondan asılılıq yaradır (Golub S., 1992).

PMS-in müalicəsi zamanı vitamin B6 həddən artıq dozada istifadə etməyin fəsadları mövcuddur. Vitamin B6-nın yüksək dozası sinir sistemin pozulmasına səbəb olur, hətta əl və ayaq barmaqların uclarında hissiyyatı da azaldır (Fausto-Sterling A., 1985). PMS-in müalicəsində ən təsirli müalicə mütəmadi idman etmək,

pəhriz gözləmək (kafein, şəkər və sodanın qəbulunun azaldılması; az yağlı yeməklərin yeyilməsi; yüksək proteinli yeməklərin az-az, tez-tez istifadə edilməsi, kompleks karbohidratın istifadəsi və s.) və psixoterapiya ilə məşğul olmaqdır.

PMS-in araşdırması uzun illər davam etsə də, hələ də alimlər bunun tam mahiyyətini açıqlaya və ya araşdıra bilməmişlər. Biz təkcə bir şeyə əmin ola bilərik ki, bəzən bir sindromdan azad olmağa çalışanda, özümüz də bilmədən digər bir sağlamlıq problemi ilə üzləşirik.

**Postpartum depressiya sindromu (PDS).** Uşaq dünyaya gətirəndən sonra cavan analar üçün analıq melanxoliyası və ya cocuqluq melanxoliyası çox yayılmış hallardandır. Dünyanın bir çox ölkələrində aparılan tədqiqatlara görə qadınların çoxu uşaq dünyaya gətirəndən sonra bir-iki həftə kədərli, gərgin və əsəbi olurlar. Bəzi qadınlarda bu hisslər üç gün ərzində yoxa çıxır. Sorğu aparılan bəzi qadınlar iddia edirlər ki, onlarda çox pis simptomlar meydana gəlir: qeyri-adekvat davranış, narahatlıq, günahkarlıq hissi, hədsiz yorğunluq və uşağa qayğı göstərməyə özlərində güc tapmamaq və s. Bütün bunlar postpartum depressiyanın simptomlarıdır və iki həftədən üç aya qədər davam edə bilər. Bəzi qadınlarda bu simptomlar daha kəskin şəkildə özünü büruzə verir, hətta postpartum psixoza, halüsinasiya (gerçək olmayan şeyləri görmə ya da eşitmə) və ya sayıqlamalar (gerçəklə əlaqəsi olmayan şeylərə inanma) ola bilər. Hətta bu hal əqli pozulma hallarına qədər gedib çıxa bilər. Mətbuatdan bizə məlum olan faktlara görə, bir çox hallarda bu qadınlar intihara və uşaqların həyatlarına qəsd etməyə də əl ata bilirlər.

Bəs bunların səbəbləri nədir? Buna səbəb kimi ən çox uşaq doğulandan sonra progesteronun qəfil aşağı düşməsi amili göstərilir (Giovannini M.J., 1992). Əlbəttə, Giovannini təkcə bunu səbəb kimi əsas tutmurdu, o yeni analara dəstəyin zəif olması amilini də xüsusi vurğulayırdı. Müəllif iddia edirdi ki, bu sindromun etiologiyasında sosiomədəni və mühit faktorları əsas rol oynayır. Ümu-

miyyətlə, müəllif sosial mühit stresslərinin (maliyyə və ailədəki çətinliklər, uşağın atası ilə olan problemlər, ailədə uşaqların say amili və s.) əhəmiyyətini xüsusi olaraq qeyd edirdi. Bəzən plansız hamiləlik, ana olmağa hazır olmamaq, kəbindən kənar uşağın dünyaya gəlməsi zamanı yaxınların dəstəyini görməmək kimi səbəblər də gənc anaların postpartum depressiya sindromuna mübtəla olmasına səbəb ola bilər. Analığa hazırlıq dövrü zəif olur və gənc anaya dəstək çox aşağı səviyyədə olur. Bunu yalnız aşağıdakı situasiya ilə müqayisə etmək olar. Hər hansı bir çox məsuliyyətli sahədə işləmək üçün heç bir treyninqi, təcrübəsi olmayan bir işçi götürürlər və həmin işçidən keyfiyyətli iş tələb edirlər. Sözsüz, bu vəziyyət həmin işçiyə neqativ təsirsiz ötüşməyəcəkdir.

**Biologiya ilə mədəniyyətin təması**. Yuxarıda bəhs olunan məsələlərdən aydın olur ki, sosial və bioloji amillər daima təmasdadır. Əlbəttə, fərdin inkişafında biologiya əvvəl gəlir və sonra təcrübə və mühit öz işini görür. İnsan bütün ömrü boyu davamlı və transformativ dəyişikliklərə məruz qalır və fərdin davranışı nəinki mühiti dəyişməyə, həmçinin özünün biologiya və fiziologiyasını da dəyişməyə qadirdir. Bu fəsildə öyrəndiklərimiz bunları bir daha təsdiq edir.

Bununla da feminist alimlər bioloji determinizmi sosial konstruksionizmlə əvəz etməyə səy göstərirlər. Ümumiyyətlə, bioloji və ya sosioloji amillərə ayrı-ayrılıqda diqqət yetirmək hekayənin yarısını anlamağa bərabərdir. Yəni bioloji varlıq olan insan hər zaman genderin davamlı konstruksiyasının bir hissəsi kimi öyrənilməlidir. Mədəniyyət və fərdi davranış biologiya və fiziologiyaya təsir etmə gücünə malikdir və bunun əksi də mümkündür. Bəzi alimlərin qadın və kişilərin davranış və şəxsiyyətlərindəki fərqlərini bioloji baza ilə əsaslandırılması cəhdləri sadəcə hipotezadır. Bioloji fərqlərin mövcud olması o demək deyil ki, bir cinsin davranışı və ya xüsusiyyəti o birisindən ya əskikdir, ya da artıqdır. Bəli, kişi və qadınlar bir çox məqamlarda fərqlidirlər, bunu kimsə inkar etmir; yalnız bu o anlama gəlmir ki, birinin bu

fərqlər fövqində digərinin əleyhinə diskriminasiya edilməsi təbii haldır. Bu, ən azı sosial ədalətsizlikdir.

**Gender cinsin sosiomədəni kateqoriyası kimi**. Müasir ədəbiyyatlarda gender mövzuları yetərli şəkildə işlənilsə də, bu sahədə alimlər bir çox məsələlərdə ümumi məxrəcə gələ bilmirlər, bu, xüsusilə, genderin funksional təyinatında ciddi hiss olunur. Tibbi sosiologiyanın orta məxrəcli nəzəriyyəsi də, təyinatı da çox zəruri məsələdir, təcrübədə gender yanaşmanın tətbiqinin nə dərəcədə effektli ola bilməsi bu məsələdən çox asılıdır.

Cinslərin münasibəti məsələsində genderə sosial konstrukt kimi əsas vermə bioloji determinizmin təkzibi deməkdir. Bioloji determinizm o yanaşmanı təklif edir ki, cəmiyyətdə cinslər arasındakı münasibət bioloji cinsə mənsub xüsusiyyətlərdən irəli gəlir. Bioloji determinizmə görə düzənlənən davranış normal və təbii hesab oluna bilər. Beləliklə, sosial qrupların cinslərarası münasibəti bioloji prinsiplərin fərqinə görədir. Sosiumun gender strukturunun mürəkkəbləşməsi, müasir sivilizasiyanın sosial strukturun industrializm pilləsindən postindustrializm sosial strukturu pilləsinə transformasiya etməsi xüsusiyyətlərinə görədir. Belə olanda, sivilizasiya bütün fərdlərin əlaqələrini xarakterizə edə bilən cəmiyyətin özəl sosial təşkilatı kimi anlaşılır.

Bu günə qədərki feminist konsepsiya gender təbabətinin yeganə konsepsiyası olduğuna görə bu konsepsiyadan daha ətraflı bəhs olundu. Feminist konsepsiyanı səhiyyənin humanist konsepsiyası adlandırsaq, yanılmarıq. Yəqin ki, səhiyyəyə münasibətin əsasında insan təbiətinin vəhdəti və bu münasibətin kökündə də hökmən gender yanaşmaları olmalıdır. Feministlərə görə, səhiyyənin əsasında gender fərqləri durmalıdır, bunları daha da konkretləşdirəndə bioloji cinsin əhəmiyyəti azalır və aksent, əsasən, sosiallığın üzərinə düşür. Cəmiyyətin gender stratifikasiyasının situasiyaya görə dəyişkənliyinin modifikasiyası üçün müəyyən edilmiş parametrlər mövcuddur. Onlar gender spesifikasının reallaşmasının institusional tələbləri ilə təyin olunur.

Feminist alimlər çoxdan o fikirlə yaşayırlar ki, anlamaq üçün zəruri olan hər bir şey müasir elmi kateqoriyalarla izah olunmalıdır. Elmi biliklər üçün sirr olan başqa bir dünya da mövcuddur ki, bu, fərdlər üçün xarakterik olan hisslər, emosiyalar, siyasi həvəslər dünyasıdır. Xəstəlik – insan orqanizmin təkcə fiziki halı deyil, o, həmçinin, sosial fenomendir. Müxtəlif mədəni ənənələr də orqanizm üçün xarakterik olan həm normal, həm də xəstə hal kimi qiymətləndirilə bilər. Avropa tərbiyəsi görmüş insanlar, adətən, fizioloji sağlamlığı orqanizmin vəziyyətinə görə təyin edirlər və onlar sosial öhdəliklərini də bu vəziyyətin köməyi ilə yerinə yetirə bilirlər. Xəstəlik orqanizmin müəyyən vəziyyəti kimi şərh olunur və xəstəlik zamanı fizioloji tarazlıq və cismin harmoniyası pozulur. Genderin mürəkkəb strukturu tibbdə qadının gender statusuna baxışın xarakterini təyin edir. Sosial rolların necə icra olunması bu və ya digər mənada insanın sağlam və ya xəstə olması halı ilə çox əlaqəlidir. Əlbəttə, fizioloji xüsusiyyətlər də yuxarıda qeyd olunan sosial rolların ifasında mühüm əhəmiyyət kəsb edir. Əsas diqqət əlbəttə, sosial epidemiologiyanın üzərinə qoyulmalıdır, çünki bu tibbdə insanların fizioloji xüsusiyyətləri və bacarıqları ilə bilavasitə əlaqəsi olan qadın və kişinin gender statusunun formalaşması sahəsidir. Sosial epidemiologiya anlayışı kifayət qədər genişdir, çünki o tibb elminin kateqorial sahəsinə aiddir və bu da tibbin sosiologiyasında əsas bir anlayış kimi istifadə olunur. Bundan çıxış edərək, qadının tibbdə gender statusunun fizioloji əsaslarını nəzərdən keçirmək olar. Bununla da, qadın patalogiyasını bir tərəfə qoyub, o xüsusiyyətlərə nəzər salınmalıdır ki, fizioloji təbiət spesifik sosial effektləri təyin edə bilir. Bu mənada həm tibbdə, həm də sosial münasibətdə qadın və kişi arasında prinsipal fərq menstruasiya və menopauzadır. Problemin kəskinliyi onunla izah olunur ki, həm menstruasiya, həm də menopauzaya, adətən, tibbi elmin maraq dairəsi kimi baxılmışdır, bu fizioloji hadisənin sosial effekti tədqiq olunmamışdır.

Feminist alimlər genderə cinsin sosiomədəni kateqoriyası

kimi baxdıqları üçün uyğun statuslar da sosiologiyanın terminlərinə görə verilmişdir. Bundan başqa gender davranışın effekti hər zaman sosial olmuşdur. Buna görə də, qadının tibbdə gender statusunun sosial xarakteri bütünlükdə onun sosial statusu ilə uyğun gəlməyə bilər. Əslində, bu, düzgün yanaşma deyildlir. Qadın başlanğıcın fiziologiyasını həmişə sosial olduğu kimi, qadının hər hansı bir sosial portreti, hər hansı bir sosial davranışı da, hər zaman onun gender mahiyyəti ilə təyin olunur.

**Ədəbiyyat:**

**İngilis dilində**

1. Allen L.S., and R.A. Gorski,"*Sexual Orientation and the Size of the Anterior Commissure in the Human Brain*", *Proceedings of the National Academy of Sciences* 89:7 199-7202, 1992
2. Baker S. W., 1980, "*Biological Influences on Human Sex and Gender*",6:80-96
3. Brooks-Gunn J., and W.S. Matthews, "*He and She*", Englewood Cliffs. Nj: Prentice-Hall, 1979
4. Chisler J.C. and K.B. Levy, "*The Media Construct a Menstrual Monster: A Content Analysis of PMS Articles in the Popular Press*", Women and Health, 1990, 16:89-104
5. *Diamond M.A., "Sexual Identity: Monozygotic Twin Reared in Discordant Sex Roles and BBC Folllow-Up", A*rchives of Sexual Behaviour 1982, 11:181-186
6. Eagan A., "*The Selling of Premenstrual Syndrome*", Ms., 1983 October: Pp. 26-31 6. Fausto-Sterling A., "*Myths of Gender*", New York: Basic Books, 1985, Pp.78-90.
7. Harrington A., "*Medicine, Mind, and the Double Brain.*" Princeton. Nj: Princeton University Press, 1987
8. Giovannini M.J., "*The Relevance of Gender in Postpartum Emotional Disorders*", in T.L. Whitehead and B.V. Reid

(Eds), and *Social Issues.* Urbana: University of Illinois Press, 1991, Pp. 209-231

9. Glass R., "*Some Fear Abuses in Premenstrual Tension Decisions*", *Philadelphia Inquirer,* January: 8C, 1982
10. Golub S., "*Periods*: *From Menarche to Menopause.*" Newbury Park, CA: Sage, 1992
11. Gorman C., "*Sizing Up the Sexes*", *Time* 20 January, 1992, Pp,42-51
12. Hoyenga K.B. and Hoyenga K.T., "*Gender-Related Differences",* Boston: Allyn and Bacon, 1993
13. Kemper T.D., "*Social Structure and Testosterone*", New Brunswick: Rutgers University Press, 1990
14. McLaren. A., "*What Makes a Man a Man*?" Nature 346:216-17, 1990
15. Moir A. and D.Jessel, 1989, "*Brain Sex*", London: Carol PublishingGroup
16. Money J., and A.A.Ehrhardt,1972 "*Man and Woman, Boy and Girl*", Baltimore: Johns Hopkins University Press.
17. Parlee M.B. "*Changes in Moods and Activation Levels During the Menstrual Cycle in Experimentally Naive Subjects*", *Psychology of Women Quarterly,* 7: 119-131, 1983
18. Ripper M., "*A Comparison of the Effect of the Menstrual Cycle and the Social Week on Mood, Sexual Interest, and SelfAssessed Performance*", Pp. 19-33 in D.L. Taylor and N.F. Wood (Eds), "*Menstruation, Health, and Illness",* New York; Hemisphere, 1991
19. Sperry R., "*Some Effects of Disconnecting the Cerebral Hemispheres*", *Science,* 217: 1223-1226, 1982
20. "*SRY gene*", *US National Library of Medicine*, 2015, Pp. 1-5
21. Vrazo F., "*PMS: Its Misery and Its Mystery*", *Phildelphia Inquirer,* 19 June, 1983
22. Walsh C., and C.L. Cepko, "*Widespread Dispersion of*

*Neuronal Clones Across Functional Regions of the Cerebral Cortex*", *Science* 255:434-440, 1992

23. Winter, J.S.D., Faiman, C., and Reyes, F.I. (1977): In: "*Morphogenesis and malformations of the genital system"*, edited by R.J. Blandau, and D. Bergsma, pp. 42-58. A. Liss, New York.
24. Witelson S.F.,"*Hand and Sex Differences in the Isthmus and Genu of the Human Corpus Callosum: a Postmortem Morphological Study*", *Brain* 112:799-835, 1989

# IV FƏSİL

## ABŞ-da təhsil və gender

Təhsil nədir? Sadə dillə ifadə etsək, bu, məktəb və digər təhsil müəsisələrində əldə olunan sistematik instruksiya prosesidir. Başqa sözlə, təhsil - təlim və tərbiyə üçün nəzərdə tutulan yeganə məqsədyönlü prosesdir ki, bu da özündə elm, bacarıq, vərdiş, dəyərlər sistemi, fəaliyyət təcrübəsi və səriştəliliyi ehtiva edir (Александрова О.А., 2005: 83-4). Daha geniş anlamda təhsil "şəxsiyyətin ağlı, xarakteri və fiziki xüsusiyyətlərinin formalaşması..." prosesidir (Гавров С.Н., 2008: 22-3). Sosial proqres kontekstində isə insan təhsili sayəsində bütün həyatı boyu təbiətə və insanlara olan münasibətini dəyişir. İnsanın bir şəxsiyyət kimi formalaşmasında, inkişafında, cəmiyyətdə yerini tapmasında təhsilin əlahiddə rolu vardır və təhsilin səviyyəsinə, keyfiyyətinə uyğun olaraq cəmiyyət formalaşır. Təkcə şəxsiyyətin deyil, dövlətin, cəmiyyətin, ölkənin də taleyi düzgün tərbiyə və mükəmməl təhsildən çox asılıdır. Belə ki, təhsil hər bir dövlətin, millətin, cəmiyyətin, insanın həyat və fəaliyyətinin ən mühüm sahəsidir.

Hələ 1980-ci ildə Amerika alimi Florens Hau təhsil işçiləri qarşısında çıxış edərkən nitqində məşhur abolişinist (qul azadlığı hərəkatının aktiv iştirakçısı və liderlərindən biri) Fredrik Duqlisdən sitat gətirir. Fredrik Duqlis uşaqlıqda, hələ qulların ağaların plantasiyalarında ağır əl əməyi ilə məşğul olduqları bir zamanda, bir plantasiya sahibinin evində qulluqçu işləyirdi. Evin xanımı bu zənci uşağı çox sevirdi və ona oxuyub-yazmağı öyrətmək niyyətində idi, amma əvvəl həyat yoldaşı ilə məsləhətləşmək istəyirdi.

Həyat yoldaşı onun təklifinə belə cavab verdi: “Əgər sən bu zənci balasına yazıb-oxumaq öyrətsən, o zaman həm onu buralarda saxlamaq çətin olacaq, həm də qul olmaq onu ömrünün axırına qədər incidəcəkdir. Ən əsası da, onu idarə etmək çətin olacaq və sahibinə ondan heç bir fayda olmayacaq. Onun özünə isə, bunun xeyirdən çox ziyanı olacaq. Bundan sonra o həmişəlik bədbəxt olacaq”. Çətin ki, təhsilin gücünü, önəmini başqa bir sitatla bu qədər düzgün ifadə etmək mümkün olsun.

Bəli, təhsil bizi hörmətli edir və bizim cəmiyyətdə layiq olduğumuz yeri anlamağıza, tutmağımıza kömək edir. Təhsil bizə məxsus olduğumuz sosial vəziyyətimizi anladır və bunu mükəmməlləşdirməkdən ötrü bizə güc, bacarıq verir.

İnsanlar təhsil almaq üçün bəlli bir yaşda məktəbə gedirlər. Bu insanın hansı ehtiyacından irəli gəlir? Belə bir ehtiyac varsa, o zaman məktəbin üzərinə hansı məsuliyyət düşür? Məktəb, ilk növbədə şagirdlərin gələcək həyatlarında cəmiyyətdə müxtəlif rollarını lazımi şəkildə yerinə yetirməkdən ötrü onlara verilən bilik və bacarıqların təminatçısıdır. Məktəb bilik və vərdişlərdən savayı, şagirdlərin gələcək həyatlarında onlar üçün önəmli rol oynayan sosial, siyasi və iqtisadi dəyərləri öyrətməkdə də məsuliyyət daşıyır.

Məlumdur ki, məktəblərdə sistemli təhsil almaq üçün kurikulum (məktəb proqramı) mövcuddur. Kurikulum iki cür olur, biri şagirdlərin gördüyü açıq kurikulum, digəri isə şagirdlərin görmədiyi, amma məktəbdə aktiv işlənən, hər bir müəllimin bildiyi gizli kurikulumdur. Birincinin vasitəsilə kitablarda verilən materiallara əsasən dərslər tədris olunur. Digəri isə eksplisit şəkildə həyata keçirilir. İkincisi, bilikdən çox şagirdlərin davranışlarını nizamlamaqdan ötrüdür. Davranış nizamlanması məsələsi də əksər hallarda, genderə uyğun həyata keçirilir. Məsələn, eyni səviyyədə yerinə yetirilmiş, yaxşı hesab olunan iş üçün qız və oğlanların fərqli mükafatlandırılması (məsələn, sinif otağının səliqəyə salınması, kiməsə yardım etmək və s.) və ya əksinə pis hesab olunan işin

nəticəsinə görə qız və oğlanların fərqli cəzalandırılması (məsələn, dərsə kecikmək, dərsdə danışmaq, kiminləsə dalaşmaq, pəncərənin şüşəsini sındırmaq və s.) halları. Bütün bunları müşahidə edən qız və oğlan şagirdlər özləri də bilmədən stereotipləşərək təhsil alırlar.

Ümumiyyətlə, təhsil yüksək statusa bir vəsilədir. Təhsil insana hörmət qazandırır və o, prestijə aparan yoldur. Təhsilin əsas məqsədi insanlara cəmiyyətdə layiq olduqları *yerlərini* tapmağa yardım etməkdir. Bəzən onların *yerləri* də elə onların genderlərinə uyğun təyin olunur. Təhsil söylədiyimiz kimi, cəmiyyətdə yüksək status və özünütəsdiqdən ötrü çox önəmlidir, lakin bu qadınlar üçün daha vacibdir. Patriarxal cəmiyyətdə qadının təhsilli olması onun haqqını, hüququnu bir növ sığorta edir. Təhsilin köməyi ilə fərdlər həm iqtisadi, həm sosial, həm də siyasi həyatlarında düzgün seçim edə bilirlər. Təhsil sistemi gender normalarının və ən mühümü isə seks-gender sisteminin təyinedicisidir. Bəlkə, elə bu səbəbdən də, hələ lap keçmişdə təhsil qadınlar üçün əlçatmaz olduğu bir zamanlarda, onlar ilk növbədə təhsil uğrunda mübarizəyə qoşulmuşdular.

**ABŞ-da təhsil tarixi perspektivdən.** '*School'* (məktəb) sözü yunan mənşəlidir,  mənası "leisure" (boş vaxt) deməkdir. Keçmişdə kasıbların boş vaxtı olmadığına görə yalnız varlılar rəsmi məktəbə gedə bilirdilər. Orta səviyyəli, kasıb əhali üçün savad zəruri deyildi, valideynlər, qohumlar bildiklərini bir-birlərinə öyrədirdilər və ya hər hansı bir sənəti öyrənmək üçün oğlanlarını usta yanına şagird göndərirdilər ki, onun peşəsini öyrənsin. Planlı təhsildən söhbət belə gedə bilməzdi. 1786-cı ildə Amerikada gənclərə, əsasən oğlanlara bəzi elmlərdən (*əxlaq fəlsəfəsi, riyaziyyat və ritorika*) özəl dərslər verilirdi. Cəmiyyətin orta səviyyəli təbəqəsindən olan təhsilli gənclər daha nüfüzlü, zəngin adamların yanında hüquqşünas, məmur və başqa vəzifələrdə çalışırdılar.

Amerika qadınlarına verilən təhsildən danışanda onu qeyd etmək lazımdır ki, onların öyrəndiyi sahələr, ümumiyyətlə, çox az olurdu. Onlar azacıq ədəbiyyat, xarici dil və müsiqıdən xəbərdar olurdular. Onların bu elmlərdən xəbərdar olması həyat yoldaşla-

rının həyatını maraqlı etməkdən ötrü idi. Bir də onlara ona görə təhsil verilirdi ki, onlarla evlənən elit gənclər həyat yoldaşlarını zövqlə geyinməyi bacaran, yumor hissli, ağıllı görmək istəyirdilər. 1786-cı ildə Filadelfiyada ilk qız məktəbi Gənc Xanımlar Akademiyası (Young Ladies Academy) açıldı və məktəbi açmaqda əsas məqsəd gənc xanımların ailədəki rolunu inkişaf etdirmək idi. Amerikada qadınlar haqqında belə bir fikir formalaşmışdı ki, Amerika qadını dövlətin inkişafında mühüm rol oynamalıdır, lakin bu, o demək deyil ki, onlar qadını siyasi lider kimi görmək istəyirlər. Onlara vətən üçün sanballı oğul böyüdən savadlı ana lazım idi. Əlbəttə, bu məktəblər kasıb qızlar üçün deyil, ağdərili elit təbəqənin qızlarından ötrü açılırdı (Howe, F., 1984).

XIX əsrdə ABŞ-da sənayeləşmə inkişaf etdikcə bir çox iş yerlərində savadlı işçilərə ehtiyac yarandı. Əsrin birinci yarısında, xüsusilə də Amerikanın Şimali-Şərqində yerləşən şəhərlərdə oğlan və qızlar üçün dövlət məktəbləri açılmağa başladı. Əlbəttə, bütün bu məktəblər ağdərili əhali üçün nəzərdə tutulmuşdu.

Belə ibtidai məktəblərin çox yerdə açılması qadınların işləməsi üçün yeni imkanlar yaratdı. 1800-ci illərdə kişilər ikinci iş yeri kimi məktəblərdə müəllimlik edirdilər, çünki məktəblərdə bütün ili deyil, ilin müəyyən vaxtlarında, əsasən qış aylarında fermalarda iş az olanda dərs keçirilirdi. Beləliklə, urbanizasiya və sənayeləşmənin təhsillilərə olan tələbi çoxsaylı məktəblərin açılmasına ehtiyac yaratdı və məktəbdə dərslər artıq qısa müddətli deyil, bütün ilboyu keçirilirdi. Beləliklə, müəllim işləyən qadınlar üçün tam iş yeri imkanı oldu. Kişilərdən fərqli olaraq, müəllim kimi işləyən qadınlara çox az maaş (40 % az) verilirdi və bu da çoxsaylı məktəblərin açılmasına şərait yaradırdı. Müəllimlərin əksəriyyətinin qadın olması fikrini onunla əsaslandırırdılar ki, qadınlarda analıq instinkti güclüdür, onlar uşaqlarla işləməyi yaxşı bacarırlar, hər hansı bir problem yarananda qadın müəllimlər dərhal problemi həll edə bilirdilər. Lakin məktəbin idarəçiliyi kişi müəllimlərə həvalə olunurdu (Schwager.S., 1972: 343).

Məktəbdə dərs deyən müəllimlər ya normal məktəb, ya da müəllimlik kolleclərini bitirmişdilər. 1821-ci ildə Troy Qadın Seminariyası açıldı. 1832-ci ilə qədər qadınlara kişilərlə bərabər eyni kollecə getməyə icazə verilmirdi. İlk belə kollec Ohayodakı Oberlin kolleci oldu ki, burada qızlar oğlanlarla eyni yerdə təhsil ala bilərdilər və hətta ilk dəfə qaradərili amerikalılara da bu kollecdə təhsil almaq imkanı verildi. 1847-ci illə 1872-ci illər ərzində 97 belə Amerika kolleci vətəndaşların istifadəsinə verilmişdi (Leach,W., 1980). Hələ də Harvard, Yeil və Prinston kimi prestijli universitetlər qadınlara təhsil almağa icazə vermirdi. Bundan ötrü onlar bir sıra səbəblər ortaya qoyurdular:

1) təbiətən qadınların intellektual səviyyələri aşağı olur;

2) qadınlar fiziki cəhətdən zərifdirlər, belə yerlərdə təhsil almaq onların orqanizminə təsir edər və onlar dünyaya sağlam uşaq gətirə bilməzlər;

3) burada təhsil alan qadınlar onlarla birlikdə oxuyan kişilərin fikrini dağıdar;

4) kollecdə oxumaq onları nəzakətsiz, vulqar və kobud edə bilər.

Yeil və Prinston Universitetlərində 1969-cu ilə qədər qızlara təhsil almağa icazə verilmirdi (Howe, F., 1984).

Oğlan və qızların birlikdə oxuduqları kolleclərdə onların fərqli statusları var idi. Liberal Oberlin kollecində təhsil alan qızların yığıncaqlarda danışmaq hüquqları yox idi. Bundan əlavə, burada təhsil alan qızlar özlərindən əlavə, onlarla birlikdə təhsil alan oğlanların da işlərini görməli idilər, belə ki, oğlanların paltarlarını yumalı, yeməklərini hazırlamalı və otaqlarını yığışdırmalı idilər. Qızlarla oğlanların aldığı təhsil sahələri də fərqli olurdu. Oğlanlar mühəndislik, təbii və fiziki elmlər, biznes, hüquq və tibb sferalarında təhsil aldıqları halda, qızlar ev iqtisadiyyatçısı, tibb bacısı və ibtidai sinif müəllimi kimi sahələrdə təhsil alırdılar *(Yenə orada)*.

Düzdür, qızların arasında az da olsa, qeyri-ənənəvi sahələrdə təhsil alanlar var idi. İlk qız kolleci 1834-cü ildə təsis olu-

nan Viton (Wheaton) kolleci oldu və daha sonralar 1880-cı illərdə elit "Yeddi Baçı" (Mount Holyoke, Vassar, Wellesley, Smith, Radcliffe, Bryn Mawr və Barnard) kollecləri açıldı. Bu kolleclərin məzunları sonradan ABŞ qadınların həyatında mühüm rol oynadılar. Onların fəaliyyəti təkcə ailədə deyil, ictimai sferada da kifayət qədər fəal idi (Schwager, S., 1987:362). Bu kolleci bitirən qadınlar sonradan sufrajist hərəkat da daxil olmaqla, bütün sosial islahat hərəkatının önündə getdilər.

**XX əsrdə qadın və kişilər təhsildə.** Bildiyimiz kimi, XX əsrin əvvəllərində ABŞ-a çoxsaylı Avropalı miqrantlar gəldi. Miqrantların arasında yoxsulluq, alkoqol və narkomaniyaya meyillilik problemləri var idi. Bunu aradan qaldırmağın  yeganə yolu onlara təhsil vermək idi. Bundan əlavə sənayeləşmənin inkişafı da təhsillilərə olan ehtiyacı artırırdı. Bu səbəbdən də, təhsil ocaqların sayı artmağa başladı.

Hələ də Amerika cəmiyyətində belə bir fikir movcud idi ki, təhsil əsasən kişilər üçün vacibdir, qadınlara təhsil bir yerə qədər vermək lazımdır. Təhsilin üst qatlarında bu fikri dəstəkləyən insanlar var idi və ilk fürsətdə qadınları kollec və universitetlərdən xaric etmək üçün fürsət axtarırdılar. Qızları kollec və universitetlərdən uzaqlaşdırmaqla, oğlanlar üçün vakansiya hazırlayırdılar. 1930-cu illərdə təhsil 16 yaşa qədər məcburi idi. 1980-ci illərə qədər əhalinin yarısını təşkil edən qadınların sayı heç də universitet tələbələrin yarısını təşkil etmirdi. Məsələn, 1930-cu illərdə doktoranturada oxuyan qızların sayında artım (18%) hiss edilsə də, 1960-ci illərdə bu 10 %-ə, 1970-ci illərdə bu 13 %-ə qədər aşağı düşdü. 1980-ci illərdə doktorantlıq pilləsini başa vuran qadınlar 29.8 %, 1990-cı illərdə isə 36.2 % idi (Commission on Professionals in Science and Technology 1992, U.S. Department of Commerce 1991, 1985, and 1975, Graham, 1978).

Qadınların təhsildə əldə etdikləri nailiyyətlərin obyektiv səbəbləri var idi. Bunlardan ən əsası feminist hərəkat və qadın hüquqları uğrunda mübarizədən əldə edilən uğurların sayəsində

idi. I Dünya Müharibəsi dövründə kişilər müharibəyə getdikləri üçün kollec və universitetlərdə vakansiyalar yarandı və qadınlar da bu boşluqdan yararlandılar. Daha sonra 1930-cu illərin depressiya dövrü həm qadınların, həm də kişilərin (daha çox) təhsildən uzaqlaşmasına səbəb oldu. II Dünya Müharibəsi dövründə də kolleclərə və universitetlərə daxil olan qadınların sayında artım oldu. Lakin müharibə bitən kimi yenə də KİV-də qadınların yerinin ailə və uşaqların yanı olması fikri təbliğ olunmağa başladı. Digər tərəfdən də, müharibədə iştirak edən kişilərə universitetlərə rahat daxil olmaq üçün verilən imtiyaz (GI) onlara universitetdəki "qanuni" yerlərini tutmaqda yardım etdi.

Qraham oz əsərində o illərin qadınları haqqında belə yazır: 1940-cı və 1950-ci illərin qadınlarını professional aləmdən kənarlaşdırdılar və yeni dəyərlər qəbul olundu. Onlar cavan yaşlarında ailə qururdular və dünyaya bir neçə uşaq gətirirdilər. Uşaq doğumu pik nöqtəyə çatmışdı və qadınlar ilk evliliyinə 20 yaşlarında başlayırdılar (Graham, P.A., 1987).

O dövrlərdə kollec və ya universitetlərdə təhsil alan evli, ailəli qadınlar kişiləri qıcıqlandırırdı və onlar qadınların "evə dönmələri" üçün hər cür cəhd göstərirdilər. Universitetdə oxuyan qadınları oradan çıxarmaq üçün bəhanə axtarırdılar və ilk fürsətdə onları qovub yerinə kişiləri qəbul edirdilər. Maraqlı bir faktı da qeyd etmək lazımdır ki, bu dövrdə kollec və universitetə daxil olan qaradərili qadınların sayında yüksək artım müşahidə olunurdu. Kollec və universitetlərdə o dövrdə təhsil alan qara dərili kişilərlə müqayisədə qaradərili qadınların say faizi daha yüksək idi. Qaradərililərin təhsil aldığı kolleclərdə qadınlar 62,4 % idi. Bu qadınların hamısı ailədə ilk kollec təhsili alan şəxslər idilər. Maqistr pilləsində də vəziyyət qaradərili qadınların xeyrinə idi. Onların sayı maqistr pilləsini bitirən qaradərili kişilərin sayından çox idi, lakin sonradan qadınlarda bu istək azaldı və say faizi aşağı düşdü (Giddings, P., 1984).

1970-ci illərdən başlayaraq təhsil sistemində önəmli dəyişikliklər baş verdi və rasizm, seksizm elementlərini aradan qaldırmaq üçün dövlət səviyyəsində işlər görüldü. Əlbəttə, 1960-70-ci illərin vətəndaş hüquqları hərəkatı və feminist hərəkatın da bu məsələlərin müsbət həllində rolu çox idi. 1972-ci ildə yuxarıda deyilən elementləri aradan qaldırmaq üçün Təhsilə Düzəliş Aktı, IX maddə də qəbul olundu. Federal fonddan maliyyələşdirilən hər bir təhsil qurumu gender zəminində olan diskriminasiyanı aradan qaldırmalı idi. Bütün bunlarla yanaşı qadın və kişilərin təhsil təcrübəsi fərqli şəkildə davam edir və bərabərsizlik elementləri yenə də gözə dəyir.

**Məktəbdə nəyi öyrədirlər?** Məktəbdə və məktəb proqramlarında elmlə yanaşı, gender normaları da daxil olmaqla, fundamental mədəni dəyərlər öyrədilməlidir.

Yuxarıda qeyd etdiyimiz kimi, təhsildə (o zaman da, indi də) iki növ kurikulum mövcuddur: Açıq kurikulumla müəllimlərin sırf dərs materialları vasitəsilə tədris olunduğu halda, gizli kurikulumun dolayısı ilə tədris və təlqin etdiyi təlim, tərbiyədir. Birincinin vasitəsilə dərslər öyrədilir, təhlil edilir, möhkəmləndirilir, yəni şagirdlərə elmin sirrləri öyrədilir. İkincisinin vasitəsilə isə əxlaq qaydaları diktə olunur, sosial rollar, ənənəvi gender rolları aşılanır. Tədris tənqidçilərinə görə, gizli kurikulum hələ də ənənəvi gender rollarını dəstəkləyir, gender rollarına düzgün əməl etməyən qızlar tədris zamanı sıxışdırılır və onlar hələ də "əsl qız necə olmalıdır" söhbətini dinləməyə məcbur olurlar. Yəni qeyd etdiyimiz kimi, tədris prosesində mahiyyətcə eyni hərəkəti edən oğlan və qız şagirdlərlə fərqli şəkildə rəftar olunur.

Aparılan tədqiqatlardan məlum olur ki, qız və oğlan şagirdlər üçün təhsildəki fərqli imkanlar uşaq bağçasından da əvvəl başlayır və orta məktəbi bitirənə qədər davam edir. Cəmiyyətin bütün sferalarında olduğu kimi, təhsildə də qanunla bərabərsizlik aradan qaldırılmışdır. 1972-ci ildə qəbul olunan IX Maddəyə görə dövlətdən maliyyələşən bütün təhsil ocaqlarında gender dis-

kriminasiyasına son qoymaq haqqında qanun qəbul olunmuşdur. Hələ ibtidai siniflərdən qız və oğlanlar üçün təhsil təcrübəsi fərqli başlanır, daha doğrusu, qız və oğlanlar qeyri-bərabər şərtlərlə təhsil-təlim alırlar. Bu struktural səviyyədə müşahidə olunur. Ənənəvi irqi və sinfi bərabərsizliklə yanaşı gender bərabərsizliyi də qeyd olunur. Bu yuxarıda qeyd olunduğu kimi gizli kurikulumla həyata keçirilir.

Bu, bəzən mikro-bərabərsizlik kimi qiymətləndirilir, gender əsaslı ayrı-seçkiliyə yol verilir, qızların irəli sürdüyü fikrə etinasızlıq göstərilir, oğlanların təşəbbüsü ilə irəli sürülən bir çox ideyalar daha pozitiv qarşılanır.

Tələbə-müəllim münasibətində bəzi gender bərabərsizlikləri gözə dəyir.

Məktəbə daxil olduğu ilk andan ta məktəbi bitirənə qədər oğlan şagirdlər müəllimlərdən daha çox diqqət görürlər.

Mütəxəssislərin qeyd etdiyinə görə, qızlar dərslərdə sakit oturduqları üçün onlara dəfələrlə az irad tuturlar. Qızlar demək istədikləri sözü əl qaldırıb icazə istəməklə edirlər, oğlanlar yerlərindən söz ata bilirlər. Həmin hərəkət qız şagirdlər tərəfindən edildikdə ciddi iradlarla qarşılaşırlar. Müəllimlər əksər hallarda oğlanlara sadəcə ‘okay’ deməklə iradlarını bildirmiş olurlar.

Müəllimlər şagirdlərin dərs buraxmamasında maraqlıdırlar, çünki hər gün dərsə gələn şagirdın özünə inamı və öyrənmə qabiliyyəti yüksək olur. Texniki vasitələrlə öyrədilən dərslər (hər hansı bir cihaz, teleskop, mikroskop və sairə) oğlanlara daha maraqlı olur, qızlar bu cihazların istifadəsində çətinlik çəkirlər, müəllimlərdən kömək istəyirlər, oğlanlar isə bir neçə düyməni səhv-düz basmaqla texniki vasitəni işə salırlar. Belə dərslərdə oğlanlar daha fəal olurlar və təşəbbüsü ələ alırlar.

Formal və qeyri-formal kurikulumda yer alan bərabərsizliklərə aşağıdakı misalları göstərmək olar.

Dərsliklər elə bil kişi dünyasının təzahürüdür. Dərsliklərdəki şəkillərin əksəriyyətində oğlan və kişiləri görmək olar. Qəh-

rəmanlıq hekayələrində baş rolda kişilər, köməkçi rolda qadınlar təqdim olunur. Hətta müasir elmlərdən bəhs edən dərsliklərdə də insan deyəndə kişi nəzərdə tutulur. Vacib şərtlərdən biri də dərsliklərin gender-neytral dilli, multikultural olmasıdır.

Bir məsələni də qeyd etmək lazımdır ki, qızlar təkcə dərsliklərdə görünməz deyillər, onlar məktəbin digər məkanlarında da görünməzdirlər. Bu kimi halları laboratoriyalarda, idman zallarında, əmək-peşə təhsili keçirilən emalatxanalarda müşahidə etməmək mümkün deyildir. Bu məşğələlər zamanı da oğlan şagirdlər çox aktiv olur, təlim prosesində qızlara nisbətən oğlanların göstərdikləri nəticələr daha yuxarı olur.

Məktəblilərin sayında da genderə görə fərq faizi müşahidə olunur. Bağçaya qədər 54% oğlan, 46% qız, ibtidai və natamam orta məktəbdə 51% oğlan, 49% qız, natamam orta məktəbdən sonrakı dövrdə 43% oğlan, 57% qız şagird təhsil alır (Common Core of Data, 2009-10; Digest of Education Statistics).

Məktəblərdə tədris prosesində, xüsusilə də aşağı siniflərdə qızların say faizi daha yüksəkdir, lakin strukturun üst qatlarında oğlanların say faizi yüksəlməyə başlayır. İbtidai məktəblərdə müəllimlərin 87 %-i qadın müəllimlərdir və onlara köməkçi statusunda çalışan işçilərin 90%-i də qadınlardır. Lakin qeyd etdiyimiz kimi məktəbin idarə heyətində qadınların təmsili 40-45 %-dən yuxarı qalxmır (US Department of Commerce, Bureau of the Census, 2014).

Vətəndaş Hüquqları Təşkilatının göstəricilərinə görə qız və oğlan tələbələrin təhsildəki maraq dairələri də fərqlidir. Oğlanlar texnologiya, mühəndislik, fizika, riyaziyyatla bağlı elmlərə daha maraqlı olduqları halda, qızlar dil, ədəbiyyat, tarix və kompüterlə əlaqəli elmlərə daha çox həvəs göstərirlər.

**Təhsildə qız və oğlanlar: ibtidai siniflər.** ABŞ-da əksəriyyət uşaqlar rəsmi olaraq 5 yaşından məktəb həyatına başlayırlar, uşaq baxçalarında olanlar (bu 10 %-dən yuxarı olmur) bir il gec başlaya bilər. Bu hallar adətən zəngin ailələrdə olur və çox vaxt

oğlan uşaqlarını məktəbə gec qoyurlar. Araşdırmalara görə, həm bağça yaşlarında, həm də ibtidai siniflərdə qız şagirdlərin qiymət göstəriciləri oğlan şagirdlərin qiymət göstəricilərindən daha yüksək olur. Oğlanlar oxu dərslərinə görə qızlardan geri qalır, oğlanlarda antisosial davranış, diqqət pozğunluğu, disleksiya, zəif nitq qabiliyyəti, kəkələmə kimi hallar daha tez-tez müşahidə olunur. Oğlan uşaqlarının aşağı siniflərdə emosional və davranış problemləri onlara sonrakı təhsil illərində də problemlər yaradır (Halpern D.F.,1997). Qızlar isə əksinə, həm sosial vərdişlərə, həm də sinifdəki davranışlarına görə üstünlüklərə malikdirlər. Qızlardan fərqli olaraq oğlanlar nizam-intizama tabe olmaq istəmir və öyrənmə proseslərində daha az pozitiv oriyentasiyaya sahib olurlar (Zill & West, 2001). Valideyn və müəllimlərin dediyinə görə, oğlanlar qızlar qədər diqqətli və səbrli ola bilmirlər. Öyrənmə oriyentasiyasında və sosial vərdişlərdəki bu üstünlüklər qızlara təhsilin digər sahələrində də nailiyyət qazanmalarına imkan yaradır. Yeniyetməlik dövründə də qızlar məktəbdə qarşılarına qoyduqları məqsədlərə çatmaq üçün daha çox cəhd göstərirlər (Downey & Vogt Yuan, 2005).

Bu dövrdə qızlar həmçinin qeyri-koqnitiv vərdişlərdə (diqqətlilik və təşkilati vərdişlər) uğurlar əldə edirlər. Qızların intizamlılıq, liderlik keyfiyyətləri və məktəb həyatına olan maraqları sonralar da onlarda akademik uğur əldə etmək vərdişlərini təkmilləşdirir.

Sosioloqlar bu fərqlilikləri izah edərkən bioloji amillərin rolunu istisna etmir, lakin sosial və iqtisadi amillərə daha çox üstünlük verirlər. Qızlarda nitq səlisdir, riyazi hesablamalar yaxşıdır, əşyaları qoyduqları yeri yadlarında dəqiq saxlayırlar. Oğlanlar şifahi testlərdə, riyazi söz problemlərini həll etməkdə və həndəsi fiqurların yadda saxlamaqda qızlardan daha yaxşıdırlar. Əksər hallarda, bir çox akademik vərdişlərdə hər iki gender eyni cür qabiliyyətə malikdir. Tədqiqatçıların gəldikləri nəticələrə görə, çox vaxt qız və oğlanların təhsildəki fərqli göstəriciləri onların

bioloji fərqlərinə görə deyil, onlara olan investisya (vaxt və maliyyə) fərqinə görə olduğu iddia olunur. Bu həmçinin cəmiyyətdə hələ də mövcud olan inanc, gözlənti və stereotiplərə görədir. Hələ də cəmiyyətdə ənənəyə görə qız və oğlan üçün nəzərdə tutulan fənlər, vərdişlər, gözləntilər fərqlidir. Hələ də oğlanların akademik uğuruna, qızların ailə məsələlərindəki fəaliyyətinə daha çox önəm verən valideynlər var.

**İbtidai siniflərdə müəllim şagird münasibətlərindəki fərqlər**. İbtidai sinif müəllimlərindən şagirdlərlə necə rəftar etmələri barədə soruşanda, onlar sinif uşaqların cinsinə önəm vermədiklərini söyləyirlər. Bu, reallıqda da belədir? Tədqiqat göstərir ki, bu, təcrübədə belə deyildir və müəllimlər şagirdlərlə cinslərinə uyğun rəftar edirlər.

Oğlan şagirdlər müəllimlərlə daha tez-tez təmasda olurlar. Onlar qızlarla müqayisədə müəllimin diqqətini daha çox öz üzərilərinə çəkirlər. Bəzən müəllimlər dərsdə çox da fəal olmayan oğlanlara daha tez-tez sual verirlər.

Əlbəttə, müəllimlərin oğlanlarla daha tez-tez təmasa keçməsindən əlavə, onların ünsiyyətinin məzmunu da cinsə görə fərqlənir, müəllimlər oğlanlara düzgün cavabı tapmağa daha çox kömək edirlər və onları bu istiqamətdə həvəsləndirirlər. Qeyd edildiyi kimi, müəllimlər akademik uğuruna görə daha çox oğlanları, səliqəliliyinə görə qızları tərifləyirlər.

Sinifdə müəllim-şagird ünsiyyətinə nəzər salsaq, qız və oğlan şagirdlərə olan münasibətdə, davranışda fərqi görmək olar. Burada ən azı iki halda fərq gözə dəyir: müəllim-şagird ünsiyyətinin intensivliyində və ünsiyyətin məzmununda. Araşdırmalarda ünsiyyət prosesindəki intensivlik nəzərə alınsa, müəllimlərin qız tələbələrə nisbətən oğlan tələbələrlə daha tez-tez ünsiyyət qurduqlarının şahidi olarıq. Qızlar onlara nisbətən utancaq və qətiyyətsiz olduqları üçün bu aktivlik gözə dəymir.

Müəllimlər oğlanlara olan iradlarını birbaşa bildirirlər, lakin qızlara iradlarını dolayısı ilə eşitdirirlər. Əlbəttə, bu kimi situasi-

yalarda irqi amillər də rol oynayır. Cinsindən asılı olmayaraq, ağ dərili şagirdlər elmi nailiyyətlərinə, qeyri-ağdərili tələbələr sosial davranışlarına görə təriflənirlər. Qeyri-ağdərili qızlar isə, qayğıkeşliklərinə, nizamlı olduqlarına görə təriflənirlər.

Oğlanların müəllimlərlə pozitiv intellektual ünsiyyəti olmasına baxmayaraq, onlar müəllimlərin qəzəbinə tez-tez düçar olurlar. İbtidai siniflərdə müəllimlər oğlanların intizamlı olması üçün daha çox çalışırlar. Onların qəzəblərinə tuş gələndə oğlanlar daha sərt və insanların gözü qarşısında cəzalanırlar. Oğlanların neqativ davranışı onların qiymətlərinə də təsir edir, bəzən onlar qızlardan daha aşağı qiymətlər alırlar.

Müəllimin gender tərəfkeşliyi şagirdi qiymətləndirməyə də təsirsiz ötüşmür. Eyni akademik biliyə malik olan şagirlərin davranışına görə qiymətlərində fərqlilik olur. Özünün yaxşı davranışı ilə hörmət qazanan şagirdin (bu çox zaman qız şagird olur) qiyməti daha yüksək, neqativ davranışı ilə müəllimləri zinhara gətirən şagirdin (bu çox zaman oğlan şagird olur) qiyməti daha aşağı olur.

Şagirdlərin genderinə uyğun davranışı bəzən müəllimin rəftarından da asılı olur. Oğlanların ideal şagird olmamalarına baxmayaraq, müəllimlər onlara daha çox kömək edir, diqqət ayırır, tərifləyir, tənqid edir. Müəllimlər oğlanların geyimlərinə az irad tutduqları halda, qızların geyimlərinə və görünüşlərinə daha çox irad tuturlar.

**Məktəb: yeniyetməlik dövrü.** Məktəbin orta siniflərində oxuyan şagirdlər həyatlarının çətin dövrünü yaşayırlar. İbtidai siniflərlə müqayisədə bu dövr uşaqların nisbətən çətin dövrü hesab olunur. Valideynlər, müəllimlər təsdiq edərlər ki, yeniyetməlik dövrü insan həyatında ən çox stressli bir dövrdür. Orqanizmdə gedən dəyişikliklər yeniyetmələrin xarakterinə də təsir edir.

Bu dövrdə qızların davranışı oğlanların davranışından çox fərqlənir. Bu yaşda olan əksəriyyət oğlanlar üçün idmanda olan nailiyyətlər önəm kəsb edir, onlar idman vasitəsilə çox tez məş-

hurlaşmaq istəyirlər. Lakin qızlar üçün bu şəkildə prestij və populyarlıq maraqlı deyil, bu onlara qeyri-feminin gəlir. Onlar üçün bu yaşda ən maraqlı məşğuliyyət tanınmış bir oğlanla dostluq etməkdir. "Qız yaraşıqlı, nüfuzlu, səriştəli, cəlbedici ola bilər, lakin onun yanında oğlan sevgilisi yoxdursa, onun sosial qiymətləndirilməsi ürəkaçan olmayacaqdır" (Lott, B., 1987:71).

Yuxarı siniflərdə qızlar da gələcəklərini planlaşdırır, lakin oğlanlar gələcək planlarında daha qətiyyətli olurlar. Uzun illərdir tədqiqatçılar on beş-on altı yaşlı qızların özünə əminlik hissinin aşağı olması faktı ilə maraqlanırlar və bunun səbəbini tapmağa çalışırlar. Matina Hornerə (1972) görə, qadınlar gələcəkdə qazanacaqları uğurdan qorxurlar, çünki onlar oğlanlarla rəqabətə girməkdən çəkinirlər. Elmdə böyük uğur qazanmaq uzun illər cəmiyyət tərəfindən qeyri-feminin xüsusiyyət hesab olunmuşdur. Akademik uğur qazanmaq cəmiyyət tərəfindən kişilərə aid xüsusiyyət kimi qəbul olunmuşdur. Hətta qızlar elmdə uğur əldə etsələr də, onlarda belə bir inam var idi ki, uzun illər kişi dominantlığı ilə müşayiət olunan bir çox karyera sahələrində onlara yer tapılmayacaq və onlar gələcəkdə çətinliklərlə üzləşəcəklər (Horner. M,S., 2010). Necə deyərlər, ambisiyalı qızları həvəsdən salmaq üçün onlara heç bir zaman "görünməz tavan"ı qıra bilməyəcəkləri fikri təlqin olunur. Qızlara uşaqlıqdan bəri bir fikir təbliğ olunur ki, oğlanlar təbiətən intellektual səviyyəli olurlar, heç bir zəhmətin, cəhdin sayəsində qızlar onlara çata bilməzlər. Həm valideynlər, həm də müəllimlər oğlanların uğur qazanmamasını "talesizlik" kimi qiymətləndirirlər. Onlar həmçinin zəkalı oğlanların yalnız ağdərili, orta və elit sinfin təbəqəsində olması fikrini də təbliğ edirlər. Onların fikrincə, heç vaxt qaradərili amerikalı ağdərili amerikalı qədər istedadlı ola bilməz. Beləliklə, bu fikirlərdə klassizm, rasizm, seksizm kimi neqativ elementlər yer alır.

Məktəbin təşkilatı fəaliyyətində də şagirdlərə gender ismarıcı verirlər. Bir çox kişi müəllimlər, bəzən qadın müəllimlər də müəyyən məktəb fəaliyyətlərində cinsi separatçılığa yol verirlər.

Məsələn, komandaların təşkil olunmasında oğlan və qızlar ayrı-ayrı düzülürlər və cinslərinə uyğun tapşırıqları yerinə yetirirlər.

Bu, nələrə səbəb olur? Cinsi separatçılıqla müşayiət olunan fəaliyyət oğlan və qızların birlikdə fəaliyyət göstərməsinə mane olur, bununla da onlar əks cinsin maraq və fəaliyyətindən xəbərsiz olurlar. İkincisi, cinsi separatçılıq onlara yalnız öz cinslərindən olan insanlarla işləmək vərdişi verir və böyüyəndə digər cinsin də nümayəndələri olan qarışıq qruplardan ibarət kollektivlərdə işləmək onlara çətin gəlir. Cinsi separatçılıq gender stereotipləşməsinə səbəb olur və bu da cinslərin özlərinə uyğun işgörmə qabiliyyətini inkişaf etdirdiyi halda, qeyri-ənənəvi işləri görə bilmə qabiliyyətini aşağı salır. Sonda, uşaqlar məktəbin onlara təbliğ etdiyi kimi, mənsub olduqları genderlərə uyğun ismarıclar alırlar.

**Qadınlar təhsildə: kollec və universitetlər.** Təəccüblü deyil ki, qızlara məxsus özünüqiymətləndirmə xüsusiyyəti məktəbdən kollec və universitetlərə qədər davam edir. Oğlan həmyaşıdlarından da yüksək akademik nailiyyətlər əldə edən kollecdəki qadınlar özlərinə inam məsələsində hələ də oradakı kişilərlə müqayisədə kompleksli hisslər yaşayırlar. Özlərinə belə yanaşma onlara kollecdə özünü göstərməklərinə və gələcək karyeralarındakı planlarına mane olur. Onlar üçün əsas gələcək, ailə ilə bağlı olan gələcəkdir.

Amerikalılar son 40 il ərzində təhsilə daha çox önəm verməyə başlamışlar. 1970-ci illərlə müqayisə edəndə tam orta məktəbi bitirib kolleclərdə oxuyan tələbələrin sayı xeyli artmışdır. Demək olar ki, 25 yaşdan yuxarı gənclərin yarısından çoxu tam orta məktəbi bitirəndən sonra təhsillərini davam etdirirlər. Bu illərdə bakalavr dərəcəsini alanların sayı 11 %-dən 30 %-ə qədər yüksəlmişdir. Demək olar ki, hər üç gəncdən biri bakalavr təhsillidir. Bu rəqəm təkcə ağdərili amerikalılar üçün keçərli deyildir, bu, amerikalıların bütün zümrələrində gözə dəyən faktdır. Statistikalara dərin nəzər salsaq, başqa bir maraqlı məqama rast gələrik: belə ki, təhsildə feminizasiya prosesi gedir (NCAA Re-

search Staff, 2010: 5). Əksər hallarda qadın və kişilər hələ də elmin müxtəlif qütblərindədir.

**Qadın və kişilər ali təhsilin üç pilləsində.** Bakalavr və maqistr dərəcələrində qadınların təmsilçiliyi 50 %-dən yuxarı olsa da, doktorluq dərəcəsində bu faiz xeyli aşağıdır, hər üç doktorluq dərəcəsi alanların biri qadındır.

1978-ci ildən bəri ABŞ universitetlərinə daxil olan qadınların say faizində artım hiss olunmağa başladı. 1982-ci ildə ilk dəfə bakalavr dərəcəsini alan qadınların sayı kişiləri üstələyir. Bir sonrakı beş ildə, yəni 1987-ci ildə maqistr dərəcəsi alan qadınların sayı ilk dəfə kişilərdən artıq olur. Nəhayət, 2006-cı ildə doktorluq dərəcəsi alan qadınların sayı kişilərin sayını ötüb keçir. 2013-cü ildə Təhsil Departamentin verdiyi məlumata görə bakalavr dərəcəsi alan qadınlar 56.7 %, maqistr dərəcəsi alan qadınlar 59.9 %, doktorluq dərəcəsi alan qadınlar 51.6 % idi. 2014-cü ildə bakalavr dərəcəsi alan qadınlar 60 % idi.

Əlbəttə, bu məsələlərdə irqi amilləri diqqətdən kənar qoymaq olmaz. Federal Büronun verdiyi məlumata görə, 1995-2015-ci illər ərzində 25-29 yaş arası bakalavr dərəcəsi alan gənclərin faizi 29-dan 43-ə qədər artmışdır. Qaradərililərin arasında bu 15 %-dən 21%-ə, ispan mənşəlilərin arasında 9%-dən 16%-ə qədər artmışdır. 2015-ci ildə asiyalı və Sakit Okean mənşəli amerikalıların arasında bakalavr dərəcəsini alanların sayı xeyli yüksəlmişdi.

**Sfera və genderinə görə bakalavr pilləsi, 2014**

| Sfera | Kişi | Qadın |
|---|---|---|
| İncəsənət və humanitar elmlər | 44.6% | **54.4%** |
| Biologiya və kənd təsərrüfatı elmləri | 46.4% | **53.6%** |
| Biznes | **55.1%** | 44.9% |
| Təhsil | 25.4% | **74.6%** |

| | | |
|---|---|---|
| Mühəndislik | **75.8%** | 24.2% |
| Səhiyyə elmləri | 22.4% | **77.6%** |
| Riyaziyyat və kompüter elmləri | **69.3%** | 30.7% |
| Fiziki elmlər | **63.5%** | 36.5% |
| Dövlət İdarəçiliyi | 24.2% | **75.8%** |
| Sosial və Davranış elmləri | 37.7% | **62.3%** |
| Digər elmlər | 39.1% | **60.9%** |
| **Cəmi**: | 42.3% | **57.7%** |

**(Council of Graduate School, 2015)**

Yuxarıdakı cədvəldə ABŞ-da bakalavr dərəcəsini alan kişi və qadınların faizi göstərilmişdir və bu, sahələr üzrə bölünmüşdür. Bütün bakalavr dərəcəli diplom alanların 57.7%-i qadın, 42.3%-i kişilərdir. Sahələr dəyişdikcə qadın və kişilərin təmsiletmə faizi də dəyişir. Təhsil (74.6% qadın), Səhiyyə elmləri (77.6% qadın) və Dövlət İdarəçiliyi (75.8% qadın) sahələrində qadınlar kişiləri üstələmişlər. Lakin aşağıdakı yeddi sahədə kişilər qadınları üstələmişlər: biznes (44.9% qadın), mühəndislik (24.2% qadın), riyaziyyat və kompüter elmləri (30.7% qadın) və fiziki elmlərdə (36.5% qadın).

Qadınların az təmsil onunduğu sahələrlə kişilərin az təmsil olunduğu sahələr qazanc və prestijinə görə fərqlidir. Qadınların yüksək faizlə təmsil olunduqları sferalar (dayəlik, ev iqtisadiyyatı, sosial iş, kitabxana və bu kimi az prestijli, az maaşlı, monoton sahələr) kişilərin arzu etmədikləri sahələrdir. Bunu gender diskriminasiyası hesab etmək olmaz. Kişilərin çox təmsil olunduqları sahələr daha kriativ, prestijli, yüksək maaşlı sferalardır və bu sahələrdə kişilər dominantlıq edir.

2014-cü il üçün maqistr dərəcəli diplom alan insanların gender tərkibinə nəzər salındıqda bu faizin də qadınların xeyrinə olduğunun şahidi oluruq. 2014-cü ildə 59 % qadın (2013-cü ildə bu rəqəm 58.4 % idi) magistr dərəcəli diploma sahib olmuşdu.

**Sfera və genderinə görə maqistr pilləsi, 2014**

| **Sfera** | **Kişi** | **Qadın** |
|---|---|---|
| İncəsənət və humanitar elmlər | 41.8% | **58.2%** |
| Biologiya və kənd təsərrüfatı elmləri | 44.1% | **55.9%** |
| Biznes | **56.3%** | 43.7% |
| Təhsil | 23.8% | **76.2%** |
| Mühəndislik | **75.1%** | 24.9% |
| Səhiyyə elmləri | 19.8% | **80.2%** |
| Riyaziyyat və kompüter elmləri | **67.9%** | 32.1% |
| Fiziki elmlər | **58.9%** | 41.7% |
| Dövlət İdarəçiliyi | 24.0% | **76.0%** |
| Sosial və Davranış elmləri | 38.9% | **61.1%** |
| Digər elmlər | 37.6% | **62.4%** |
| **Cəmi**: | 41.0% | **59.0%** |

**(Council of Graduate School, 2015)**

2009-cu ildən bəri bəzi sahələrdə (biologiya və kənd təsərrüfatı) doktorluq dərəcəsini alan insanların arasında qadınların sayı (2006-cı ildə 47.9%) daha çoxdur. Mühəndislik sahəsində doktorluq dərəcəsi alan qadınların sayı əvvəlki illərdə çox az idi, lakin 2009-cu ildə bu rəqəm 4 %-dən 23.6 %-ə qədər yüksələ bilmişdir.

Bu, bir həqiqətdir ki, universitetlərdə bəzi sahələrdə qadınlar üçün doktorluq dərəcəsini almaq çox çətindir və hətta bu sahələr genderə görə seqreqativ xarakter daşıyır. Qadınların ümumi təmsilçiliyinin faiz dərəcəsində problem olmasa da, elmin sahələrinə nəzər salanda bunu aydın görmək olur. Qadınların dillə bağlı elmlərdə daha çox təmsil olunduğunun şahidi oluruq, lakin mühəndislik sahəsində doktorluq dərəcəsi alan kişilərin dominantlığı hələ də müşahidə olunur. Bəzi tədqiqatçılar bu sahəyə görə genderin oynadığı rolu “prestij seqreqasiyası” da adlandırırlar. Qadın və kişilər hələ də prestij nərdivanının müxtəlif pillələrində qalmışlar.

**Sfera və genderinə görə doktorluq pilləsi, 2014**

| **Sfera** | **Kişi** | **Qadın** |
|---|---|---|
| İncəsənət və humanitar elmlər | 48.3% | **51.7%** |
| Biologiya və kənd təsərrüfatı elmləri | 48.0% | **52.0%** |
| Biznes | **57.1%** | 42.9% |
| Təhsil | 31.1% | **68.9%** |
| Mühəndislik | **76.9%** | 23.1% |
| Səhiyyə elmləri | 29.2% | **70.8%** |
| Riyaziyyat və kompüter elmləri | **73.3%** | 26.7% |
| Fiziki elmlər | **65.5%** | 34.5% |
| Dövlət İdarəçiliyi | 37.0% | **63.0%** |
| Sosial və Davranış elmləri | 37.4% | **62.6%** |
| Digər elmlər | 48.4% | **51.6%** |
| **Cəmi**: | 47.8% | **52.2%** |

**(Council of Graduate School, 2015)**

Qadınlar doktorluq dərəcəsini almaq məsələsində 11 sahənin 7-sində kişiləri üstələmişdir: İncəsənət və Humanitar elmlər (51.7 % qadın), Biologiya (52 % qadın), Təhsil (68.9 % qadın), Səhiyyə elmləri (70.8 % qadın), Dövlət İdarəçiliyi (63 % qadın), Sosial və Davranış elmləri (62.6 % qadın) və başqa sahələr (51.6 % qadın). 2014-cü ildə kişilərin daha çox faizlə doktorluq dərəcəsi aldığı sahələr aşağıdakılardır: Biznes (57.1 % kişi), Mühəndislik (76.9 % kişi), Riyaziyyat və kompüter elmləri (73.9 % kişi) və Fiziki elmlər (65.5 % kişi).

Ümumilikdə, 73.303 nəfər doktorluq dərəcəsi almışdır, bunlardan 52.2 %-i, yəni 37.927 nəfəri qadın, 34.737 nəfəri, yəni 47.8 %-i isə kişidir. 52.2 % qadının doktorluq dərəcəsi alması (demək olar ki, 2012-13-cü illərdə də eyni cür idi) çox yaxşı göstəricidir. 2011-ci ildə bu, 52.5 % idi. 2009-cu ildən bəri qadınlar doktor-

luq dərəcəsi almaq sahəsində irəliləmişlər. Təhsil Departamentinin məlumatına görə qadınlar 1978-ci ildən başlayaraq bakalavr dərəcəsini, 1982-ci ildən bəri maqistr dərəcəsini, 2009-cu ildən sonra isə doktorluq dərəcəsini almaqda xeyli irəliləmişlər. Demək olar ki, qadınlar bütün sahələrdə PhD dərəcəsi almaqda faizlə irəli çıxmışlar. Təkcə riyaziyyat sahəsində bu artım (29.2%-dan 28.4%-ə enmişdir) o qədər də ürəkaçan olmamışdır. Riyaziyyat və kompüter elmləri, Təbiət elmləri və Fiziki elmlər sahəsində maqistr və bakalavr pillələrində də qadınların təmşilçilik faizi aşağı düşmüşdür.

**Tələbə-müəllim münasibətində gender stereotipləri.** Müəllimlər oğlan tələbələrdən daha çox dərs soruşurlar; oğlanların dərslərdə fəal olmaqlarına şərait yaradırlar. Belə qeyri-mütənasib yanaşmaya kolleclərdə də təsadüf edilir. Tələbələrin yarısı dərs zamanı müəllimlə daha az ünsiyyət qurmaq istəyir, bu sakit tələbələrin əksəriyyəti də (təxminən üçdə biri) qızlar olurlar. Auditoriyadakı oğlan tələbələrlə qız tələbələr arasında serqreqasiya olur və müəllimlər səs-küylü oğlan tələbələrin diqqətini dərsə cəlb etmək üçün daha çox cəhd göstərirlər.

Dərs zamanı gender-mənşəli diskriminasiya aşağıdakı kimi olur:

* Yuxarıda qeyd olunduğu kimi müəllimlər oğlan tələbələrı qız tələbələrdən daha çox danışdırır, onlar öz aralarında danışanda müəllimlər onlara az irad bildirir, onların şərhlərinə daha çox önəm verirlər.
* Müəllimlər qadınların sosial və ya professional rollarından nümunə gətirəndə gender-stereotipləşmiş misallara üstünlük verirlər.
* Oğlan tələbələrə "kişilər", qız tələbələrə "qızlar" deyə müraciət edirlər.
* Qızların fiziki görünüşünə, oğlanların intellektual qabilyyətlərinə şərhlər verilir.

Tədris ocaqlarında rol modellərin və mentorların (tələbə məsləhətçisi) arasında qadınların az olması və ya heç olmaması yuxarida qeyd edilən problemlərin meydana çıxmasına şərait yaradır.

**Dərsliklər.** Dərsliklərdə kişilərin xeyrinə gender tərəfkeşliyi, gender stereotipləri, qadınların az təbliğ olunması, daima diqqətin "qəhrəman kişi" üzərinə yönəlməsinə təsadüf olunur. Dərsliklərdə həmçinin etnik azlıqların həyatı ilə bağlı tarixi məqamlara az yer verilir və ya bu məsələlərə heç toxunulmurdu. Bir afro-amerikalı qız demişkən "on iki il məktəbdə oxudum, özüm haqqında heç bir şey öyrənmədim" (American Association of University Women, 1992: 61).

Dərsliklərdə dolayısı ilə qızlara daha uğurlu gələcək karyera planlarından imtina etmək təlqin olunurdu və bunun onlar üçün çox çətin olması fikri beyinlərinə yeridilirdi.

Müəllimlər məktəblərdəki dərsliklər vasitəsilə şagirdlərə gender ismarıclarını ötürürlər. Fənnindən asılı olmayaraq, ibtidai siniflərdə istər ingilis dili, istər oxu dərsi olsun, qız-qadınlar dərsliklərdə lazımi şəkildə təqdim olunmurlar. Son dövrlərdə dərsliklərin dilinin gender neytral olması istiqamətində müəyyən işlər aparılsa da, dərsliklərdə qız-qadınlardan az bəhs olunur, onlar köməkçi qismində, tabeçi statusunda təqdim olunurlar. Beləliklə də, kitablarda kişilərin xeyrinə tarazlıq pozulur (oğlanlar macəra axtaran, qızların xilaskarı qismində, qadınlar kişilərə qayğı göstərən, onlardan kömək uman, onlar üçün işləyən icraçı qismində təqdim olunurlar).

İbtifai sinif üçün tərtib edilən dərsliklərə nəzər salınanda, orada qadınların çox az olduğu nəzərə çarpır. Universitet Qadınları Amerika Assosiasiyası (UQAA) hesab edir ki, bu çox ciddi, təxirəsalınmaz və çözülmək üçün vacib problemdir. "Fənnindən asılı olmayaraq (ingilis dili, oxu, tarix, təbiət elmləri və sairə), qadınlar, xüsusən də azlıqlardan olan qadınlar bu dərsliklərdə yox dərəcəsindədir. Tarixin bəzi səhifələrində afro-amerika qadınlarının aktiv iştirakına baxmayaraq, tarix kitablarında onların adı

ümumiyyətlə yoxdur, onların adı yalnız ənənəvi tarixi kontekstdə çəkilir (Vətəndaş Müharibəsi, qaradərililərin vətəndaş hüquqları hərəkatı, qadınların sufrajist hərəkatı və s.) ya da onlar məşhur kişi qəhrəmanların həyat yoldaşı kimi təqdim olunurlar".

Amerika feminist alimi Elein Şovalter iddia edir ki, qadın və kişilərin mənsub olduqları həyatların konteksti fərqli olduğu kimi onların yazıb-oxumaları da fərqlidir. Müəllif qeyd edir ki, bunun belə olması səbəbsiz deyildir, bütün bunlar dərsliklərdən qaynaqlanır, çünki dərsliklərdə qadınlar çox vaxt daha görünməz, tabeçilik statusunda, kişilər daha cəsur, dominant statusda təqdim olunurlar. Bəzən dərsliklərdə olmayanda da dərs deyən müəllimlər dərsin təqdimatını gender tərəfkeşliyi prizmasından interpretasiya edirlər (Tierney, Helen., 2008: 555).

İllər keçsə də, uşaq kitablarında kişilər qayğıkeş, tərbiyə verən kimi deyil, əmr edən, çörək qazanan, ailənin müdafiəçisi kimi təsvir olunur. Artıq real həyatda evdə qalan, təkcə ərinə və uşağına qayğı göstərməklə kifayətlənən qadınlara az təsadüf olunur, onlar ərləri ilə bərabər işləyir, pul qazanır və axşamlar onlarla eyni saatda evə dönürlər. Hazırda evdə qalıb ödənişli işdə çalışmayan qadın tapmaq çox çətindir və uşaqların qayğı prosesində kişilər də iştirak edirlər. Bütün bunlara baxmayaraq, hələ də hekayə kitablarında pul qazanan, ov ovlayan, baliq tutan, evdə az vaxt keçirən ənənəvi kişilər daha çox təsvir olunurlar. Hekayələrdə evdə oturmayan qadınlardan bəhs olunsa da, evə dönən kişilərdən bəhs olunmur.

Təhsil Tədqiqatı və Təlimi Milli Şurası hələ 1982-ci ildən dərsliklərdəki gender tərəfkeşliyinin ləğv edilməsi və dərsliklərdə gender neytral mövqenin saxlanılmasını israrla tələb edirdi. Düzdür, əvvəlki illərlə müqayisədə bunun qarşısı nisbətən alınmışdır, lakin hələ də dərsliklərdə gender diskriminasiyası mövcuddur (Blumberg, Rae Lesser 2007:12).

Tədqiqatçıların araşdırmalarına görə məktəblilərin dərsliklərində ən azı 30-dan çox peşə təqdim olunur. Adətən verilən peşələr

feminin və maskulin kateqoriyalara görə bölünür. Məsələn, tibb bacısı, müəllim qadın peşəsi kimi təqdim olunduğu halda, həkim, polis, poçt işçisi, pilot, sürücü, dülgər və hərbçilər çox vaxt kişi peşəsi kimi təqdim olunur. Bu da ixtisas və peşələr haqqında stereotipləşmiş təsəvvürə təkan verir və qadınlar özəl, kişilər ictimai sferanın nümayəndəsi kimi təqdim olunur. Bildiyimiz kimi, tibb bacıları və müəllimlər o qədər də yüksək maaş almırlar və bu sahələr kişilər üçün cəlbedici deyildir (UNESCO).

**Təhsilin idarəçilik strukturunda qadınlar azdır.** Dövlət təhsil ocaqlarında çalışanların əksəriyyətinin qadınlardan ibarət olmasına rəğmən, idarəçilikdə hələ də qadınlar 30 % civarındadırlar. Beləliklə, qadınlar işləyir - icra edir, kişlər qərar qəbul edirlər.

Bütün patriarxal cəmiyyətlərdə olduğu kimi, Amerikada da liderlik deyəndə ənənəvi düşüncə ilə kişi nəzərdə tutulur. Liderliklə əlaqəli tədqiqat aparan Şimali Karolina Universiteti tədqiqat hədəflərində olan kollecin kollektivini şərti olaraq dörd qrupa bölürlər. Qruplar kursun iki professoru (biri kişi, digəri qadın) arasında bölünür. Sonda, tələbələrə final qiymətləndirmədə professorları genderinə görə dəyərləndirmək tapşırığı verilir. Kişi professora daha yüksək qiymətlər verilir, çünki tələbələr inanırlar ki, kişi professor qadın professordan daha elmli, daha bacarıqlı olmalıdır (U.S. Department of Education, 2015).

Amerika təhsil ocaqlarında çalışanların əksəriyyətinin qadın olması belə bir nəticə çixarmağa imkan yaradır ki, liderlik postunda da qadınların sayı buna uyğun çox olmalıdır. Qeyd etdiyimiz kimi, dövlət məktəblərində müəllimlərin əksəriyyəti qadın olsa da, yüksək postlarda onların sayı azdır. 2014-cü ildə ağdərili qadın təhsil işçilərinin 18 %-i, qaradərili qadınların 1 %-i və digər irq və etnik qrupların cəmi 1 %-i təhsilin yüksək postlarındadır (Finnan L., et al., 2015). Orta məktəbin yuxarı siniflərində də çalışanların çoxu qadınlardır və onların uğurları kişi müəllimlərdən daha çoxdur. Burada da liderlikdə kişi müəllimlər üstünlük təşkil edir; onların sayı tam ştatda olan kişi müəllimlərin sayından azdır.

Qadınların həm kolleclərdə, həm də universitetlərdə tam ştatda saylarının az olması onların karyerada irəliləmə imkanlarını məhdudlaşdırır. Elə kişilərin yüksək postlarda olma səbəblərindən ən əsası da budur (Hammond, R. (Ed.), 2015: 18). 2012-ci ildə icma və qadın kollecləri də daxil olmaqla, kollec və universitetlərin üst qatlarında cəmi 26% qadın var. Düzdür qadın kolleclərinin prezidentləri qadınlardır (American Council on Education, 2012).

**ABŞ-da təhsil. Gender və İrq/Etniklik, 2014**

| Sıra | Etnik mənşələr | Kişilər | Qadınlar |
|---|---|---|---|
| 1. | Amerika hinduları və Alyaska mənşəlilər | 1.2% | 0.3% |
| 2. | Asiyalılar | 0.0% | 0.1% |
| 3. | Qaradərili və ya Afro-Amerikalılar | 0.6% | 1.0% |
| 4. | İspan-Latın mənşəlilər | 0.5% | 0.2% |
| 5. | Yerli Havay adalılar və ya Sakit Okean sakinləri | 0.1% | 0.0% |
| 6. | Ağdərililər (qeyri-ispanlar) | 75.0% | 18.5% |
| 7. | Digərləri | 0.6% | 0.3% |
| 8. | İrq/etnik mənşəyi məlum olmayanlar | 0.6% | 0.2% |
| 9. | **Cəmi** | **78.7%** | **20.5%** |

**[Finnan, L., (Eds.), 2015].**

Təhsil müəssisələrinin idarəçiliyində irqi və etnik müxtəlifliklərin nümayəndələrinə çox az hallarda təsadüf olunur, burada yüksək vəzifəli qeyri-ağdərili qadın görmək nadir hadisədir. Kollec və universitetlərdə illərlə işləyən qaradərili qadın işçilərin

yüksək vəzifələrdə olması təsadüfi haldır (Oguntoyinbo, L., 2014). 2006-cı ildə kollec prezidentlərin yalnız 4 %-ini qeyri-ağdərili qadınların təşkil etməsinə baxmayaraq, 2011-ci ildə kollec prezidentlərin 17 %-i qeyri-ağdərili qadınlar idi. Kollec və universitetlərdə qeyri-ağdərili qadınların arasında 11 % müəllim, 11 % professor yardımçısı, 4 % professor çalışırdı. Onların sayı 2010-cu ildə hiss-ediləcək dərəcədə artdı, qeyri-ağdərili qadınların 13 %-i özəl ali məktəb idarə heyətinin üzvü, 23 %-i isə dövlət ali məktəb idarə heyətinin üzvü idi (Colorado Women's College, 2013).

Hələ 1990-cı illərdə akademik sahələrdə araşdırma aparan tədqiqatçılar yaxın gələcəkdə təhsil müəssisələrində qadınların daha yüksək vəzifələrdə çalışmaları barədə proqnoz verirdilər. Yeni əsrdə qadınların həyatında yeni dönəmın başlanması, kişilərin dominantlıq etdiyi sahələrə qadınların daxil olması ehtimal olunurdu. Hətta qadınların bu pillələrdə uğurla irəliləmələri və vacib postların pillələrində uğurlu addımlar atacaqları təxmin olunurdu.

Kollec məzunlarının 57 %-i qadınlardır və PhD dərəcəsini qazananların çox hissəsini də qadınlar təşkil edir (States News Service, 2009). Düzdür, hələ də təhsil müəssisələrində yüksək postlarda kişilərin dominantlıq etdikləri sahələr mövcuddur. Hətta bu gün də administrativ təmsilçilikdə bütün sahələrdə qadınların faizi kişilərlə müqayisədə aşağıdır. Hələ də yüksək prestijli, daha çox maaşlı vəzifələr kişilər tərəfindən zəbt edilmişdir. Hələ də yüksək postlarda irqi, etnik azlıq nümayəndələrinin sayı çox azdır (U.S. Department of Education-National Center for Education Statistics, 2013).

Qadınlar ABŞ kollec və universitetlərində administratorların 40 %-ini təşkil edir və bunların 84 %-i ağdərili qadınlardır. Kollec və universitetlərdə daimi ştatda olan qadınlar cəmi 33.2 %-dir. Qurumlarda və ya şöbələrdə prestij yüksəldikcə, qadınların faizi azalır. Məsələn, doktorluq dərəcəsi verən institutlarda ştatın 27.4 %-i, ikiillik kolleclərdə isə 45,9 %-i qadınlardan ibarətdir.

Kişilər elmdə dominantlıq etməyi davam etdirirlər, qadınlar səhiyyənin xidmət sahəsində, sosial iş, təhsil sferasında daha çox olurlar, çünki dərs keçmək, qayğı göstərmək, xidmət etmək kimi sahələrin "*təbiətən qadınlara daha uyğun olması*" fikri hələ də cəmiyyətdə əsas götürülür. Prestijli kolleclərin ştatında qadınlar 10 %-dən də azdır. Qadınlar hətta kişilərlə eyni vəzifədə olsalar da, eyni həcmli işləri yerinə yetirsələr də, eyni şöbələrdə çalışsalar da, onların maaşları kişilərdən az olur. Qadınların çoxluq təşkil etdiyi sahələr dərs deyilən sferalardır.

Məktəblərdə daimi iş yerləri olan qadınlar 58 %, kişilər isə 75 % təşkil edir.

Qadınların 17 %-i tam professor; 30 %-i dosent; 42 %-i professor yardımçısı; 49 %-i müəllimlərdir.

Hazırda 3 universitetin prezidenti qadındır: Prinston, Braun və Pensilvania universitetləri. Braun Universitetinin prezidenti Afro-Amerika mənşəlidir.

Akademik sferada ştatdakı vəzifə və ya tam ştat statusu, qadınlara kişilərdən az maaş verilməsi, gender boşluğu geniş yayılmış problemlərdir. Son onbeş il ərzində təhsilin bütün qatlarında qadınların faizinin yüksəlməsi onların statuslarındakı, maaşlarındakı fərqə təsir etməmişdir. Gender boşluğu, maaş fərqliliyi son on ildə stabil olaraq qalır.

Qeyd etdiyimiz kimi, universitet mentorların əksəriyyəti kişidir, qadınlar və qeyri-ağdərili qadınlar üçün uyğun mentorun olmaması və ya çox az olması problem olaraq qalır.

**Təhsildə xoşagəlməz mühit - seksual təngəgətirmə**

*Seksual təngəgətirmə* arzuolunmaz, xoşagəlməz seksual xarakterli baxış, sözatma, şit zarafat, təklif və ya fiziki toxunuşları özündə ehtiva edir. Göründüyü kimi, seksual xarakterli təngəgətirmə həm verbal, həm də fiziki toxunuş şəklində baş verə bilər.

Bu istiqamətdə Universitet Qadınların Amerika Assosiayası (UQAA) tez-tez təhsil ocaqlarında sorğular keçirir. Məktəblərdə və digər təhsil ocaqlarında seksual xarakterli təngəgətirməyə,

əsasən, qız uşaqları məruz qalır. Bu seksual xarakterli təngəgətirmə ya onların öz tay-tuşları, ya onlardan böyük oğlanlar, ya müəllimləri, ya da məktəb rəhbərliyi tərəfindən ola bilər. Araşdırmaların nəticələrinə görə, Amerika təhsil ocaqlarında qızların təxminən yarısı seksual xarakterli təngəgətirmə halları ilə üzləşmişlər.

UQAA 8-11 siniflər arasında sorğu keçirmişdir və sorğunun nəticələri aşağıdakı kimi qiymətləndirilmişdir**:**

83 % qız seksual xarakterli təngəgətirmə halları ilə üzləşmişdir;

78 % oğlan seksual xarakterli təngəgətirmə halları ilə üzləşmişdir;

38 % tələbə ya öz müəllimi, ya da məktəb işçiləri tərəfindən seksual xarakterli təngəgətirməyə məruz qalmışdır;

36 % məktəb işçisi və ya müəllim öz tələbələri tərəfindən seksual xarakterli təngəgətirmə halları ilə üzləşmişdir;

42 % məktəb işçisi və ya müəllimi bir-biriləri tərəfindən seksual xarakterli təngəgətirmə halları ilə üzləşmişdir.

UQAA kollec və universitetlər arasında sorğu keçirmişdir və sorğunun nəticələri aşağıdakı kimi qiymətləndirilmişdir**:**

62 % qız, 61 % oğlan tələbə seksual xarakterli təngəgətirmə halları ilə üzləşmişdir;

66 % kollec tələbəsi tanıdıqlarının bu halla üzləşməsindən əmindir;

10 %-dən az seksual təngəgətirməyə məruz qalan tələbə universitet işçilərinə seksual xarakterli təngəgətirmə halları ilə üzləşdiyi barədə məlumat vermişdir;

35 % kollec tələbəsi seksual təngəgətirməyə məruz qaldıqları barədə kimsəyə məlumat verməmişdir;

39 % tələbə yataqxanada seksual təngəgətirməyə məruz qaldıqlarını söyləmişdir (Catherine Hill and Elena Silva, 2005).

Yuxarıda sorğunun cavablarından da göründüyü kimi, seksual təngəgətirmənin tez-tez baş verməsinə rəğmən, bu barədə hər zaman məlumat verilmir. Əksinə, seksual qurban problemin

öhdəsindən özü gəlməyə çalışır, bu barədə ya yaxın dostuna, ya da ailə üzvünə məlumat verir. Tələbənin təkbaşına problemin öhdəsindən gələ bilmə cəhdi çox vaxt onun ziyanına işləyir. Məqsədinə çata bilməyən seksual təngəgətirən şəxs vəzifə və səlahiyyətindən sui-istifadə edir və tələbəni imtahandan kəsilmək, kursdan xaric etmək kimi uğursuzluğa düçar edir. Ən maraqlısı odur ki, məsələdən xəbərdar olanlar çox vaxt seksual təngəgətirən şəxsi deyil, seksual təngəgətirməyə məruz qalan şəxsi günahlandırırlar. Seksual təngəgətirməyə məruz qalanın genderi də əhəmiyyət daşıyır, çünki bu qız və ya qadındırsa, mütləq geyimi və ya davranışı ilə bağlı ona irad tutulur. Bəzən zərərçəkən cəsarətini toplayıb universitet rəhbərliyinə məlumat versə də, rəhbərlik seksual təngəgətirən şəxsə şifahi xəbərdarlıq etməklə kifayətlənir. ABŞ təhsil müəssisələrində seksual təngəgətirən şəxsin işdən azad olunması və ya cəzalanması barədə çox az fakt məlumdur.

1992-ci ildə ABŞ Ali Məhkəməsi məktəbdə seksual təngəgətirməni də təhsil diskriminasiyası kimi dəyərləndirdi və qanuna görə, bu problemi həll edə bilməyən məktəbin zərəçəkənə dəyən ziyana görə məsuliyyət daşıdığını qanuna daxil etdi. 1998-ci ildə ABŞ Ali Məhkəməsi belə vəziyyətin ola biləcəyi tədqirdə, xüsusilə də müəllimin şagirdinə qarşı seksual təcavüz hallarına görə məktəbin ciddi şəkildə məsuliyyət daşıdığı haqda qanun qəbul etdi. 4-cü və 5-ci maddəyə görə, əgər şagird müəllimi tərəfindən seksual təcavüzə məruz qalıbsa, məktəb bölgə məhkəməsi tərəfindən cəzalandırıla bilər və əgər məktəb rəhbərliyinin bu barədə məlumatı olubsa və heç bir tədbir görməyibsə, o zaman ABŞ Ali Məhkəməsi məktəbin cərimələnməsi barədə hökm çıxara bilər.

Qanuna o da əlavə olunmuşdur ki, tək bir dəfə qeyri-adekvat hərəkət seksual təngəgətirmə hesab oluna bilməz, əgər bu hərəkət israrlı şəkildə təkrarlanarsa və davam edərsə, o zaman bu, seksual təngəgətirmə hesab oluna bilər.

1999-ci ildə Minnesota məktəblərinin birində məktəbli qız məktəbli gənc oğlan tərəfindən seksual təngəgətirməyə məruz

qalmışdı və seksual təngəgətirən şəxs $15.000 civarında pulla cərimə olunmişdu (Gross, J., 1992). Bu hadisədən sonra bir müddət həm təhsil ocaqlarında, həm də iş yerlərində seksual təngəgətirmə hallarında nisbi azlıq müşahidə olundu. Ümumiyyətlə, o illərdə təhsil ocaqlarında müəllim-tələbə arasında romantik əlaqələrin son qoyulması istiqamətində də qanunda müəyyən dəyişikliklər edildi.

Əlbəttə, seksual təngəgətirməyə məruz qalan təkcə qız-qadınlar deyil, kişilər də ola bilər. Bəzən də, dərslərində uğur qazana bilməyən qız tələbələr asılı olduqları kişi müəllimlərdən intiqam almaq üçün onları seksual təngəgətirən şəxs kimi tanıdırlar və onlardan şikayətçi olurlar. Oğlan tələbələrin seksual təngəgətirmə halları ilə üzləşməsi nadir olsa da, bu, baş verir. Qadın müəllimlər xoşlarına gələn yaraşıqlı oğlan tələbələrə seksual eyhamlar vurur, baxışları ilə bunu hiss etdirir, hətta toxunmalar da olur. Bunun digər haldan fərqi ondan ibarətdir ki, oğlanlar qızlar qədər qorxmurlar və mənəvi travma almırlar. Bu hallar oğlanlar üçün də neqativ xarakter daşıya bilər, lakin bu sistematik xarakter daşımır.

Akademik sferada nüfuzuna, vəzifəsinə görə seksual təngəgətirən şəxslərə təsadüf olunur. Bəzən bunun əksi də ola bilər. Seksual təngəgətirmənin qurbanı professor, seksual təngəgətirən şəxs tələbə də ola bilər. Belə bir fakt qeydə alınmışdır ki, bir oğlan tələbə qadın professordan siqaret iştəyir və professor siqaret vermədiyinə görə tələbə onu tərbiyəsiz adlandırır, seksual xarakterlı söyüşlərlə (*smacked the bitch*) söyür. Buradan aydın olur ki, qadın professorun daha nüfüzlü vəzifədə olmasına rəğmən, hətta belə situasiyada da kişi daha rahatdır (Reilly, M.E. et al, 1986:354).

Seksual təngəgətirmənin qadınların təhsil almalarına hansı mənfi təsirləri ola bilər? Araşdırmaların nəticələrinə görə, bunun qadın tələbələrə mənfi təsiri qaçılmazdır. Seksual qurbanların verdiyi məlumatlara görə seksual təngəgətirmə onlarda qətiyyətsizlik, emosional rahatsızlıq və fiziki halsızlığa səbəb olur. Pis vəziyyətdə qalmaqdan, ictimai qınaqdan ehtiyat edən qız tələ-

bələr bu barədə susmağa üstünlük verirlər, məsləhətə ehtiyacları olduğu hallarda belə kişi mentorlarla görüşməkdən qaçırlar, kişi professorlarla ünsiyyətlərində məsafə saxlayırlar. Lakin asılı olduqları professor və ya digər təhsil işçilərindən seksual təngəgətirmədən yararlanan tələbə qızlar da qeydə alınmışdır. Bu da onların "rahat" akademik uğurlar qazanmasına yardım edir. Göründüyü kimi, çoxsaylı qadınların əziyyət çəkdiyi məqamlardan yararlanan qadınlar da mövcuddur.

**Daha pozitiv təhsil mühitinin yaradılması.** Tədqiqatçılar çoxsaylı araşdırmalarında təhsil prosesində təsadüf edilən çatışmazlıqlardan, gender diskriminasiyasından bəhs etsələr də, hələ də bunları aradan qaldırıb tam şəkildə gender bərabərliyini əldə etmə yollarını ortaya qoya bilməmişlər. Hətta bəziləri ayrıca qızlar məktəbinə üstünlük verirlər, bu, o demək deyil ki, həmin məktəblərdə qızlar üçün ayrıca fənlər nəzərdə tutulur. Onlara görə belə gender seqreqativ məktəblərdə qızlar daha çox uğur qazanırlar, çünki onlar heç bir fənnin "kişi" fənni olmasına görə kompleks yaşamırlar. Düzdür, bu yolu məsləhət görsələr də, bunu çıxış yolu hesab etmirlər. ABŞ-da 1965-ci və 1992-ci illər arası qız kolleclərinin sayında kəskin azalma oldu, onların sayı 281-dən 84-ə qədər azaldı. ABŞ-da 1991-ci ildə cəmi iki özəl oğlan kolleci var idi Claire (M. Renzetti and Daniel J. Curran, 199: 139-40).

Təhsil təcrübəsinin tarazlığını yaratmaqdan ötrü təklif olunan ikinci metod qadınlar haqqında materialların dərs materiallarına daxil olunmasıdır. Atılan ilk addımlar sırasında "Qadın araşdırmaları" adlı fənnin tədris kurikulumuna daxil olunması idi. 1990-cı illərdə ABŞ institutlarında 600-dan çox belə proqramlar var idi.

Beləliklə, "Qadın araşdırmaları" fənni adı altında kurslar, seminarlar təşkil olundu və "Ədəbiyyatda qadın", "İqtisadiyyatda qadın", "Tarixdə qadın" adları altında "xüsusi kurslar" tədris olunmağa başladı. Yenə də o qadınların həyat və fəaliyyəti tədrisə daxil olundu ki, onlar kişi standartları ilə uğurlu qadınlar hesab olunurdu. Kişi kimi davranışı olan, kişilər kimi hərəkət etməyi

bacaran qətiyyətli qadınlar haqqında materiallar dərsliklərə əlavə olunurdu. Bu da belə olmağı bacarmayan qız tələbələrdə kompleks yaradırdı və onlara neqativ təsir edirdi. Lakin bəzi hallarda, bu fənlərin tədrisi zamanı bilik bazası, siyasət və təcrübə elə bir strukturda təqdim olunurdu ki, burada qadın perspektivi nəzərə alınırdı. Məsələn, "İqtisadiyyatda qadın" kursunun tədrisində artıq ənənəvi mövzular deyil, daha müasir mövzular müzakirə edilirdi. Məsələn, belə bir sual müzakirə mövzusu ola bilərdi: "qadının evdəki ödənişsiz əməyinin iqtisadi təhlili". Bu sualın müzakirəsi zamanı bir çox qeyri-ənənəvi yanaşmalar ortaya çıxırdı və bir çox amillər nəzərə alınırdı: bu vəziyyətdə olan qadının irqi, sosial sinfi, seksual oriyentasiyası, fiziki qabiliyyəti.

Feminist alimlər ənənəvi kurikuluma yenidən nəzər salmağın vaxtının çatdığını diqqətə çatdırdılar və təkcə "Qadın araşdırmaları" adı altında keçirilən kursların yetərli olmamasını dilə gətirdilər. Onlar kurikulumda köklü dəyişiklik etməyin vaxtının çatdığını qeyd etdilər. Bu kimi təkliflər tez-tez təhsillə əlaqəli müzakirələrdə eşidilməyə başladı. Bütün bu təkliflərin həyata keçirilməsi üçün aidiyyəti qurumlar maliyyə vəsaitinin çatışmamasını bəhanə gətirdilər.

Kurikuluma yeni baxış yeni-yeni müqavimətlə üzləşirdi və bəzən də cavabdeh şəxslər "Qadın araşdırmaları" fənninin keçirilməsi ilə bu işin bitdiyini və dəyişikliyə ehtiyac qalmadığını söyləyirdilər.

Bir məsələni də qeyd etmək lazımdır ki, adı çəkilən fənnin tədrisi müsbət nəticələr verməyə başladı. Bu, daha böyük sosial kontekstdə gender stereotipləşməsinin azalmasına, qadınlarda özünəinamın artmasına, uğurlu qadınların təcrübələrinin öyrənilməsinə səbəb oldu. Bu proqramların təsirinin nəticəsi idi ki, bir çox önəmli sahələrdə gender bərabərsizliyi azalmışdı.

1970-80-ci illərdə yuxaridakılara cavab olaraq, ABŞ təhsil müəssisələrində "Kişi araşdırmaları" adlı fənn də tədris olunmağa başladı və 200-dən artıq kollecdə tələbələrə bu kurslar təklif

olunurdu. Bu kursu təklif edən cavabdeh şəxslər bu fənni təklif etməklə, tarixdə kişiləri maskulinliyin daşıyıcısı kimi öyrənməyə başladılar. Təəssüf ki, fənnin hədəfində duran əsas məsələ cinsi müxtəlifliyin təbii olması, gender bərabərliyinin məhdudlaşdırması məsələsi idi. Digər tərəfdən də, fənnin tədrisində duran vəzifələrdən biri də, fənni tədris edərkən kişiləri homogen tip kimi deyil, fərqli tiplər kimi təqdim etmək ehtiyacı idi. Burada da zəruri amillər nəzərə alınmalı idi, yəni yaş, sosial sinif, seksual oriyentasiya, irq və sairə vacib faktorlar diqqətdən qaçmamalı idi.

**Gender, təhsil və güc.** Bu fəsildə ABŞ-da ibtidai sinifdən başlayaraq ta doktorantlıq səviyyəsinə qədər təhsildə qadın və kişilərin təhsil təcrübəsi öyrənilməyə səy göstərildi və onların üzləşdikləri bərabərsizliklər nəzərdən keçirildi. Son dövrlərdə gender bərabərliyi istiqamətində əldə olunan nailiyyətlərə baxmayaraq, təhsildə yenə də mədəniyyətlə bağlı struktural baryerlər mövcuddur. Dərsliklərdə və kurs materiallarında qadınlar haqqında materiallar ya azdır, ya da ümumiyyətlə yoxdur. Qadınlar nisbətən az maaşlı, aşağı prestijli sahələrə istiqamətləndirilir və bu sahələri də qadın dominantlığı ilə müşayiət olunduğunu qeyd edirlər. Əslində, bu sahələr kişilər üçün az cəlbedici və az maraqlıdır. Təhsilin həm alt, həm də üst qatlarında qız tələbələrə məsləhət verə bilən mentorlar azdır, örnəklər yoxdur. Mentorların əksəriyyəti kişi olduğu üçün qızlar lazımi məsləhəti almaqda uyğun kadr tapmırlar.

Tədqiqatda, təhsildə təsadüf edilən bərabərsizliklərin aradan qaldırma yolları göstərilmişdi. Bunu həyata keçirmək üçün çoxsaylı feminist təhsil işçiləri proqramlara adekvat materialların daxil edilməsini təklif edilmişdir. Hələ də feminist alimlərin təklif etdiyi kurikulumlar ciddi müqavimətlərlə üzləşsə də, bir sıra uğurlar əldə edilmişdir. Lakin bu hələ yolun başlanğıcıdır, bu istiqamətdə həyata keçiriləsi işlər çoxdur.

## Ədəbiyyat:

**İngilis dilində**

1. AAUW, "*Barriers and Bias: The Status of Women in Leadership*", Washington, DC, 2016
2. American Association of University Women, 1992: 61
3. American Council on Education, 2012
4. Blumberg, Rae Lesser, 2007, "*Gender Bias in Textbooks: A hidden Obstacleon the Road to Gender Equality in Education*": Paper Commissioned for the EFA Global Monitoring Report 2008, Education for All by 2015: Will we make it?" UNESCO, Paris
5. Catherine Hill and Elena Silva, "*Drawing the Line: Sexual Harassment on Campus*", American Association of University of Women, Educational Programm, edited by Susan K. Dyer, United States, 2005
6. Christian Hoff Sommers, "*The War Against Boys: How Misguided Feminism is Harming Our Young Men*", The American Enterprise Institute 2001
7. Claire M. Renzetti and Daniel J. Curran, "*Women, Men, and Society*", Widener University, 1992, Pp.139-140
8. Commission on Professionals in Science and Technology 1992, U.S. Department of Commerce 1991, 1985, and 1975, Graham, 1978
9. Common Core of Data, 2009-10; Digest of Education Statistics
10. Downey & Vogt Yuan 2005, Downey D.B, Vogt Yuan A., "*Sex differences in school performance during high school: puzzling patterns and possible explanations.*" *Sociol. Q.* 2005, 46(2):299–321
11. Finnan et al., 2015, Finnan, L., McCord, R. S., Stream, C. C., Petersen, G. J., & Ellerson, N. M. 2014, *"AASA Superintendents Salary and Benefits Study",* Alexandria,

VA: American Association of School Administrators

12. Graham, P.A., "*Expansion and Exclusion: A History of Women in American Higher Education*", *Signs,* Vol. 12, No. 2, Reconstructing the Academy, Published by: The University of Chicago Press, 1987, Pp. 333-372
13. Gross, J., "*Schools Are Newest Arena for Sex-Harrassment Cases*", New York Times 1992a, 11, March:A1, B8
14. Giddings, P., "*When and Where I Enter, The Impact of Black Women on Race and Sex in America*", New York: William Morrow, Harper Collins e-book, 1984
15. *Howe, F., "Myths of Coeducation", Bloomington, IN: University of Indiana Press,* 1984
16. Halpern D.F. 1997, "*Sex Differences in Intelligence: Implications for Education*", Am. Psychol. 52(10):1091–1102
17. Hammond, R. (Ed.), Almanac of higher education 2015–16, "*Chronicle of Higher Education"*, 2015, 61(43): 18, 21, 25
18. Horner. M,S., "*Toward an Understanding of Achievement-Related Conflicts in Women*", in Journal of the Socety for the Psychological Study of Social İssues, Wiley, Volume 28, İssue 2, Spring, 2010, Pp. 157–175,
19. Leach,W., *"True Love and Perfect Union: The Feminist Reform of Sex and Society", New York: Basic Books, 1980*
20. Lott, B., "*Women's Lives: Themes and Variations in Gender Learning",* Monterey, CA:Brooks/Cole Publishing Company, 1987:71
21. NCAA Research Staff, "Trends in Graduation Success Rates and Federal Graduation Rates at NCAA Division I Institutions", October 2010, p.5
22. Oguntoyinbo, L. (2014). "*Study: Female leaders in higher ed face different expectations than males. Diverse*

*Issues in Higher Education",* 31(8), 6

23. Reilly, M.E. et al, "*Sexual Harrassment of University Students*" Sex Roles, in **a** Journal of Research**,** Volume 15, İssue 7, 1986:354
24. *Schwager. S., "Educating Women in America",* The University of Chicago Press, *Signs* Vol. 12, No. 2, Pp. *333-372, 1972*
25. States News Service, 2009
26. Tierney, Helen., ed., "*Women's Studies Encyclopedia: Revised and Expanded*", Edition, Rawat, Jaipur, 2008
27. Tom Mortenson, "*What's Wrong with the Guys*?" The Pell Institute for the Study of Opportunity in Higher Education Washington, DC, 2003
28. U.S. Census Bureau, Current Population Survey, Annual Social and Economic Supplement, 2013
29. US Department of Commerce, Bureau of the Census, 2014
30. U.S. Department of Education, 2015
31. Zill & West, 2001, "*Entering Kindergarten: A Portrait of American Children When They Begin School: Findings from the Condition of Education 2000*" , Washington, DC: Natl. Cent. Educ. Stat.

**Rus dilində**

32. Александрова О. А. "Образование: доступность или качество — последствия выбора" // Знание. Понимание, Умение, № 2. 2005, С. 83-93.
33. Гавров С.Н., Никандров Н.Д., "Образование в процессе социализации личности" // Вестник УРАО, № 5, 2008, С. 21-29.

# V FƏSİL

## ABŞ-da iqtisadiyyat, əmək və gender

Cəmiyyətdə gender bərabərliyinin həlli problemi Birləşmiş Millətlər Təşkilatının əsas vəzifələrindən biridir. Birləşmiş Millətlər Təşkilatı bütün üzv dövlətlərin qarşısında qoyduğu prioritet tapşırıq - sülh, təhlükəsizlik, insan hüquqları və inkişafı kimi hədəflərə mümkün qədər sürətlə çatmaqdır. 2015-ci ilin sonuna qədər Birləşmiş Millətlər Təşkilatı "Minilliyin İnkişaf Hədəfləri"ni həyata keçirməyi əsas məqsəd kimi təyin etmişdir. 2000-ci ildə 189 ölkə rəhbərliyinin qəbul etdiyi "Minilliyin İnkişaf Hədəfləri"nin üçüncü bölməsinin cəmiyyətdə gender bərabərliyinin həlli və qadınların iş həyatının gücləndirilməsi" ilə bağlı olması təsadüfi deyildir. Cəmiyyətdə gender bərabərliyinin həlli və qadınların iş həyatında gücləndirilməsi, inkişaf etməsi qərarda vurğulanmış, əmək haqqı (gəlir) bərabərsizliyi və yoxsulluğun azaldılması kimi digər inkişaf hədəflərinə də çatmaq üçün bu faktorun çox önəmli olması xüsusi qeyd olunmuşdur. Gender bərabərliyinin həlli və qadınlara iqtisadi cəhətdən səlahiyyətlərin verilməsi, ilk öncə, qadınların iqtisadi dəstək və təhsil almaları istiqamətində fəaliyyətlərini genişləndirmək deməkdir. Ümumiyyətlə, iqtisadiyyatda gender bərabərliyinin əldə olunması ən əsas demokratik göstəricidir.

İqtisadiyyat nədir? İqtisadiyyat "oykonomiya" ('*oykos*'- ev, təsərrüfat, '*nomos*' - qayda qanun deməkdir) sözündən əmələ qəlib və təsərrüfatın səriştəli, məharətli aparılması mənasını verir. Təsərrüfat fəaliyyəti kimi iqtisadiyyat insanların birgə yaşayışını təmin edən şərtlərdən biridir. İqtisadiyyat sosial, siyasi, mədəni

və başqa proseslərlə sıx əlaqəlidir, buna görə də onu zəruri həyat nemətlərinin yaradılması və cəmiyyətin tələbatlarının ödənilməsini təmin edən iqtisadi sistem kimi də başa düşmək olar. Aristotelə görə, "iqtisadiyyat" insanın təsərrüfat fəaliyyəti dairəsidir. Bu, həyat üçün lazım olan məhsulların istehsalı zərurətindən doğan təbii təsərrüfat fəaliyyətidir. İqtisadiyyat anlayışına təsərrüfatın inkişaf qanunları və idarəetmə qaydaları da daxildir. İqtisadiyyat – insanların öz ehtiyaclarını təmin etmək məqsədilə məhdud vəsaitdən necə istifadə etməsidir. İqtisadiyyat elə bir sistemdir ki, bu həm insan, həm də təbii resurslara nəzarət edir və onun inkişafına təkan verir. İnsanın həyatında işin rolu mühümdür və insan yaşam tələbatını ödəmək üçün işləməyə məcburdur. Bu, sosial olduğu qədər də, iqtisadi hesab olunur.

İş iyerarxaldır. İnsanlar əmək fəaliyyətləri zamanı müxtəlif işləri icra edirlər və onların işləri də müxtəlif cür qiymətləndirilir və bəzən də mükafatlandırılır. İşin dəyəri işçinin əmək vərdişlərindən, gördüyü işin həcmindən, məsuliyyətindən, şəraitindən asılı olaraq qiymətləndirilir. Mövzunun tədqiqat hədəfi qadın və kişilərin əməklərinin qiymətləndirilməsi, əmək fəaliyyətlərində onlara genderlərinə görə verilən imkanlar, mükafatlar, bəzən eyni işi görən qadın və kişinin fərqli qiymətləndirilməsi, əmək sferalarında mövcud olan gender seqreqasiyasıdır. Bütün bu məsələlərə aydınlıq gətirməkdən ötrü mütləq tarixi faktlara nəzər salmaq lazımdır.

Müasir dövrdə ABŞ-da əmək sferasına daxil olan qadınların sayı günü-gündən artır və bu da keçmişdə iqtisadiyyatda dominantlıq edən kişilərə qarşı qadınların potensial lider gücünü artırır. Əlbəttə, keçmişlə müqayisə edəndə son onilliklərdə iqtisadiyyatın üst qatlarında qadınların sayı çox artmışdır, lakin vəzifələrdə yerlərini sanki sementlə bərkitmiş kişilərlə müqayisədə bu hələ də çox azdır. Bütün bu proqreslərə rəğmən, qadınlar iqtisadiyyatın önəmli sferalarındakı yüksək vəzifələrdə hələ də az sayla təmsil olunurlar və onların karyera pillələrinin yüksəlişində kifayət qədər maneələr mövcuddur.

Dünyanın əksəriyyət cəmiyyətlərində olduğu kimi, ABŞ-da da uğurlu menecer modeli hər zaman kişilərin timsalında təqdim olunmuşdur və menecmentin dominant sferalarını kişilər əllərində saxlamağı bacarmışlar.

KİV-in kişi menecerlərinin təbliğində oynadıqları əhəmiyyətli rol danılmazdır və kişi dominantlığı ilə müşayiət olunan KİV bilərəkdən qadınların bu yerlər üçün uyğun olmadıqlarını yazırlar. Bu qorxulu hekayələr cəmiyyət tərəfindən rahat qəbul olunur və həqiqət kimi anlaşılır. Əmək sferasında qadın menecerlərin qabiliyyət, maraq və davranışları haqqında formalaşmış stereotiplər qadınların liderlik istiqamətindəki təşəbbüskarlığına mane olur və onların bu sahədəki effektliliyini məhdudlaşdırır. Heç bir bilik, bacarıq və qabilliyyəti ilə kişilərdən geri qalmayan qadınlar belə öz güclərinə inanmır və kişi həmkarları ilə rəqabətdən geri çəkilirlər.

ABŞ-da əmək sahələrində mövcud stereotiplərdən savayı işə götürmədə, irəli çəkilmədə, maaşlarda da gender diskriminasiyası hökm sürür. Gender əsaslı maaş bərabərsizliyi hələ də mövcuddur və bu da kişi həmkarları ilə müqayisədə qadınlara verilən imkanlarda təzahür edir. Qadınların üst qatlardakı postlara gedən yollarında - menecerlik karyeralarında çətinliklər vardır və onlara karyeralarında kişi həmkarları qədər inkişaf imkanları verilmir.

**Qadın iş yerləri tarixi perspektivdən və ABŞ cəmiyyətində onların təmsili**. Qadınların iş yerlərində tarixi şəraitə nəzər salanda onların vəziyyətinə kompleks amillərin (sosial, siyasi, tarixi, iqtisadi və dini) təsirini görmək olar. Bu da qadınların sosial statusundan asılı olaraq dəyişir; məsələn, Amerikada məskunlaşmış yuxarı sinif Avropa mənşəli qadınlarla plantasiyada qul kimi işləyən Afro-Amerika mənşəli qadınlar arasında fərq mövcud idi. Lakin hər iki tip qadın üçün ortaq nöqtə ondan ibarət idi ki, hər iki halda iş yerləri kişilər tərəfindən nəzarətdə saxlanılırdı və burada kişilər dominantlıq edirdi. XX əsrə qədər ABŞ tarixində iş yerlərində üst qatlarda yüksək vəzifədə işləyən qadına nadir halda tə-

sadüf etmək olardı. Yalnız XIX əsrin sonlarında qadınlar kütləvi şəkildə əmək sahələrinə üz tutdular (Evans S.M., 1987: 37). Elə bu səbəbdən də Amerika qadınlarının iqtisadi göstəricilərindən danışmazdan öncə onların əmək sferalarına daxil olma tarixinə nəzər salmaq lazımdır.

Bildiyimiz kimi, keçmişdə ABŞ-da qadın və kişilər cəmiyyətin ayrı-ayrı sferalarında bərqərar olmuşdular və qadının ictimai sferada heç bir önəmli rolu yox idi. Qadınlar heç bir mülkiyyət hüququna malik deyildilər və ailənin mülkiyyəti tam olaraq kişilərin inhisarında idi. Qadınlar yalnız ərləri vəfat etdikləri tədqirdə dükan, plantasiya və ya ferma sahibi ola bilərdilər. 1800-ci illərə qədər Amerika bütünlüklə aqrar cəmiyyət idi, ev və çöl işlərinin əksəriyyəti qadınlar tərəfindən yerinə yetirilirdi. Bu, o demək idi ki, iqtisadiyyat qadınlardan asılı bir vəziyyətdə idi. Ödənişli işlərdə çalışan qadınlara cəmiyyət yaxşı baxmırdı və bu, onlar üçün qeyri-ənənəvi rol hesab olunurdu.

Bazar iqtisadiyyatının inkişafı və sənaye inqilabı, qadınlarla kişilərin iqtisadi rollarında müəyyən qədər dəyişikliklər etdi. İstehsalatın inkişafı və distribyutorluq metodları fermerə artıq qalan mallarını satma imkanı verdi və ailə tələbatından artıq qalan malları bazara çıxardı. Lakin bir məsələ var idi ki, yenə də bazarda qadın və kişi fəaliyyəti fərqli idi. Belə ki, kişi bazarda realizə edilə bilən, daha çox mənfəət gətirən malların istehsalında maraqlı idi. Qadınlar az gəlir gətirən, darıxdırıcı, monoton əmək fəaliyyəti nəticəsində əldə edilən xırdavat satmaqla daha çox məşğul olurdu. Tədarükündə təkcə qadının iştirak etdiyi malların (süd, yağ, buğda, yun, geyim) şəhər bazarındakı satışında həm kişi, həm də qadın iştirak edirdi. Tədarükündə təkcə qadın iştirak etsə də, pul üzərində nəzarət təkcə kişiyə aid idi. Sənayeləşmə davam etdikcə, gender rolları müəyyənləşirdi. Bununla da, evdə görülən işlər fabriklərə istiqamətləndi və əmək bazarı daha da mütəşəkkilləşdi.

Qadın və kişilərin əmək sferasında iştirakına bir çox səbəblər, əsasən də istehsal və demoqrafik dəyişikliklər təsir göstər-

mişdir. Bu dəyişikliklər qadın və kişilərin əmək rollarına öz təsirini göstərmişdir. Digər səbəblər də mövcuddur ki, bunlardan da ən başlıcası Amerika iqtisadiyyatının aqrar təsərrüfatdan sənaye təsərrüfatına keçməsidir. Amerika cəmiyyətində ailə haqqında dominant ideologiya ondan ibarət idi ki, əsl qadın evdə oturan, ev işləri, ailəsi və uşaqları ilə məşğul olan qadınlar idi. Kasıb ailələrin əksəriyyətində, Afro-Amerika mənşəli miqrant qadınlar işləməyə məcbur idilər və ona görə də onlar işləmək imkanı olan kimi dərhal razılaşırdılar. Yalnız orta və yuxarı sinif ailələrinin qadınları evdə oturub, işləməmək şansı var idi. Bəzən işləyən qadınlar cəmiyyət tərəfindən qınanılırdı və bu qınaqdan çəkinən qadınlar da evdə işləyib, nə isə satmaqla ailələrinə yardım etməyə məcbur olurdular.

Fabriklərdə çalışan işçilərin əksəriyyətini qadınlar təşkil edirdi.1850-ci illərdə Yeni İngiltərə Siti fabriklərin işçiləri qadınlar idi. Yeni İngiltərə Siti qadınları əsasən toxuculuqla, geyim istehsalı ilə məşğul olurdular. Başqa işlər görən qadınlar da var idi, məsələn, qadınlar satış üçün nəzərdə tutulan kitabları səliqəyə salır, siqaret bükür, süni gül düzəldir və digər sahələrdə işləyirdilər. Bəzən qadınların gün ərzində iş saatları 14-18 saata qədər davam edirdi. Qadın və kişi işləri ayrı-ayrı idi və daha yaxşı işlər kişilər üçün nəzərdə tutulurdu. Qadınlara verilən az maaşa onların ailə başçısı olmaması faktı ilə bəraət qazandırılırdı və onların onsuz da ərə gedəndən sonra işləməyəcəklərini əsas gətirirdilər. Evi dolandırmağa qadir olan heç bir kişinin həyat yoldaşı işləmirdi, işləyən qadınlar yalnız çox kasıb yaşayan ailələrdən olanlar idi.

Daha səliqəli, nisbətən yaxşı maaşlı işlər ağdərili qadınlar üçün nəzərdə tutulurdu. Digər qadınlar evlərdə qulluqçu qismində, kənd-aqrar təsərrüfatında, ev servislərində və camaşırların yuyulması kimi işlərdə çalışmağa məcbur idilər. 1890-ci ildə yalnız 2,8 % qadın sənaye fabriklərində işləyirdi. Burada da ağdərili qadınlarla qeyri-ağdərili qadınların iş şəraitləri fərqli idi. Ağdərili qadınlar digərlərindən bir saat gec işə gələ bilərdilər və onların istifadə etdikləri yeməkxana və tualetlər fərqli idi. Ağdərili qa-

dınlar üçün hətta içməli su təchizatı da digər işçi qadınlar üçün əlçatmaz idi. Əlbəttə, onların maaşı daha yüksək idi.

Ümumilikdə, qadınlar üçün yeni iş yerlərin, əmək sahələrində yeni imkanların açılması və çox sayda qadınların əmək sferasına qoşulmasının bir çox səbəbləri var idi. Bunlardan ən əsasları – hər yerdə olduğu kimi, Amerikada da sənayeləşmə, urbanizasiya, immiqrasiya amilləri idi. Ağdərili qadınların yeni iş imkanları ölkədə gedən rifah islahatları ilə də əlaqəli idi. Kolleclərdə təhsil ala bilmələri onları yeni iş yerlərində işləyə bilmək imkanına sahib edirdi (müəllimlik, tibb işçisi, sosial işlər və s).

Ümumiyyətlə, istər ağdərili, istərsə də digər kateqoriyalı qadınlar olsun, subay qadının işləməsinə cəmiyyət çox pis baxmırdı. Əslində, cəmiyyətdə qadınların işləməsinə olan neqativ yanaşma onların kişilərin işlərini əllərindən ala bilmə qorxusuna görə idi. 1870-90-cı illərdə həqiqətən də belə bir tendensiya gözə dəyirdi. Qadınlar kütləvi şəkildə kişilər üçün nəzərdə tutulan işlərdə çalışmağa başladılar, bu sahibkarlar üçün daha sərfəli idi, çünki onlar qadınlara daha az maaş verirdilər.

Beləliklə də, sənaye inqilabı kişi və qadınların əmək rollarına kifayət qədər dəyişikliklər gətirdi. İstehsalın artması kişilərə digər imkanlar verirdi, belə ki, cəmiyyətdə həyat yoldaşını işlətmədən ailəsini saxlaya bilən amerikalı kişi statusu adlı yeni bir status formalaşırdı. Belə kişilər cəmiyyətdə daha üstün hesab edilən kişilər idi. Bir çox kişilər ailəni köhnə adət-ənənə ilə idarə etməyə daha çox meyilli idilər. Qadının özəl sferada, kişinin ictimai sferada qala bilməsi patriarxal ailələrin əsas prinsiplərindən hesab olunurdu. Belə ailələr ideal ailə kimi qəbul olunurdular. Əlbəttə, belə standartlarla yaşaya bilmə imkanı, əsasən, elit və orta sinif, ağdərililər üçün mümkün ola bilirdi. Afro-amerikalılar aqrar, şaxta, servis sektorunda işləyirdilər ki, bu sahələr də az prestijli, aşağı əmək haqqı olan sferalar idi.

Ağdərili kişi və qadınların əksəriyyəti müəyyən vərdiş tələb olunan iş yerlərində işləyirdilər ki, bu kimi sahələrin maaşı nis-

bətən yüksək olurdu. Hansı vəzifədə işləməsindən asılı olmayaraq, işləyən qadına evdə oturan qadından daha az statuslu qadın kimi yanaşırdılar. Hələ də işləyənlərin əksəriyyəti subay, dul və ya ərləri tərəfindən tərk edilmiş qadınlar idi. Ona görə də işləyən qadınlara, işləməyən, ərləri tərəfindən iqtisadi cəhətdən təmin edilən qadınlar yuxarıdan aşağı baxırdılar, lakin yaşamaq üçün işləməkdən başqa çarəsi qalmayan qadınların buna önəmvermə imkanları yox idi.

XIX əsrin sonunda Amerikada aqrar təsərrüfatdan sənayeləşməyə keçid insanların həyat tərzində dəyişikliklər etdi və onların imkan və qabiliyyətlərində yeniliklər təzahür etdi. Yeni bazar iqtisadiyyatı kişilərin iqtisadi imkanlarını genişləndirdiyi üçün onların daha da dominant olma şansları artdı. Qadınlar ərlərinin arzu və istəklərini yerinə yetirməyə borclu idilər, çünki cəmiyyətdə real iqtisadi imkanları artan kişi mövqeyi möhkəmlənirdi. Yeni iqtisadi münasibətə olan yanaşma qadınları kişilərdən asılı və kişiləri daha üstün edirdi.

Orta sinif ailələri üçün ideal hesab olunan normalara görə kişi işləməli, ailənin iqtisadi ehtiyacını ödəməli, qadın ev təsərrüfatı, ailə üzvlərinə və uşaqlara qayğı göstərməli, ərin dediyi hər bir sözə qeyd-şərtsiz əməl etməli idi. Cəmiyyətdə ideal ailə modeli bundan ibarət idi. Lakin əksər ailələrdə ərin qazancı kifayət etmədiyinə görə qadın da işləməyə məcbur olurdu və onlar cəmiyyət tərəfindən qınanılırdı. Bütün deyilənlərə rəğmən, XX əsrdə iqtisadi dəyişikliklər baş verirdi və ailələrdə gender rolları əmək fəaliyyətindən qaynaqlanan səbəblərə görə dəyişirdi. 1900-ci illərdə qadınların 19%-i, kişilərin isə 80%-i əmək sferalarında çalışırdılar. Başqa sözlə, hər beş qadından dördü işləmədiyi halda, hər beş kişidən dördü işləyirdi (Kessler-Harris, Alice, 2001).

1920-ci illərin gəlişi gənc, ağdərili, işləyən qadınlar üçün xüsusilə düşərli oldu. Belə bir optimist dövrdə, ABŞ Konstitusiyasına 19-cu Düzəliş əlavə olundu, qadınlara səsvermə hüququ verildi, bu, qadınların həyatında yaxşılığa döğru addım oldu və "yeni

qadın" tipı meydana gəldi. Artıq yaxşı təhsilli subay qadın yüksək maaşla yuxarı vəzifəyə təyin oluna bilərdi. Düzəlişlə əlaqədar olaraq, gender diskriminasiyası yetərincə azaldı və bu, cəmiyyətin bütün sferalarında qadınların fəallaşmasına təkan verdi. Qadınlara verilən səsvermə haqqı az da olsa, onların iqtisadi durumuna yaxşı təsir etdi. 1920-1930-cu illər arasında kişilərin əmək bazarında iştirak faizi aşağı düşdü. Əlbəttə, o dövrdə bütün dünyada gedən Böyük Repressiyanın da buna təsiri olmamış deyildi. Çox sayda evli qadınlar əmək sahələrinə qoşuldular və kişilərin işlərini "oğurlamaq"da qınandılar. 1920-ci illərlə müqayisədə 1940-cı illərdə qadınların əmək sferasındakı iştirakı 45 % çox idi.

Ümumiyyətlə, XX əsrin ilk illərində işləyən qadınlara münasibət neqativ idi və işləyən qadın ərin ailə başçısı kimi uğursuzluğun göstəricisi idi. Belə ki, yalnız az maaş alan, irqi diskriminasiyaya məruz qalan, miqrant və Afro-Amerika kişilərinin həyat yoldaşları işləmək məcburiyyətində idilər.

Repressiyadan sonra gələn II Dünya Müharibəsi qadın və kişilər arasında iqtisadi rolların bölünməsində dönüş nöqtəsi oldu. Elə I Dünya Müharibəsində olduğu kimi, II Dünya Müharibəsi zamanı da əmək sferasında qadınlara böyük ehtiyac yarandı. Qadınları hərbi sənaye müəssisələrinə işə cəlb etdilər, bu həm vətənpərvərlikdən, həm də qadınların öz maraqlarından irəli gəlirdi. Hərbi müəssisələrdəki işlər onlardan böyük bilik-bacarıq tələb edirdi, çünki məvacib yetərli qədər yüksək idi. İşə girənlərin 50 %-dən çoxu ərli qadınlar idilər, əksəriyyətinin məktəb yaşlı uşaqları var idi (Milkman, R, 1987). Lakin qadınların böyük sayda əmək sferasına qoşulması bəzi dairələri çox narahat edirdi. Artıq qadın işi, kişi işi deyilən seqreqasiya aradan qalxmaq üzrə idi, bu da kişiləri təşvişə salırdı. Bəzi hallarda, leqal və ya qeyri-leqal qadınların belə imkanları məhdudlaşdırılırdı. Qadınların kişilərlə eyni işdə işləməsi patriarxal düşüncəli kişilər tərəfindən xoş qarşılanmırdı. Lakin kişilərin II Dünya Müharibəsində iştiraketmə məcburiyyəti bir çox iş yerlərin qadınlar üçün əlyetər etdi. Əvvəllər sırf kişi işi

hesab edilən bütün sahələrdə qadınlar çalışmağa başladı, dövlət onları hətta hərbi sənayedəki iş yerlərinə dəvət etmək məcburiyyətində qaldı. 1940-1945-ci illərdə milyonlarla amerikalı qadın kişi işi hesab olunan sahələrə (maşınqayırma, hərbi sursat istehsalı sənayesi, gəmiçilik və s.) işə düzəldi. Müharibə bitən kimi ABŞ hökuməti qadınları tutduqları iş yerlərini tərk edib, onları "*əvvəlki sahibləri"*nə, kişilərə təhvil vermək barədə qeyri-leqal göstəriş versə də işləyən qadınların 80 %-i fəaliyyətlərini davam etdirdi.

Əlbəttə, qadınların yüksək faizlə işləmə imkanlarının obyektiv səbəbləri mövcud idi. Müharibə zamanı çoxsaylı uşaq qayğı mərkəzləri tikilib istifadəyə verilmişdi ki, artıq kiçik yaşlı uşaqları olan qadınlar iş yerlərində rahat çalışa bilirdilər. Digər az əhəmiyyəti olmayan səbəblər də onlara tam iş günü işləmək imkanı vermışdi. Müharibədən sonra, xüsusilə 1960-cı illərdə ABŞ-da, demək olar ki, əksəriyyət qadınların iş yerləri var idi. Buna təkan verən aşağıdakı amillər idi:

a) demoqrafik faktor;

b) boşanma faizinin artması;

c) iqtisadi islahatlar;

ç) siyasi və sosial dəyişikliklər.

Bir məsələni də qeyd etmək lazımdır ki, işləyən qadınla, işləyən kişi arasında hələ də kəskin fərqlər qalmaqda idi. Kimsə qadının işlədiyinə görə ev işləri öhdəliyini onun üzərindən götürmürdü. İndi işləyən qadının ailə məsuliyyətinin üzərinə, karyera məsuliyyəti də əlavə olunmuşdu və qadının yerinə yetirdiyi əmək növü də bir çox hallarda fərqli olurdu.

Qadınların II Dünya Müharibəsi dövründə iqtisadi rollarında dəyişikliklər bir neçə formada baş verdi. Qadınların əmək sferasında iştirakı kifayət qədər yüksək idi. 1980-ci ildə Amerika qadınlarının yarıdan çoxu ödənişli iş yerlərində çalışırdılar. Əvvəllər işləməyənlərin böyük faizi ağdərili, təhsilli, orta-sinif qadınları olurdu ki, onlar da uşaqlarını böyütmək üçün iş yerlərini tərk etmişdilər. 1950-1980-ci illər arası işləyən ağdərili qadınların

sayı 29 %-dən 52 %-ə qədər qalxmışdı, çünki müharibə qadınların əksəriyyətinə sinfindən, irqindən, yaşından asılı olmayaraq, işləmək fürsətini vermişdi. Belə ki, bu qadınların əmək fəaliyyətinə başlamaları onların vətənpərvərliklərinin göstəricisi idi, artıq heç kim işləyən qadına neqativ münasibət bəsləmirdi. Beləliklə, cəmiyyətdə "qadının yeri" məsələsinə olan ənənəvi baxış artıq dəyişmişdi. 1950-ci illərdə KİV yenə də qadının ailədəki rolunu əsas rol kimi qiymətləndirirdi və bu sferada uğur qazanan qadınları göylərə qaldırırdı.

Cəmiyyət hər zaman hesab edir ki, qadınlar kişilərin iqtisadiyyat və ictimai həyata olan nəzarətindən həm razıdırlar, həm buna görə onlar özlərini xöşbəxt hiss edirlər. Heç vaxt qadınlar kişilər qədər iqtisadi bərabərlik arzu etmirlər, çünki onlar həmişə ərlərinə yardım etməkdən qürur hissi keçirmişlər. Qadınlar heç də əmək fəaliyyətinə maneəsiz, asanliqla daxil ola bilməmişlər və onlara hər zaman müvəqqəti işçi kimi baxmışlar.

Ölkə iqtisadiyyatında gedən dəyişikliklər, ənənəvi qadın peşəsi üçün uyğun hesab olunan əmək sahələrinin genişlənməsi qadın işçilərə olan tələbatı artırırdı. Bununla da, qadın işçilərə olan yüksək tələbat cəmiyyətdə işləyən qadınlara qarşı neqativ münasibəti dəyişdi. Bu yanaşma 1960-cı illərə təsadüf edirdi və o dövrün bütün nəsli işləmək imkanlarından istifadə etdi və işləyən qadınlara olan ənənəvi baxış dəyişməyə başladı. Beləliklə, müharibədən sonrakı dövrdə işləyən evli qadınların faizi 19-dan 55-ə qədər yüksəldi. Milli Qadınlar Təşkilatı (MQT) da daxil olmaqla bir çox klub və təşkilatlar tərəfindən dəstəklənən qadın hərəkatı, əmək sferasında, təhsildə və hüquq sistemində diskriminasiyaya qarşı mübarizəni qüvvətləndirdi.

MQT-yə görə "genderlər arasındakı əsl əməkdaşlıq o zaman həqiqi olur ki, hər iki gender həm ailədə, həm uşaqlara olan qayğıda, ev və iqtisadi yükün bölünməsində tərəfdaşlığı dəstəkləyir". Belə qruplar bir çox sahələrdə uğurlu dəyişiklik etməklə qadınlar haqqında təsəvvürlərə pozitiv abu hava gətirirlər.

1970-1990-cı illər ərzində qadın işlərində uğurlu dəyişikliklər baş verdi və qadınların iş profilləri tamamilə fərqli yerlərə gedib çıxdı. 1970-ci ildə ABŞ qadınlarının təxminən 38 % -i ödənişli işlərdə çalışırdılar, menecer pozisiyasında qadınlar artıq 60 % civarında idi. 1990-cı illərdə işləyən qadınlar 57 %; menecerlik işlərində isə qadınlar 39 % təşkil edirdi. Bu rəqəmlər əmək sferasında baş verən dəyişikliklərə yaxşı misaldır (Carlson S.M., 1992: 271). Gənc qadınlara gəldikdə isə, onlar ənənəvi olaraq kişi sahələri olan yerlərdə işləməyə daha çox meyilli idilər və bu sahələrdə onların sayı əvvəlki illərlə nisbətdə çox yüksək idi. Buna da səbəb onların kişi dominantlığı ilə müşayiət olunan ixtisaslara yiyələnmələri idi. Etnik azlıq təşkil edən Afro-Amerika qadınlarına gəldikdə isə onlar işləyən qadınların 47 %-i civarında (1958-ci illə müqayisədə 12 % çox) idilər ki, bu da işləyən ağdərili qadınlardan daha çox faiz təşkil edirdi. 1999-cu ildə əmək sferasında Afro-Amerika qadınlarının faizi 63-ə qədər yüksələ bilmişdi (Yenə orada).

**ABŞ-da menecerlikdə qadınlar və qadın ixtisaslarına tarixi baxış**. Bu tarixi dövrü şərti olaraq üç mərhələyə bölmək olar. Birinci mərhələ XIX əsrə təsadüf edir ki, bu zaman müxtəlif əmək sistemləri mövcud idi və sinfi vəziyyət etnik mənsubiyyətə bağlı idi. Qadın klubları, I Dünya Müharibəsi, təhsil islahatları və mövcud sosial-iqtisadi durumun təsiri nəticəsində qadınların həm ictimai, həm də özəl sferadakı vəziyyəti dəyişdi. Göstərilən amillər qadınların cəmiyyətdəki təşkilatı və liderlik rolunu inkişaf etdirdi və sonradan bu onların menecerlik qabiliyyətlərinə də təsir etdi. Cəmiyyətdə fəal qadınlara olan neqativ münasibətə rəğmən, qadınlar sahibkarlık sahəsində də uğurlar qazanmışdı və yeni nəsil üçün örnək rolunu oynaya bilirdilər.

İkinci mərhələ XIX əsrin sonu XX birinci yarısına təsadüf edir. Bu dövrdə “istehsalın kapitalist üsulu” dominantlıq edirdi və qadınların iqtisadi durumunda irəliləyiş müşahidə olunurdu. Artıq işçilərin əməyi günəmuzd əmək haqqı ilə ödənilmirdi, onlarla

əmək müqaviləsi bağlayırdılar. Düzdür, ərli qadınların əksəriyyəti əsas diqqətlərini evlərinə, ailələrinə verirdilər, lakin onların əri, oğulları və qızları da ödənişli əmək fəailiyyətində çalışırdılar. Əmək sahələrində çalışan kişilərin sayı qadınlardan qat-qat çox idi, işləyənlər, əsasən, subay, Afro-Amerika mənşəli ailə qurmamış qadınlar idi. Kişilərin maaşı qadınların maaşından xeyli çox idi. Əmək genderə görə bölünmüşdü, sözsüz ki, menecerlik sahəsində üstünlük kişilərin tərəfində idi.

XIX əsrdə ABŞ-da ağdərili, yuxarı və orta sinif qadınları ilə fəhlə sinfi, miqrant və Afro-Amerika qadınların yaşayışı arasında ziddiyyət var idi. Ərli ağdərili, yuxarı və orta sinif qadınları evdən kənar ödənişli işlə məşğul ola bilməzdilər, onların evdən kənar fəaliyyəti dinlə əlaqəli ola bilərdi və ya xeyriyyəçiliklə məhdudlaşırdı. "Əsil qadın kultu" haqqında cəmiyyətdə formalaşan inam bir çox qadınları biznes aləmindən ayrı salırdı və onları "qadın sahə"lərinə üz tutmağa vadar edirdi, nəticədə onların bəziləri tibbdə, təhsildə, offis işlərində, xidmət sektorunda özlərini sınadılar. Gənc qızlar tekstil fabriklərində, özəl xidmət sektorunda (ev təmizləmək, dayəlik və s.), ibtidai siniflərdə və orta məktəblərdə işləyirdilər.

1930-cu ildə Qadın Beynəlxalq Mərkəzinin məlumatına görə, Amerikada vəkil və hakimlərinin yalnız 2 %-i qadın idi. Mühəndislərin cüzi bir hissəsi qadınlar idi. 1940-cı illərdə əmək fəaliyyətində uğurlu qadınlar gözə dəyməyə başladı.

Üçüncü mərhələdə (II Dünya Müharibəsi sonrakı dövrün başlanğıcı) ərli qadınlar kütləvi şəkildə ödənişli işlərdə çalışmağa başladılar və iş yerlərində bu vaxta qədərki gender və irqi-etnik fərqlərə görə mövcud olan iyerarxiya aradan qalxdı. Ərli qadınlar, xüsusilə də ağdərili, orta sinifə mənsub olan qadınlar işləməyə başladılar. Adətən, menecment sahəsində kişilər dominantlıq ediblər, çünki bu sahə qətiyyət və tez qərarvermə kimi "*kişi xüsusiyyətləri*" tələb edir. Ənənəyə görə qadınlar emosional xarakterə mənsub olduqlarına və lazımi menecerlik xüsusiyyətlərinə malik

olmadıqlarına görə bu sahə üçün arzuolunan deyildilər. Rozi Riveter qadınların uğurlu menecerlik fəaliyyətinə yaxşı misaldır. Bu qadın II Dünya Müharibəsi dövründə bütün qadınları hərbi sənaye istehsalı üçün səfərbər etməyi bacardı (Sue Vilhauer Rosser, 2008: 145-46). Təəssüf ki, müharibə bitən kimi qadınlar müharibədən əvvəl kişi inhisarında olan sənaye sahələrini tərk etməli oldular və kişilər həmin yerləri yenidən zəbt etməyi bacardılar.

Müəllif qeyd edir ki, iş yerlərində texnologiya, ofis avadanlığı artıq genderləşmişdi. 1870-ci illərdə ofislərdəki işçilərin əksəriyyəti kişilər idi, əvvəllər hətta çap maşınlarında da kişilər işləyirdi. Sonralar çap maşınları üçün qadınların təbiətinin daha uyğun olduğunu nəzərə alıb, bu işi onlara həvalə etdilər. Onların nazik barmaqları bu iş üçün daha rahat idi. 1930-cu illərdə artıq çap maşınlarında işləyənlərin 95 %-i qadınlar idi. Tənqidçilər bu işlərin femininliyi korlaması haqqında yazırdılar. Onlar qeyd edirdilər ki, katibələrin boş-boş gülmələri, səbəbsiz ağlamaları, ayda bir dəfə xüsusi durumda olmaları qadınların yararlı işçi olmamasına yaxşı misaldır. Lakin sahibkarlar hələ də qadınları işə götürməklərinə üstünlük verirdilər, çünki bu, onlar üçün sərfəli idi, kişilərin maaşının 50 %-ini onlara verirdilər, yaraşıqlı qadın katibələr ofisləri daha cəlbedici edirdi.

Düzdür, XX əsrin əvvəllərində qadınlar menecerlik sahəsində uğurlar qazandılar, lakin real dəyişikliklər qadın hərəkatının təzyiqi nəticəsində və federal hökümət anti-diskriminasiya qətnamələrini qəbul etdikdən sonra, yəni 1970-ci illərdə baş verdi. 1964-cü ildə Bərabər Ödəniş Aktı qəbul olundu. Qadınların maaşlarında bəzi pozitiv dəyişikliklər də oldu, lakin hissediləcək dəyişikliklır 1980-ci illərdən sonra baş verdi. Nəticədə artıq eyni pozisiyada çalışan qadın və kişilərin maaşındakı fərq azaldı. 1980-cı və 1990-cı illər arasında qadınların həftəlik maaşında müsbət dəyişikliklər oldu və onların maaşı 62.5 %-dən 71.9 %-ə qədər yüksəldi. Qadınların iş saatı, valideynlik məzuniyyəti və digər məsələlərlə bağlı problemlərinə də yenidən baxılmalıdı.

Hal-hazırda da ABŞ-ın bir çox ştatlarında iş yerlərində gender əsaslı diskriminasiyalara təsadüf olunur. Kolumbiyada *Gəlir, Qazanc və Yoxsulluq*la bağlı Amerika İctimai Sorğusuna nəzər salsaq, qadın-kişi qazancı arasında fərqi görərik. Cənubda beş ştatda (Meriland, Karolina, Florida, Corciya və Texas) bu fərqlər daha çoxdur. Bu fərq Qərb ştatlarında daha azdır. Məlumat Bürosunun məlumatına görə, bəzən 22-30 yaş arası subay qadınlar kişilərdən daha çox maaş alırlar.

ABŞ-da 1979-cu ildən qadın və kişilərin əmək haqlarındakı fərqlər kəskin azalmağa başlamışdır. 2010-cu ildə ABŞ-da qadınlar kişilərin orta illik əmək haqqının 81 %-ini alırdılar. 1970-ci və 1980-cı illərdə Amerikada qadınların iş yerlərinə axınında artım müşahidə olundu və 2000-ci ildə bu rəqəm 60 %-ə çatdı. 2010-cu ildə bu rəqəm aşağı düşdü və 2018-ci ildə bu rəqəmdə elə bir ciddi dəyişiklik olmayacağı ehtimal olunur.

2007-ci və 2010-cu illər Amerika tarixinə Böyük Resessiya (enmə) dövrü kimi düşdü, bu, qadın və kişilərə fərqli təsir etdi. Bu dövrdə kişilər qadınlara nisbətən çox iş yeri itirdilər. Hər beş nəfər qadından biri yarım iş günü işləyirdi. Bununla belə işsiz kişilərin sayı işsiz qadınlardan daha çox idi. Qadınların 50 %-i ictimai sektorda işləyirdi. Qadınlar bu dövrdə təhsildə də kişiləri üstələmişdi.

ABŞ-da 2010-cu ildə təxminən 65 milyon qadın işləyirdi və onların 53 %-in çalışdıqları əmək sahələri əsasən aşağıdakı sahələr üzrə idi: təhsil və tibb xidmətləri, ticarət, nəqliyyat və kommunal xidmətlər, yerli idarəçilik.

2010-cu ildə 79 % qadın tibb və sosial xidmət sahəsində və 68.6 %-i isə təhsil sahəsində işləyirdilər. 43.2 % qadın professional, elm və texniki xidmət sahəsində işləyirdi (GAO, 2011).




**(U.S. Census Bureau, 2008: 14).**

Son onilliklər ərzində ABŞ-da kişilərin maaşının dəyişməz qalmasına baxmayaraq, qadınların maaşı az da olsa artmışdır. 1980-cı və 2013-cü illər ərzində inflyasiyadan sonrakı dövrdə qadınların orta illik əmək haqqı $30,138-dan $39,157-a qədər artmışdır, lakin kişilərin orta illik əmək haqqı, $50,096-dan $50,033-a qədər azalmışdır. Qadınların orta illik əmək haqqı 1980-1990-cı illərdən sonra artmağa başlamışdır; 2000-ci illərin əvvəllərindən sonra həm qadınların, həm də kişilərin orta illik əmək haqqında durğunluq baş vermişdir. 2012-ci ildə, 29 % ərli qadının illik maaşı ərlərindən daha yüksək idi. Qadınların əmək sahəsində böyük faizlə təmsil olunmasına baxmayaraq, iş yerlərinin yüksək strukturlarında qərarvermə sahələrində qadınlar deyil, kişilər üstünlük təşkil edirlər.

**Yaşlı qadınların əmək haqqı və iş yerləri**. 1980-cı və 2000-ci illərdə qadınların real əmək haqları artmağa başladı. 1980-ci ildə onların əmək haqqı 60.2 %-dən 1990-cı ildə 71.6 %-ə, 2000-ci ildə 73.7 %-ə qədər artdı. 2001-ci və 2012-ci illər arasında həm qadınların, həm də kişilərin əmək haqqı dəyişməz qalmışdır (B.

Kromer., D. Howard, 2013). ABŞ-da 65 və yuxarı yaşlı qadınlar iş yerlərində kifayət qədər aktivdirlər. 2013-cü ildə 65 və yuxarı yaşlı qadınlar işləyənlərin 14 %-ini təşkil edirdilər. Təxminən hər işləyən beş qadından biri 65 və 74 yaşarası qadınlar idi ki, bu da 22 % civarında idi. Təxminən yarım iş günü işləyən qadınların 51,4 %-i 65 yaş və yuxarı qadınlardır. ABŞ-da 65 və yuxarı yaşda işləyən qadınların orta illik əmək haqqı $37,000-dir, bu da 16 yaş və yuxarı qadınların əmək haqqından çox az fərqlənir, onların orta illik əmək haqqı $38.000-dir. 75 və yuxarı yaşlı tam günü işləyən qadınların orta illik əmək haqqı 65-74 yaşarası qadınların orta illik əmək haqqından cəmi $8000 azdır. Menecerlik və professional peşədə işləyən 65 və yuxarı yaşlı qadınların təxminən 35.6 %-in orta illik əmək haqqı yaşıdları kişilərdən bir az fərqlənir, bu, təxminən eynidir (Yenə orada).

Bütün əmək sahələrində işləyən qadın və kişilərin işləri fərqli-fərqlidir. Yaşlı qadınların əksəriyyəti yaşlı kişilərdən fərqli olaraq xidmət bölmələrinə və ya inzibatı xarakterli iş yerlərinə üstünlük verirlər; hər on nəfər yaşlı qadından dördü (45.9 %) bu sahələrdə işləyirlər, lakin yalnız 19.6 % yaşlı kişi bu xarakterli peşələrdə çalışırlar. Yaşlı kişilərlə müqayisədə yaşlı qadınlar az qismi menecment, biznes və maliyyə sahələrində işləyir (yaşlı kişilərin 21 %-i, yaşlı qadınların 12 %-i bu tipli işlərdə çalışırlar) və inşaat sahəsində də yaşlı qadınlara (5.8 %) nisbətən yaşlı kişilər daha çoxdur (U.S., Census Bureau, 2013).

**Qadınların karyeralarında irəliləmələrinə mane olan baryerlər**. Biznesdəki qadın liderlərin sayının son zamanlarda artmasına baxmayaraq, top-menecment pozisiyalarında qadınların sayı hələ də yetərli deyildir. Amerikada tədqiqat və məsləhət firması adı ilə tanınmış Catalyst təşkilatının məlumatına görə 1998-ci ildə Amerikada 500 ən böyük kooperasiyada cəmi 5.3 % qadın yüksək vəzifədə idi. Bunu da nəzərə almaq lazımdır ki, 1990-cı illərdə bu faiz demək olar ki, 0-a yaxın idi.

150 Silikon Vali kompaniyasında 755 üst səviyyədəki postların yalnız 28-ində qadındır və hələ də qadın və kişilərin iqtisadi rolları arasında ciddi fərqlər mövcuddur. Kişilər hələ də təşkilatlardakı menecment pozisiyalarının əsas daşıyıcılarıdırlar. Hətta təşkilatın işçilərinin əksəriyyəti qadınlardan ibarət olan yerlərdə belə, başçı statusunda kişilər olur.

ABŞ qadınlarının siyasətdə əldə etdikləri uğurlarla müqayisədə iqtisadiyyatdakı uğurları sönük qalır. Bü gün Fortunun (Fortune) 500 kompaniyasında direktor vəzifəsində cəmi 26 qadın var ki, bu da 5.2 % deməkdir. Onu da nəzərə almaq lazımdır ki, bu uğurlar son iyirmi il ərzində əldə olunmuşdur, çünki bu şirkətlərdə əvvəllər bir nəfər də olsun qadın direktor yox idi.

**Fortune 500 Female CEOs, 1995-2014**




Note: Based on the percentage of women CEOs at the time of the annual published Fortune 500 list. For 2014, share is as of November.

Source: Catalyst ( http://www.catalyst.org/knowledge/women-ceos-fortune-1000)

PEW RESEARCH CENTER

Qadınlar kooperativlərin idarə heyətində nisbətən daha çox təmsil olunurlar. 2013-cü ildə hər altı qadından biri (16.9%) 500 Fortun (Fortune) kompaniyasının idarə heyətinin üzvü idi. Bu rəqəm 1996-cı ildə 9.6 % idi.

**İş yerlərində gender stereotipləri**. Bu gün də qadınların bacarıqları haqqında formalaşan stereotiplər onların yüksək vəzifəyə irəli çəkilmələrinə mane olur və onların çoxu bacarıqlarından asılı olmayaraq, uzun illərdir ki, karyeralarında yerlərində sayırlar. Əldə olunan uğurlara rəğmən, kişi və qadın haqqında formalaşan bu stereotiplər kişilərdən çox qadınlara ziyan vurur. Belə bir fikir formalaşmışdır ki, təşkilatların rəhbəri vəzifəsində kişilərin olmağı daha uyğundur, qadınların tabeçi vəzifələrdə olması daha məqsədəuyğundur. Meri E. Kait and Bernard E. Vitli qeyd edirlər ki, qadın və kişilərin təşkilatı bacarıqları haqqında cəmiyyətdə razılaşdırılmış fikirlər formalaşmışdır (Mary E. Kite and Bernard E. Whitley, 2016: 561). Formalaşmış bu stereotiplərin neqativ təsiri nəticəsində uzun illərdir ABŞ qadınlarının liderlik karyeralarında baryerlər mövcuddur. Stereotiplər insanların inam və davranışına elə təsir edir ki, onlar gördükləri həqiqətdən çox görmək istədiklərini qəbul edirlər. Bu kimi gender stereotipləri diskriminasiyaya gətirib çıxarır.

ABŞ-da Paul Rosenkrantz və Inge Broverman qadın və kişiləri xarakterləri ilə əlaqədar səciyyələndirən ilk sosioloqlardır. Bu müəlliflərə görə, kişilərə xas “əminlik”, “müstəqil ola bilmə” və “nəzarət edə bilən”, qadınlara xas “yumşaq”, “xeyirxah” və “başqalarının rifahını düşünən” xüsusiyyətlərdir. Bu assosiasiyalar bir çox mədəniyyət və millətlərin nümunəsində tez-tez təkrar olunur (Paul Rosenkrantz və Inge Broverman, 1972 :69).

Onlar menecerlik vərdişlərindən bəhs edəndə kişilərin analitik və yaxşı problem həll edə bilmə, qadınların isə kriativ və yaxşı verbal qabiliyyətə malik olmasından bəhs edirlər. Qadınlar üçün ən əsas yaxşı xüsusiyyət “insanların dərdi ilə maraqlanmaları və dürüst olmaları”dır (Karen O’Connor, 2010: 744). Hələ də be-

yinlərdə qadınların "kifayət qədər sərt ola bilməmə" xüsusiyyəti haqqında fikir formalaşmışdır. "Sərt ola bilmə liderlik üçün çox önəmlidir" qənaəti cəmiyyətdə hələ də mövcuddur və qadınlarda bu xüsusiyyətin olmaması onların lider ola bilmələrinə mane olur. Hələ də bu miflərin mövcudluğu qadınların liderlik səviyyəsində saylarının çox aşağı olması faktını izah edir. Belə stereotiplər qadınların işlədiyi mühitə də təsir edir.

Araşdırmalar göstərir ki, təşkilatın gender tərkibi də qadınlıq və kişilik haqqında anlayışa təsir edir. Təşkilatda qadınların sayı azdırsa, o zaman qadınlar haqqında neqativ fikir daha çox olur. Müəssisədə çalışan qadınlar işçi qrupun 20 %-dən azdırsa, kişilər qadınlar haqqında yuxarıda deyilən kimi düşünürlər. Əgər həmin müəssisədə qadınların sayı 50 %-i keçərsə, o zaman onlar haqqında fikir müsbətə doğru dəyişə bilər (Cleveland, Stockdale, and Murphy, 2000: 164). Beləliklə, araşdırmalara əsasən onu demək olar ki, müəssisədə qadınların sayı çoxaldıqca, onlara qarşı pozitiv fikir də artır. Müəssisənin gender tərkibi qadınların liderlikdə yüksəlməsinə və güc mövqelərin artmasına təsir edir. Qadınların dominantlıq etdikləri təşkilatlarda onların üst mövqelərə seçilməsi problem olmur və onlar diskriminasiya ilə az-az üzləşirlər. İşin məzmunu da bu istiqamətdə mühüm rol oynayır. İşin məzmunu qadın və kişilərin bir-birilərinə nə qədər etimad edəcəklərinə təsir edir.

Stereotiplər təkcə qadın və kişılər haqqındakı baxışlara təsir etmir, bu həmçinin onların fikirlərinə, qərarlarına və seçimlərinə də təsir edir. Gender stereotipləri gələcək haqqında ehtimal yürütməyə, proqnoz verməyə də təsir edə bilər.

Qarışıq gender qruplarında qadınlar düşündüklərini deməyə cəsarət etmir və bəzən onların düşündüklərini kişilər dilə gətirir, nəticədə kişilər təşəbbüsü öz əllərinə alırlar. Qadınların az cəsarətli olması, istedad və səriştələrinin həm özləri, həm də digər gender nümayəndələri tərəfindən düzgün qiymətləndirilməməsi onların karyeralarındakı ən əsas baryerlərdəndir.

Qadınlar üçün karyera baryeri hələ də mövcuddur, kişilərlə müqayisədə onlardan gözləntilər aşağıdır, onlar öz imkan və bacarıqlarını təqdim etməkdə daha təvəzökardırlar. Bu səbəblər də onların karyerada irəli getmələrinə mane olur. Onlar özlərini yüksək vəzifələrdə görmürlər, özlərinə kişilər qədər əmin deyillər, kişiləri özlərindən daha üstün görürlər. Stereotiplərə görə, kişilər uğuru daha rahat əldə edirlər və yüksək vəzifələr elə onlar üçündür.

Əslində, femininlik və maskulinlik anlayışı mövcud mədəniyyətdən asılıdır. Daha eqalitar cəmiyyətlərdə qadınların feminin davranışının neqativ tərəflərini deyil, uğurlarını görürlər. Əmək sahəsində olan gender tərkibi və qadınların say faizi bu baxışlara təsir edir. Belə müəssisələrdə yüksək statuslu uğurlu qadınların hansı genderə mənsub olduqlarından çox onun necə şəxsiyyət olması maraqlı olur.

**İş yerlərində gender seqreqasiyası**. Prezident J.Kennedinin dövründə Bərabər Ödəniş Aktın (1963) qəbul olunmasına baxmayaraq, ABŞ-da iş yerlərində gender seqreqasiyası gender bərabərsizliyinin əsas göstəricisidir və bu, kifayət qədər yüksəkdir. Araşdırmalar göstərir ki, belə vəziyyət gender bərabərsizliyinə səbəb olur və gender bərabərsizliyinin digər formalarına yol açır.

Gender seqreqasiyası iki cür olur: horizontal və vertikal. Horizontal seqreqasiyada çalışanların genderinə görə, faiz əsas götürülürsə, vertikal seqreqasiyada aksent işin növü və keyfiyyəti üzərinə qoyulur. Məsələn, prestijli sahələrdə kişilərin dominant olması vertikal seqreqasiyaya aiddir (Chafetz, J.S., 1998: 123).

Qadın və kişilərin müxtəlif növ vəzifələri yerinə yetirməsi, yəni əməyin genderə görə bölünməsi işin fundamental xüsusiyyətidir. Demək olar ki, əksəriyyət cəmiyyətlərdə əmək genderə görə fərqlənir, lakin bəzən zaman və məkanla kişilər üçün nəzərdə tutulan işlər qadınlar tərəfindən də yerinə yetirilə bilir. Bir cəmiyyətdə kişi işi hesab edilən bir əmək növü, digər cəmiyyətdə qadınlar üçün nəzərdə tutula bilər və ya müharibə dövrlərində qadınlar sırf kişi işi hesab edilən əmək növlərində çalışa bilərlər.

XX əsrin əvvəllərində ABŞ-da ofisiantlıq tam kişi işi hesab edilsə də, müasir dövrdə bu sahədə çoxsaylı qadın çalışır. Bəzən elə sahələr olur ki, orada yalnız qadın işçilər tələb olunur.

Qadın və kişi məşğuliyyət növündəki və maaşlarındakı fərq əməkdə gender seqreqasiyasının nəticəsidir. Amerikada qadın və kişilər müxtəlif növ məşğuliyyət sahələrində çalışırlar. Əməkdə gender seqreqasiyası "qadın və kişi olduqları səbəbindən müxtəlif vəzifə, iş və iş yerinə" mənsub olmaqdır (Irene Padavic, Barbara F. Reskin, 2002: 57).

Qadın tərəfindən yerinə yetirilən işlərin daha az qiymətləndirilməsi əsas məsələlərdəndir. Amerikada adətən daha prestijli, daha sanballı, daha yüksək maaşlı işlərdə kişilər çalışırlar. Məsələn, həkimlik işində kişilər çoxluq təşkil edir.

İş yerlərində çalışan personalların yarısının qadın olmasına baxmayaraq, hələ də yüksək statuslu, yüksək maaşlı işlərdə qadınların faizi kişilərlə müqayisədə xeyli aşağıdır. Qadınların üstünlük təşkil etdiyi əmək sahələri tibb (əsasən tibb bacısı), təhsil və sosial iş sferalarıdır. Kişilərin üstünlük təşkil etdiyi sferalar mühəndisliyin arxitektura, tibbin stomotologiya bölməsidir. Azsaylı qadınların üst qurumlarda təmsil edildiyi sferalar insan resursları, korporasiya kommunikasiyası, marketinq və sairə, çünki bu sferalar nisbətən azödənişli sahələrdir. Qadın menecerlərə ən çox təsadüf edilən sahələr kosmetika ilə əlaqəli iş yerləridir ki, buradakı direktorların çoxu qadınlardır (Teresa Amott, Julie Matthaei, 1996: 352).

Bəzən eyni sahələrdə çalışsalar da, daha prestijli, yüksək maaşlı işlərdə kişilər üstünlük təşkil edirlər. Məsələn, tibb sferasında yuxarı vəzifələr əsasən kişilər tərəfindən tutulmuşdur. Kitabxanalarda çalışan personalın əksəriyyəti qadındır, lakin bu o demək deyil ki, kişilər bu sahələrdə çalışmaq istəyir, amma bu vəzifələr qadınlar tərəfindən tutulmuşdur. Bu tip işlər kişilər üçün darıxdırıcı, yeknəsəq, az prestijli hesab olunduğu üçün az cəlbedicidir. Qadınların fərqli iş yerlərinə sıxışdırılması onlarla qeyri-bərabər

rəftara, az maaş almağa, aşağı vəzifə tutmaqlarına gətirib çıxarır və nəticədə onlarla həm işdə, həm ailədə, həm də cəmiyyətdə fərqli davranırlar.

Bəzən eyni vəzifədə çalışıb, eyni işləri icra edən kişi və qadın fərqli maaş alır. Bəzən də eyni müəssisədə qadın menecer az prestijli və ya az nüfuzlu şöbələrdə, uzaq kiçik filiallarda işləyir, kişi menecer isə baş ofisdə, daha sanballı şöbələrdə çalışır. Buna bəraət kimi kişi işçinin daha bacarıqlı, çevik olması faktı irəli sürülür. Qadınlar kişilərin əldə etdiyi vəzifəni tutmaq üçün ondan ikiqat artıq çalışmalı, ondan ikiqat artıq bilik və bacarığa malik olmalıdırlar.

Gender bərabərliyi ilə əlaqəli əldə edilən nailiyyətlərə rəğmən, qadınlar iş yerlərində hələ də genderləri ilə əlaqəli kifayət qədər maneələrlə üzləşirlər. Qadınlar haqqında formalaşan stereotiplər ucbatından qadınları liderliyə irəli çəkmək istəmirlər. Bu kimi diskriminasiyalar qadın işçilərin yüksək vəzifələrə irəli çəkilməsinə baryer yaradır. Buna səbəb kimi qadınların bu sahələrdə təcrübəsinin az olması faktı irəli sürülür.

**ABŞ-da mühəndislik və qadın**. “Müasir dövrdə ABŞ-da mühəndislik fakültəsinin 18-29 %-ini qadınlar təşkil edir ki, bu da 25 il əvvəlki dövrlə müqayisədə çox böyük bir faizdir”. Bunu Virciniya Universitetinin Elm, Texnologiya və Cəmiyyət kafedrasının dosenti Coan MakQrat deyir və onun işlədiyi fakültədə onların sayı 31 %-dir. Buna səbəb bu sahədə olan qadın rol modellərinin sayının az olmasıdır.

Qadınlar uzun illər texnikanın sirrindən bixəbər olublar. 1900-ci illərdən əvvəlki dövrdə mühəndislik sahəsi əsasən hərbi sferada idi. O dövrdə çox az saylı qadın bu sahədə çalışırdı. Bu azsaylı istisnalardan Lilian Gilbreti (1878-1972) misal gətirmək olar. O, ərinin yanında çalışırdı və ərinin vəfatından sonra daha çox işləməyə məcbur olan Lilianın mühəndislik sahəsində çətinlikləri başladı. Lakin çalışqanlığı sayəsində uğurlar qazanan Lilian sonralar bir çox mükafatlara layiq görüldü və “Mühəndisliyin

birinci ledisi" ləqəbi ilə məşhurlaşdı (Oldenziel Ruth, 1999).

Amerikanın aparıcı texniki məktəbləri (Corciya Teks və Kalteks də daxil olmaqla) II Dünya Müharibəsi bitənə qədər qadınlara təhsil almağa icazə vermirdilər. Bu məktəblərə qəbul olmaqda israrlı olan qadınlar Amerikanın ideal qadınları hesab olunmurdular, çünki mühəndislik sırf kişi işi hesab edilirdi. Belə məktəblərdə oxumaq istəyən qadınlara bu sahəyə ər tapmaq üçün gəldikləri söylənilirdi. Bu ali məktəblərin rəhbərləri düşünürdülər ki, onsuz da qadınlar ərə gedən kimi bu sahədə işləməyəcəklər və yaxşısı budur ki, dövlət qadınlara boş-boşuna pul xərcləməsin. Hətta psixoloqlar belə qadınların psixoloji problemləri olması haqqında mətbuatda dayazırdılar. Psixoloqlar mühəndis olmaq istəyən qadınları qeyri-normal, qeyri-sağlam adlandırırdı və mövcud qadınlıq və analıq identifikasiyasına xələl gətirdiklərini qeyd edirdilər. Amerikada Qadin Mühəndislər cəmiyyəti onları tənqid edirdi, qız-qadınlara bəslənilən bu münasibəti pisləyirdi və qadın mühəndislərin kişi mühəndislərdən əskik deyil, artıq olmalarını dilə gətirirdilər. Onlar qeyd edirdilər ki, mühəndislik nəinki analıq və qadınlığa xələl gətirmir, hətta onlara daha yaxşı ana olmaq imkanı verir. Bütün bunlara baxmayaraq, XX əsrin əvvəllərində cəmiyyətdə hələ də qadın mühəndislərə neqativ münasibət davam edirdi, onlar gender əsaslı narahatlıqlarla və işdə diskriminasiya ilə üzləşirdilər.

"İxtiraçı" sözü hələ də kişilərə aid olan kəlmə hesab olunur. Ofisdə mühəndis işləyən qadınları ruhdan salmaq üçün kişilər qəsdən onları hələ də guya katibələrlə səhv salırdılar. Bütün bunlara baxmayaraq, qadınlar istər ev texnikasında, istərsə də başqa gözlənilməyən sahələrdə kifayət qədər yeni ixtiralara imza atmışlar. Məsələn, yağ düzəldən, qabyuyan, uşaqdaşıyan, tikmə və toxuma avadanlıqlarını qadınlar kəşf etmişlər. Daha sonralar, ayaqqabı tikən və metalla işləyən avadanlıq, liftin təkmilləşdirilməsi, dəmiryolunun birləşməsi, kompüterin dilləri, hətta hərbi texnika sahəsində də kəşflər etmişlər. Kaliforniyalı fermer Harriet

Stronq adlı qadın su anbarı üçün yeni model hazırladı, lakin bunun patentini kulinariya avadanlığı sahəsində verdilər, çünki qadının belə böyük işlərdə kəşfi gözlənilən deyildi və buna qısqanclıqla yanaşdılar.

1960-cı illərdə Qadın Statusu üzrə Prezident Komissiyası bir çox sahələrdə olduğu kimi mühəndislik sahəsində də qadınların sayının az olduğunu qeyd etdi. Mühəndislik sahəsi gəlirli sahə olduğuna görə kişi inhisarında idi. Cəmiyyət hələ də qadınları kişilərin dominant olduğu sahələrə yaxın düşməsindən çəkindirməkdən ötrü cəhdlər edirdi. Ölkədə gedən demokratik-sivil hərəkata rəğmən, hələ də cəmiyyətdə bu sahəyə meyl edən qadınlara münasibət birmənalı deyildi. 1971-72-ci illərdə Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat sahəsində qadınlar cəmi 17 %-i təşkil edirdi (Montanelli, Richard G., 1976: 580).

Hazırda XXI əsrdə yaşamağımıza rəğmən, yüksək texnologiya hələ də kişi inhisarındadır. Kompüter və başqa texnika sahələrin qadınların iş həyatının və özəl həyatının ayrılmaz bir parçası olmasına baxmayaraq, kişilər hələ də özlərini kompüter ekspertləri hesab edirlər. Oğlanlar hələ də kompüter dərslərində proqramları onların daha asan qavramasından bəhs edirlər. Hər vasitə ilə texnikanın kişilərə mənsub olması ideyasını qadınlara sırımaq istəyirlər. Texnoloji dünyanın qadınları sevməməsini qeyd edirlər.

Təsadüfi deyildir ki, maşınlarda təhlükəsizlik balışlarını kişi bədəninin ölçülərinə uyğun düzəldirlər ki, bu da qadın sürücüləri üçün təhlükəlidir.

Qadınların kişi çoxluğu ilə müşayiət olunan sahələrdə uğur qazanmamasının əsas səbəbi onlara lazımi dəstəyin olmamasıdır. Bu səbəb qadınların qeyri-ənənəvi iş yerlərində karyera qazanmalarına baryerlər törədir. Uzun illər prestijli iş yerlərində qadınların olmaması və ya çox az təmsil olunması onlara karyeralarında nailiyyət qazanmaq üçün təcrübə toplamalarına az imkan verir. Kifayət qədər bilikləri olan qadınlar təcrübə azlığından müəyyən

uğursuzluqlara düçar olurlar və karyerada irəliləyə bilmirlər. Bəzən müəyyən dərəcədə uğur qazanmış qadınlar "kişilər kimi oynamağı" bacarmadıqları üçün geri çəkilməyə məcbur olurlar. Az da olsa, nüfuzlu postlarda olan qadınlar digər qadınlara nümunə olur və onların qətiyyətli irəliləməsi üçün zəmin yaradır.

**İş yerlərində gender diskriminasiyası və seksual təngəgətirmə**. Ümumiyyətlə, iş yerində baş verən gender diskriminasiyasına seksual davranış da daxil edilir və "insanın işə daxil olma, işdə qalma və işdə uğur əldə etmə qabiliyyətini məhdudlaşdırır" (Cleveland, Stockdale, and Murphy, 2000: 168). Kişi və qadınlarla iş yerlərində müxtəlif cür davranırlar və çox vaxt sonunculara qarşı diskriminasiya müşahidə olunur. 1964-cü ildə qəbul olunan məlum Mülki Hüquqlar Aktı iş yerlərində hər cür diskriminasiyanı qadağan edir. Hələ də əmək seqreqasiyası və genderə görə maaş fərqi (kişilər daha çox maaş alırlar) mövcuddur və bu cəmiyyət üçün mühüm sosial problem kimi qiymətləndirilir. Bu cür gender fərqliliyi mühitlərində olan insanlar haqqında danışanda onların işçi kimi rollarından daha çox, gender rolları qabardılır. Nə qədər ki, cəmiyyətdə insanlıq deyil, kişilik və qadınlıq haqqında daha çox danışılacaq, iş yerlərində də qadın və kişilərlə müxtəlif cür rəftar ediləcəkdir.

Elə bu fərqli davranışların nəticəsində təşkilatlarda qadınların mövcudluğu əhəmiyyət daşımayacaqdır. Sonda iş yerlərində olan diskriminasiya əla iş keyfiyyətlərinə malik qadınların gələcək irəliləyişinə mane olacaqdır. Bu amillər qadınların qazanma potensialını, karyerada yüksəlmə imkanını, qərar qəbuletmə şansını azaldaraq, onlar üçün baryerə yol açacaqdır.

Necə deyərlər, "*görünməz tavanı*" sındırmaq üçün həm şəxsi, həm də təşkilati səviyyədə qadınların liderlik qabiliyyəti haqqında stereotipləri dəf etmək və qadınların menecmentin üst qatında səviyyələrini saxlamaq üçün struktur baryerləri aşa bilməsi çox vacibdir. Ümumiyyətlə, qadınların az səriştəli olmaları haqqında inam hələ də var və kişilərlə eyni keyfiyyətlərə malik

olmalarına rəğmən, onlar iş yerlərində yüksək vəzifələrə daha az irəli çəkilirlər.

İş yerlərində qadınların üzləşdiyi xoşagəlməz rəftarın həcmini söyləmək çox çətindir. Seksual təngəgətirmə nümunələri arasında ən çox kişi həmkarların qadın həmkarların yanında şit zarafat etməsi, qadınların narazılığına məhəl qoymadan onların yanında seksdən bəhs edən lətifələr söyləməsini misal gətirmək olar. Araşdırmalara görə hər on qadından dördü gender diskriminasiyası ilə üzləşir. Maraqlıdır ki, təhsil və professionallığın çox olduğu mühitlərdə buna daha çox təsadüf olunur.

Seksual təngəgətirmə əsasən iki formada baş verir. Hər hansı bir seksual təklifin qəbulunun müqabilində, "*xidmətə xidmət*" (quid pro quo) olur və bundan qarşı tərəf faydalanır. Məsələn, işdə yüksəlmə, maaşın artması, iş şəraitinin yaxşılaşması və sairə kimi faydalanma metodları ola bilər. Əksər hallarda, bunu edən kişi, qadından daha üstün vəzifədə çalışır. "*dözülməz iş mühiti*" şəraitində isə qarşı tərəf üçün cəhənnəm əzabı yaşadılan atmosfer yaradılır. Bu, müxtəlif cür ola bilər, fiziki təmas, verbal və ya qeyri-verbal yolla seksual təngəgətirmə həyata keçirilir. Bura lüzumsuz halda bədənə toxunma, qucaqlama və ya qadının geyim və bədəni haqqında seksual söz atmalar, qadınlar haqqında həm birbaşa, həm də dolayısı ilə seksual hekayələr uydurmaq da daxildir.

Klevland və onun digər həmkarlarının iddiasına görə, yüksək vəzifədə olan kişi həmkar vəzifəsindən sui-istifadə edərək özündən vəzifəcə aşağı qadına toxunur (Yenə orada). Seksual təngəgətirmə qurbanların çoxunun dediyinə görə, bu xoşagəlməz situasiyadan can qurtarmaq üçün onlar hətta iş yerlərini tərk etmək məcburiyyətində qalmışlar. Beləliklə, təngəgətirən hədəfinə təzyiq edərək onu iş yerindən uzaqlaşdırır. Bununla da o, iş yerindəki nüfuzundan sui-istifadə edərək hədəfini cəzalandırır. Nəticədə seksual təngəgətirən hədəfin üzərində "qələbə" çalır və onun zəifliyini, seksual obyekt ola biləcəyini bir daha üzünə vurur.

Seksual təngəgətirən qadın da ola bilər. Vəzifədə olan qadın

da öz nüfuzundan, gücündən sui-istifadə etməklə tabeçiliyində olan kişini seksual hədəf kimi görə bilər. Çoxsaylı araşdırmalara istinadən demək olar ki, bir çox hallarda, qadınlar da eyni cür vəzifələrindən istifadə edirlər (Yenə orada, səh.145). Belə bir məqam kişi gücünün azalmasından xəbər verir. Qadın cəmiyyətdə, həmçinin iş yerində nüfuz qazandıqca tabeçilikdə olan kişi tədricən gücünü itirir və seksual təngəgətirməyə məruz qala bilir. Məişət mənşəli zorakılıqla bağlı araşdırmalar göstərir ki, iş yerlərində qadın başçıdan təzyiq görən kişilər evdə həyat yoldaşlarına qarşı zorakı olurlar.

**ABŞ-da iş yerlərində seksual təngəgətirməklə bağlı məlumat kitabçası**.

Bildiyimiz kimi, *seksual təngəgətirmə* arzuolunmaz, xoşagəlməz seksual xarakterli baxış, sözatma, zarafat, təklif və ya fiziki toxunuşları özündə ehtiva edir. ABŞ-ın Bərabər İmkanlar Məşğulluq Komissiyasına (BİMK) görə iş yerində seksual təngəgətirmə elə seksual xarakterli davranışdır və bu davranış nəticəsində gender zəminində insana əsassız olaraq iradlar bildirilir, əmək fəaliyyətinə süni maneçilik törədilir, qorxudulur, onunla düşmənçilik edilir və işdə xoşagəlməz, təhqiramiz mühit yaradılır. Seksual təngəgətirmə formasına görə fərqli-fərqli ola bilər, bu yersiz zarafat, yersiz toxunuş formasında ola bilər. Bu halla iş yerlərində həm qadın, həm də kişi rastlaşa bilər.

Həm dövlət, həm də federal qanunlar iş yerində vətəndaşları baş verə bilən seksual təngəgətirmədən qoruyur. 1964-cü ilin vətəndaş Hüquqları Aktına görə seksual təngəgətirmə cinsi diskriminasiyadır. VII Maddəyə görə iş yerində təngəgətirməyə görə, iki cür cəza növü mövcuddur və bu davranışa yol verən işçi ya pulla cərimə oluna bilər, ya da cinayət məsuliyyətinə cəlb edilə bilər.

*Seksual təngəgətirmənin növləri*:

VII Maddəyə görə iki cür seksual təngəgətirmə mövcuddur:

1) *xidmətə xidmət*;

2) *dözülməz iş mühiti*

Seksual təngəgətirmənin *xidmətə xidmət* növündə iş yerində səlahiyyətli şəxs, yəni supervayzer tabeçiliyində olan şəxsdən öz seksual məqsədi üçün istifadə etmək istəyir, yəni tələb etdiyi seksual xidmətin əvəzində onu işində irəli çəkir, maaşını artırır və s. *Xidmətə xidmət* bəzən iş yerini saxlamaq üçün də istifadə oluna bilər, lakin *dözülməz iş mühiti* işçini seksual xidmət etməyə təhrik edir, bu olmayanda həmin işçini hədələyir, onu işdən qovmaqla hədələyir.

Seksual təngəgətirmənin *dözülməz iş mühiti* növü qanuna görə gender zəmnində baş verən arzuolunmayan, təhqiramiz seksual davranışdır. Bildiyimiz kimi, o həm verbal, həm də qeyri-verbal ola bilər. Seksual təngəgətirməni təyin etmək üçün aşağıdakıları nəzərə almaq lazımdır:

* Davranışda verbal, fiziki seksual təngəgətirmə və ya hər ikisi mövcuddurmu;
* Davranış bir neçə dəfə təkrarlanıbmı;
* Davranışda düşmənçilik və ya təhqiredici elementlər olubmu;
* Seksual təngəgətirən supervayzerdir, yoxsa iş yoldaşı;
* Seksual təngəgətirmə prosesində digərlərinin də iştirakı olubmu;
* Seksual təngəgətirmə təkcə bir nəfərə yönəlib, yoxsa bir neçə işçi belə davranışa məruz qalmışdır.

Seksual təngəgətirməyə məruz qalan qurban bu halda həqiqətən təhqiramiz, düşmənçilik elementlərinin olmasına inandırmağı, bunu sübut etməyi bacarmalıdır.

*İşəgötürənin məsuliyyəti*:

15 və ondan çox işçisi olan hər bir işəgötürən VII Maddənin tələblərinə ciddi şəkildə riayət etməlidir. 15-dən az işçisi olan şirkətlər üçün də dövlət qanunlar təsbit etmişdir. Əgər seksual təngəgətirmənin *xidmətə xidmət* növü aşkarlanarsa, buna məruz qalan işçinin təzminat tələb etmə hüququ vardır. Məsuliyyətin forması seksual təngəgətirməni törədənin kim (supervayzer və ya

iş yoldaşı) olmasından və şirkət bu səhvi düzəltmək üçün hansı addımları atmasından da asılıdır. Əgər seksual təngəgətirmə vəzifəli şəxs tərəfindən törədilmişdirsə, bu, seksual təngəgətirməyə məruz qalanın əmək fəaliyyətinə təsir etmişdirsə (işdən azad olma, vəzifədə neqativ dəyişikliklər), bundan ötrü şirkət sahibi məsuliyyət daşıyır.

Belə bir hal təsdiq olunarsa, şirkət sahibi bunu iki yolla həll edə bilər:

1) seksual təngəgətirmənin qarşısını dərhal alır;

2) seksual təngəgətirməyə məruz qalan işçiyə dəyən maddi, mənəvi zərərin ödənilməsi üçün lazımi tədbirlər görür.

*Seksual təngəgətirməni dayandırmanın strategiyaları*:

İşdə seksual təngəgətirmənin yuxarıda göstərilən standartlarına görə, buna məruz qalan şəxsin də üzərinə bunun qarşısını almaq cəhdi kimi bir məsuliyyət düşür. Buna son qoymaq bir neçə mərhələdən ibarətdir. Əvvala, seksual təngəgətirməyə məruz qalan şəxs özü bu halı dayandırmaqdan ötrü şəxsi cəhdlər etməlidir. Əgər bunu etmək mümkün olmazsa, həmin şəxs o zaman mənsub olduğu qurumun nizamnaməsi ilə tanış olmalı, bu kimi məsələlərin həlli ilə əlaqəli siyasəti öyrənməli və şikayətini uyğun şöbəyə çatdırmalıdır. Hər atılan addım, yuxarı instansiyalara verilən hər bir rəsmi məlumat gələcəkdə həmin işçinin lehinə işləyəcəkdir və onun gücünü artıracaqdır.

*Seksual təngəgətirənə etdiyi hərəkətin sənin üçün təhqiredici olması barədə şəxsən özün informasiya ver!*

Düzdür, yuxarıda deyiləm addımı atmaq o qədər asan olmasa da, bu seksual təngəgətirməyə son vermək üçün ən mühüm addımdır. Bəzən bu davranış sahibi etdiyi hərəkətin qarşı tərəf üçün təhqiramiz olmasının fərqində deyil, vaxtında atılan addım bir sonrakı xoşagəlməz replikaların, şit zarafatların, yersiz toxunuşların qarşısını vaxtında alır və bu hərəkətin daha da çirkinləşməsinə son verir. Əgər seksual təngəgətirən şəxslə bu söhbətləri üzbəüz etmək həmin şəxs üçün rahat deyilsə, hərəkətlərinə son qoy-

maq haqqında ona qısa şəkildə ya məktub, ya da mesaj yazmaqla bunu həyata keçirmək olar. Bunu da edə bilmirsinizsə, şirkətin başçısına bu barədə yazılı məlumat verin, lakin hökmən həmin məktubun sürətini çıxarın. Şikayət məktubunu təşkilatın rəsmi mail adresinə göndərsəniz, bu daha uyğun hesab olunar, çünki bu şikayətə aidiyyəti orqan rəsmi cavab yazmağa məcburdur. Hər bir addımda rəsmiyyət olarsa, bu işin daha çox xeyrinə olar. Əgər bu da xeyir etməzsə, ondan sonrakı instansiyaya müraciət edin. Hər dəfə bu şikayətlərin rəsmi protokola salınmasından əmin olun.

*Dövlətin müdaxiləsi*:

Bütün yuxarıda həyata keçirilən addımlardan heç bir nəticə əldə edilmədikdə, Bərabər Məşğulluq İmkanları Komissiyasında VII Maddə üçün məsuliyyət daşıyan agentliyə şikayət ərizəsi ilə müraciət edin. Bu müraciətdən sonra BMİK tədqiqat işlərinə başlayacaqdır. Dövlət agentlikləri bu istiqamətdə müxtəlif yönlü siyasətlər yürüdə bilərlər.

*Seksual təngəgətirməni qiymətləndirməkdən ötrü ödənişsiz yerli vəkilin xidmətindən istifadə edə bilərsiniz:*

Sizin bir vətəndaş kimi seksual təngəgətirməni sübuta yetirməniz o qədər də asan iş deyildir, ona görə də mütləq ödənişsiz vəkil xidməti haqqınızdan istifadə edin, çünki yalnız vəkil onun keçmişi ilə bağlı bir sıra məqamlara aydınlıq gətirə bilər. Onun davranışında keçmişdə də seksual təngəgətirmə elementləri olubsa, bu sizin işiniz üçün xeyirli olacaqdır. Bunu sübut etmək bir vətəndaş kimi sizin üçün nə qədər çətin olsa da, vəkil üçün bunu etmək xeyli asan ola bilər. Şikayət ərizəsini təqdim etdiyin gündən dərhal sonra yerli ödənişsiz vəkil tutmaq məsləhət görülür.

*Seksual təngəgətirmə ilə əlaqəli şikayət edən kişilərin sayında artım var:*

2015-ci ildə BMİK-ə seksual təngəgətirmə ilə əlaqəli şikayətlərin əksəriyyəti qadınlar tərəfindən edilmişdir. Lakin son dövrlərdə seksual təngəgətirmə ilə əlaqəli şikayət edənlərin arasında kişilərin faizi də artmaqdadır.

*Seksual təngəgətirmənin yayılması iş yerinin xarakterinə görə müxtəlif olur*:

2011-ci ildə BMİK-in verdiyi məlumatlara əsaslanan Amerika İqtisadi Xülasə və Materiallarında, seksual təngəgətirmənin yaş və iş sferasına uyğun təhlil olunmuşdur. Məlum olmuşdur ki, seksual təngəgətirməyə ən çox 25-34 yaş arası qadınlar məruz qalırlar. Seksual təngəgətirməyə məruz qalanlar ən çox nəqliyyat və kommunal xidmətlər sahəsində işləyən qadınlardır.

Seksual təngəgətirməyə məruz qalanlar arasında texnologiya sahəsində işləyənlərin say faizi (ildə 60 %) çox yüksəkdir. Bunu edənlərin əsas faizi supervayzerlərin (65 %-i) arasında təsadüf olunur. Müşahidə zamanı seksual təngəgətirməyə məruz qalan müsahibə  alınan hər beş nəfər qadından ikisi bu barədə susmağa üstünlük verdiklərini demişlər, çünki əks halda iş yerlərini itirməklə üz-üzə qala bilərdilər.

İxtisasın da seksual təngəgətirmənin nəticələrinə təsiri danılmazdır. Məsələn, ABŞ-da hərbi sahədə işləyənlərin böyük əksəriyyəti seksual təngəgətirməyə məruz qalanda susurlar, çünki onlar bunu törədənlərin cəzasız qalacağına tam əmindirlər (Human Rights Watch). Seksual təngəgətirmə ilə seksual zorlama arasında bir addım məsafə var.

**Nəticə**. Son dövrlərdə işləyən qadınlara olan münasibətdə və bu barədə olan köhnə deyimlərdə əsaslı dəyişikliklərə baxmayaraq, hələ də işləyən qadınlar üçün  müxtəlif baryerlər mövcuddur. Bəzən bu baryerlər rəsmi qurumlarda da müşahidə olunur və illərlə prestijli vəzifələrdə dominantlıq edən kişilər qadınların bir sıra vəzəfələrə (professional texniki, hərbi və başqa sahələrə) gəlmələrinə əngəl olurlar. Hələ də genderə görə iş yerləri haqqında inamlar mövcuddur və qadınların bəzi peşə vərdişlərində təcrübələrinin olmaması bəhanə gətirilir, qadınlar üçün qeyri-rəsmi yaş məhduddiyyəti qoyulur. İş yerlərində mövcud amillər də bu kimi məsələlərə təsir edir, məsələn, hələ də kişi və ya qadın xarakterlərinə uyğun işlərin olması haqqında inamlar, iş yerlərində

sponsorların çoxunun kişi olması, iş yerlərində atmosferin qadınların işləməsinə uyğun olmaması, gender diskriminasiyasına yol açır. Statistik göstəricilərə görə qadınların iş yerlərində yüksəlmə imkanlarına bu kimi formalaşmış stereotiplər mane olur.

1964 – cü ildə Mülki Hüquqlar Aktında VII Maddənin (iş yerlərində hər cür ayrı-seçkiliyi qadağan edir) qəbul edilməsinə baxmayaraq, bu göstəricilər və elmi araşdırmalar sübut edir ki, hələ də əmək sahələrində minlərlə gender diskriminasiyası müşahidə olunur. Bütün bu elementlər də qadın və kişilərin karyera imkanlarına, qazanclarının həcminə, iş şəraitlərinin keyfiyyətinə təsirsiz ötüşmür [Barbara F. Reskin, (Eds.), 1986:126.]

**Ədəbiyyat:**

**English**

1. Barbara F. Reskin and Heidi I. Hartmann, editors., "*Women's Work, Men's Work, Sex Segregation on the Job*" National Academy Press, Washington, D.C. 1986, P.126
2. Braedyn Kromer and David Howard, "*Labor Force Participation and Work Status of People 65 Years and Older*", American Community Survey Briefs, 2013
3. Carlson S.M., "*Trends in Race/Sex Occupational Inequality: Conceptual and Measurement Issues*", New York: Russell Sage, Social Problems, 1992, 39: 268-290
4. Chafetz, J.S., "*The Gender Division of Labor and the Reproduction of Female Disadvantage: Toward an Integrated Theory*", Journal of Family Issues, 1998, 9: 108–131
5. Cleveland, Stockdale, and Murphy, "*Men and Women in Organizations: Sex and Gender Issues at Work*", Mahwah, N.J.: Lawrence Erlbaum Associates, 2000, P.164
6. Evans S.M., "*Women in Twentieth Century America: An Overview*", New York: W.W.Norton, 1987, P. 37
7. "*Gender Pay Differences: Progress Made, but Women Remain Overrepresented among Low-Wage Workers*". GAO. 2011. Washington, D.C.

8. İrene Padavic, Barbara F. Reskin, "*Women and Men at Work*", Pine Forge Press, London, 2002, P. 57
9. Karen O'Connor, "*Gender and Women's Leadership*", American University, SAGE Publication Inc, 2010, P.744
10. Kessler-Harris, Alice, "*In Pursuit of Equity: Women, Men, and the Quest for Economic Citizenship in 20th-Century America*", New York: Oxford University Press, 2001
11. "*Making Technology Masculine: Men, Women, and Modern Machines in America, 1870-1945*", Amsterdam University Press, 1999
12. Mary E. Kite and Bernard E. Whitley, Jr."*Psychology of Prejudice and Discrimination*", New York and London, Routledge, Taylor & Francis Group, 2016, P. 561
13. Milkman, R., "*Gender at Work: The Dynamics of Job Segregation by Sex during World War II*," Berkeley, CA: University of California Press, 1987
14. Montanelli, Richard G. "*The Status of Women and Minorities in Academic Computer Science*", Communications of the ACM 19.10 (1976): 578-81
15. Paul Rosenkrantz və Inge Broverman, "*Role Stereotypes: A Current Appraisal*", in the journal of Social Issues, Issue 2, 1972, Pp. 59-72
16. Sue Vilhauer Rosser, "*Women, Science, and Myth: Gender Bellets from Antiquity to the Present*", Santa Barbara, California Denver, Colorado Oxford, England, 2008, Pp. 145-146
17. Teresa Amott and Julie Matthaei, "*Race, Gender and Work: A Multi-Cultural Economic History of Women in the United States*", South End Press, 1996, P. 352
18. U.S. Census Bureau. *Income, Earnings, and Poverty Data From the 2007 American Community Survey.* August 2008, P.14

# VI FƏSİL

## ABŞ-da dil, KİV və gender

Dünyada ilk dəfə linqvistik genderşünaslıq adı altında yeni bir elm sahəsi öz tədqiqatları ilə gündəmə gəldi. Tədqiqatın əsas məqsədi dil davranışında qadınlıq (femininlik) və kişiliyi (maskulinlik) fərqləndirmək, genderlərin nitq davranışlarını öyrənmək, dil və genderin qarşılıqlı münasibətlərini araşdırmaq, qadın və kişi dilinin sosial mahiyyətini dərk etmək, sosial rolların formalaşmasında dilin rolunu müəyyənləşdirmək, fərqli genderə mənsub insanların dildə qeyri-bərabər təqdim olunmasına səbəb olan amillərə diqqət yetirməkdir.

Hələ 1970-ci illərin əvvəllərində özünün "Dil və qadınların yeri" adlı əsəri ilə çox böyük ajiotaj yaradan Kaliforniya Universitetinin professoru R.Lakoff bu əsərdə qadınların nitq davranışını ətraflı araşdırır. Sonralar bu əsər dil və davranışla bağlı bir çox əsərlərin yaranması üçün stimul olur. Müəllif burada kişi nitqi ilə qadın nitqi arasında fərqli xüsusiyyətləri səciyyələndirir.

Müəllifə görə, kişilərin nitq davranışından fərqli olaraq, qadınların nitq davranışında qətiyyətsizlik hiss olunur və demək olar ki, əksər qadınlar aqressiv olmurlar, onlar qarşı tərəfi səbrlə dinləməyi bacarırlar, xeyirxahlıq nümayiş etdirirlər. Kişilər isə əksinə, söhbət əsnasında daha aqressivdirlər, situasiyanı nəzarət altında saxlamağa çalışırlar. Müəllifin fikrincə, belə danışıq tərzi qətiyyətsizlik və təcrübəsizlik ab-havası yaradır və qadının statusunun zəifləməsinə gətirib çıxarır (Robin Lakoff, 1973).

Gender rolunun vəhdətinin ən nəcib, ən mühüm amili elə dilin özüdür. Insan  dünyaya göz açdığı gündən cəmiyyətin genderə uyğun göndərdiyi ismarıcları dilin vasitəsilə qəbul etməyə baş-

layır. Dil vasitəsilə fikirlərimizi ifadə, əsyaları təsvir edirik. Dil olmazsa, düşüncələrimizi ifadə etməkdə çox çətinlik çəkərik.

Kişilərin qadınlar üzərində dominantlığına təsir edən mühüm amillərdən biri də dildir. Seksizm dildən də yan keçməmişdir. Linqvistik seksizm nədir? Bunu müxtəlif yollarla izah etmək olar, amma bunun ən sadə izahı dildən cinsi əlamətlərə görə diskriminasiya məqsədi kimi istifadə olunması variantıdır. Linqvistik seksizm qadın dilinə qarşı özünü bir neçə formada büruzə verir: a) etinasızlıq; b) stereotipləşmə və

c) mühakimə etmə. Yəni qadın danışığını daha az əhəmiyyətli hesab etmək, qadın dilinin kişi dilindən köklü fərqi, dilin genderə uyğun olması və nəhayət, kişi danışan hər bir şeyi norma, standart kimi qəbul etmə, qadın danışan sözü mühakimə etmə halları hətta bugünkü inkişaf etmiş cəmiyyətlərdə də özünü göstərir. Bizi əhatə edən reallıq ondan ibarətdir ki, qadın və kişinin cəmiyyətdəki sosial status və sosial vəziyyəti dildə də əks olunmuşdur. Qısası, bu gün dildə təsadüf olunan linqvistik seksizm, elə dildə genderə görə diskriminasiya deməkdir.

Yaşadığımız cəmiyyətdə genderlər müxtəlif cür təsvir olunur. Əgər söhbət kişilərdən gedirsə, onlar güclü, ağıllı, rasional təsvir olunurlar, lakin söhbət qadınlardan gedəndə onlar gözəl, emosional, ailəcanlı, başqalarına qayğı göstərməkdən zövq alan, emfatik, kişilərə dəstək verməyi bacaran kimi təsvir olunurlar. Bir az diqqətli olsaq, kişi və qadınlar üçün nəzərdə tutulan etiketlərin də fərqli olduğunu aydın görərik. Onların davranışı, ayaq üstə durma tərzləri, oturuşları da kişi və ya qadınsayağı olur. İstifadə olunan sözlər və onların mənaları qadın və kişilər haqqında mülahizələri formalaşdırır və insanlar bu yolla təyin olunur, gənc yaşlarından sözlərin mənasını belə qəbul edib, ona uyğun hərəkət edirlər. İnsanlar sözləri belə qəbul edə-edə, dildə baş verən stereotipləşmənin heç fərqinə varmırlar.

Dil cəmiyyəti ictimailəşdirir. Yenicə dünyaya gəlmiş uşaq

cəmiyyətin dilini öyrənir, bu cəmiyyətə uyğun düşünür və davranışını ona uyğunlaşdırır. Biz dildən istifadə edə-edə sadəcə danışmırıq, öyrənirik, təkrar edirik və öz təxəyyülümüzdə "*əsl qadın-kişi necə olmalıdır*" təsəvvürünü yaradaraq hərəkət edirik. Məsələnin mahiyyəti ondan ibarətdir ki, fərqli genderlərin təmsilçiləri üçün dildə stereotiplər və şablonlar formalaşmışdır. Bu məsələlər o qədər *təbii* görünür ki, biz bunların heç fərqinə varmırıq və bunlara əhəmiyyət vermirik.

İngilis dilində linqistik seksizmdən kifayət qədər misallar gətirmək olar, məsələn, qadın və kişilərdən ibarət olan *bəşəriyyət – mankind* deməkdir, sözün birinci hissəsi *man* – yəni *kişi* kimi tərcümə edilir və bu da gender disbalansından xəbər verir. İngilis dilində peşə adlarında da seksizm özünü kəskin büruzə verir. Məsələn, *policeman (polis işçisi), fireman (yanğın söndürən), businessman (iş adamı)* kimi sözlər. Başqa kəlmələrdə də şərəf və ləyaqət rəmzi kimi kişilərə aid sözlər istifadə olunur. Məsələn, *bachelor – subay oğlan* və onun qadın üçün işlədilən ekvivalenti *spinster – subay qız* sözlərinə nəzər salaq: "Bachelor of Art" ali təhsilin ilk pilləsi mənasında istifadə olunur. Bunun qadın üçün nəzərdə tutulan ekvivalenti *spinster* sözünü *bachelor* sözünün yerinə qoya bilmərik. Bu sözlərin digər mənalarından da bəhs ediləcəkdir. *Bachelor* deyirkən – *kefkom, subay kişi, kovboy* və sairə mənasında anlaşıldığı halda, *spinster* deyəndə *kifir, yaşı ötmüş, çirkin, arzuolunmayan, qarımış qız* kimi anlaşılır.

**Dilin üslubunda gender aspektləri**. Dildə işlədilən ifadə, söz fərqlərindən başqa, qadın və kişilər dil üslubuna görə də fərqlənirlər. R.Lakofun tələbəsi, məşhur amerikalı sosio-linqvist Deborah Tannenin 31 dilə tərcümə olunmuş "Sən düzgün başa düşmürsən: qadınlar və kişilər söhbət əsnasında" əsərində də kişi və qadın nitq üslubları dərin təhlil olunmuşdur (Deborah Tannen, 2001). Tannenin fikrincə, kişi və qadın arasındakı söhbət sanki bir-birinə zidd mədəniyyətlərin kommunikasiyasını əks etdirir. Bu məsələnin tədqiqatı zamanı müəllif əsas diqqəti fərqli gender qruplarında

söhbət zamanı kişi və qadınların üzləşdiyi kommunikativ uğursuzluğa yönəldir. Müəllifə görə, həm kişi, həm də qadın nitqinin üslub xüsusiyyətlərində ardıcıllıq fərqlidir. Kişilər və qadınlar əvvəlcə iki müxtəlif aləmdə (oğlanlar və qızlar aləmində) dili öyrənirlər, bununla hər bir qrup öz xüsusiyyətlərindən çıxış edərək əks üsluba qiymət verir. Lakin bir çox hallarda kişi və qadın üslubları arasındakı fərq simmetrik olmur. Eyni qrupda olan kişi və qadınlar hər şeydən əvvəl kişilər üçün daha rahat hesab olunan tərzdə danışmağa üstünlük verirlər. Bu və ya digər üsluba, bir qayda olaraq, norma hesab olunan kişi üslubu standartlarından çıxış edilərək qiymət verilir. Bərabərliyin ümumi məqsəd elan olunduğu və qadınların çox vaxt yüksək mövqe əldə etdikləri cəmiyyətdə belə, sanki ikili yolda olmaları daha çox təəssüf doğurur. Əgər onlar qadınların gözlədikləri tərzdə danışmağa başlasalar, onlar özlərini qeyri-adekvat liderlər kimi göstərəcəklər. Əgər onlar liderlərdə qəbul edilmiş tərzdə danışsalar, onda kişisayağı qadın olacaqlar.

Adətən, qarışıq gender qruplarının iştirak etdiyi məclislərdə ünsiyyət formaları eyni gender qruplarda olduğundan fərqli olur. Belə hallarda əksər vaxt kişilər daha çox danışırlar, diskussiyaya olan nəzarəti əllərində saxlamağa çalışırlar. Əgər həm kişilər, həm də qadınlar eyni zamanda danışmağa başlayırlarsa, çox zaman kişilər qadın ismətindən sui-istifadə edib səslərin tonunu qaldırmaqla və ya hər hansı bir digər formada qadınların sözlərini kəsib özləri söhbəti istədikləri kimi davam etdirirlər.

Feminist linqvistika həm eyni genderin iştirak etdiyi, həm də qarışıq qruplarda kommunikasiyanın xüsusiyyətlərini öyrənməklə məşğul olur. Bu tədqiqatların nəticəsində müəyyən olunmuşdur ki, ünsiyyət əsnasında qadın və kişilərin nitq davranışlarının xüsusiyyətlərinə nəzər salsaq, kişi dili ilə müqayisədə qadın dili *daha az kateqorikdir*. Belə ki, verbal dil öz istifadəsinə görə belə stereotipləşir:

1. Qadınlar danışarkən zərif, nəcib sözlər işlətməyə çalışırlar. Məsələn, *canım, əzizim, gözümün işığı, həyatımın mənası, sevgi-*

*lim, qəhramanım, yaraşıqlım, evimin dirəyi, bir dənəm* və sairə (*adorable, charming, divine, lovely, cute* etc).

2. Kişilər hisslərini gizlətməyə cəhd göstərib fikirlərini birbaşa ifadə etməyə çalışırlar, hər şeyi öz adı ilə, düşüncələrini lokanik ifadə edirlər. Məsələn: kişi- *Mən acam*; qadın – *Yaxınlarda restoran olsaydı, oturub dincələrdik (a man-I am hungry; a woman- İf there were any restaurant nearby, we would rest there)*.

3. Qadınlar fikirlərini gözəl ifadə etməkdən ötrü daha təsirli sözlərdən istifadə edirlər. Məsələn: *Əzizim, lütfən, mənə yardım edə bilərsənmi? (Would you, please... Would you mind..., I'll appreciate if...)*.

4. Qadınlar sevdikləri haqda öz hiss və emosiyalarından söz açmağa, kişilər isə bu barədə susmağa üstünlük verirlər.

5. Qadınların danışığında bir qətiyyətsizlik hiss olunur, onlar əksər hallarda inamsız, alçaq səslə danışırlar, *eləmi (tag question)* sualını tez-tez işlətməklə respondentlər rəylərini öyrənməyə cəhd göstərirlər, sanki respondentlərindən dəstək istəyirlər (*mhm, yeah, mmmm, isn't it? etc*). Kişilər isə, əksinə, özlərinə əminliklə, amiranə səslə respondentlərinin onlara etiraz cəhdlərinə etinasızlıq nümayiş etdirib, qətiyyətli tonlarını saxlamaq imkanlarını əldən vermək istəmirlər, bəzən öz fikir və ideyalarını qadınlara "sırımağa" səy göstərirlər. Məsələn: *Nəyin səhv, nəyin düz olduğunu mən bilirəm (I know what is right, what is wrong)*.

6. Qadınlar danışarkən qrammatikanın düzgünlüyünə və vokabyular seçimin dəqiqliyinə diqqətli olduqları halda, kişilər onlar üçün rahat olan bir tərzdə danışırlar. Qadınlar rəngin hər çalarını öz adı ilə adlandırmağa üstünlük verirlər və onlar rənglərdə daha dəqiqdirlər (*aquamarine, mauve, beige, lavender, magenta* etc).

7. Qadınlar evfemizmdən daha çox istifadə etmək istəyirlər, məsələn, kişilər-*filankəs öldü* deməklə kifayətləndikləri halda, qadınlar - *filankəs rəhmətə getdi, haqqın dərgahına qovuşdu və ya dünyasını dəyişdı*; (*a man - Smith has died; a woman - Smith has passed away*).

8. Kişilər daha mühüm hesab etdikləri mövzulardan (siyasət, biznes, idman, texnologiya, ekologiya və sairə) danışmağı sevdikləri halda, qadınların əksəriyyəti məişət mövzularından kənara çıxmırlar.

9. Kişilər qadın respondentlərin onlardan ağıllı, elmli və müasir dünyagörüşünə sahib olduqlarını müşahidə edərlərsə, dərhal bəhs edilən mövzudan başqa mövzuya keçirlər (bu məsələlərdən kişilərin qadınlardan az xəbərdar olduqlarını büruzə verməməkdən ötrü, təşəbbüsü öz əllərinə alıb ya söhbəti öz bildikləri kimi davam etdirir, ya da çevik şəkildə mövzunun istiqamətini dəyişdirir, ya da kişi respondentlərinə üzlərini tutub onların fikirlərini bilmək istəyirlər).

Kişi tərəfkeşliyi, qadın sözünə etinasızlıq halları qarışıq qruplarda daha tez-tez müşahidə olunur. Hətta eyni ideyanı, eyni zamanda həm kişi, həm də qadın irəli sürübsə, söhbətin kişi tərəfindən davam etdirilməsi üçün kişilər hər cür cəhd göstərirlər.

Əlbəttə, yuxarıda qeyd olunanları hamıya şamil oluna bilməz, çünki zaman dəyişdikcə qadın və kişilər də dəyişirlər, lakin əksər hallarda bu ümumiləşdirmələr özünü doğruldur. Feministlərin fikrincə, bu fakt ünsiyyət zamanı qadınlar üçün mənfi nəticələr verir. Qadınların bu formada olan nitq davranışı cəmiyyətdə qadınların daha zəif, daha qətiyyətsiz və daha az bilikli olmasına dair formalaşmış rəyi möhkəmləndirir.

**Fikrin, münasibətlərin qeyri-verbal ifadəsi və qeyri-verbal dilin gender aspektləri.** İnsanlar fikirlərini təkcə sözlə deyil, mimika, intonasiya, jest, məsafə ilə, yəni ünsiyyətin qeyri-verbal formaları ilə də ifadə edirlər. İnsanlar öz aralarında təmas quranda qeyri-verbal dildən daha çox istifadə edirlər, yəni ismarıcların 2/3 hissəsi qeyri-verbal ünsiyyət vasitəsilə ötürülür. Maraqlı cəhət odur ki, hətta insanların qeyri-verbal ünsiyyəti zamanı da gender fərqləri müşahidə olunur. Əksər tədqiqatçıların fikrincə, qadınlar bu ünsiyyət vasitəsindən ona görə daha çox istifadə edirlər ki, onlar kişilərə nisbətən daha ünsiyyətcildirlər.

Qadın və kişilərin qeyri-verbal ünsiyyəti zamanı çox maraqlı məqamlara təsadüf olunur. Qadınlar hətta həmsöhbəti ilə razılaşmadıqları hallarda belə gülümsəyərək ünsiyyət qururlar. Düzdür, bəzi alimlərin fikrincə, gülümsəyərək danısmaq mədəniyyətin deyil, itaətkarlığın əlamətidir. Qadının itaətkarlığa meyilliliyini sübuta yetirmək üçün digər dəlillər də təqdim olunur. Məsələn, qadın kişi ilə söhbət edəndə kişi respondent qadının üzünə dik-dik baxdığı halda, qadın ya gözlərini döyür, ya da kişinin üzünə baxmağa uzun müddət davam gətirə bilməyib, başını aşağı salır və hətta razı olmadığı məqamlarda belə itaətkarcasına başını yelləyə-yelləyə deyilənlərlə guya razı olduğunu bildirir. Əslində bu da birmənalı qiymətləndirilməməlidir, çünki dünyanın bir çox ölkələrində gözə baxaraq dinləmək mədəniyyət hesab olunduğu halda, bəzi ölkələrdə (məsələn, Yaponiyada uşaqlara erkən yaşlarında insanların üzünə baxmadan ünsiyyət qurmağı öyrədirlər) bu mədəniyyətsizlik hesab olunur.

Kişilər və qadınlara aid jestlər də fərqli ola bilər. Kişilər üçün məqbul, normal hesab oluna bilən jestlər qadınlar üçün qeyri-qənaətbəxş hesab oluna bilər. "*Əli stolun üstünə çırpmaq*" hərəkəti kişilərin əsəbini, qəzəbini əks etdirir. "*Boynunun arxasını qaşımaq*" müsbət bir cavab gözləyən zaman kişilərə xas jestdir. "*Əlini-əlinə sürtmək*" jesti də yuxarıda söylədiyimiz kimi, müsbət nəticəyə əminlik işarəsidir. "*Yumruq göstərmək*" jesti kişilər üçün mübahisə etdiyi insanı döyməyə hazırlaşmasına işarədir. "*Şəhadət barmağı (bıçaq kimi) çənənin altından boyun istiqamətində düz saxlayıb, digər barmaqları yumruq şəklində bükmək*" sanki qarşı tərəfi öldürməyə hazırlaşmaq işarəsidir və bu da çox vaxt kişilərə xas hərəkətdir. "*Saç yolmaq*" birmənalı şəkildə qadınlara aid olan hərəkətdir (bu anlaşılandır, nadir hallarda kişilərin saçı yolmaq üçün ələ gəlir). "*Ayaqlarını yerə döyəcləmək*" uşaq və qadınlara aid jest olub kaprizli insan olmağa işarədir. "*Üzünü əllərlə qapatma*" əksər hallarda qadınlar tərəfindən ağlayarkən, utanarkən, üzülərkən, digərini üzərkən, tərəddüd edərkən istifadə

etdikləri jestlərdən biridir. "*Şəhadət barmağını dodaqların üstünə və baş barmağı qulağa tərəf uzatmaq*" bərk təəccüblənməyi bildirir və bu da qadınlara məxsus davranışdır. "*Əllərini çarpazlaşmış halda döşlərinin üstünə qoymaq*" (əlini qoynuna qoymaq) qadınlara xas tipik hərəkətdir.

Qadınların oturuşlarına nəzər salsaq, onlar əksər hallarda daha yığcam oturmağa cəhd göstərdikləri halda, kişilərdə bunun əksi müşahidə olunur, yəni daha yayılmış şəkildə, özlərinə rahat olan formada otururlar.

Danışıq zamanı insanların arasındakı məsafənin əhəmiyyəti də böyükdür, çünki məsafənin ölçüsü danışanların statusundan xəbər verir. Rəislər çox zaman işçilərindən daha hündür yerdə və daha böyük kürsüdə oturmağa üstünlük verirlər. Varlıların evlərinin hasarları daha hündür olur, həyətləri daha geniş olur. Ünsiyyətdə olanların arasındakı məsafə ölçüsünün böyüklüyü, onların yüksək statuslarından, dominantlığından xəbər verir.

Deməli, status yüksək olduqca məsafə də böyük olur. Elə bu səbəbdən də əksər hallarda qadınların kişilərlə ünsiyyəti zamanı qadınlara məxsus olan məkan daha kiçik olur. Bunu şərti olaraq aşağıdakı kimi səciyyələndirə bilərik:

* qadına məxsus yer kişi tərəfindən tutulubsa, qadın tolerantlıq nümayiş etdirir;

* qadın qadınla ünsiyyətə girdiyi zaman aralarındakı məsafə az olur, lakin kişi kisi ilə ünsiyyətə girdiyi zaman aralarındakı məsafə nisbətən çox olur;

* həm kişi, həm də qadın qadınla ünsiyyət zamanı ona daha yaxın olur. Digər məqamlar da bunların doğru olduğunu sübut edir.

Yüksək statuslu şəxslə aşağı statuslu şəxs ünsiyyət qurduqları zaman yüksək statuslu şəxs hərəkətlərində daha sərbəstdir, bəzi hallarda qarşısındakına rahat toxuna da bilər, tabeçilikdə olan şəxs bunu heç ağlına da gətirə bilməz. Aşağı statuslu şəxsə hətta bu, xoş gəlməyəndə belə, o, yerini dəyişməyə, etiraz etməyə

çox zaman cürət etmir. Çox vaxt, kişilər hətta yenicə tanış olduqları qadınlarla ünsiyyət zamanı onlara toxunaraq söhbət edirlər, məsələn, onlara salamlaşmaq üçün uzadılan qadın əlini bir müddət əllərindən buraxmamağa cəhd göstərirlər. Bəzən nəvaziş əlaməti olaraq kişilər əllərini qadınların ciyinlərinə qoyur, amma qadınlar bunun əksini ağıllarına belə gətirmirlər. Yenə də kişinin qadına "*toxunma haqqı*" daha çoxdur.

Hər kəs bu kimi məqamları müşahidə edir, sadəcə bunların fərqinə varmır. Bəzən tez-tez nahar etdiyi restorana daxil olan kişi müştəri, qadın ofisiantı salamlamaq əvəzinə yanağını sığallayır, saçını qarışdırır, hətta çimdikləyib yanına yüngül şəkildə vuranlar da tapılır. Maraqlısı budur ki, həmin müştərilər analoji davranışı kişi ofisiantlara tətbiq etməyi ağıllarına belə gətirmirlər.

Yuxarıda sadalanan məqamlar fransız sözü "*chivalry*"nı xatırladır. Bunun orijinal mənası *zadəgan ləyaqəti* anlamına gəlir, amma bu gün bu söz daha çox qadınlara qarşı mədəni davranış, qadın zərifliyini qorumaq üçün kişilər tərəfindən edilən jest kimi anlaşılır. Oxucuya aydınlıq gətirmək üçün "*chivalry*" ilə əlaqəli etiketlərdən misal gətirək. Bu etiketlər də qadın-kişi statuslarının fərqliliyindən xəbər verir. Məsələn, nəzakət əlaməti olaraq kişi qadın qarşısında daha çox fəallıq göstərir, o, qadından qabağa düşüb onun üçün avtomobilin qapısını açır, siqaret çəkməyə hazırlaşan qadının siqaretini yandırır, ictimai nəqliyyatlarda oturmağa yer verir, paltosunu geyinməyə yardım edir, sürüşkən yolda qoluna girib yıxılmamasına kömək edir və sairə. Kişilər belə vəziyyətlərdə nəzarəti əldə saxlayıb fəallıq göstərirlər və son nəticədə imkan olan kimi qadını asılı vəziyyətə salıb, onu kişiyə bir növ möhtac edirlər. Necə ki, keçmişdə hətta qadına avtomobil almaq imkanı olan ailələr bunu etmirdilər və bunu qadını qorumaları ilə izah edirdilər. Avtomobili olmayan işgüzar xanımlar vaxtlarını itirib, kiminsə onları lazımi yerə aparmasını gözləyirdilər. Bütün bu etiketlərin icrası zamanı guya qadın özünü daha feminin, kişi özünü daha maskulin hiss edir. Bəzən bunu *centlmen*liyin əlaməti kimi

qələmə verənlər də tapılır. Nəticə olaraq, özümüz də bilmədən stereotipləşmiş gender rollarımızın ifaçısına çevrilirik və seksizmə rəvac veririk.

**ABŞ-da genderləşmiş KİV**. **KİV-in gender rollarına təsiri**. İnsanların qadın və kişilər haqqında fikirlərinin formalaşmasında KİV-in rolu çox böyükdür. Tədqiqatda genderlə KİV-in münasibətindən, genderlərin KİV vasitəsilə təqdimatından və onların təsirindən formalaşmasından bəhs edilir. Qəzet, jurnal, komiks (şəkillər vasitəsilə ötürülən fikirlər), novella, CD və musiqi videoları vasitəsilə cəmiyyətə genderlər haqqında ismarıclar ötürülür. Elə bu təqdimatlar da genderlərin cəmiyyət tərəfindən necə qəbul edilməsinə təsir edir. Əlbəttə burada şəxsi seçim də rol oynayır və insanların hansı potensiala mənsub olmağının da rolu böyükdür. Reklam və şəkillər mədəni norma və dəyərlər haqqında əhəmiyyətli ismarıclar ötürür.

Məlumdur ki, eqalitar cəmiyyətin qurulması müasir demokratik cəmiyyətin prioritetlərindəndir. Eyni hüquqlu qadın və kişilərdən ibarət cəmiyyətin qurulub formalaşmasında KİV-in unikal və önəmli rol oynaması inkaredilməz faktdır. Bu bir həqiqətdir ki, qadınlarda hüquq anlayışı nə qədər çox olarsa, eqalitar cəmiyyət qurmaq da o qədər asan olar. Bu məqsədə çatmağın yolları insan hüquqlarının siyasi, psixoloji, sosial, iqtisadi, fəlsəfi mənada anlayışından keçir. KİV adı çəkilən sferalarda uğurla addımlamaqda insanlara yardım edir. Ümumiyyətlə, KİV-in nümayəndələri ilk növbədə mənsub olduğu dövlətin bu istiqamətdə qəbul etdiyi qanunlardan tam xəbərdar olmalıdır.

Yuxarıda söylənilənlər bütün cəmiyyətlər üçün keçərlidir, o cümlədən ABŞ-da cəmiyyətin demokratik yolla inkişafı üçün vətəndaşların əsas qarantı da elə dövlətin Konstitusiyasıdır. Bildiyimiz kimi, ABŞ Konstitusiyası qəbul edildikdən sonra ona 27 düzəliş əlavə olunmuşdur. ABŞ Konstitusiyasına ilk 10 düzəliş 1791-ci ilin dekabrında əlavə olunmuşdur və bu düzəliş bir çox fundamental vətəndaş azadlıqlarının təminatı rolunu

oynamışdır. Əlavə olunan Düzəliş "Hüquqlar haqqında bill" (qanun) adlanır. Həmin düzəlişlərdə vicdan azadlığı, söz və mətbuat azadlığı haqqında da qanunlar vardır (U.S. CONST., Amendment.I). Bu Düzəlişdə əsas məqsəd insan haqlarının qorunmasını təmin etməkdən ibarətdir, çünki bu olmadan heç bir uğurlu siyasi və sosial dəyişiklikdən söz gedə bilməz (Norman Smith, 1972:21-2).

ABŞ-da KİV və genderdən bəhs edəndə bu tədqiqata bir neçə aspektdən yanaşmaq vacibdir:

a) qadın və kişilər KİV-də hansı şəkildə təmsil olunurlar;

b) qadınların jurnalistika və reklamlardakı obrazları;

c) qadın maraqlarının KİV-də təmsili.

Dövlət və KİV-in gender bərabərliyin təminatında rolu çox böyükdür. Sosial və siyasi qurum hesab olunan KİV-in siyasi proseslərə və ictimai fikrin formalaşmasına təsiri çoxdur. İctimai şüurun formalaşması ilə KİV-in qarşılıqlı əlaqəsi sübut edir ki, eqalitar cəmiyyətin dəyərlərinin anlaşılması üçün demokratik və inkişaf etmiş KİV əsasdır. Eqalitarlığın əldə olunmasında çətinliklər varsa, bunun səbəblərini ilk növbədə KİV-də axtarmaq lazımdır:

a) cəmiyyətdə çətinliklər gender bərabərliyinin olmaması ucbatından olur;

b) KİV-in funksiyalarındakı çatışmazlıqlar bu bərabərsizliklərə təkan verə bilər.

Bugünkü mövcud texnoloji hakimiyyətin və sosial idarəçiliyin əsasında güclü və müasir KİV dayanır. Güclü və inkişaf etmiş KİV də nəhəng və dinamik biznesin bir növüdür. Bütün dövlətlərdə olduğu kimi, ABŞ-da da dövlət birbaşa və ya dolayısı ilə KİV-də "oyun qaydalarını" nəzarətdə saxlamaq üçün əlindən gələni etməyə çalışır. Elə dövlətdə gender bərabərliyi siyasətinin uğurlu əldə edilməsində də KİV bəzən dövlətin sifarişini yerinə yetirir. Beləliklə, KİV-də qadınlarla əlaqəli mövzuların necə əks olunması cəmiyyətdə demokratik ideyaların hansı şəkildə təzahür olunmasına bilavasitə təsir göstərir.

Amerika feminist yazıçısı Betti Fridan Amerika qadın jurnallarını təhlil edir (Ladies Home Journal, McCall's, Good Housekeeping and Woman's Home Companion) və özünün 1963-cü ildə dərc etdirdiyi "Qadın sirri" ("The Feminine Mystique") əsərində bu təhlilləri təqdim edir. Bu əsərdə o, qadının Amerika cəmiyyətindəki rolundan bəhs edir. Müəllif qeyd edir ki, II Dünya Müharibəsinə qədər, KİV-də qadınlar müasir, xoşbəxt və öz həyatını qurmağa çalışan biri kimi təsvir olunurdu. Bu qadınlar professional həyata maraq göstərən və müstəqil olmağa can atan qismində təqdim olunurdular. II Dünya Müharibəsindən sonra ABŞ-da KİV ənənəvi qadınları təbliğ etməyə başladı, əsl və əsil qadının xöşbəxtliyə gedən yolunun ev xanımlığından keçməsi ideyasını təbliğ edirdilər. Bu evdar qadınlar öz faydalı məsləhətləri ilə ərlərinə yardım edir və bununla da ailələrinin xöşbəxtliyini dəstəkləyirlər. KİV, gender və qadınliq identifikasiyası analıq və evdarlıq konsepsiyası ilə assosiasiya olunurdu. Bu da maskulinliyin femininlik üzərində üstünlüyü paradiqmasına təkan verirdi.

İnsanlar KİV-lə təmasda olduğu müddətdə fasiləsiz olaraq öz genderləri haqqında ismarıclar alırlar. KİV-in bütün növləri gender stereotiplərini insanların beyninə ötürür. KİV üç formada genderi təmsil edir. Birincisi, KİV-in təqdimatına görə, kişilər elə mədəni standartların özüdür və qadınlar əhəmiyyətsiz və görünməzdirlər. İkincisi, qadın və kişilər stereotipləşmiş şəkildə təsvir olunurlar və KİV qadınları daha az əhəmiyyətli gender olması fikrini dəstəkləyir. Üçüncüsü, qadınların söylənilən şəkildə təsviri onların ənənəvi rollarını gücləndirir və qadınlara qarşı tətbiq edilən zorakılıq normal hal kimi təqdim olunur.

KİV-də qadınların daha zəif gender qismində təqdim olunması onların cəmiyyətdə güclənməsinə mane olan ən əsas amillərdəndir. Bundan əlavə, KİV-də irqi ayrı-seçicilik də yer alır. Məsələn, televizor kanallarında gün ərzində qeyri-ağdərili qadınlar ağdərili qadınlarla müqayisədə daha az nümayiş etdirilir (Basow S. A, 1992: 159). Hətta uşaq proqramlarında da oğlanları

qızlardan daha çox göstərirlər.

Televizor və radio diktorlar arasında cəmi 16 % qadın var və ABŞ-da əhalinin yarısından çoxunun qadın olmasına baxmayaraq, KİV bu mütənasibliyi pozur. Tamaşıçılar az qala mədəniyyət standartların daşıyıcısının yalnız kişilərdən ibarət olmasına inanırlar.

Müasir dövrdə Amerika KİV-ində güclü qadın hüquqşünaslar, həkimlər, dövlət idarələrində yüksək vəzifələr üçün namizədliklərin irəli sürənlər tez-tez görünsələr də, hələ də onların sayı kişilərlə müqayisədə çox azdır. Təqdim olunan kişi-qadın xüsusiyyətləri çox fərqlidir. Belə ki, məşhur moda jurnalların üz qabıqlarında əsasən cəlbedici qadın şəkillərini görmək olar. Ümumiyyətlə, KİV-də qadın haqqında verilən məlumatın ciddiliyindən asılı olmayaraq, hər zaman onların xarici görünüşlərindən (saç düzümü, geyim stili və s.) daha çox bəhs olunur. Filadelfiya Templ Universitetinin Professoru Karalin Kiç belə yazır: "Yüz il də keçsə, yanaşmalar dəyişmir."

KİV-də bəzən hər hansı bir ciddi uğuru olan qadından məlumat veriləndə diqqəti onun qazandığı uğurlara deyil, onun tənha, karyerist olma fikrinə yönəltmək istəyirlər. KİV-in təsvirinə görə əgər qadının 50 yaşı var, həyat yoldaşı yoxdur və o yalnız öz karyerası ilə məşğuldursa, artıq bu qadın cəmiyyət üçün yararsızdır. Əmək fəaliyyətində uğur qazanan qadın daha çox müstəqil olur, güclü olur və gender bərabərliyinə meyilli olurlar (Newsweek, 2010).

**Televiziya şouları**. Amerikada belə bir deyim var, "*televizor kanalları maarifləndirici olmalıdır və əsas məsələ: onlar nəyi öyrədirlər?"* (Thompson, Theresa L. and Zerbinos, Eugenia, 1995: 415). Erkən yaşlarından televizora baxan uşaqların həyat haqqında təcrübələri olmadığı üçün, teleməkanlardan onlara ötürülən ismarıcların real olub-olmadığını anlaya bilmirlər və gördüklərini həqiqət kimi qəbul edirlər. Azyaşlı uşaqlar (2-12 yaş arası) cizgi filmlərini seyr edərkən özlərindən asılı olmayaraq onların xa-

rakterində gender stereotipləri formalaşır (Witt, Susan D., 1997: 254). Bu səbəbdən də cizgi filmlərindən təsirlənən uşaqlar orada təqdim olunan gender rollarını format kimi, həyat norması kimi qəbul edirlər. Tompson və Zebrinos (1995) 41 cizgi filmindən 175 epizod təhlil etmişlər. Onlar cizgi filmlərində qız (qadın) və oğlan (kişi) xarakterlərini təhlil edərkən belə bir nəticəyə gəlmişlər ki, xarakterlər ənənəvi maskulinliyi və feminlinliyi təbliğ edir. Müqayisə nəticəsində aydın olmuşdur ki, kişi xarakterlərin sayı qadın xarakterlərindən daha çoxdur.

Əksər hallarda, televiziyadakı verilişlərdə qadınlar üçün evlilik, valideynlik və evdarlığın çox önəmli olması fikri təlqin olunur, lakin kişilər üçün bu fikir o qədər də çox təbliğ olunmur.

1940-60-cı illər üçün mükəmməl qadınlar (ağdərili, orta sinif) evdar qadınlar hesab olunurdular və onları filmlərdə də bu şəkildə təsvir edirdilər. Bu qadınların evləri tərtəmiz, övladları sağlam, gözəl və nizam-intizamlı olmalı idi. Televiziyanın təqdimatı reallıqlara söykənmirdi, çünki bu illərdə qadınların 40 %-i ödənişli işlərdə çalışırdılar və müharibədən sonrakı dövrdə boşananların sayı xeyli artmışdı. 1975-ci ildə Cin MakNeilin araşdırmalarına görə, 74 % qadının əsas problemi həyatlarındakı romanlarla (kişi sevgililəri) və ailələri ilə əlaqəli idi, lakin yalnız kişilərin 18 %-in buna oxşar problemləri mövcud idi (Thompson, Theresa L.; Zerbinos, Eugenia, 2016). Qadınların iş həyatından, dominant xarakterindən, qərar qəbuletmə qabiliyyətindən deyil, onların ailə həyatından bəhs edən verilişlər çoxluq təşkil edirdi. İşdə başçı, demək olar ki, həmişə kişi olurdu. Kişilər qətiyyətli, aqressiv, macəra axtaran, qələbə çalmağı bacaran, fəal olurdu, qadınlar isə passiv, zəif, az effektli, biçarə, ikinci dərəcəli, gülməli təsvir olunurdular.

Belə ki, 1970-ci illərdə televizor verilişlərinin tənqidçiləri, elm adamları və aktiv qadınlar bu diskriminasiyanı qeyd etdilər və qadınların televizor verilişlərində iştirak faizini artirmaq qərarını verdilər. Aparılan sorğulardan bəlli olmuşdu ki, televizor

verilişlərində qadınların hansı şəkildə təsvir olunması qadınların xoşuna gəlmirdi. Onlar hesab etmirdilər ki, real həyatda qadınlar televizor verilişlərin təqdim etdiyi "deqradasiyaya uğramış beyinsiz gəlincik" kimidirlər. İlk dəfə Mary Tayler Moore Show-da qadın xarakteri fərqli şəkildə verildi. Buradakı qadın obrazı mərkəzi fiqur idi və söhbət onun sevgilisindən, ərindən deyil, qadının işindən və onun əmək fəaliyyətindən gedirdi. Bu artıq Amerikada yeni qadın obrazı idi. Belə ki, burada baş roldakı qadının romantik həyatı deyil, onun iş fəaliyyəti əsas götürülürdü. Qadın dürüst olmayan kişi ilə bir yerdə olmaqdansa, tənha olmağı üstün tutur, lakin yenə də stereotipləşmə mövcuddur, çünki qadın başçı və digər kişi iş yoldaşları ilə bərkdən danışmağa cəsarət etmir, işdə ənənəvi qadın işi görür (çap işi, kofe gətirmək). Digər bir televiziya verilişində yeni bir qadın xarakteri "Möcüzə qadın" (Wonder Woman) obrazı verilir. Artıq verilişlərdə qadınlar polis kimi təqdim olunur (Zeisler, Andi, 2008).

1990-cı illərdə televiziya verilişlərində artıq fərqli bir maskulinlik və femininlik müşahidə olunurdu. İndi qadın və kişilər münasibətlərində daha rahatdırlar, maskulinliyin və femininliyin neqativ tərəfləri deyil, xoşagələn tərəfləri təlqin olunur. Kişilər "həssas, xeyirxah, nəzakətlidirlər", qadınlar "ziyalıdır, lakin mükəmməl ev qadını deyillər". Bu xarakterlər əvvəlki obrazların xarakterlərindən fərqlidir və artıq ənənəvi ailə modelləri yerini daha müasir ailə modellərinə verir (Gauntlett, David, 2008). Müəllifə görə, artıq televiziya verilişlərində uğurlu peşəkar qadınlar təbliğ olunur.

İllərlə televiziya verilişlərində əyləncəli proqramlar dominantlıq edirdi. Reality Show qadın və kişi stereotiplərinin başqa tərəflərindən bəhs edirdi. Reality Show-da digər verilişlərdən fərqli məqamlar müzakirə olunur və bu vaxta qədər müzakirə üçün uyğun hesab olunmayan məsələlər tam çılpaqlığı ilə tamaşıçıya təqdim olunurdu. Bunlara "Keeping Up With the Kardashians", "Teen Mom 2", "Teen Mom OG", "The Bachelor/ The

Bachelorette" və "Jill and Jessa: Moving on" kimi verilişləri misal göstərmək olar. Lakin bu Reality Show-larda da daim gender stereotipləri gözlənirdi.

Amerikada qadın hüquqları və sosial proqresin əksini təbliğ edən verilişlərdən "The Bachelor-2015"-i misal göstərmək olar. Burada heteroseksual münasibətlərdə disbalans nümayiş olunur. Burada subay qadın və kişilər "qeyri-ənənəvi" yolla tanış olurlar, dörd ekstravaqant görüşdən sonra kiməsə vurulurlar, sonra şouya geri dönürlər və münasibətləri haqqında məlumat verib müzakirə edirlər. Bu zaman insanlar öz hiss və emosiyalarını, dərdlərini digərləri ilə bölüşürlər. "Mən uğursuzam... mənə nəsə olub... kimsə məni sevmir..." kimi kəlmələrlə özləri haqqında danışırlar. Bu proqramda qadınları elə təsvir edirlər ki, onlar yalnız yanlarında kişi olanda, xöşbəxt ola bilərlər. Verilişin rejissorunun təqdimatına görə, bütün subay qadınlar yazıqdırlar, nikah onlar üçün vacibdir, yalnız evliliklə onlar dürüst həyat tərzinə malik olurlar, ailəyə qayğı və ev yığışdırmaq qadınlara aid vəzifədir, ailələr o zaman yaxşı dolana bilərlər ki, orada kişi evə gəlir gətirir. Burada onlar əsasən ağdərili qadın və kişilərdən bəhs edirlər (14 sezon The Bachelor və 6 sezon The Bachelorette verilişində bir dənə də olsun etnik qrupdan iştirakçı olmamışdır). Bununla bərabər stereotipləri dəf etməyi təbliğ edən verilişlər ("*Revenge", "How to get away with Murder", "Scandal", "Nahville"* və *"Gilmore Girls*") də nümayiş olunurdu. Bu tip verilişlər 2000-ci illərdən sonra daha çox yayımlanmağa başlandı. Məsələn, Revenge verilişində qadınlar dominant, qəddar, yumor hissli, müstəqil xarakterli təsvir olunur. Digər qeyd etdiyimiz verilişlərdə də analoji təbliğat növləri mövcuddur. Bu şoularda artıq qadınlar ənənəvi ev qadını, kişisiz yaşamağı bacarmayan kimi deyil, güclü, müstəqil xüsusiyyətlərə malik olan varlıq kimi təsvir olunur. "Qadınların pozitiv təsviri onlara neqativ stereotipləri dəf etməyi təlqin edir". "*To Get Away With Murder*" şousunda seksual və münaqişəni sevən insanlar təsvir edilir və sirli qətlərdən bəhs olunur" ("*Strong female*

*portrayals eliminate negative effects of violent media*", 2012). Burada güclü qadın xarakteri təqdim olunsa da, qadınlar hələ də seksual obyekt olmaqdan qurtula bilmirlər.

**Cizgi filmləri**. Cizgi filmlərində qadınlar ciddi və ağır təbiətlidirlər. Kişilər lap yeniyetməlik dövrlərindən əzələli və enli kürəklidirlər və erkən yaşlarından artıq öz genderlərinə uyğun davranışa malikdirlər. Əksər cizgi filmlərində əsas qəhrəman hər zaman düzgün qərar verməyi bacaran kişidir. 1998-ci ildə cizgi filmlərində (*The Jetsons, Scooby Doo: Where are You? Jonny Quest: The Real Adventures, The New Adventures of Captain Planet*) qadın və kişi xarakterləri ilə bağlı bir araşdırma aparılır. Dörd müxtəlif cizgi filmində "dörd müxtəlif gender tipi müəyyənləşdirilir: maskulin kişi, qeyri-adekvat kişi, incə qadın və çox müasir qadın". Məsələn, "*Scooby Doo: Where are you*?" adlı cizgi filmində gənclər gözəl geyimli, maskulin xarakterli Fred tərəfindən idarə olunur və Fred bütün qərarları qrup adından özü verir. Şaqi də kişidir və əsas xarakterlərdəndir, lakin onun geyimi bərbaddır və heç bir hörməti yoxdur. Bu iki ziddiyyətli xarakter üzbəüz qoyulur və eyni cizgi filmində təqdim olunur. Lakin bu iki qəhrəman banda şəklində, birlikdə hərəkət edir və sirləri birlikdə açırlar (Eick, Kelly, 2016).

Amerikada "masculine" sözünün mənası Amerika cəmiyyətinin qəbul etdiyi stereotipləşmiş, yaraşıqlı, əzələli, konservativ stilli geyimi və saç düzümü olan "kişi kimi kişi" deməkdir. Qeyri-adekvat kişi yuxarıda söylənilənlərə uyğun gəlməyən kişilərdir. Bu tip kişilər zəif, qorxaq, fiziki cəhətdən dözümsüz və kişilər üçün mühüm olan bəzi xüsusiyyətləri çatışmayanlardır. Bunlar cizgi filmlərində də belə təsvir olunurlar. İncə qadın obrazı cizgi filmlərində gözəl fiziki quruluşlu, nərmənazik olur və o elə bir geyim geyinir ki, ənənəvi kişi işlərinin hamısını yerinə yetirə bilsin. Müasir qadın neytral dəbli geyim geyinir, bu cins və ya adi şalvar ola bilər, artıq incəbellilik burada o qədər də önəmli olmur (Yenə orada).

Xarakterlərin rollarına baxsaq, görərik ki, "dörd roldan üçü

əsl kişi xarakterli rollardır", yalnız bir roldakı kişinin xarekterində əsl kişilik müşahidə olunmur. Qadın xarakterləri də "əsl qəhrəman rollarıdır, lakin fəaliyyətlərində hər zaman olduğu kimi, onlar yenə də daha güclü kişilər kimi hərəkət edirlər və nə edirlər etsinlər, onların etdikləri kişilərin etdiklərinin yanında kölgədə qalır." Bununla bərabər cizgi filmlərində elə bir kişi xarakteri tapa bilməzsən ki, "onun etdiyi işlər *ənənəvi qadın işi* olsun".

Başqa bir araşdırmaya görə "həm qadın, həm də kişi xarakterləri stereotipləşmiş formada təsvir olunur. Qadın xarakteri ilə müqayisə etsək, kişi xarakteri daha parlaqdır və daha dinamikdir, onlar daha çox danışırlar" (Thompson, Theresa L., Zerbinos, Eugenia, 2016). Buna baxmayaraq, 1980-ci illərdən sonrakı cizgi filmlərində gender stereotipləri bir qədər yumşaqlığa doğru gedir.

**Kinolarda gender rollarında fərqlər**. 1950-ci ildən 1980-ci illərə qədər kinolarda qəhramanlar demək olar ki, kişilər olurdu və kişi xarakterlərində "ağıllı və çevik rollar təqdim olunurdu ki, bu da onları əsas məqsədə aparırdı, lakin qadınlar yalnız kişilərin sevgilisi və köməkçisi kimi rollarda iştirak edirdilər". Hətta qadın xarakterləri punktual və parlaq olsa belə, onlar aparıcı mövqedə olmurdular, əsas qərarları onlar vermirdi, kişilərin tabeçiliyində onlara yardım edirdilər. 1990-cı illərdən sonra kişi xarakterləri maskulin qəhrəman xarakterlərindən fərqlənir və 1980-ci illərdən sonra qadınlar sərt xarakterləri oynamağa başlayırlar (Gauntlett, David, 2008).

1950-ci illərdə "*High Noon*" (1952), "*12 Angry Men*" (1957), "*The Bridge on the River Kwai*" (1957), "*Rear Window*" (1954) və "*North by Northwest*" (1959) filmlərində kişi qəhrəmanlar qərar qəbul edirlər, aparıcı mövqedədirlər və pozitiv, qətiyyətli, dominant xüsusiyyətləri ilə fərqlənirlər. Lakin qadınlar qorxaq, ürkək- baxışlı, qətiyyətsiz, müdafiəyə və yol göstərməyə ehtiyacı olan, sevilən və tabeçi xarakterləri canlandırırlar (Yenə orada).

Bu qəhrəmanlar 1980-ci illərin qəhrəmanlarından fərqlənirlər, onlar maskulinliyin göstəricilərinə sadiq qalıb, "ənənəvi, dövlətçiliyi qoruyan, çevik düşüncəli", qadınlar isə tam əksinə,

"*qətiyyətsiz, lakin gözəl*" xarakterləri canlandırırlar. "*Some Like it Hot*" (1959) filmində (baş rollarda Tony Kurtis və Cək Lemmon), qəhrəmanlar banditlərdən canlarını qurtarmaq üçün geyimlərini dəyişirlər "dövrün gender rollarına uyğun" xarakterlərini canlandırırlar (Yenə orada).

1960-cı illərdəki filmlərdə gender rolları əvvəlki onillikdəki gender rollarından heç bir xüsusiyyəti ilə fərqlənmir. Qadınlar evdar qadın xarakterlərini, kişilər zəkalı, qətiyyətli, ənənəvi kişi xarakterlərini canlandırırlar.

Filmlərdə xarakterik gender rolları 1970-ci illərdən başlayaraq dəyişməyə başladı, məsələn, "*Star Wars Franchise*" (1977) filmində şahzadə Leya xarakeri ilə canlanma başlayır. Şahzadə Leyanın rolu daha fəal xarakterlidir və onun kişi qəhrəman tərəfindən qaçırılıb xilas olmağa ehtiyacı vardır.

"*Alienfranchise*" (1979) filmindəki Ellen Ripli xarakteri də canlı, aktiv xarakterlər silsiləsindəndir. "*Woody Allen*" (1977) filmində Anni Hol və Manhattan rollarında zəkalı və kişi tabeçiliyində olmayan qadın xarakteri canlandırılır. Digər popular filmlərdə Lois Lane ("Superman", 1978) hələ də ənənəvi qadın rolunu canlandırırdı. "*The Rocky Horror Picture Show*" (1975) filmində gender rollarının təqdimatında dəyişiklik nəzərə çarpır. Dr. Frank N. Furter xarakteri (Tim Kari oynayır) əvvəlki filmlərdəki gender rollarından çox fərqlənir.

1990-cı illərin filmlərində kifayət qədər qeyri-ənənəvi xarakterli kişi rolları var, məsələn, "*The Rock*" (1996), "*Air Force One*" (1996) və "*Batman Begins*" (2005) filmləri buna misal ola bilər (Gauntlett, David, 2008).

Belə ki, 1990-cı illərdəki filmlərlə 1980-cı illərdəki filmlər arasında baş rollarda oynayan xarakterlərdə yetərincə fərqlər hiss olunmağa başladı. 1980-cı illərdəki xarakterlər daha skeptik, daha darıxdırıcı, problemlərin həlli yolunda zorakılığın istifadəsinin yanlış olduğunu düşünən qəhrəmanlar idi. Qadın xarakterlərində də ["*The Matrix*" (1999), "*X-Men*" (2000) və "*Mummy Returns*"

(2005)] “az və ya çox güc bölgüsü” nəzərə çarpırdı.

**Reklamlarda gender aspektləri**. KİV kişiləri qadınlardan daha çox təqdim etdiyi üçün cəmiyyətdə hələ də kişilərə daha çox hörmətlə yanaşılır. Qadınlar ən çox kosmetika, ev əşyaları və təmizlik vasitələrinin satışı məqsədilə reklama cəlb olunurlar.

Bu məqsədlə daha çox gözəl xarici görünüşlü, cavan və bacarıqlı qadınların bəxti gətirir. Bəzən səhnələrdə dolayısı ilə qadınları aşağılayan yumorlardan istifadə edirlər, xüsusilə mövzu elm və texnika olduğu zaman qadınların hər zaman kişilərdən asılı təqdim edirlər, qadınların ağıllı kişi məsləhətinə ehtiyacları olur.

Gender reklamları haqqında tədqiqat aparan Kanada-Amerika mənşəli antropoloq Ervinq Qofman reklamlarda təqdim olunan fərqli gender rollarını təhlil edir. Qofman 500 reklam təhlil etmişdir və reklamlardakı gender rolları haqqında verilən simvolik ismarıclar və gender stereotiplərindən bəhs edir (Goffman, Erving, 1979).

Mətbəx və evdarlıqla bağlı reklamlarda qadınların məziyyətləri deyil, onların seksual xüsusiyyətləri qabardılır. Qadınlara olan baxışlar XIX əsrlə müqayisə olunur, hələ də onların gözəlliyi, evdarlığı önə çıxarılır. Reklamlar hər zaman izləyicilərə bir ismarıcı ötürürlər, onlar gözəl olmağa çalışmalı, qayğıkeş ana və həyat yoldaşı olmağı bacarmalıdırlar. Çox az halda qadınların gücündən, ağlından, elmindən bəhs edən reklama təsadüf etmək olar. Qadınlar kişilərdən asılı, zəif, kişilər isə çevik, bacarıqlı, müstəqil fikirli insanlar kimi təqdim olunurlar.

Komersantlar qadın bədənin təsvirindən istehlak etdikləri malı satmaq üçün istifadə edirlər. Ferrari və Lamborgini avtomobillərin satışı zamanı gözəl qadınlardan istifadə olunur, onlar öz gözəlikləri ilə müştəriləri cəlb edir və onlara baxan müştərilər onlarla bərabər avtomobilləri də görürlər. Digər bir reklamda dənizkənarı istirahət mərkəzlərini reklam edirlər və qadınlar bikinidə günəş vannası qəbul edirlər və ya hər hansı bir içkini də bu şəkildə reklam edirlər.

Reklamlarda qadın və kişilərin funksiyaları fərqli olur. Onlar reklamda mərkəzi fiqur olur və qadın onu müşayiət edir. Kişilər qadınlara nisbətən daha güclü və əhəmiyyətli funksiya daşıyan reklamlarda oynayırlar. Başqa bir maraqlı məqam da reklamların səsləndirilməsi zamanı daha çox kişi səslərindən istifadə olunması faktıdır. Reklamlardakı səslərin müəlliflərinin 85 %-i kişilərdir. Çox vaxt kişi və qadın birlikdədir, lakin qadın yalnız gülümsəyir, kişi isə mərkəzi fiqur kimi satış üçün nəzərdə tutulan malı qətiyyətli səslə təqdim edir. Heç bir zaman qadınla kişi eyni cür dəyərləndirilmir (Whipple, T. W., Courtney, A. E., 1980: 53).

Kişilər bəzən bir reklamda iki işi icra edir və onlar həm dinamik, həm də çox aktivdirlər. Onlar məhsulu istifadə etmir, onun haqqında məlumat verirlər. Məhsulun istifadəsi qadınlar tərəfindən icra olunur. Reklamlarda kişilərin iştirakı qadınların iştirakından fərqli olur. Onlar daha bahalı, daha ciddi məhsulların reklamında iştirak edir, məsələn, spirtli içkiləri, bank xidmətlərini, kredit kartlarını və ya maşınları təqdim edirlər. Avtomobillərin satışı reklamlarında qadınların da iştirak etməsinə baxmayaraq, onlar passıv şəkildə avtomobilin yanında dayanır, kişilər isə avtomobilin texniki üstünlüklərindən məlumat verirlər. Məsələn, belə reklamlara tez-tez təsadüf olunur, kişilər hər hansı bir idmanla məşğul olmaqla həmin idman növünü təqdim edir, yeni avtomobili cazibədar bir qızın başına dolanmaqla idarə edir, avtomobili təmir edir, içki içir, dincəlir və ya zarafat edir (Bartos, R., 2000).

1964-cü ildə Helen Gurli, Kosmopolitan jurnalının redaktoru vəzifəsinə təyin olunur və bu kənardan “güclü seksual identifikasiyanın təsdiqi” təsiri bağışlayır. Bu jurnalın oxucuları yeni nəslin nümayəndələridir və yeni dünyadan çox şey əldə etmək istəyirlər. Kosmo qadınlara fərqli həyat tərzi təklif edir, qadınlar əvvəllər radikal kimi görünürlər, lakin onlara zövq verən şeylərdən açıq danışa bilərlər və həyatlarında lazımı dəyişiliklər etməyi bacarmalıdırlar: əlbəttə, bu fikir bir az qeyri-adekvat səslənə

bilər "*heç də bütün kişilərin hamısı hörmət sahibi deyildilər*". Əslində, ismarıc heç bir kişinin yalnız kişi olduğuna görə hörmət sahibi ola bilməməsidir, çünki o, bu hörməti öz davranışı ilə qazanmalıdır ("*Doing It Wrong: Gender Roles and the Message of Inadequacy in Women's Magazines*", 2016). Digər jurnallar da qadının gender normalarına (ev təmizləmə, uşaqlara qayğı, tikiş tikmə, toxuma və sairə) diqqət yönəldir. Bugünkü jurnallar əsas diqqəti qadın quruluşunun üzərinə qoyur. Bəzi keyfiyyətlərin hər iki genderə aid olması barədə yazırlar, məsələn, KİV-də hər iki genderin seksual obyekt kimi, dəb, gözəllik üçün istifadə olunması, məsələləri müzakirə olunur. Məsələn, Viktoriya Sekret modellərin bədən quruluşlarına hədəfləndiyi mövzular da bu gün çox aktualdır. "2011-ci ildə Amerika Tibb Assosiasiyası (ATA) modellərin təsvirinin dəyişilməsini mühakimə edir". ATA-ya görə, "hər hansı bir bədən təsvirin dəyişik, qeyri-real şəkildə təqdim etmək, uşaq və yeniyetmələrdə qeyri-adi gözləntilər əmələ gətirə bilər" (DeFrancisco, Victoria Pruin; Palczewski, Catherine Helen, 2014: 237). Viktoriya Sekretin reklam etdiyi modellər ağdərili olmayan etnik qrup qadınları idi və çox vaxt onların geyimləri "cəngəlliklər geyimi" kimi təqdim olunur və bu da irqçi və təhqiramiz təsir bağışlayır. Onların üzləri icmalardakılar kimi bəzədilir və rənglənir (Edwards, Jim, 2010). Modellərin üzünün gizlədilməsi Viktoriya Sekretin qanunsuz reklam etməsi kimi anlaşılmalıdır, çünki bu şəkillər həmin modeli insanlıqdan çıxarır və onu bir obyekt kimi təqdim edir. Reklamlardakı qadın modellərin bədənləri çox vaxt kişi baxışı ilə təqdim olunur, yəni kişilər onlara uzaqdan razılıqla baxır və model bu şəkildə təqdim olunur. Bu modelin hər bir hərəkəti, geyimi, duruşu seksual olmalıdır ki, kişilər razı qalsın, çünki əsas pul xərcləyən onlardır. Məsələn, belə bir reklam carxi təqdim olunur, qadın yeni geyim geyinib güzgünün qarşısında durur və uzaqdan bir kişi heyranlıqla onu seyr edir. Bu baxışın hədəfi olan qadın özünü pis hiss edir və bu baxış kişi haqqında da neqativ fikir formalaşdırır. Belə çixir ki, kişilər nəfslərinə sahib

çıxa bilmirlər, qadınlara insan kimi baxa bilmirlər, onlar kişilər üçün obyektdirlər və bu da stereotipləşməyə səbəb olur. Bununla da, qadın insandan daha çox seksual obyekt kimi təqdim olunur.

Belə reklamlar qadınlara nə qədər ziyan vurursa, elə kişilərə də o qədər zərər verir. Reklamlarda təkcə qadınlar seksual obyekt kimi istifadə olunmurlar, reklamda elə kişilərdən də bu məqsəd üçün istifadə olunur. Bəzən həm kişi, həm də qadının bütün bədəni deyil, bədən üzvü reklam üçün istifadə olunur. Bu da onları insan olmaqdan kənarlaşdırır və onların bir obyekt kimi istifadə olunması üçün şərait yaradır. Bu təkcə reklamlarda deyil, filmlərdə, musiqi kliplərində, video oyunlarında və kitablarda da bu şəkildə təqdim olunur və bununla da, müasir kişiliyin sosial konstruksiyası təlqin edilir. Bəzən hər hansı bir əşyanın satışı üçün qadınlardan xoş olmayan bir şəkildə istifadə edirlər. Kişilərə qadınların xoşuna gəlmək üçün onlara nəyi hədiyyə etməyi məsləhət görürlər. Hətta qadınlara xoş gəlmək üçün yataqda necə olmağı, hansı idmanla məşğul olmağı, hansı içkini içməyi, hansı avtomobili idarə etməyi də məsləhət verən reklamlar olur.

**Gender neytral dil uğrunda**. Siz KİV-in təqdim etdiyi ciddi xəbərlərin arasında qadınla bağlı ciddi məsələlərin müzakirəsinə tez-tezmi rast gəlirsiniz? Əlbəttə, yox. Belə təqdimatlar qadın və kişilərin davranışına və onların özləri haqqındakı təsəvvürlərinə çox neqativ təsir edir. Bir məsələni daha əminliklə qeyd edə bilərik ki, əgər KİV qadın və kişiləri ənənəvi rollarda təqdim etmə üsulundan imtina edə bilsəydi, o zaman bu mövcud gender stereotiplərini dəf etməkdə əvəzolunmaz, müstəsna rol oynayardı. Əgər KİV qadını, siyasətdə sözünü deyə bilən, dövlət səviyyəsində qərarların qəbulunda sanballı çəkisi ola bilən, ən azı reklam agenti işində qabiliyyəti ola bilən kimi təqdim etsəydi, bəlkə də, sözügedən məsələlərdə pozitiv nəticələr əldə edilərdi. KİV hər hansı bir məsələnin təqdimatında bir gender üçün vəkil (kişi), digər gender üçün aponent (qadın) qismində çıxış etməməlidir. Ən yaxşı halda, seksist məzmunlu reklamların təqdim etdiyi məhsulların alışına boykot edilməlidir.

Feminist linqvistikanın nümayəndələri öz fəaliyyətlərində həm seksist söz və anlayışların gender neytral terminlərlə əvəz olunmasına, həm də qadınlığın və qadının dildəki pozitiv imicinin qaytarılmasına nisbətən nail olublar. Feminist linqvistika problematikası ilə məşğul olan tədqiqatçılar belə nəticəyə gəliblər ki, dildə islahat qadınların linqvistik hüquqları uğrunda mübarizə meydanı olmalıdır. Bəzi feministlərin fikrincə, ümumiyyətlə, cəmiyyətin androsentrikliyinin azalması və bunun dilə təsiri səbəbindən dildə yeniliklər baş verib. Bu istiqamət, dil və genderin onda əks olunması problemini (leksik, sintaksis, cins kateqoriyası), kişi və qadınların nitq davranışını öyrənir.

İngilis dilli ölkələrdə dildəki seksizmdən qaçmaq üçün dildə müəyyən qədər dəyişikliklər edilmişdir. Məsələn, peşə adlarındakı seksizmdən qaçmaq üçün neytral əvəzedici sözlərdən istifadə olunur.

*She/he-they;*
*Shairman – coordinator, moderator;*
*Businessman-businesswoman – businessperson;*
*Mailman – mail-carrier;*
*Policeman-policewoman – police officer;*
*Cavemen – cave dwellers, prehistoric people və s.*

Ailə vəziyyəti ilə əlaqəli qadınlara olan fərqli müraciətlərə baxmayaraq, “Mr.” subay və ya evli olub-olmamasından asılı olmayaraq bütün kişilərə şamil olunan müraciət formasıdır. Soyadın qarşısında istifadə olunan “Mrs.” – ərli qadın, “Miss.” – ərə getməmiş qadın anlamına gəlir. Son dövrlərdə istifadə edilən “Ms.” – xanımın ərdə olub-olmamasını əks etdirməyən müraciət formasına rast gəlinir. Lakin bu müraciət forması o qədər də geniş yayılmadı. Fransa hökuməti bu yaxınlarda “madumazel” sözünü qadınlara qarşı diskriminasiya elementi daşıdığına görə rəsmi müraciətlərdən çıxarmaq haqqında sərəncam verdi.

Yuxarıda qeyd edildiyi kimi kişi-qadın üçün istifadə olunan üçüncü şəxsin təkini (he or she) əvəz etmək üçün hər ikisinin əvə-

zinə ya uçuncü şəxsin cəmi (they) istifadə olunur və ya felin məchul növü də istifadə üçün məqbul hesab olunur.

Ümumiyyətlə, ingilis dilli ölkələrdə feminist tədqiqatçıların aparmaq istədikləri islahatlar aşağıdakı istiqamətdədir:

* seksist sözləri gender-neytral sözlərlə əvəz etmək;

* dildə qadınla bağlı sözlərin imicinin pozitiv mənada anlamına çalışmaq.

Fikrin insanlara sözlə və ya sözsüz çatdırılmasından asılı olmayaraq, dildəki seksizm öz işini görür, insanlara qadın-kişi rolu haqqında ismarıclarını ötürür. Bu ismarıclar hər zaman bizimlədir, anadan olandan ta dünyamızı dəyişənə qədər. Ötürülən ismarıc zəif, kobud, asan, çətin qəbul edilən də ola bilər. Bir şey aydındır, dil və söz ifadə etmə üslübları insanların davranışını bütün həyatı boyu müşayiət və təsir edir. Nəhayət, bir daha əmin oluruq ki, dil sosiallaşmağımıza, ictimailəşməyimizə təsir edən birbaşa amildir.

Hər bir insan özündən başlayaraq, ünsiyyət prosesində qeyri-seksist dildən istifadə vərdişini aktivləşdirməlidir. Dil, KİV və ədəbi janrlar təqdim etdikləri seksist kəlmələri reallıq kimi konstruksiya etmələrindən imtina edə bilmirlərsə, o zaman ən azı gender balansının tənzimlənməsini istəyən insanlar, əsasən, qadınlar bunun əksini – yəni qeyri-seksist təqdimatı reallıq kimi konstruksiya olmasına hər vəchlə yardım etməlidirlər. Fikrimi XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri - ədib, filosof Əli bəy Hüseynzadənin dediyi “*Gözəl danışmağın sirri lazımsız sözləri tərk etməkdir*” deyimi ilə tamamlamaq istəyirəm. Hesab edirəm ki, seksist kəlmələr elə ədibimizin söylədiyi lazımsız sözlər qismindəndir.

## Ədəbiyyat:

**İngilis dilində**

1. Bartos, R., "*Women as Advertising Target*", in J. Jones, International Advertising, USA: Sage Publications, 2000, pp. 103-117
2. Basow S. A, "*Gender Stereotypes and roles",* 3rd ed., Pacific Grove, CA: Brooks/Cole., 1992 p.159
3. Deborah Tannen, "*You Just Don't Understand: Women and Men in Conversation*", Harper Collins, Jul 24, 2001, Psychology, 352 p-s
4. DeFrancisco, Victoria Pruin; Palczewski, Catherine Helen, "*Gender in Communication*", Los Angeles: SAGE, 2014, p. 237
5. "Doing It Wrong*: Gender Roles and the Message of Inadequacy in Women's Magazines*", Sociology of Sexuality, mkopas.net. Retrieved 2016-05-09
6. Edwards, Jim, "*Victoria Secret Relegates Black Models to Tribal Skit*", CBS, December 8, 2010
7. Eick, Kelly, "*Gender Stereotypes in Children's Television Cartoons*", Cal Poly Magazine, Retrieved 28 February 2016
8. Gauntlett, David, "*Media, Gender and Identity: An Introduction*", 2nd edition, Routledge, 2008
9. Goffman, Erving, "*Gender Advertisements*", (Revised ed.), Harpercollins College Div., 1979
10. Norman Smith, "*Freedom of the Press, Is a Public Freedom, Not Just a Press Freedom*", Seminar, Q., Sept. 1972, at 15, 21-22
11. Robin Lakoff, "*Language and Woman's Place*," in "*Language in Society*", Vol. 2, No. 1, Cambridge University Press, 1973, Pp. 45-80
12. *"Strong female portrayals eliminate negative effects of violent media* ", Washington, DC, August 27, 2012.

13. "*The Bear Truth: Will the 'Mama Grizzlies' Really Protect America's Kids?*" (cover story), Newsweek, September 2010
14. Thompson, Theresa L. and Zerbinos, Eugenia, "*Gender roles in animated cartoons: Has the picture changed in 20 years?*" Sex Roles *: A Journal of Research*, 32: 1995, Pp. 651- 674
15. U.S. Constitution, Amendment, I
16. Witt, Susan D., "*Parental Influence on Children's Socialization to Gender Roles, Adolescence* ", 1997, p. 254
17. Whipple, T. W., Courtney, A. E., "*How to Portray Women in TV commercials*", Journal of Advertising Research, 1980, 20 (2): 53

# VII FƏSİL

## ABŞ-da din və gender

Ədəbiyyatlarda dinin fərqli-fərqli təsnifatlarına təsadüf olunur. Ərəb dilindən tərcumədə din - əvəz, cəza, adət, itaət, hal və şəxsiyyət, hesabat və s. mənalari özündə ehtiva edir. İlahiyyatçıların fikrinə görə, din - insanları duzgun yola yönəltmək, "*dünya və axirət səadəti*"nə çatdırmaq üçün Tanrının öz peyğəmbərləri vasitəsilə elan etdiyi etiqadi prinsip, əxlaqi norma və əməli qaydalarin məcmusudur. Başqa sözlə, "hər din bir həyat tərzidir və hər həyat tərzi bir dindir". İslami dəyərlərə görə, dinin tərifini versək deyə bilərik ki, "din yaradanla insanların və insanlarla bütün yaradılmışların münasibətlərini tənzimləyən sistemdir". Bu sistem, insanın dünyada yaşadığı müddətdə həyatını insanlarla, toplumlarla, təbiətlə, nəfs və şeytanla, qayda və hökmlərlə nizamlayır.

Müasir dünyamızda dinlərin insan övladının ruhuna, mənəviyyatına təsiri az deyildir. Dünyəviliyin inkişafı prosesində cəmiyyətdə Tanrıya inananlarla, inanmayanlar arasında, ənənəvi dinlə, dində islahat aparmaq istəyənlər arasında bir gərginlik yaşanmaqdadır. Bəzilərinə görə, müqəddəs kitablarda yazılanlar o dövr üçün nəzərdə tutulduğundan bu günümüzlə uzlaşmır. Bir qrup insanlar isə belə fikirləşirlər ki, din hər zamana uyğun gəlir, çünki dini insanlara töhfə edən uca Tanrı uzaqgörən olmuş və dini kitablarda yazılan qaydalar hər dövrü səciyyələndirdiyinə görə, bu qaydalarda heç bir dəyişiklik etməyə ehtiyac yoxdur. Bütün bunlarla yanaşı, sekularizasiyanın (dinin sosial və mədəni əhəmiyyətini itirdiyi tarixi prosesdir) inkişafı ilə əlaqədar olaraq, ənənəvi dində ənənəçiliyə üstünlük verənlərlə dində radikal də-

yişikliklər etmək istəyənlər arasında gərginlik hələ də səngimək bilmir. Elə bu səbəbdən də ilahiyyatda, dini qaydalarda islahat etməyə cəhd edənlər cəmiyyətdə çox ciddi müqavimətlə üzləşirlər.

**Dinin gender aspektləri**. Genderşünaslıq elminə qədər din bir çox elmlərin tədqiqat predmeti olsa da, bu yeni elm sahəsi dinə tam başqa bir rakusdan, dinin gender fərqlərinə görə insanlara münasibəti baxımından yanaşır. Dinin qadınlara olan münasibəti bir növ cəmiyyətdəki sosial iyerarxiyaya təkan verir. Belə bir fikir formalaşmışdır: "Din qadınları sevmir, göründüyü kimi, burada qadınlar üçün nəzərdə tutulan qaydalar daha sərtdir".

Elə bil ölkələrin mənsub olduğu bütün maddi-mənəvi resurslar insanlara qadın və kişi olduqlarını nəzərə alıb, genderinə görə bölünüb paylanmışdır və sözsüz ki, bu zaman çox şey kişilərə verilmiş, qadınlara isə kişilər istədikləri qədər *pay* vermişlər.

İstər *qadın*, istər *gender*, istərsə də *din* kateqoriyaları çox böyük bir sahəni əhatə etdiyi üçün son zamanlar bu məsələlər tədqiqatçıların diqqət mərkəzindən yayınmır. Əslində, din insanlar üçün nədir? Sadə dillə ifadə etsək, din mənəvi və əxlaqi dəyərləri özündə ehtiva edən mədəni sistemlərin, yəni inam sistemi və dünyagörüşü toplusunun yaratdığı simvollardır.

Burada müzakirəyə çıxarılacaq məsələlərdən bir çox elmlərdə (sosiologiya, fəlsəfə, psixologiya və s.) bəhs olunur. Düzdür, bu mövzu müxtəlif ölkələrin, müxtəlif mədəniyyətlərin prizmasından müxtəlif üsullarla interpretasiya olunur və hər dəfə də situasiyaya uyğun olaraq yeni məsələlər gündəmə gətirilir. Dinin gender aspektindən tədqiqi nisbətən yeni, amma kifayət qədər maraq kəsb edən bir sahə olduğundan anlamanın, düşüncənin, fəaliyyətin yeni bir üsulu kimi təqdim olunur. Uzun illər ABŞ-da ilahiyyat elmində, dində gender məsələləri alimlər, tədqiqatçılar üçün demək olar ki, mövcud olmamışdır, olubsa da, kişi tərəfkeşliyi ilə müşayiət olunmuşdur.

Genderşünaslıq dinə öz rakusundan nəzər salır, çünki dində də qadın və kişi münasibətlərindən bəhs olunur, *qadınlıq* və *kişi-*

*lik* statuslarına fərqli baxışlar təqdim olunur. Dini qurumlar güc resurslarının bölünməsində genderlər arasında diskriminasiyaya göz yumurlar və bu fərqli yanaşma, sosial iyerarxiya kişilərin xeyrinə olur.

Hər bir sahədə eqalitarlığı, gender bərabərliyini əlində əsas tutan feminist alimlərin bu sahəyə də baxışları kifayət qədər fərqlidir. Bəzən dini kitablarda yazılanları yetərli qədər kişi tərəfkeşliyi ilə müşayiət edən qeyri-feminist tədqiqatçı alimlər bu ideaları yanlış şəkildə insanlara təqdim etmişlər, yəni düzgün şərh etməmişlər. Feminist alimlər bütün ilahiyyatçıları obyektivliyə çağırır və dində bəhs olunan bir çox məsələlərə yenidən ədalətli şəkildə nəzər salmağı tövsiyə edirlər.

**ABŞ-da din və gender tarixi perspektivdən**. ABŞ Konstitusiyasının elə birinci düzəlişində dinin dövlətdən ayrı olduğu qeyd olunur. Bu düzəlişdə dövlətin din tərəfindən idarə olunmasına qadağan qoyulur. Heç kəsə sirr deyildir ki, mövcud dinlərin hər birində kişilərin qadınlardan üstün olması fikri dəstəklənir. ABŞ-da da dinə nəzər salanda məlum olur ki, din qadınlara ana və həyat yoldaşı xaricində bir önəm verməmişdir. XIX əsrdə qadınlar dini məktəblərdə təhsil alırdılar, kilsədə və digər dini qurumlarda işləyən ərlərinə pulsuz yardım edirdilər. Çox az sayda qadın belə məkanlarda rəsmi şəkildə çalışa bilirdilər.

Düzdür, Amerika hökuməti ölkədə rəsmən dini statistika aparmır, lakin aparılan sorğulara görə, ABŞ-da 83 % əhali özünü xristian hesab edir. 13 % əhali heç bir dinə mənsub olmadığını qeyd edir, 4 % əhali digər dinlərə mənsub olduğunu söyləyir (Rosemary Skinner Keller and Eds., 2006).

ABŞ-da bütün önəmli sferalarda gender konflikti olduğu kimi, dini sferada da bu mövcuddur. General Social Survey təşkilatı tərəfindən aparılan sorğuların nəticələrinə görə, Amerika qadınların 60 %-i, kişilərin isə 47 %-i həyatlarında dinin çox önəmli yer tutduğunu söyləyirlər. Demək olar ki, dini inanclara sahib olan insanların əksəriyyəti dini ayinləri yerinə yetirmək üçün

ölkənin dini məkanlarına gedirlər, lakin qadınlar bunu kişilərdən daha səliqəli şəkildə yerinə yetirirlər.

General Social Survey təşkilatının apardığı sorğulara görə, son illərdə qadınlar arasında dini ayinləri yerinə yetirmək üçün dini məkanlara gedənlərin sayında azalma müşahidə olunur. Bunun da başlıca səbəbi qadınların əksəriyyətinin ödənişli iş yerlərində çalışmalarıdır.

XIX əsrdə "ailə həyatı kultu" çox güclü idi və ailəsinə qayğı göstərən və mükəmməl analıq missiyasını yerinə yetirənlər əsl qadın hesab olunurdular. İdeal və əsl qadın evi həyat yoldaşı və uşaqları üçün müqəddəs məkana çevirirdi. Xristian evləri Tanrının icazə verdiyi qaydalara uyğun olmalıdır, xristian qadın analığın ən uca zirvəsində duran şəxs olmalıdır. Dini qurumlarda xidmət edən kişilərin həyat yoldaşları hər sahədə (kilsələrdə dərs deməklə, xəstələrin evinə baş çəkməklə, xeyriyyəçiliklə, kilsənin təşkil etdiyi proqramları yerinə yetirməklə və s.) onlara yardım edirdilər. 1810-cu ildə Andover İlahiyyat Seminariyasında (Andover Theological Seminary) xarici işlər üzrə Amerika şurası adlı təşkilata xeyriyyəçilik missiyasını həyata keçirməyi həvalə edirlər. Daha sonralar protestant seksiya öz missioner təşkilatlarını təsis edir və təşkilat üzvlərini yardım məqsədilə Cənub-Şərqi Avropaya və Asiyaya göndərirlər. Bu təşkilatda missionerlərin arasında çoxsaylı subay və çox az sayda evli qadınlar var idi. Bəzi kişi missionerlərinə yol yoldaşlıq edən həyat yoldaşları hətta bu məşəqqətli səfərlərdə ölürdülər. Onların adlarını əbədiləşdirməkdən, digərlərinə örnək olmaqdan ötrü bu qadınların haqqında xatirələr yazılır. Meta Lander də Henrita Hamlin adlı belə bir qadın haqqında yazır. O xatirələrində yazir ki, ərinə yardım məqsədilə onunla bərabər Türkiyəyə gedir: "O, ilk Amerika *missioner bacısı* haqqında çap etdirdiyi bioqrafiyada bu qadının etdiyi fədakarlıqdan bəhs edir və onu Amerika qadınlarına örnək göstərir" (Meta Lander, 1854:13).

XIX əsr qadınları artıq evdən kənar fəaliyyətlərində də fərqlənirdilər və bəzi xeyriyyəçilik missiyalarında fəal iştirak edirdilər. Məsələn, Nyu York şəhərinin sakini İzabella Qraham 1800-ci illərdə xeyriyyəçilik işlərində çox vacib simalardan biri idi. Elizabet Seton ilk amerikalı qadın idi ki, Müqəddəs Cozef Bacılar Xeyriyyəçilik cəmiyyəti adlı dini cəmiyyətin bünövrəsini qoymuşdu. Bundan əlavə, həmin dövrlərdə Abiqail Roberts və Carena Li də daxil olmaqla, bir neçə qadın vaiz kimi fəaliyyət göstərirdi. Bununla da, əsrlərlə kişi dominantlığı ilə müşayiət olunan peşələrdə az da olsa, qadınlar görünməyə başlamışdı. Hazırda Filadelfiya Kitabxana Şirkətində belə qadınlardan bəhs edən kitablar saxlanılır. Həmin universitetin şəkil qallereyasında tarixdə dini fəaliyyəti ilə örnək ola biləcək qadınların portretləri vardır. Belə qadınların fəaliyyətlərindən bəhs edən kitabların yazılmasında əsas məqsəd xristian qadınlarında xeyriyyəçiliyə maraq oyatmaqdan ibarətdir (Charles H. Lippy, Peter W. Williams, 2010).

ABŞ-da son illərə qədər qadınlara rəsmi dini işlərdə çalışmağa icazə verilmirdi. Bütün dünyada olduğu kimi, Amerikada da qadınlar hər zaman dini mədəniyyətin daşıyıcısı qismində fəaliyyət göstərmişlər. Hətta Amerika aktivist qadınların arasında dini inanclarla motivə olub siyasi islahatlar aparmaq üçün yola çıxanlar da olmuşdur. Buna misal olaraq, Amerika qadın abolişinistlərini göstərmək olar.

1800-ci illərin əvvəllərində ağdərili, hətta qaradərili xristian və yəhudi mənşəli qadınlar bir neçə dini məktəb və xeyriyyəçilik təşkilatı açmışdılar. Elə bu məktəb və təşkilatlar vətəndaş hərəkatlarına təkan vermişdi. 1860-cı illərdə vətəndaş hüquqları hərəkatı uğrunda yola çıxan Afro-Amerika qadınları güclərini bu təşkilatlardan almışdılar. Yəni dini məkanlar tarixən təkcə dini ayinləri yerinə yetirmək üçün deyil, həmçinin siyasi məsələləri müzakirə etmək üçün də istifadə olunmuşdur.

Amerikanın din tarixinə nəzər salanda, yuxarıda toxunulan

məqamlara tez-tez təsadüf olunur və dini fəaliyyəti ilə seçilən ilklər aşağıdakılardır:

* 1790-cı illərdə Merilənd yaxınlığında Anna tərəfindən on üçüncü koloniyada monax qadınların ilk icması hesab olunan Tobakko, Bernardina Mattus yaradılmışdır.

* 1853-cü ildə ilk dəfə rəsmi şəkildə tanınmış qadın monastır kilsəsi Antoinette (Braun) Bləkvel (1825-1921) tərəfindən açılmışdır. O, 1847-ci ildə Oberlin Kollecini, sonra isə 1850-ci ildə Oberlin İlahiyyat Seminariyasını bitirmişdir. Antoinette (Braun) Bləkvel aktiv feminist, abolişinist və mükəmməl vəkil idi.

* 1879-cu ildə ilk böyük dini kilsə, Xristos kilsəsi Meri Beyker Eddi tərəfindən açılmışdır.

* 1975-ci ildə Amerika mənşəli qadın Elizabet Ann Seton ilk Xeyriyyəçi Bacılar icmasını yaratmışdır.

* 1989-cu ildə Barbara Harris ilk qadın yepiskopu təyin olunmuşdur. O həmçinin Afro-Amerika mənşəli qadın kimi də ilklərin sırasına daxil olmuşdur.

* 1842-ci ildə ABŞ-da ən böyük qadın dini təşkilatı Humanitar Cəmiyyət (Axirət Dünyasının Müqəddəslərinin Xristos kilsəsi) yaradılmışdır. Bu, dünyada ən böyük qadın təşkilatlarından biri hesab olunur.

* Katerin Cefferts Skori Yepiskopal kilsənin ilk yepiskopudur və o, 2006-cı ildə bu posta təyin olunmuşdur.

* 2009-cu ildə Afro-Amerika mənşəli Alisa Stanton ilk rəsmi ruhani qadın statusunu almışdır.

* 2010-cu ildə Şimali Amerikada, Vacra Dakini Naniri Vermontda ilk buddist qadın monax kimi təyin olunmuşdu.

* 2013-cü ildə Elizabet İton İva Evangel Luteran kilsəsinin ilk qadın yepiskopu təyin olundu (*The Columbia Electronic Encyclopedia,* 2012).

**Xristianlıqda qadına baxış.** Xristianlıq (isəvilik) hal-hazırda dünyada ən geniş yayılmış dini inanc sisteminə verilən ümumi addır. Xristianlıq bir din olaraq Qərb yarımkürəsində yayılmışdır,

lakin onun yarandığı yer, bütün monoteist dinlərin vətəni olan Orta Şərqdir. Bu din müasir Qərb mədəniyyətin mənəvi dəyərlərinin əsas resurslarından biridir. Hazırda dünya əhalisin 2 miliyarda yaxını xristianlardır. Bu dinin yaranması və "xoş xəbər"in yerə gəlməsi bizim era hesabı ilə Rəbbin insan şəklində yerə gəldiyi gündən keçən ilk 100-200 il ərzində baş vermişdir.

Xristianlıq əsrlərlə tarixi olan və zaman-zaman parçalanan din olduğundan (başqa dinlərdə olduğu kimi) bu gün onu vahid bir dini inanc sistemi olaraq xarakterizə etmək çətindir. Xristianlıq deyildikdə əslində üç budaq başa düşülür:

a) katoliklik;

b) pravoslavlıq və ya Şərq ortodoksiyası;

c) protestantizm.

Xristianlıq, əsasən, aşağıdakı xüsusiyyətlərə malikdir:

1). İsa deyilən bir varlığı Rəbbin özünün insan şəklində yerə gəlməsi kimi qəbul edirlər.

2). İnsanın təbiətən günahlı olduğunu az-çox qəbul edirlər və Rəbbin insanı məhz bu günahdan qurtarmaq üçün yerə gəldiyini və bunun da Rəbbin insanlara olan sevgisindən qaynaqlandığına inanırlar.

3). İsanın qeyb olduğuna, insanların günahları üçün çarmıxa çəkildiyinə, göyə qalxdığına və sonda əbədi hökmranlıq üçün yenidən diriləcəyinə inanırlar.

4). Yaradanın tək olduğuna və eyni zamanda üç şəxsdə təcəssüm etdiyinə inanırlar.

5). Ölümdən sonra həyatın olduğuna və insanların bu dünyadakı seçimlərinə görə o dünyada əbədi həyata və əbədi cəhənnəmə layiq görüləcəklərinə inanırlar.

6). Əsas müqəddəs vəhy mənbəyi kimi İncili - müqəddəs kitabı qəbul edirlər (David Barrett et al, 2001). Beləliklə, bu əlamətlər özünü xristian hesab edən və çoxluğun da belə gördüyü, az-çox qədim tarixə malik bütün xristian budaqlarında var.

Hər kəsə məlumdur ki, gender rolları mədəniyyətlə formalaşır. Ataların kilsədəki vəziyyəti nəzərə alınsa, qadınların əxlaqının *kişi* dünyasının dəyərlərinə uyğun şəkildə nizama salınması yaxşı anlaşılar. Xristianlıq birmənalı şəkildə ta başlanğıcından qadınları idarəçilik və liderlikdən xaric etmişdir. O, qadını nə bir ciddi elm sahəsində, nə də bir dövlət qulluğunda görür. Xristian ailə mədəniyyətinə görə, qadının yeri ailəsinin yanıdır. Xristianlıqda ailədə patriarxallıq əsas götürülür. Xristian kilsələri kişi din xadimlərin tam nəzarəti altındadır. Xristian mədəniyyəti qadını ev sferasına, ailəyə sıxışdırmışdır. Xristian din xadimləri hər zaman qadınların müştərək ev və karyera fəaliyyətlərindən əndişələnmişlər. Xristian ailələrindəki gender asimmetriyası xristian mədəniyyətinin gender diferensiasiyasının üzərinə düşür. Kilsə hər zaman aktual olan gender rolları konfliktinin əleyhinədir. İşgüzar qadınlar xrsitian mədəniyyəti üçün real təhlükə hesab olunurlar, çünki ənənəvi ailələrin bünövrəsini bu sarsıda bilər və bu, hətta o qədər təhlükəlidir ki, dövlətin mövcud quruluş modelinə də xələl gətirə bilər (Lynne Marie Kohm, 2008:339).

**Katolik kilsəsində qadınların rolu**. 2005-ci il oktyabrın 4-də Avropa Birliyinin Parlament Assembleyasında "Avropada qadınlar və din", 1464 Qətnaməsi qəbul olunmuşdur. Qətnamə, kişi və qadınların bərabər imkanlarına dair AB Komissiyasının təqdim etdiyi hesabat əsasında hazırlanmışdır.

"Alman dalğası"nın məlumatına görə, Vatikanın katolik kilsəsində qadınların rolu haqda yepiskoplara müraciəti nəşr edilmişdir. Müraciətdə Vatikan birtərəfli insan obrazı yaratmış müasir feminist diskursu ilə polemikaya girir. Bu obrazda əsas şərt – katolik iyerarxlarının ehtimallarına görə, bərabərlik uğrunda mübarizə maskası altında əslində, güc uğrunda mübarizə aparılır. Genderlər arasında bərabərliyə nail olmaq cəhdi insanın təbii başlanğıcında dəyişikliklərə gətirib çıxara bilər. Təbiətə üstün gəlmə ideyası ilk növbədə ailəyə dağıdıcı təsir göstərir. Vatikanda ehtiyat edirlər ki, insanın cinsi mənsubiyyətinə olan biganə-

lik, cəmiyyətin özünün mövcud olub-olmamasına təsir edə bilər. Sənəddə kişi və qadınların bərabər vəziyyətindən, ailədə tutduğu xüsusi rolla bağlı iş yerində qadınların xüsusi hüquqların qanuniləşdirilməsinin vacibliyindən bəhs olunur. Müraciətdə qeyd olunur ki, katolik kilsəsində keşiş rütbəsi kişilərə məxsusdur, lakin qadının da kilsəin həyatında böyük rolu vardır. Papa qadınların keşiş rütbəsini əldə edə bilməkləri haqda müzakirələrə bir neçə il əvvəl fikir bildirmişdi. İki il əvvəl kardinal Ratsinger Almaniya, Avstriya və ABŞ katolik qadınların kilsədən ayrılmasına nail olmuşdur, çünki Vatikan yepiskopu bu məsələdə dəstəkləmişdir.

Sənəddə ingilis dilli dünyada yayılmış "gender ideologiyasına' müqavimət göstərməyin vacibliyindən bəhs olunur. Bu ideologiyaya görə, kişi və qadın başlıca bioloji varlıqdan daha çox sosial determinist rola malik olan varlıq kimi dəstəklənir. Katolik kilsəsi insanllara Tanrı tərəfindən bəxş olunmuş təbiət rolların aradan qaldırıla bilməsinin imkansızlığından bəhs edir. O, bir tərəfdən cinsi əlamətlərə görə sosial və siyasi diskriminasiyaya qarşı qanuni və vacib mübarizəni, digər tərəfdən isə təbiətə qarşı əks-mədəni qiyamı fərqləndirməyi tələb edir. Bununla əlaqədar Vatikan bir sıra ölkələrdə qanuniləşdirilmiş bircinsli nikahı rədd edir. Tanrı kişi və qadın arasında nikahı təkcə nəslin fiziki davamı üçün deyil, həm də qarşılıqlı natamamlığı təkmilləşdirmək üçün yaratmışdır.

Alman KNA agentliyinin məlumatına görə, "Kilsədə və dünyada kişi və qadınların əməkdaşlığı haqda katolik kilsə yepiskoplarına müraciət" adlı sənəd, dünyada çoxsaylı dini konfessiyaların bütün təşkilatlarına göndərilmişdir. Müraciət kardinal Yozef Ratsinger tərəfindən tərtib olunmuş və Roma Papası İoann II Pavel tərəfindən bəyənilmişdir. "Kilsədə və dünyada kişi və qadınların əməkdaşlığı haqda" sənəddə Vatikan qeyd edir ki, qadınlara hörmət etmək və onlara iş yerlərində bərabər hüquqlar vermək lazımdır, lakin genderlər arasında fərq tanınmalı və qeyd olunmalıdır. Katolik kilsəsinin mövqeyini yenidən təsdiqləyən sənəddə,

qadın-keşişlərə qadağa qoyulması haqqında müraciət daxil edilmişdir. Orada deyilir ki, qadınların çoxu “kişilərin köməkçisi” olduğunu yaxşı bilirlər. Burada feminizmin gender fərqlərini aradan qaldırma cəhdləri tənqidə məruz qalır və təsdiq olunur ki, feminizm, ana və atadan ibarət ənənəvi ailə strukturunu sual altına alan ideologiyaları ruhlandırmış, ümumilikdə, homoseksualizmlə heteroseksualizmi ekvivalent etmişdir.

Reuters məlumat verir ki, qadınlar Vatikanın feminizm haqda sənədinə böyük narazılıq və təəccüblə cavab vermişlər. Feministlərə görə, belə müraciətlər yalnız qadınlarla ciddi münasibətləri olmayan, qadın hüquqları uğrunda hərəkatın həm qadınlara, həm də kişilərə bəxş etdiyi pozitiv dəyişikliklərdən təsəvvürü olmayan kişilər tərəfindən edilə bilər. Vatikan bu gün mövcud olmayan dünya haqqında yazmışdır. Analıq “qadın identikliyinin açar elementi” olsa da, qadınlara ancaq nəsil artırma mövqeyindən baxmaq düzgün deyil.

**Buddizm və qadın**. Buddizmin əsası e.ə. 563 – e.ə. 483-cü illər arasında yaşadığı güman edilən, bu gün Budda olaraq bilinən Siddharta Qautama tərəfindən qoyulmuşdur. Şimali Hindistanda şahzadə kimi dünyaya gələn Siddharta Qautama həyatdakı əzablardan qurtulmaq üçün bir yol tapmaq məqsədilə krallığı tərk etmiş və uzun illərin zehni fəaliyyəti nəticəsində müəyyən elmi nəticələr əldə etmişdir.

Buddizm Siddharta Qautamanın prinsipləri əsasında yaradılmışdır. O, eramızdan əvvəl 546-483-cü illərdə Hindistanın Kapilavastu şəhərində yaşamışdır və bu din eramızdan təxminən 2500 il əvvəl Hindistanın Cənub-Qərbində meydana gəlmişdir. Daha sonralar, Monqolustan, Şri-Lanka, Seylon, Nepal, Tailand, Yaponiya, Koreya, Çin və Tibetdə geniş vüsət almışdır. Ehtimallara görə, dünyada 300 milyon buddist mövcuddur. Buddistlərin ən mühüm və ən kamil müqəddəs kitabı “3 səbət” mənasını daşıyan “Teripitaka”dır. Bu 3 səbət aşağıdakılardır:

* nizam-intizam səbəti – buddizmi təzə qəbul edən şəxslərə, yaxud rahiblərə və yüksək səviyyəli buddistlərə aid qanunların icrasına nəzarət edir (bu qanun və normaların bəziləri sonradan dəyişilmişdir);

* təlim səbəti – Buddanın təlim və polemikalarından təşkil olunmuşdur;

* hekayələr səbəti.

Buddizm bəzilərinə görə, din, təriqət, digərlərinə görə, fəlsəfi cərəyandır. Bütün deyilənləri nəzərə alsaq, belə nəticəyə gəlmək olur ki, buddizm – bütpərəst batil təlimidir. Əslində, buddizm Tanrı əleyhinə olan ateist bir dindir. "Budda" kəlməsi "*oyandırılmış*" və ya "*aydınlanmış*" mənasında istifadə olunur.

Buddizmin yaranma tarixinin digər dinlərdən daha qədim olmasını nəzərə alsaq, o zaman qadınlara qarşı olan diskriminasiyanın tarixi köklərinin bu dindən bəhrələnməsi qənaətinə gələrik. Buddizmdə qadın statusundan bəhs edərkən çətin ki, patriarxal Hindistan cəmiyyətindən uyğun kontekst tapa bilərik. Hindistan cəmiyyətinin patriarxal tərəfini aydın göstərməkdən ötrü brahman ədəbiyyatından kifayət qədər misallar gətirmək olar. "Manunun qanunları" əsərindəki deyim buna yaxşı nümunə ola bilər: "Qadınlar gecə-gündüz kişilərinin himayəsində olmalıdırlar... Ata uşaq vaxtı, ər gənclik yaşında, oğullar ahıl yaşında qız-qadınları qoruyurlar" (Г.Ф.Илюин, 1992: 9, 2-3).

Qadınların heç bir tələbi ortodoksal brahmanizmdə nəzərə alınmamışdır. Qadın üçün ən əsas vəzifə ərinə xidmətdir. Kişinin hansı insani keyfiyyətlərə malik olub-olmamasından asılı olmayaraq, qadın, yəni həyat yoldaşı ona sədaqətlə xidmət etməlidir, lakin erkən buddizmdə bu belə deyildi. Orada kişi ilə qadın arasında fərq qoyulmurdu, istər elmdə, istərsə də dini karyera qazanmaqda olsun. Budda qadın monastırın əsasını qoymuşdu (Buddanın xalası, Mahapracapatinin başçılığı ilə). Bu "Səkkiz qayda"-dan (qarudhamma) ibarətdir:

* monax qadın monastırda 100 il keçirsə də, yeni gələn monax kişiyə hörmət etməlidir;

* monax qadın monax kişi olmasa, yağışlı yerdə ola bilməz;

* hər iki həftədən bir monax qadın, monaxların dərslərini və təlimatlarını almaqdan ötrü monaxların keçirdiyi iclaslarda iştirak etməlidir;

* yağış mövsümü bitdikdən sonra monax qadın, kişi və qadın davranışı müzakirəsi ilə bağlı xüsusi yığıncaqlarda iştirak etməlidir;

* Sanqhadisesa qaydalarını pozan monax qadın iki həftəlik kişi-qadın icmalarının yığıncağında iştirak etmək hüququndan məhrum olunur (kişi monax üçün həmin cəza altı gündən ibarətdir);

* monax qadının namizədliyi üçün iki il sınaq müddəti nəzərdə tutulur və sonrakı fəaliyyət isə həm qadın, həm də kişi icmalarında yerinə yetirilir. Kişi monax üçün isə belə sınaq müddəti nəzərdə tutulmur və belə fəaliyyət təkcə kişi icmalarında yerinə yetirilir;

* monax qadın dolayısı ilə də olsa, heç bir halda monax kişini təhqir edə bilməz;

* monax kişi monax qadını öyrədə bilər, monax qadın heç bir halda monax kişini öyrətməyə cəhd etməməlidir.

Bu yuxarıda göstərilən qaydalar heç bir halda pozulmamalıdır və bunlar monaxların nizam-intizam qaydalarına (Bhikkhuni-Patimokkha) daxil edilmişdir. Qadın monastırlarının kişi himayədarlığında olmasının obyektiv səbəbləri də mövcud idi. O dövrdə qadınların təhlükəsizliyini qorumaqdan ötrü belə daha uyğun idi. Bunlardan başqa bir çox qaydalar (227 kişi monax üçün nəzərdə tutulan qaydaya qarşı 311 qadın monax üçün nəzərdə tutulan qayda) da nəzərdə tutulmuşdu, amma onlar daha yüngül formada idilər. Bunlar, əsasən, qadınların geyimlərinə aid məsələlər idi (Г.Ф.Илӱин, 1992).

Qadın üçün buddist sanqhaya daxil olmaq niyə görə önəmli idi? Yeganə səbəb yəqin ki, onların axirət dünyasının azadlığına (nirvan) qovuşmaq arzuları idi. Onlara elə gəlirdi ki, bu yolla ar-

zularına daha tez yaxınlaşırlar. Bu arzular müxtəlif ədəbiyyatlarda həm nəsr, həm də nəzmlə vəsf olunurdu. Sanqhaya daxil olmağın digər səbəbləri də ola bilərdi, məsələn, oğul övladını itirəndən sonra ana ona lazım olan xərclərin ödənilməsindən məhrum olurdu. Bəzi hallarda, sanqha cəmiyyətdə hörmətli icma yeri hesab olunurdu və monaxlığa qəbul edilməklə qadınlar şərəfli sosial status əldə edirdilər. Bütün bu üstünlüklə yanaşı, burada yaşamaq onlar üçün o qədər də asan olmurdu.

Qadınlar təkcə monax qismində buddist icmaya qəbul olunmurdular, onlar orada başqa statuslar da əldə edə bilərdilər. Buddist icma dörd hissədən: monax qadın-monax kişi, miryan qadın-miryan kişidən ibarət idi.

Ola bilsin ki, müasir dövrün insanlarına erkən buddizmin qadınlara verdiyi bu sosial status o qədər də cəlbedici gəlməsin, amma o dövr üçün bütün bunlar digər yerlərdə yaşayan qadınlar üçün əlçatmaz arzular idi. Ev-eşiyini atıb özünü buddist icmadakı fəalliyyətə həsr edə bilməyən və bu statuslardan məhrum olan qadınlara da dünyaya bir dəfəki gəlişlərində bütün bunlar vəd olunurdu. Bəlkə də, elə qadınlara olan bu münasibət səbəbindən də buddizm digər dinlərə nisbətən daha çox yayılmaq imkanı qazandı.

**Amerika buddist qadınları.** "Amerika buddizm"i də yeni bir qol olaraq buddizmin ümumi forma və məzmununa təsir etmişdir. XXI əsrin əvvəllərində KİV-də buddizmin "amerikalaşdırılma"si adlı termin tez-tez istifadə olunmağa başladı. Elə bu mövzuda dərc edilən tədqiqatların içərisində qadınların rolları da araşdırılmağa başlandı. Sözsüz ki, Amerikadakı buddizmin bu dinə mənsub olan qadınların həyatında hansı rol oynadığını anlamaqdan ötrü hökmən ənənəvi buddizmin əsas xüsusiyyətlərinə nəzər salmaq lazımdır. Birincisi, bütün dünya dinləri kimi buddizm də kişi dominantlığı ilə müşayiət olunan dinlərdəndir. Tarixən həm meditasiyalar kişilər tərəfindən yerinə yetirilmişdir, həm də elmi-fəlsəfi yeniliklər kişilər tərəfindən kəşf edilmişdir. Qadınların analoji vəzifələri yerinə yetirməsi bu dində bəyənil-

mir, çünki buddizmdə hörmət və şöhrət yalnız kişilər üçün nəzərdə tutulur. İkincisi, Yaponiyadan başqa bütün buddist cəmiyyətlər üçün monastır dixotomiyaları mövcud idi.

Bütün yuxarıda deyilənlərə rəğmən, Amerikadakı buddizm modeli, Asiyada mövcud olan buddizm modelindən fərqlidir. Amerika buddizmində qadınların fəal iştirakı Qərb buddizmindən qaynaqlanırdı. Burada qadınlar meditasiyanın və digər buddist forumların mərkəzində dururdular. Ümumiyyətlə, Asiya və Amerika buddist meditasiya mərkəzləri çox fərqlidirlər. Amerika buddist qadınları heç də Asiya buddist qadınlarından nə inanclarına görə, nə də dinin digər mühüm vəzifələrini yerinə yetirmək nöqteyi-nəzərindən geri qalırlar. Geyimlərini çıxmaq şərtilə bütlərə sitayiş etmək və meditasiya təcrübələrində elə də köklü fərq yoxdur. Sadəcə, Amerikada buddist qadınlar kişilərlə bir yerdə dini ritualları yerinə yetirirlər.

Şübhəsiz ki, Amerika buddizmində qadınların fəallaşmasının bir tarixi vardır. Buddizmin Şimali Amerikaya gəlişi 1960-70-ci illərdən çox-çox əvvəllərə gedib çıxsa da buddistlər bu onilliklər ərzində Amerikaya kütləvi miqrasiya etmişdilər. Həmin dövr feminizmin ikinci dalğası dövrü ilə üst-üstə düşür. Bu elə bir dövr idi ki, kişilər üçün mövcud olan imkanlar artıq qadınlar üçün də əlyetər idi. Artıq qadınlar ikinci dərəcəli, tabeçi statusda deyil, kişilərlə bərabər hüquqlu vətəndaşlar kimi qəbul olunurdu. ABŞ-da buddizmi daha cəlbedici etmək üçün qadınlar bu dində olan bütün nəzəri və təcrübi dəyərləri hər iki genderə aid etməyi israr edirdilər. Bu uğurlu dövr Amerika buddizmin simasını dəyişdi və bütün dünya buddizminə də təsirsiz ötüşmədi. Nəticədə, buddizm və Amerika qadınları arasında paradoksal situasiya yarandı. Bir tərəfdən, buddist rituallar və uyğun elmlər gender neytral əsaslı oldu və toxunduğumuz dövrdə buddizm qadınlara dəyər verən din qismində çıxış etdi. Digər tərəfdən, buddizmdə nə qədər gender neytral elementlər mövcud olsa da, bu dinin forma və məzmununda hələ də kişi dominantlığı hökm sürürdü, çünki bu dində

həm müəllimlər, həm də liderlərin əksəriyyəti kişilər idi. Dində nisbətən yüksək statusa malik qadınlar tənqidlə qarşılanırdı.

Belə yanaşmalar qadınları iki antoqonist qrupa ayırırdı: bir qrup qadınlar qədim zamanlarda buddizmdə qadınların önəmli rol oynamalarını əllərində əsas tuturdu və onlar o dövrdə olduğu kimi, kişilərin iştirak etdiyi bütün rituallarda öz keçmiş rollarını bərpa etmək niyyətində idilər. Onlar feminist ideyaları buddizmə inteqrasiya etməyin tərəfdarları idilər. Digər qrup qadınlar isə buddizmdə kişi dominatlığını dəstəkləyirdi. Bütün bunlara baxmayaraq, hər iki qrupun Amerikada buddist rituallardakı iştirakı ilə onların öz vətənlərində - Asiyada iştirakı arasında kəskin fərq var idi. Amerika buddist qadınlarından bunun səbəbini soruşanda, onlar bunu belə izah edirdilər. Birincisi, onlar Amerikada Asiya buddist normalarını Şimali Amerikada tətbiq edə bilməzdilər. İkincisi, feminizmin və yeni buddist müəllimlərin bu bölgəyə gəlişi hər şeyi dəyişdirmişdi. Onlar bir onillik əvvəl bu bölgəyə köç etsəydilər, situasiya bir qədər də yaxşıya doğru dəyişmiş olardı. Qadınlar kişilərlə ona görə bərabər imkana malik ola bilmirlər ki, din sferasında az müəllim var və onlar az gücə sahibdirlər. Buddizmə görə, şanslı o qadınlardır ki, onlar öldükdən sonra yenidən dünyaya kişi qismində gələ biləcəklər. Əks halda, buddizmin qaydalarına görə, qadınların kişilər qədər prestijli statuslar əldə etməsi çətin məsələdir.

Bəzi Amerika buddistləri dini ritualları öz dillərində yerinə yetirirlər, bəziləri bunları ingilis dilində edirlər. İngilis dilindəki genderlə əlaqəli sözlər daha çox adrosentrik olduğu üçün "oğul" (son) əvəzinə "uşaq", "kişi" (man) əvəzinə "insan" istifadə olunur. Mediator hər zaman insanlara "he" (kişi) müraciət edir. Düzdür, XXI əsrdə ABŞ-da da söylənilən maskulin terminlər daha çox gender neytral sözlərlə əvəz olunmuşdur, lakin bu istiqamətdə nə qədər müsbət dəyişikliklər baş versə də, buddizmin bünövrəsində androsentrik elementlər çox olduğu üçün bu din hələ də kişi dominantlığı ilə müşayiət olunur. Doğrudur, buddizmin ilkin yaranı-

şında bu dində caynosentrik elementlər kifayət qədər mövcud idi. Bu buddizmlə bağlı şeir və hekayələrdə ("*The Songs of the Female Elders*") özünü daha çox büruzə verir. Təəssüf ki, buddizmin qadın əcdadlarını onlara unutdurmaq üçün sonrakı dövrlərdə çox təsirlər olmuşdur (Alfred W. Kaszniak and Rita M. Gross, 2010).

Buddizm qadınlar üçün üstün din olmasa da, başqa dinlərlə müqayisədə bu din qadınları az da olsa, dəyərləndirir, onları nisbi azadlıq və ləyaqətlə təmin edir. Lakin əsas məsələ bu dinin təcrübədə necə tətbiq və təqdim olunmasıdır. Bu dində müəllimlərin arasında nə qədər çox qadın olarsa, dini strukturlarda qadınlar daha çox təmsil olunarlar (Rita M. Gross and Shambhala Sun, 2005).

**Dinlərdə gender stereotipləri**. Qadınların xeyriyyəçilikdə, dini təhsilin verilməsində və kilsə təsərrüfatı işlərində yaxından iştirak etmələrinə baxmayaraq, hətta bu gün də qadının mövcud ənənəvi rol və funksiyaları müasir dövrün tələbləri ilə uzlaşmır və bir-biri ilə ziddiyyət təşkil edir.

Pravoslav qadınların əksəriyyəti kilsədəki vəzifələrini yuxarıdan verilən tapşırıqların yerinə yetirilməsi ilə bitmiş hesab edirlər. Pravoslav qadınlar feminist pravoslav qadınların kilsədəki digər vəzifələrə olan iddiasına o qədər təəccüblənirlər ki, hətta onları *deviant* hesab edirlər. Onlara görə qadınların pravoslav kilsələrində rəhbərlik məsələsi, ümumiyyətlə, aktual olmayan bir məsələdir. Burada azacıq da olsa, aktual sayıla bilən bir məsələ kilsələrdə qadınların diakonat postuna (ruhani atanın müavini) yenidən bərpa edilə bilməsi məsələsidir, çünki xristianlığın birinci əsrində bu mövcud idi.

Müasir pravoslav təfəkküründə qadın problemi nadir hadisədir. Ortodoksal kilsənin feminist ilahiyyatçıları kilsənin daxili işlərində öz pozisiyalarını kənara qoyurlar, onlar əsasən, beynəlxalq iqtisadi hərəkatlarda iştirak edirlər.

İudaizmdə qadınların vəziyyəti spesifik xarakter daşıyır. İudaizmi birmənalı qəbul etmək absurddur. Qeyri-ortodoksal iudaizm aləmində qadınlar bərabərdirlər və ictimai işlərdə iştirak edə

bilərlər. Bundan başqa, güclü lezbi iudaizm hərəkatı da mövcuddur. N.Qondenberq, R.Qross və digər müasir ilahiyyatçılar matriarxal ilahələr kultunu və simvolikasını gücləndirirlər. İnqilabi cərəyan, heç bir simaya malik olmayan Tanrının panteist (panteizm – Tanrını təbiətlə eyniləşdirən dini fəlsəfi dünyagörüş) konsepsiyasını hazırlayırlar. Feminist-ilahiyyatçı-reformistlər “əhdi-ətiq”də (dini kitab) qadın tarixini yenidən nəzərdən keçirirlər və patriarxal maskulin düşüncəli ilahiyyatçıların təbirincə desək, adı olmayan *qadın tarixi*ni yaratmaq istəyirlər. Talmud ənənəsində, xüsusilə də Kabbaledə Hökma-Sofiya ilə əlaqəli Şahina obrazı mühüm əhəmiyyət kəsb edir. Şahina Allahın yaratdığı azad mövcudat olub, ona bütün dünya və yaranışların anası, “Solomon müdrikliyi”, “Tanrının evi”, “İsrail qəsri”, “Donna səması”, “İşıq Qızı Deva”, bir sözlə – əbədi qadın kimi baxılır. Kabala “qadın” metaforunu ilahiliyin mahiyyətinin təsviri – dünyaya gətirən, yedirən və böyüdən dünya mənasında işlədir.

Buddizm yaxın Şərq patriarxal dinlərindən fərqli olaraq, qadın təbiətini diskriminasiya etmir. Buddizmdə kübar qadının vəziyyəti xristianlıq və iudaizmdəki kübar qadının vəziyyətindən fərqlənir. Belə ki, buddizm fərdi mənəvi kamillik dinidir, lakin çarxdan çıxıb başqalaşma (Sansarılər) aktiv fəaliyyətdən əl çəkməklə əlaqəlidir. Buddistlərdə nikah, boşanma, siyasətə üstünlük vermə kimi məsələlər Kanona əsaslanır və o da qanunla tənzimlənmir, yəni hər kəsin öz istəyi ilə ola bilər. Budda universal bacarıq elan etmişdir, burada silk və cins nəzərdə tutulmamışdır. Qadının Budda və ya Bodxisatno ola bilməsi ideyası sonralar meydana gəlmişdir və maxayan məktəbi (azadlığa geniş yol) bunun mümkün olduğunu qeyd etmişdir (Hüseyn Tövfiqi, 2013).

Doğrudur, qadınlar üçün bunun mümkün olması söylənilsə də, abhidharmist alimlərinə görə, qadınlar affekt altına düşməmək üçün daha çox öz hisslərini cilovlamağı bacarmalıdırlar. Bu zaman kişi monaxlar 250 qaydaya riayət etməli olduqları halda, qadın monaxlar 500 qaydaya riayət etmək məsuliyyətini daşımalıdırlar.

Andların birində açıq-aşkar qadınlar diskriminasiya olunurlar. Qadın monax yuxarıda qeyd etdiyimiz kimi yaşından və ruhanilik nüfuzundan asılı olmayaraq, qeyd-şərtsiz kişi monaxa tabe olmalıdır. Müasir dövrdə qədim qadının monaxlıq təcrübəsi olduğuna görə, bu gündə bir sıra dini məsələlərə gender neytral yanaşma mümkündür. Txeravad alimlərinə görə isə, insanın mənfi taleyi onun gələcək həyatına, yəni diriləndən sonrakı həyatına təsir edir və o, qadın qismində dünyaya gələ bilər, aydın fikirli dünyaya gələ bilmə üçün ən əvvəl onun dünyaya kişi cismində gəlməsi vacibdir.

Dinlərdə gender stereotiplərini təhlil etdikdən sonra hansı nəticələrə gəlmək olar? Bir tərəfdən, patriarxal mədəniyyət iyerarxiyaya, cisim və ruhun dualizminə gətirib çıxarır, digər tərəfdən isə qadını cəmiyyətdəki siyasi sistem təcrübəsindən qiymətləndirir. Spesifik xüsusiyyətlərə malik dini sosiumu araşdırarkən bunu genderşünaslıq və dinşünaslıq elmlərinin qovşağında tədqiq etmək məsləhətdir. Bütün yuxarıda söylədiklərimizin bugünkü dünyada və Amerika cəmiyyətində baş verən dini hadisələrə obyektiv qiymət verilməsində xüsusi əhəmiyyəti vardır. Qadınlara sırınan aşağı statusların kökündə çox vaxt dəqiq öyrənilməyən, səthi yanaşılan dini məsələlər durur. Ümumiyyətlə, insanla bağlı bütün problemlərin öyrənilməsində olduğu kimi, dinlə əlaqəli məsələlərin tədqiqində də gender neytral yanaşma mühüm əhəmiyyət daşıyır.

**Dində gender konflikti**. Aparılan tədqiqatlara görə xüsusilə xristianlar arasında qadınlar kişilərlə müqayisədə daha çox dindardırlar. Lakin heç bir dini liderlərin arasında qadın olmamışdır – Abraham, Musa, İsa, Mühəmməd, Budda (Siddhartha Gautama). Qadınların dinə daha sədaqətli sitayişinə baxmayaraq, yaxın dövrlərə qədər demək olar ki, bütün dinlərdə qadınların dini vəzifələrdə çalışması qadağan idi.

ABŞ-da 2014-cü ildə Pew Research Centerin apardığı sorğunun nəticələrinə görə dini çox əhəmiyyətli hesab edən qadınlar 60 %, kişilər isə 47 % idi. Dini məkanlarda gündəlik ibadət edənlərin

64 %-i qadın, 47 %-i kişi, həftəlik ibadət edənlərin 40 %-i qadın, 32 %-i kişi idi.

Avropada da belə ehtimal olunur ki, nəinki xristianlarda, ümumiyyətlə, bütün dünyada, əksər cəmiyyətlərdə qadınlar dini ibadətlərlə kişilərdən daha çox məşğul olurlar (Stark, Rodney, 2002). Bəzi alimlər bunu qadın və kişilərin bioloji fərqləri ilə, xüsusilə də onların hormonları ilə əlaqələndirirlər. Alimlər illərlə qadın və kişilərin dini öhdəlikləri barədə tədqiqatlar aparmışlar. Ümumiyyətlə, bu barədə qızğın debatlar heç bir zaman səngimir.

Pew Research Center bu məsələ ilə əlaqəli tədqiqat apararkən müxtəlif dini qrup - xristian, müsəlman, buddist, yəhüdi və digər dinlərin nümayəndələrini seçmişdir. Bu tədqiqatın coğrafiyası çox böyük idi. Mərkəz belə bir nəticəyə gəlmişdir ki, bütün cəmiyyətlərdə qadınlar kişilərlə müqayisədə bir neçə standartla dinə daha çox sədaqətlidirlər. Bu araşdırmadan sonra belə bir qənaətə gəlinmişdir ki, dinlə gender arasında əlaqə gözlənildiyindən də çox mürəkkəbdir. Xristian qadınlar kişilərdən daha səliqə ilə dini öhdəlikləri yerinə yetirirlər. Müsəlman qadınlarla müsəlman kişilər eyni cür sədaqətlə dini etiqadlarına sahib çıxsalar da, kişilər dini məkanlarda daha çox toplanırlar və dini ritualları məscidlərdə yerinə yetirirlər. Dua etmək, dini ritualları yerinə yetirmək, dini məkanlarda toplaşmaq, dini ritualların həcmi və sairə parametrlərə görə qadın və kişi dindarlar fərqlidirlər.

Pew Research Center araşdırmalarına görə, bütün dünyada (192 ölkədə) 83.4 % dini inanclı qadına qarşı 79.9 % dini inanclı kişi vardır. 3.5 %-lik fərq o deməkdir ki, dinə inananların arasında 97 milyon qadın kişidən çoxdur. Bu həm onunla izah olunur ki, qadınların sayı kişilərdən daha çoxdur, həm də qadınlar kişilərdən daha çox yaşayırlar. Dini inancına görə 192 ölkənin 61-ində 2 % qadın kişilərdən çoxdur. Qalan ölkələrdə demək olar ki, bu faiz bərabərdir. Beləliklə, din qadınlar üçün kişilərlə müqayisədə daha çox əhəmiyyətlidir. Yalnız İsrail və Mozambikdə dini çox əhəmiyyətli hesab edən kişilərin sayı qadınlardan üstündür. Həm qa-

dınlar, həm də kişilər eyni dərəcədə cəhənnəm və cənnətə, mələklərin varlığına inanırlar. Xristian qadın və kişilərlə müqayisədə müsəlman qadın və kişilər dinə daha çox önəm verirlər. Xristian dini inanclı qadınlarla xristian dini inaclı kişilər arasında konflikt daha çoxdur. Xristian qadınları xristian kişilərlə müqayisədə dini rituallara daha çox vaxt (10 %) sərf edirlər.

Alimlərə görə, bu fərqlərin səbəbləri biologiya, psixologiya, genetika, ailə kökləri, sosial status, iş yerləri və sairə ilə izah oluna bilər. Həqiqətən, işləyən qadınlar işləməyən qadınlardan dini rituallarda daha az iştirak edirlər. Bu kişilərə də aid oluna bilər. Fərqlərin səbəbləri siyahısına təhsil səviyyəsi, yaş və evlilik statusu da əlavə oluna bilər.

Afrika ilə müqayisədə Latın Amerikada və ABŞ-da dində olan gender konflikti daha böyükdür. Məsələn, Argentinada gündəlik dini ibadətlə məşğul olan qadınlar 52.9 % olduğu halda, kişilər 32.5 %-dir.

İqtisadi cəhətdən ikişaf etmiş ölkələrdən olan Kanada və Birləşmiş Krallıqla müqayisədə ABŞ-da yaşayan qadın və kişilər dini öhdəliklərin həcminə görə daha çox fərqlənirlər. Amerikalı kişi amerikalı qadınla müqayisədə daha az dini öhdəlikləri yerinə yetirir. ABŞ-da ateist kişilərin faizi ateist qadınların (27 % kişiyə qarşı 19 % qadın) faizindən daha yüksəkdir.

**ABŞ-da müsəlman qadınlar**. ABŞ-dakı müsəlman qadınların bütün digər vətəndaşlar kimi öz dini inamlarını ifadə etmək və başlarını örtüb-örtməmək kimi hüquqları vardır. Qanunda qeyd olunur ki, müsəlman qadınlarla digər Amerika qadınları kimi davranılmalıdır, dini inanc, gender, irq və milliyyətinə görə onları diskriminasiya etmək qadağandır. Bu istiqamətdə dövlətdə müxtəlif qanunvericilik aktları qəbul olunmuşdur və müsəlmanların da digər Amerika vətəndaşları kimi cəmiyyətdə, təhsildə, dövlət qurumlarında, iqtisadi-ictimai və başqa sferalarda bərabər iştirak etmək haqları vardır.

ABŞ-da müsəlman qadınların sayı sürətlə artır. Onlar müxtəlif etnik mənşəlidirlər və onların əksəriyyəti miqrant həyatı yaşayır. Dini inanclı müsəlman qadınları hicab, ximar, sadə şallarla başlarını örtürlər və bəzən də niqabla bütün üzlərini qapayırlar.

Müsəlmanların ABŞ-a ilk miqrasiyası qul ticarəti dövründə – XV əsrdə başlamışdır. O dövrdə Qərbi Afrikadan gətirilən qulların 14–20 % -i müsəlmanlar idi, ABŞ-a könüllü miqrasiya isə XIX əsrin sonundan başlamışdır, o zaman onlar Orta Şərq ölkələrindən – Livan, Siriya, Misir və Fələstindən ABŞ-a üz tutmuşdular. II Dünya Müharibəsindən sonra ABŞ-a miqrant kimi üz tutan müsəlmanların əksəriyyəti gənclər idi, onlar buraya təhsil almaq üçün gəlmişdilər (Schaeffer, R. T., 2015). 2016-cı il Pew Research Center-in apardığı tədqiqatlara görə ABŞ-da yaşayan müsəlmanların sayı 3.3 milyona yaxın idi ki, bunların da 46 %-i qadın, 54 %-i kişi idi (The Pew Research Center, 2016). Verilən rəqəmlər tam dəqiq olmaya bilər, çünki dinlə əlaqəli verilən statistik göstəricilər çox vaxt dəqiq olmur.

ABŞ-da yaşayan müsəlmanların etnik mənşələri çoxşaxəli olduğu üçün onları ümumiləşdirərək göstəricilər təqdim etmək çox çətindir. Onların dinindən başqa ümumi cəhətləri çox azdır, belə ki, onların milliyyəti, ənənələri, dilləri və siyasi bilikləri fərqlidir. Onların çox böyük bir qismi ərəblərdir, əlbəttə ki, müsəlmanların hamısı ərəb deyil (Barreto et al., 2008).

Müsəlmanların sayı çox sürətlə artdığı üçün, alimlərin hesablamalarına görə, 2040-cı ildə onlar xristianlardan sonra ikinci ən çoxsaylı din nümayəndələri olacaqlar. Elə ABŞ-da bu gün demoqrafik artım onların hesabına mümkün olmuşdur. ABŞ-sa təhsillilik faizinə görə müsəlman qadınları yəhudi qadınlarından sonra ikinci yeri tuturlar (The Pew Research Center, 2016).

**9/11-dən sonrakı dövr.** Məlum 2001-ci il sentyabr hadisələrindən sonra amerikalılarda müsəlmanlara, islama qarşı neqativ münasibət başlanmışdı. Federal Tədqiqat Bürosünün verdiyi mə-

lumata görə 2000-ci və 2001-ci illərdə müsəlmanlara olan nifrət hissi çox artmışdır (Anderson, C., 2002).

Demək olar ki, ölkədə müsəlmanlara qarşı birmənalı şəkildə stereotipləşmiş neqativ münasibət var idi, bu həm onlara olan münasibətdə və onlarla ünsiyyət zamanı hiss olunurdu (Frumin, A. & Sakuma, A., 2016). Əvvəlki illə müqayisədə həmin ildə vətəndaşların şikayət halları (1,516 sayda) artmışdı. Müsəlmanlara qarşı neqativ hallar hər yerdə (aeroport, məktəb, iş yerləri, həbsxana və digər sferalarda) təsadüf olunurdu. Ən çox şikayət hicabla əlaqədar olurdu. Aparılan təbliğatlarda islamın zorakı din olması qabardılır, bu da Amerika dəyərləri ilə ziddiyyət təşkil edirdi. Müsəlmanların xoş olmayan qrup kimi tanınması istiqamətində güclü təbliğat gedirdi. Bütün dünyada müsəlmanlara qarşı bir nifrət, inamsızlıq hissi müşahidə olunurdu, lakin Amerikada yaşayan müsəlman qadınlar bu təbliğatdan ikiqat çox əziyyət çəkirdilər. Baş örtüyünü bəhanə edib bu qadınları çox incidirdilər. Məsələn, 2007-ci ildə Gorciya ştatında bir qadını hicab örtdüyünə görə məhkəməyə buraxılmamışdı. 2008-ci ildə digər bir qadın başörtüyü ilə məhkəmə zalına güclə daxil olmasını bəhanə edib həbsxanaya salmışdılar (Nasaw, D., 2008).

ABŞ-da yaşayan müsəlman qadınlarının faciəsi bununla bitmədi. 2001-ci il sentyabr hadisələrinə görə, bu qadınlara olan neqativ münasibət yeni-yeni azalmağa başlayırdı ki, 2010-cu ildə yeni terror aktı baş verdi və Amerika müsəlman qadınlarına olan neqativ münasibət yenidən güclənməyə başladı.

Ölkədə yaşayan müsəlman qadınlar daima dövlət, hərbçilər, adi vədəndaşlar tərəfindən hücuma məruz qalırdılar. İran, Səudiyyə Ərəbistanı kimi ölkələrdə qadınlar hicab örtmədikdə nə qədər hücuma məruz qalırdılarsa, ABŞ və Birləşmiş Krallıq kimi ölkələrdə də hicab örtən müsəlman qadınlar ən azı o qədər çox pis məqamlarla üzləşirdilər. Hər iki halda qadınlar din ucbatından əziyyət çəkirdilər və cəmiyyət bunu qanuni hal kimi qəbul edirdi. Lakin müsəlman qadınlar onlara qarşı tətbiq olunan diskrimina-

siyaya baxmayaraq, dini etiqadlarından nəinki imtina etmirdilər, həmçinin bunu daha açıq şəkildə bəyan etməyə üstünlük verirdilər. Aparılan sorğularda hər bir qadın hicab örtməyin onların həyatında necə əhəmiyyət daşıdığını müxtəlif cür izah edirdi.

Çağdaş fikirli Amerika qadınları müsəlman qadınlarına qarşı tolerant münasibət bəsləyirlər, onları dəstəkləyirlər və onlarla birlikdə fəaliyyət göstərirlər. Təəssüf ki, Amerikada bir tərəfdən, ən yüksək strukturda müsəlman qadınlarına qarşı diskriminasiya halları mövcuddur, digər tərəfdən, bəzi siyasi liderlər bu hallara qarşı mübarizə aparır. İnsan haqları təşkilatları müsəlman qadınlarına qarşı aparılan diskriminasiyaya qarşı mübarizə aparmalı, yeni layihələr təqdim etməlidirlər. Qadın məsələləri ilə bilavasitə məşğul olan təşkilatlar o qədər də fəal deyillər və müsəlman qadınlarına qarşı olan diskriminasiyaya laqeyd qalırlar. Demək olar ki, hər gün bu qadınlar cəmiyyət tərəfindən neqativ münasibətlə üzləşir, onları dəstəkləyən yerli təşkilat tapmaqda çətinlik çəkirlər.

Siyasi tədqiqatçı-alim Larisa Hovkinz, müsəlman qadınlarını dəstəkləmək məqsədilə başını bağladı və dedi ki, müsəlman da, xristian da eyni Tanrıya sitayiş edir. Larisa Hovkinzin kollecdəki tələbələri də ona və müsəlman qadınlara dəstək məqsədilə başörtüyü ilə şəkil çəkdirdilər və sosial şəbəkələrdə paylaşdılar. Müsəlman qadınları və onların başörtükləri haqqındakı debatlar, müzakirələr bütün ölkənı bürüdü. Xristian Amerika qadını üçün hicab taxmaq ABŞ kontekstində qeyri-adi bir hal idi. Bu hal demək olar ki, nadir bir hadisə idi, çünki ABŞ-da bu vaxta qədər heç bir xristian qadın müsəlman qadını dəstəkləmək üçün belə hərəkət etməmişdi. Düzdür, bu hadisə qısa müddət diqqət mərkəzində oldu və ABŞ-da yaşayan müsəlman qadınlara qarşı münasibətdə kiçik dəyişikliklər baş verdi.

Müasir dövrdə KİV-də həm ABŞ-da, həm də xaricdə islam fundamentalistlərinin törətdiyi terror aktlarından daha çox bəhs edir. Qapalı qadınlar geyimləri ilə müsəlman olduqlarını dər-

hal bəlli etdikləri üçün onlara potensial terrorist kimi yanaşırlar (Everett, J. A.C., and Eds., 2016). Amerikalılar hər zaman söz azadlığına malik olduqlarına görə fəxr etmişlər və ölkə vətəndaşlarına hansı dinə xidmət etməklərinə görə deyil, vətəndaş olduqlarına görə hörmət etmişlər. Belə olan halda, müsəlman amerikalı qadınlar niyə etiqad etdikləri dinə görə hamıya məxsus olan mövcud hüquqlardan məhrum olmalıdır?

Əgər müsəlmanlarla, qeyri-müsəlmanlar eyni yerdə işləsələr, toxunduğumuz problemləri daha tez həll edərlər, onların aralarındakı nifrət hissi də azalar və hətta yox olar. Müsəlmanları terrorist qismində təqdim edən siyasətçilər onların cəmiyyətə inteqrasiyası və digər vətəndaşlarla birləşməsi uğrunda mübarizə aparsalar, cəmiyyət bundan daha çox xeyir tapar. Əgər cəmiyyətdə başıbağlı müsəlman qadınlar da digər Amerika qadınları qədər aktiv, əhəmiyyətli rollara malik olsalar, onlar da digər vətəndaşlara sübut edərlər ki, onlar da hamı kimidir və heç də onların sandığı kimi qorxulu deyillər.

2016-cı ildə Rioda Olimpia Oyunları keçiriləndə başıbağlı yarışlara çıxan Amerika müsəlman qadını xatırlatmaq yerinə düşərdi. Həmin qadın bu oyunlarda bürünc medal almışdı (Harvard, S., 2016).

Hicab geyən qadınlar ABŞ qanunları ilə müdafiə olunurlar. ABŞ Konstitusiyasına əlavə edilən birinci və dördüncü düzəlişdə dövlətin qadınlara hicabı örtmə qadağası qoyma haqqı yoxdur və bu, tətbiq olunarsa, diskriminasiya hesab olunar. Əlbəttə, bu dövlətin maraqlarının əksinə işlərsə, o zaman dövlətin şəraitə uyğun sərəncam verməsi məqbul hesab oluna bilər.

Əlbəttə, ABŞ-da nə qədər müsəlman qadın dininə görə diskriminasiyaya məruz qalması haqqında dəqiq statistik göstəriciləri əldə etmək çətindir. ABŞ-da müsəlman qadınlar hicab və niqaba görə həm iş yerlərində, həm də ictimai yerlərdə, hətta baseynlərdə və məktəblərdə neçə onilliklərdir ki, diskriminasiyaya məruz qalırlar.

Beləliklə, xüsusilə hicab və ya niqab geyinən müsəlman qadınlar çiyinlərində çox ağır yük daşıyırlar. Hicab və niqab geyinən müsəlman qadınlar dininə görə cəmiyyətdə daha tez bəlli olduqlarına görə bu qadınlar diskriminasiya, riskə və hücüma daha tez məruz qalırlar.

Müsəlman qadınlara bir sıra kontekstlərdə hicab geyinmək qadağan olunmuşdur. Bəzən hicab geyən müsəlman qadınlar təhqir olunurlar, işdən qovulurlar, onların ictimai yerlərə girmələrinə mane olurlar. Bu hallar xüsusilə də 11 sentyabr hadisələrindən sonra daha da intensivləşmişdir.

ABC-nin məlumatına görə, ABŞ-da biri şagird, digəri polis məmuru olan iki hicablı qadın təhqirlərə məruz qalmışlar. İlk hadisə Manhettendə, 6 nömrəli metro stansiyasında qeydə alınmışdır. 18 yaşlı hicablı ABŞ vətəndaşı Yasmin Seveidi metroda 3 sərxoş kişi sözlə təhqir edir. Metroda hicaba görə təhqir edildiyini deyən yeniyetmə müsəlman qız sərnişinlərdən heç kimin ona dəstək vermədiyini və hadisə zamanı ətrafdakıların ona etinasız qaldıqlarını qeyd etmişdir.

Digər bir hadisə isə Nyu-Yorkun Bruklin yaxinliginda yaşanmışdır. “Daily News”un verdiyi xəbərə görə, hicablı Emel Elsokari işdən sonra oğlu ilə avtomobilini park edib maşından enərkən onları təxminən 30 yaşlı bir kişi təhqir etmişdir. Silahı üstündə olmasa da, oradakı qadın polis ana ilə oğlunun üstünə qışqıran şəxsi avtoparkdan uzaqlaşdıra bilmişdir.

**Dini kitabların dilinin gender stereotipləşməsinə təsiri (İncil).** Müasir mədəniyyətdə dini kitabların tərcümə tarixləri və İncilin yenilənmiş dərci daima gender təqdimatı ilə əlaqələndirilir. Qərb aləmində hər bir böyük denominasiya (katoliklər, metodistlər və başqaları) qadınlar üçün məxsusi İncil dərc etdirirlər.

Bir çox tədqiqatçılara görə, İncil Avropa və Amerika mədəniyyətinə əhəmiyyətli dərəcədə təsir etdiyi üçün siyasi kitab hesab oluna bilər. Feminist alimlərin əksəriyyətinin iddiasına görə, İncildə nəinki kişilərin sözləri yazılmışdır, hətta İncil patriarxata,

gücə, dominantlığa xidmət edən kitabdır. Belə ki, oradakı həqiqətlər kişi anlamında olan həqiqətlərdir, burada qadınları *görünməz* və ya *marqinal* hesab edirlər. İncildə əsasən, kişilərin isimləri və fəaliyyətləri işıqlandırılır, qenealogiyada (nəsil tarixini öyrənən yardımçı elm) kişi nümunələri istifadə olunur, qadın və analar nadir hallarda xatırlanırlar. Şübhəsiz, bütün bunlar İncilin patriarxal gücünü azaltmaq istəyənlər üçün ciddi problemlər yaradır.

"İnqilabçı" ilahiyyatçılar hesab edirlər ki, yeni feminist İncil yaratmaq o qədər də yaxşı ideya deyildir. Onlar əmindirlər ki, patriarxatın qədim dilinin dəyişdirilməsi onların mübarizə apardıqları patriarxal obrazların maskalanması təhlükəsinə gətirib çıxara bilər. İdeya, metafor nümunələrində, İncil mətnlərinin tarixində diskriminasiya aydın görünür. Rekonstruktiv istiqamətli feministlər qadınlar üçün İncilin xüsusi versiyasını nəşr etdirdilər. İlk dəfə belə bir İncil milli qadın sufrajist assosiasiyasının prezidenti E.Stanton tərəfindən çap etdirilmişdir. Bu versiyalarda qadın itaətkarlığını gizlətmək mümkün olmayan bir neçə epizod İncildən çıxarılmışdır. Məsələn, Efesyana nəsihət (5: 22-24), Korinfyana nəsihət (11: 3-16,14: 34-35), Timofeya nəsihət (2:11-15), Pyoturun nəsihətinə nəsihət (3:1-6) İncildən çıxarılmışdır.

XX əsrin sonundan İncilin müasir ingilis dilinə tərcüməsi problemi cəmiyyətdə linqvistik-siyasi korreksiya tendensiyası ilə müşayiət olundu. Mədəni plüralizm ideyası, yəni cəmiyyətdəki müxtəlif etnik qruplara, seksuallığa, yaşa və sairəyə olan tolerantlıq eksklüziv dil istifadəsi ilə, gender neytral dillə ifadə olunurdu. Eksklüziv dil deyəndə, bu, qadın və kişi genderi əvəzinə istifadə edilən əvəzlik və başqa nitq hissələrin də gender neytral dillə əvəz olunmasıdır. Bu şəkildə olan dil 1970-ci və 1980-ci illərdə ABŞ universitetlərində aprobasiyadan keçdi və bir çox məktəblərdə bu tip dil normativ kimi qəbul olundu. Bu qaydaya görə, kişilərə məxsus əvəzliyin insanlara müraciətdə qeyri-müəyyən gender əvəzinə istifadəsi qadağan olunurdu. Həqiqətən, mükəmməl və sistematik şəkildə inklüziv dilin istifadəsi ilə müşayiət olunan İn-

cilin ilk standart versiyası (New Revised Standard Version) 1990-cı ildə dərc olundu. Tanrıya istinadən yazılan qeydlərdə gender neytral dildən istifadə edilməsə də, bir çox feminist interpretasiyalar oldu. İncilin bu versiyasında insanlara ümumi gender kimi nəzərdə tutulmayan şəkildə müraciət ediləndə (məsələn, Pyotr və Pavelə nəsihətdə) orijinal mətndə *bacı və qardaşlar* kimi müraciət əvəzinə, *adelfoi* (qardaşlar) kimi müraciət olunur.

Əhdi-cədiddə (xristian dini kitablarının adı) təxminən 550 dəfə təsadüf olunan "anthropos" yunan sözü, təxminən 50 % "insan-camaat" kimi tərcümə olunaraq, həm kişi, həm də qadın genderi əvəzinə istifadə olunur. İngilis dilində olan ənənəvi versiyalarda da *man*, *a man*, *the man*, *men* kimi sözlər *insan, kişi* və *camaat* mənasında istifadə olunur. Kişi və qadın genderi əvəzinə işlədilən kişi genderin istifadə olunması qadın genderin diskriminasiyası anlamını verir. Nəzərə alsaq ki, İncilin tərcüməsi yüzillər boyu heç bir dəyişikliksiz mövcud olub, baş verənləri Qərb cəmiyyətində gedən siyasi dəyişikliklər, xristian Avropa və Amerika cəmiyyətində gender stereotiplərin dəyişdirilməsi kimi qiymətləndirmək olar.

## Ədəbiyyat:

**Azərbaycan dilində**

1. Hüseyn Tövfiqi, "*Böyük dinlərlə tanışlıq*", Bakı, 2013

**İngilis dilində**

2. Alfred W. Kaszniak and Rita M. Gross, "*How American Women Are Changing Buddhism*", "Lumbini", Shantum Seth, "Lumbini", "A Personal Journey", 1 April 2010
3. Anderson, C., "*Reports Jump in Violence Against Muslims*", FBI, U.S., 2002
4. Barreto et al., "*Religiosity, Discrimination and Group Identity among Muslim Americans*", WPSA Annual Conference, 2008

5. Charles H. Lippy, Peter W. Williams, "*Encyclopedia of Religion in America*", SAGE Publishing, 2010
6. David Barrett et al, "*World Christian Encyclopedia: A comparative survey of churches and religions - AD 30 to 2200*", Oxford University Press, 2001
7. Meta Lander, "*Light on the Dark River",* Boston, 1854, P. 13
8. Everett, J. A.C., Schellhaas, F. M.H., Earp, B. D., Ando, V., Memarzia, J., Parise, C. V., Fell, B. and Hewstone, M., "*Covered in stigma? The impact of differing levels of Islamic head-covering on explicit and implicit biases toward Muslim women*", Journal of Applied Social Psychology, 2016, 45: 90–104
9. Frumin, A. & Sakuma, A., "*Hope and Despair: Being Muslim in America after 9/11*"., 2016, NBC News
10. Harvard, S., "*Meet these 14 incredible Muslim women Athletes who Won Medals at the 2016 Rio Olympics*," Mic Network Inc., 2016
11. Lynne Marie Kohm, "*Christian Perspective on Gender Equality*," in Duke Journal of Gender Law and Policy, Duke University, Volume 15:339, 2008
12. Nasaw, D., "*Georgia judge jails Muslim woman for wearing headscarf to court*", 2008, The Guardian
13. Rahman, Fazlur., "*Islam: An Overview, Encyclopedia of Religion*". Ed. Lindsay Jones. Vol. 7. 2nd ed. Detroit: Macmillan Reference USA, 2005.
14. Rita M. Gross and Shambhala Sun, "*How American Women Are Changing Buddhism*", Shambhala Sun Foundation, 2005
15. Rosemary Skinner Keller and (Eds.), "*Encyclopedia of Women and Religion in North America: Women and religion...*", Indiana University Press, 2006
16. Schaeffer, R. T., "*Racial and Ethnic Groups*", 14 ed., New Jersey: Pearson, 2015

17. Stark, Rodney, "*Physiology and Faith: Addressing the 'Universal' Gender Difference in Religious Commitment*", Journal for the Scientific Study of Religion, 2002
18. "*The Columbia Electronic Encyclopedia*", 6th ed., 2012, Columbia University Press
19. The Pew Research Center, 2016, A New Estimate of the U.S. Muslim Population. Woods, James C. (2003). The Third Tower: The Effect of the September 11th Terrorist Attacks on the American Jury System. Alabama Law Review

**Rus dilində**

20. Г.Ф.Ильин, "Законы Ману", Наука, Главная редакция восточной литературы, НИЦ Ладомир. 1992г., 360 с.

# VIII FƏSİL

## ABŞ-da miqrasiya, multikulturalizm və gender

Tədqiqatın hədəfində Amerikada miqrasiya, multikulturalizm, feminizm siyasəti və ideolagiyası məsələləri durur və onların arasında əlaqə araşdırılır. Tədqiqatda miqrasiya, multikulturalizm və feminizm, gender bərabərliyi ilə mədəniyyət fərqliliyi arasındakı əlaqə və gərginlik barədə aparılan araşdırmalar təqdim olunur.

Miqrasiya iqtisadi, sosial, mədəni və siyasi mənaları özündə ehtiva edən geniş spektrli bir anlayışdır. Miqrasiya yaşayış yerinin dəyişdirilməsi ilə əlaqədar əhalinin bir yerdən başqa yerə köçməsi kimi izah olunur. Başqasının vətəninə müvəqqəti və ya daimi yaşamaq üçün köçən şəxs miqrant və bu proses isə miqrasiya adlanır. BMT-nin məlumatına əsasən, hal-hazırda dünyada 232 milyon miqrant mövcuddur (UN Department of Public Information, 2015). Miqrasiya prosesləri, qloballaşma proseslərinə səbəb olan inteqrasiya, mədəni müxtəliflik kimi amillər multikulturalizmin formalaşmasını təmin edən əsas aspektlərdəndir.

Multikulturalizm isə eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrin mədəniyyət və hüquqlarını tanıyan, onlara hörmət etməyə qabil olan humanist dünyagörüş və siyasətdir. Multikulturalizm müxtəlif mədəni köklərə bağlı insanların birgə yaşadığı cəmiyyətdə mədəni müxtəlifliyi qəbul edib tanıma və onların dəyərlərinə hörmət etmə siyasətidir. Mədəni müxtəliflik cəmiyyətin mal-mülkü kimi saxlanılmalı və tanınmalıdır (Siim, Birte, 2007: 416).

**Amerikada miqrasiya və multikulturalizmin tarixi aspektləri**. "*Bir dəfə Amerikadakı miqrantların tarixindən yazmağı*

*düşündüm. Sonra anladım ki, miqrantlar elə Amerika tarixinin özüdür*" (Oskar Handlin). Multikulturalizmin başlanğıcı elə kütləvi miqrasiyanın başlanğıcı ilə eyni vaxta düşür. ABŞ-da miqrasiyanın tarixi nə qədər qədimdirsə, elə multikulturalizmin tarixi də onun qədər qədim dövrlərə gedib çıxır.

Məlum olduğu kimi, Amerika miqrasiyası qeyri-qonaqpərvərliyi ilə xarakterizə olunur. Amerikada yaşayan vətəndaşlar ya güclə qul kimi ölkəyə gətirilənlərdir, ya müstəmləkə həyatı yaşamağa məcbur olan yerli aborigenlərdir, ya da macəra sevən avropalı səyahətçilərdir. ABŞ miqrasiyasının kökündə miqrasiyaya qarşı rəsmi və eksplisit məhdudiyyətlər durur və bu ölkədə hər zaman qeyri-ağdərililərə və digər siyasi, irqi, mədəni, sosial və ya etnik azlıqlara qarşı xöş olmayan yanaşma mövcud olmuşdur (Ian Haney Lopez, 2006). Amerika əhalisinin böyük bir qismi miqrantlardan ibarət olduğu üçün Amerika miqrasiyasının tarixindən bəhs etmək çox vacibdir. Belə ki, əvvəllər Amerikaya miqrasiya üçün heç bir məhdudiyyət görməyən miqrantlar ABŞ-ın müstəqilliyi dövründə bəzi qadağalarla üzləşmişdir.

1787-ci ilin, 17 sentyabrında ABŞ-ın Filadelfiya ştatında dövlətin Konstitusiyası qəbul olunmuşdur. 1789-cu ildə ABŞ-da ilk dəfə prezident seçkiləri keçirildi, Corc Vaşinqton seçicilərin 100 % hesabla səsini topladı və ölkə prezidenti seçildi. Corc Vaşinqton 30 aprel 1789-cu ildən 1797-ci ilin 4 martına qədər bu postda qaldı (Elşən Bayramzadə, 2012).

Müstəqillik dövrünə qədər ABŞ tarixinə nəzər yetirmədən toxunulan mövzuya tam aydınlıq gətirmək mümkün deyildir. Müstəqillik dövrünə qədər müxtəlif tarixi dövrlərdə və müxtəlif tarixi şəraitlərdə ABŞ-a gələn miqrantlar, məşhur Amerika tarixçisi Oskar Handlinin təbirincə desək, elə bugünkü ABŞ-ın tarixini yazmışlar.

Məlum olduğu kimi, Amerikaya miqrantların ilk gəlişin tarixi çox qədimlərə gedib çıxır. Əlimizdə olan məlumatlara görə, Şimali Amerika sahillərinə ilk qəlib çıxan səyahətçilər Leyf Erik-

sonun başçılığı altında İslandiya vikinqləri olmuşdur. Bu, təxminən ilk minnilliyə təsadüf edir. Onların ayaq izləri Kanadanın Nyufaunlend əyalətinə qədər gedib çıxır, lakin vikinqlər burada uzun müddət qala bilmədilər və yeni qitə ilə əlaqələrini itirdilər.

Amerika haqqında məlumat Avropaya təxminən 1492-ci ildə Xristofor Kolumbun Vest-İnd adasına səyahətindən sonrakı dövrdə gəlib çatmışdır. 1498-ci ildə Yeni İngiltərəyə, yəni ABŞ-a növbəti səyahətçi ingilis Con Kabot gəlir, daha sonra isə 1513-cü ildə ispan dənizçisi Xuan Ponse de Leon Florida sahillərinə qədər gəlib çıxır.

Bəzi məlumatlara görə, Amerikanın yerli sakinlərinə hindu adını elə Xristofer Kolumb vermişdir. O dövrdə Amerikada 300-dən çox dildə danışan xalq yaşayırdı. Müasir dövrdə bu dillərin çoxu itib-batmışdır. O dövrdə əhalinin əsas hissəsini hindular təşkil etsə də, hazırda onlar ABŞ əhalisin cəmi 1,6 %-idir (cəmi 5 milyon). Bəzi mənbələrdə onları millət olaraq yankilər də adlandırıblar, bu indi təhqir mənasında anlaşılır. Kolumbla birlikdə və ondan sonra gələn ispanlardan əlavə, bu torpağa Avropanın digər millətləri də üz tutmuşlar. Amerika ingilislər və fransızlar tərəfindən müstəmləkə ölkəsinə çevrilənə qədər artıq çoxsaylı ispan bu torpaqlarda məskunlaşmışdı. Onlar əsasən, Florida sahillərində yaşayırdılar (Səmayə Mustafayeva, 2009).

Amerikada miqrasiya dövrü əsasən *dörd dalğa*ya bölünür. İlk dalğa 1607-ci ildən 1830-cu illərə qədərki dövrə düşür və miqrantların sayının 1,2 milyon olması haqqında məlumat verilir. Təəssüf ki, bu dövrün miqrantları heç bir yerdə rəsmi qeydiyyatdan keçməmişlər. 1755-ci ildə Pensilvaniya Assembleyasında yeni gələn miqrantlara qarşı tənqidi çıxışlar edildi və 1798-ci ildə ilk anti-miqrant qanun qəbul olundu. Tənqidi fikirlərin əsasını miqrantların ölkə üçün təhlükə olma arqumenti təşkil edirdi və ölkədə sülhü qorumaq üçün bu addımı atmaq lazım idi. Yeni qanuna əsasən, artıq vətəndaşlıq almaq üçün 5 il deyil, 14 il tələb olunurdu.

Amerikaya (Virciniya) ilk ingilis səyahətçiləri 1607-ci ildə üz tutdular və tütünçülük sənayesini inkişaf etdirdilər. Avropalıların Amerikaya olan marağı təkcə burada olan zəngin təbii resurslara görə deyil, həmçinin bu torpaqda olan dini və siyasi azadlığa görə idi. Dinin qoyduğu məhdudiyyətlərdən və siyasi qadağalardan uzaq Amerika, avropalılar üçün böyük maraq doğururdu. İlk gələnlər, əsasən, kişilər idi və Amerikada iş yerləri o qədər çox idi ki, bütün miqrantların işləmək imkanı olurdu.

1630-1643-ci illərdə Yeni İngiltərədə yaşayan ingilislərin sayı 45 mini keçmişdi. Sonralar almanların (lüteranlar) da bu torpağa marağı artdı və onlar əsasən Pensilvaniya (1775-ci ildən sonra) üz tutdular. Əvvəllər dindən uzaq olan Amerikada, artıq dinin elementləri gözə dəyməyə başladı. Bununla bərabər, digər avropalılar da (fransız, isveç, italyan, polyak və başqa millətlər) öz dinlərini təbliğ etməyə başladılar. Artıq Amerikada çox mürəkkəb bir cəmiyyət formalaşmağa başlayırdı. Daha sonralar, Amerikanın müstəqillik əldə etməsi ilə ölkədə köklü dəyişikliklər baş verdi.

1770-ci illərin əsas şüarı bütün insanlara bərabər hüquq vermək idi. 1770-ci ildə "Müstəqillik Deklarasiyası"ında əsas ideya Tanrının hər kəsi bərabər yaratması idi. Məlum olduğu kimi, Amerikada şimallılarla cənublular arasında tarixi bir münaqişə mövcud idi. Bütün bu şüarlara rəğmən, qaradərili amerikalılar ağdərililər tərəfindən hələ də qul kimi gecə-gündüz istidə, soyuqda çox az əmək haqqı ilə işləməyə məcbur edilirdilər.

*İkinci* miqrasiya *dalğa*sı 1830-cu illərlə 1880-cı illər arası dövrə təsadüf edir. Həmin dövrdə miqrantların (əsasən, irlandiyalı və almaniyalılardan ibarət idi) sayı 15,3 milyona çatmışdı və Nyu-York ştatında artıq miqrasiya mərkəzi açılmışdı. İrlandiyalı miqrantlar Amerikanın Qərbinə (Nyu York, Boston, Filadelfiya) üz tutdular. Gələn kişi miqrantlar kanal qazırdılar, dəmir yolu çəkirdilər, qadınlar isə varlıların evlərində ödənişli xidmət işləri görürdülər. Dövlət və yerli hökümət qurumları miqrasiya əley-

hinə bəzi qanunlar qəbul etdilər. Asiyadan, xüsusilə Çindən gələn miqrantlarla Amerikada çoxdan yaşayan yerli sakinlər arasında münaqişə baş qaldırdı və ölkədə irqi ayrı-seçicilik hökm sürürdü. Amerikada çinli-amerikalıların vətəndaşlıq hüququ almalarına çoxsaylı əngəllər var idi (R. Abramitzky and eds., 2014).

*Üçüncü dalğa* 1890-1920-ci illər arası dövrə təsadüf edir və miqrantların sayı artıq 22.3 milyona çatmışdı. Bu Amerikaya olan miqrasiyanın pik nöqtəsi idi. Miqrantlar əsasən Böyük Britaniya, Almaniya və Skandinaviyadan gəlirdilər. Rusiyada bolşevik inqilabı zamanı qırmızılardan qaçanlar, I Dünya Müharibəsindən sonra yoxsulluq həddinə çatan avropalı vətəndaşlar nicatlarını Amerikaya üz tutmaqda görürdülər. Həm yerli əhalinin narazılığı, həm də çoxsaylı miqrantların yaratdığı problemlər dövləti miqrasiya ilə bağlı yeni qanunlar qəbul etməyə vadar etdi. Bu səbəbdən də, qanunla ölkəyə gəlmək istəyən miqrantların sayına ciddi məhdudiyyətlər qoyuldu.

*Nəhəng ölkədaxili miqrasiya* 1900-1970-ci illər arası dövrə təsadüf edir və bu dövrdə ölkəyə üz tutan miqrantların sayı10 milyona çatırdı. Amerikanın qapısı xaricdən gələn miqrantların üzünə bağlandığı üçün XX əsrin ortalarında Amerikanın Cənubundan Şimalına, xüsusilə də, kəndlərdən Detroit və Los Ancelesə yerli əhali arasından çoxsaylı axın başladı.

*Dördüncü dalğa* 1965-ci ildən bu günə qədərki dövrə düşür. Artıq ABŞ əhalisinin sayı 323.1 milyona (miqrantların sayı 30 millyon) çatır. Bunlar Latın Amerikasından və Asiyadan gələn miqrantlar idi. Bu dalğa Amerika cəmiyyətinin tərkibini yenilədi və sanki ona yeni bir nizam verdi. Bu Afro-Amerika mənşəli vətəndaşların bərabərhüquqluğu uğrunda mübarizə dövrünə təsadüf edir. Bu dövrdə dövlət yenidən miqrasiya qanununa nəzər saldı və yeni miqrasiya qanunu qəbul etdi (Proper, Emberson, 2003).

Bu dövrün miqrasiyası zamanı ya ailələri ilə birlikdə miqrasiya edənlərə, ya da ABŞ-da ailə üzvlərindən birinin vətəndaşlıq haqqı olanlara üstünlük verilirdi. Yəni qohumları ABŞ-da yaşayan miq-

rantlara ölkəyə daxil olub orada yaşamaq imkanı verirdilər, çünki gələn miqrantlar qohumlarının qəyyumluğuna keçirilirdi.

Miqrasiya, sözsüz ki, ABŞ-da yaşayan əhalinin etnik tərkibini də dəyişmişdir və ümumilikdə, qaradərili əhalinin sayı ağdərili əhalinin sayını ötüb keçmişdir. Amerika sanki "göyqurşağı cəmiyyət"inə çevrilmişdi.

Yuxarıda qeyd etdiyimiz kimi, miqrasiya ilə multikulturalizm bir-biriləri ilə o qədər əlaqədardır ki, onları ayrılıqda tədqiq etmək qeyri-mümkündür. Hələ, XIX əsrin birinci yarısında kütləvi miqrasiyanın iqtisadiyyat və cəmiyyətin inkişafına çox böyük təsiri var idi (Ann Katherine Isaacs, 2007: 38*).* Miqrant axını öz-özlüyündə Amerikanın milli mifinin görkəmli bir xüsusiyyəti olmuşdu. Qaynar qazan (melting pot) ideyası bütün miqrant mədəniyyətlərinin dövlət müdaxiləsi olmadan qarışması və birləşməsini nəzərdə tutan bir metafordur (Zangwill, Israel, 1908). Qaynar qazan nəzəriyyəsi hər fərdi miqrantın və hər bir miqrant qrupunun Amerika cəmiyyətinə öz tempində assimilyasiya edilməsini nəzərdə tutan nəzəriyyədir. Bu, yuxarıda təsvir edilən multikulturalizmdən fərqlidir, bura tam assimilyasiya və inteqrasiya daxil deyildir (Marcelo M. Suárez-Orozco eds, 2005*:* 39). Orijinal milliliyin amerikalaşdırılmış versiyasında, etnik dəyərlər və bayramlar yaşadılır. Qaynar qazan ənənəsi Amerikanın bünövrəsini qoyan atalara gedib çıxan milli birlik inamı ilə birlikdə yaşayır. Bu ölkə və bu insanlar elə bil bir-biriləri üçün yaradılmışdı və bu insanlar möhkəm tellərlə bir-birilərinə bağlanmışdılar.

Bir fəlsəfi cərəyan olaraq, multikulturalizm ən çox praqmatizm hərəkatın bir hissəsi kimi, XIX əsrin, sonra isə XX əsrin sonlarında siyasi və mədəni plüralizm kimi Avropada və ABŞ-da gündəmə gəlmişdir (Peter Caputi and *eds.,* 2006: 18). Vilyam Ceymz (William James, 1909) "plural" cəmiyyət ideyasını dəstəklədi. Ceymz plüralizm dedikdə "fəlsəfi və sosial humanizmin formalaşmasına təkan verən daha yaxşı, daha eqalitar bir cəmiyyət yaratmaq" üçün vacib hesab olunan elementləri nəzərdə

tuturdu (Boening, Astrid B., 2009). Ümimiyyətlə, plüralizm fikir müxtəlifliyi, hər hansı problemə (ictimai-siyasi, sosial və s.) yanaşmada fərqli baxışların olması deməkdir.

Uzun-uzadı müzakirələrə baxmayaraq, böyük həcmli miqrasiya islahatı 1990-cı ildə qəbul olunan Miqrasiya Aktı vasitəsilə mümkün oldu (Immigration Act of 1990). Bu qətnaməyə 2012-ci il prezident seçkisindən sonra müəyyən əlavələr olundu. 113-cü Konqres (2013–2014) mövcud miqrasiya qanunvericiliyi sisteminin islahatı istiqamətində böyük işlər gördü. 2012-ci ildə prezident seçkilərində Latin amerikalı seçicilərin böyük dəstəyini alan B.Obama, miqrasiya qanununda apardığı islahatlar sahəsində həm demokratlar, həm də respublikaçılarla həmrəy ola bildi (Elise Foley & Sam Stein, 2012). Təqdim olunan müxtəlif layihələrin müzakirəsindən sonra miqrasiya qanunu Nümayəndələr Palatası və Senat tərəfindən təsdiq edildi və 2013-ci ildə Sərhəd Təhlükəsizliyi, İqtisadi İmkanlar və Miqrasiya Modernləşmə Aktı qəbul olundu (Border Security, Economic Opportunity, and Immigration Modernization Act, S. 744, 113th Cong., 2013).

**Multikulturalizm və gender bərabərliyi.** Bəzi feminist alimlərə görə, gender bərabərliyi və multikulturalizm arasındakı münaqişə bitməyən, sonu görünməyən bir konfliktdir və bunlar bir-biri ilə uzlaşmayan iki fərqli layihədir. Qadınlar və etnik azlıqlar sanki rəqabətdədirlər, hər iki qrup bərabərsizlikdən əziyyət çəkir, əslində, bunlar müştərək bərabərlik layihəsinin bir-biri ilə əlaqəli iki hissəsidir. Təəssüf ki, gender bərabərliyi mədəniyyətdən qoparılmışdır və bəzən bu, abstrakt ideal kimi anlaşılır. Gender və mədəniyyət arasında dərin konflikt mövcuddur və bu vaxta qədərki elmi ədəbiyyatlarda bu sahənin tədqiqi səthi aparıldığına görə, onları araşdıranda konkret situasiyanı da nəzərdən qaçırmamaq tədqiqatın vacib şərtlərindəndir.

Multikulturalizm və ya çoxmədəniyyətlilik yeni bir cərəyan olmasa da, bu barədə önəmli tədqiqatlar əsasən 1970-ci illərdə ABŞ və Kanadada başlamışdır. Dünyada 10 % ölkə tapmaq olar

ki, burada cəmiyyətlər eyni mədəniyyətli, eyni millətlidir. Bəzi mənbələrə görə bu rəqəm bir az da yüksəkdir. İngilis sosioloqu Natan Qleyzer hətta öz kitabına "Biz hamiliqla multikulturalistik" adını vermişdir (Nathan Glazer, 1997). Hindistanlı filosof B.Parex də Qleyzeri dəstəkləyərək qeyd edir ki, "*praktiki olaraq bütün inkişaf etmiş cəmiyyətlər çoxmədəniyyətlidir*".

Bu məsələnin təqdiqatında cox önəmli amillər var ki, onları nəzərə almadan hərtərəfli tədqiqat aparmaq mümkün deyildir, məsələn, mədəniyyət müxtəlifliyi, etnik və dini fərqlilik, fərdiyyətçilik və ənənəvi əxlaq konsensusu, miqrasiya və qloballaşma. Məlum olduğu kimi, cəmiyyətin sosial-mədəni, etnik və digər fərqlilikləri tez-tez cəmiyyətin sosial sakitliyini pozur, cəmiyyətdə sülhün mövcudluğuna xələl gətirir və nəticədə, müxtəlif qarşıdurmalar baş verir. Bu səbəbdən də eyni cəmiyyətdə yaşamağa məcbur olan xalqlar hamı üçün uyğun olan ümumbəşəri dəyərlərə önəm verməlidirlər.

Müxtəlif xalqların mövcud olduğu cəmiyyətlərdə birgə yaşamağın rahat yollarından biri və ən əsası *assimilyasiya*dır. Assimilyasiya kiçik xalqların dominant xalqın dəyərlərini, adət-ənənələrini öyrənib, həmin dəyərlərlə onlar kimi yaşamağa məhkum olmasıdır. Bu məsələdə əsl milli dövlət hesab olunan - sivil mono-mədəniyyətli Fransa Avropanın böyük ölkələri arasında ən yaxşı nümunədər. Bu ona görə mümkün olmuşdur ki, Fransa Böyük Fransız İnqilabından sonra məqsədyönlü şəkildə mədəni universalizm siyasətini yürütməyə başlamış və sonda həm dünyəvi, həm də vətəndaş dövləti qurmağı bacarmışdı.

Belə vəziyyətin əsas səbəbi ondan ibarət idi ki, Avropadan gələn ağ miqrantlar faktiki olaraq tam assimilyasiya modelinə uyğun idilər, çünki onlar bura gəlməklə, könüllü olaraq tarixi köklərindən ayrılmaq və Amerika identifikasiyası içərisində ərimək istəyirdilər. Bu ona görə mümkün olmuşdur ki, bu ölkəyə köç edənlərin özləri bu niyyətdə idilər.

*İkinci model* etnomədəni, fərdi identikliyi nəzərə alan yaşam tərzidir ki, buna da *inteqrasiya* deyilir. Bu zaman ictimai-siyasi və özəl sfera arasında ciddi fikir ayrılığı olur. İctimai-siyasi sferada cəmiyyətin bütün üzvləri qeyd-şərtsiz bərabərlik prinsiplərinə riayət edir, ikinci sferada isə mədəni, etnik, dini və digər meyarlar ayrı-ayrı insanların şəxsi işinə çevrilir. Onu da qeyd etmək lazımdır ki, belə olan halda, adətən mədəni, etnik, dil fərqlərini yoxa çıxarma istiqamətində gizli siyasət aparılır. İkinci modeli dəstəkləyən ölkə etnik millət dövləti adlanır (məsələn, Almaniyanı bu tip dövlət hesab etmək olar).

XX əsrin ortalarında formalaşmış Amerika cəmiyyəti nə vətəndaşlıq statusuna görə Fransa, nə də etnikliyə görə Almaniya nümunəsinə bənzəyirdi. O daha çox *etno-vətəndaş* tipli cəmiyyətdən ibarət idi, hərçənd bu iki xarakteristikanın sintezindən də danışmaq çətindir, çünki onlardan biri (vətəndaşlıq) ağ əhaliyə, digəri isə (etniklik) qalan bütün vətəndaşlara aid idi. Bütün bunlar etnoslararası münasibətlərdə gərginlik, ksenofobiya (əcnəbi qorxusu-digər millətlərə nifrət) və daimi sosial partlayış təhlükəsi yaradırdı.

*Üçüncü model* bütün dünyada geniş yayılan və daha mükəmməl model hesab edilən *multikulturalizm* modelidir ki, burada yuxarida toxunulan modellərdə qarşıya çıxan çətinlikləri mədəni və milli problemləri həll etmək vasitəsilə yoluna qoyurlar. Bu modelin ən yaxşı nümunəsi Kanada və ABŞ dövlətidir.

Əlbəttə, ABŞ-da bununla bağlı situasiya kifayət qədər mürəkkəbdir, çünki ABŞ etno-mədəni strukturuna görə dünyada ən mürəkkəb cəmiyyətdir. Onun əhalisi ən azı beş elementi özündə ehtiva edir: yerli xalq hesab edilən hindular; satış məqsədilə kütləvi şəkildə Afrikadan bu ölkəyə gətirilən qullar; müxtəlif dinlərə mənsub olan kolonistlərin ilk dalğası; anqlo-sakson mənşəli siyasi və iqtisadi elita; təkcə Avropadan deyil, sonradan Latın Amerika və Asiya ölkələrindən gələn miqrantlar.

Amerikada yaşayan digər əhali bir sıra səbəblərə (hindulara qarşı törədilən soyqırım, afro-amerikalılara qarşı aparılan iqrçilik,

meksikalı, kubalı, puerto rikalı, dominikanlılara qarşı olan diskriminativ siyasət) görə inteqrasiyaya çətin getdikləri üçün mövcud situasiya özü bu cəmiyyəti multikulturalizmə gətirib çıxardı.

1960-cı illərdə (əhalinin əsas hissəsi iki əsr əvvəl Afrikadan gətirilən qullardan ibarət idi) ABŞ-ın cənub ştatlarında yaşayan qaradərililərə qarşı tam diskriminasiya mövcud idi. Belə ki, onlar ağdərililərin yaşamadığı kvartallarda yaşayırdılar, onların övladları ağdərili vətəndaşların övladları ilə birlikdə təhsil ala bilmirdilər, hətta onların istifadə etdikləri nəqliyyat da ağdərililərlə eyni deyildi, ayrı idi. Onlar ağdərililərin yemək yedikləri restoranlara daxil ola bilməzdilər. Bütün bu amillər Amerikada multikulturalizmə gətirib çıxaran səbəblər idi. Vətəndaş hərəkatının qələbəsi nəticəsində, yuxarıdakı xalqlar da ağdərili amerikalılarla eyni hüquqlar əldə etdilər və onlar da Amerika mədəniyyətinə öz töhfələrini verdilər. Ona görə də K.Yunq amerikalı vətəndaşı belə xarakterizə edir: "*Amerikalı, qəlbi hindu və manerası afrikalı olan avropalıdır. Bu Amerika cəmiyyətinin nüvə və fundamenti ağdərili anqlo-sakson və protestantdır. Amerika mədəniyyəti elə dominant anqlo-sakson mədəniyyətindən başlamışdır.*"

Multikulturalizmin yaranmasının digər mühüm səbəbi isə neoliberalizmlə əlaqəlidir ki, bu da Amerikada bir çox sosial qrupların təbəqələşməsinə gətirib çıxarmışdı. Bunun nəticəsində, təbəqələrin identikliyi və multikultural meyilləri güclənmişdi. Özünüidentifikasiya və özünüdərk məsələləri fərdiyyətçiliyin artmasına öz təsirini göstərmişdi. O ki, qaldı feminizm hərəkatının güclənməsinə, bu ondan irəli gəlirdi ki, müharibədən sonrakı dövrdə qadınların böyük hissəsi ali təhsil almışdı və onlar iqtisadi müstəqilliyə nail olmuşdu.

**ABŞ-da miqrant qadınlar və mövcud problemlər**. Miqrasiyanın miqrant qadınların həyatında neqativ təsiri olduğu kimi, pozitiv məqamları da çoxdur. Bütün çətinlik və məhrumiyyətlərə baxmayaraq, miqrasiya qadınlar üçün yeni-yeni imkanlar açır,

onların müstəqilliyinə təkan verir və onların həm ailədaxili, həm də ailədən kənar statusunu yüksəldir. Dünyanın bir çox ölkələrini ağuşuna alan iqtisadi böhranı nəzərə alsaq, yoxsul ölkələrdən inkişaf etmiş ölkələrə üz tutan miqrant qadınların ailələri üçün etdikləri fədakarlığın nə demək olduğunu anlamaq çətin olmaz. Bu baxımdan miqrasiya üçün ən uğurlu ölkələrdən hesab olunan ABŞ da qadınların işləmək üçün üstünlük verdiyi yerlərdəndir.

Bu gün ABŞ-da təxminən 21 milyon miqrant qadın yaşayır və bu da ABŞ-da yaşayan qadın əhalinin 13 %-idir. Dünyanın hər yerindən Amerikaya gələn miqrant qadınlar vardır, lakin bu siyahıda ən çox Meksika (25.6 %), Fillipin (5.3 %), Çin (4.7 %) və Hindistandan (4.6 %) gələn qadınlar üstünlük təşkil edir. Amerikaya daimi yaşamaq üçün müxtəlif səbəblərlə gələn miqrant qadınların sayı durmadan artır. Amerikaya üz tutan qadınların arasında tələbələr, müxtəlif sahələrin mütəxəssisləri və başqa peşə sahibləri də çoxdur (UN Population Division, New York, 2013).

Miqrant qadınların arasında Amerikaya ailə qurub yaşamaq məqsədilə üz tutanlara da rast gəlmək olur. Bu məqsədlə Amerikaya gələn qadınların əksəriyyəti eksplisit və ya implisit gender diskriminasiyasına məruz qalırlar. Ta qədimdən miqrasiya ilə bağlı qanunlarda miqrant qadınlara qarşı diskriminativ elementlər mövcud idi və miqrasiya ilə əlaqəli yeni qəbul olunan qanun, təklif edilən qətnamələr də qadın miqrasiyasının şərtlərini çətinləşdirir. ABŞ sərhədləri daxilində qanuni bir şəkildə çalışmaq, öz ölkələrində məruz qaldığı şiddət və istismardan xilas olmaq və Amerika kimi demokratik bir dövlət tərəfindən qanuni şəkildə dəstəklənmək istəyi onları bu ölkəyə üz tutmağa həvəsləndirir.

Həm Konqres, həm də Amerika ictimaiyyəti pozulmuş miqrasiya sistemini yenidən sahmana salmaq, Miqrasiya və Milliyyət Aktına düzəlişlər etmək, növbəti mərhələlərdə düzəlişlərdə gender bərabərliyini saxlamaq istəyir və bundan ötrü ictimai çağırış edirlər. Bu düzəlişi etməklə, digər bir nəsil üçün problem yaratmaq istəməsələr də, buna tam nail ola bilmirlər. Qanunvericilik-

də ayrı-seçkiliyə yol verməməkdən ötrü siyasətçilər, bərabərliyi təcəssüm etdirən və qadınlara qarşı zorakılığı aradan qaldıran siyasət yürütmək istəyirlər və geniş miqyaslı miqrasiya islahatını həyata keçirmək niyyətindədirlər. Bu maddə qadınlar üçün faydalı olan qanunvericilik müddəalarını əhatə edir, gender bərabərliyini nəzərə alır, geniş miqyaslı miqrasiya islahatını müdafiə edir. Beləliklə, yeni miqrasiya qanunu və siyasəti əvvəlki qanunda təsadüf edilən qadınlara qarşı açıq və gizli ayrı-seçkilik elementlərini aradan qaldırmağı öz qarşısına məqsəd qoyur. Miqrasiya qanunvericiliyin I hissəsində qadınları itaətkarlığa sürükləyən elementlərə rast gəlmək olurdu. Bu ayrı-seçkilik, qadın itaətkarlığı öz başlanğıcını miqrasiya ilə əlaqəli qəbul edilən federal qanundan götürür. Bu qanunda ABŞ-a gələ biləcək miqrant qadınlar üçün miqrasiya statusu qazanarkən həm qanunvericilikdə, həm də imkanlarda müəyyən məhdudiyyətlər mövcud idi. II hissədə diskriminasiya elementləri ilə müşayiət olunan miqrasiya islahatının hazırkı vəziyyəti və bu təkliflərlə bağlı ictimaiyyətin şərhləri müzakirə olunur. Əlbəttə, miqrantları hərtərəfli razı sala bilən, mükəmməl qanunvericiliklə müşayiət olunan miqrasiya islahatını qəbul etmək çox çətindir. Qanunvericiliyin bir hissəsini təşkil edən təkliflər, Senat, Sərhəd Təhlükəsizliyi, İqtisadi Imkan və İmmiqrasiya Aktının müzakirələri II hissədə yer alır ("*Border Security, Economic Opportunity, and Immigration Act*", 2013).

Düzdür, dəyişikliklər nə qədər ədalətli olsa da, onları dərhal qəbul etmək mümkün deyildir. Miqrasiya tarixinə nəzər salarkən belə bir nəticəyə gəlmək olar ki, gender-neytral dəyərləri diqqətdə saxlamayan qanun mükəmməl qanun hesab oluna bilməz. Qadın-kişi bərabərliyini əldə etmək sadəcə istəklə deyil, həm də davamlı cəhdlərlə mümkün olur. II hissədə miqrantlıqla bağlı hüquq və siyasətdə gender bərabərliyi nəzərə alınmalıdır. Bir də təkcə qanunun qəbul edilməsi əsas şərt deyil, qanunun həyata keçirilməsində davamlı fiziki-iqtisadi və effektiv dəstəyin olması da vacib şərtdir. Miqrasiya ilə əlaqəli son tarixi qanunda yaxşı mə-

nada dəyişiklik əldə etmək çətin olsa da, gender-neytral normalar istiqamətində müəyyən addımlar atıldı.

Əlbəttə, yuxarıda qeyd olunan dəyişikliklərə bir gündə nail olmaq çətin məsələdir, çünki tarix boyu miqrasiya qanununda açıq və ya gizli şəkildə qadınlara qarşı diskriminativ mövqe mövcud olmuşdur və bu da qadın itaətkarlığına gətirib çıxarmışdır. XIX əsrin əvvəllərində miqrasiya qanununda gizli hüquqi doktrinada qadınlar ərlərinin mülkündən bir az üstün hesab olunmuş və qanunla onların heç bir zaman müstəqil fəaliyyəti dəstəklənməmişdir: Qanunda kişi ilə qadın bir nəfər qismində, qadın isə kişi şəxsiyyətinə əlavə kimi qiymətləndirilirdi. Doktrinada qeyd olunurdu ki, kişi digər mal-mülklər kimi qadına da sahibdir, arvadı və onun gəliri, mal-mülkü, qısası, ona məxsus bütün qiymətli əşyaları üzərində ərin qanuni haqqı vardır. Qadın həyat yoldaşı olmadan hüquqi şəxsiyyət hesab olunmur və heç bir hüquqi müqaviləni əri olmadan imzalaya bilməzdi. Ananın övladları üzərində heç bir hüquqi gücü yox idi. Bununla da, doktrinada bir insanın (arvad) digərinə (ərə) tabe olunmasını təmin edən hüquqi rejim yaradılmışdı (Janet Calvo, 2004 :161).

Yalnız XIX əsrin sonlarında, qadınlara ərazi və şəxsi mülkiyyət hüququ verildikdən sonra onların ərlərinə tabe olmaq məsələləri ilə əlaqəli qanunda az da olsa, yumşaqlıq müşahidə olundu. 1800-ci illərin ortalarında dövlətdə Evli Qadın Mülkiyyəti Aktında yeni versiyalar gündəmə gəldi. Qanunda açıq-aşkar kişi tərəfkeşliyinin olmasına baxmayaraq, bura qadınların əmək və əmlaklarına nəzarət etmək hüquqları da daxil olundu (Yenə orada).

Faktiki olaraq, əvvəlki miqrasiya qanunlarında kifayət qədər gender diskriminasiyası elementlərinə rast gəlmək olurdu. 1917-ci və 1924-cü illərin miqrasiya qanunlarında əcnəbi vətəndaşla evli olan kişi və qadın bir-birilərinin əmlakına petisiya ərizəsi ilə iddia edə bilməzdilər. Petisiya ilə ailənin digər kişi cinsindən olan üzvləri iddia qaldıra bilərdilər (Reva B. Siegel, 1996 :161).

Vətəndaşlıq hüququ almaqla əlaqəli qadınlar üçün bəzi istis-

nalar mövcud idi, belə ki, həyat yoldaşı ağdərili kişi olan ağdərili qadınlara şamil edilə bilən qanun analoji situasiyada qaradərili qadın üçün keçərli olmaya bilərdi. Bəzən miqrant kişi ilə evlənən amerikalı qadın vətəndaşlıq hüququndan məhrum edilə bilərdi.

Konqres 1950-ci illərdə miqrasiya ilə əlaqəli islahatlar aparmaq barədə sərəncam imzaladı. Nəticədə, 1952-ci ildə Miqrasiya və Milliyyət haqqında Akt qəbul olundu. Burada qeyd olundu ki, 1917-ci və 1924-cü illərdə qəbul olunan miqrasiya qanunlarında həqiqətən də qadınlara qarşı açıq-aydın diskriminasiya mövcuddur və evlilik zamanı ailə başçısı kişi hesab olunduğu üçün qadının harada yaşamağı ərindən asılı olurdu ("*Immigration and Nationality Act of 1952*").

Konqresin hesabatında qeyd edilir ki, qadınlara qarşı "adı çəkilən" diskriminasiya miqrantların bir sıra hüquqlarına (vətəndaşlıq hüququ) təsir edir. Konqres hesabatını belə davam edir: "Miqrant qanunvericiliyində mövcud olan cinsi diskriminasiyanın heç bir bəraəti olmadığı üçün buradakı cinsi bərabərsizliklər ləğv olunmalıdır" (Yenə orada). Qanunda bir sıra dəyişikliklər edildi və bunlardan biri də "wife" (arvad) sözünün "spouse" (həyat yoldaşı) sözü ilə əvəz olunması oldu. Ailə zəminində olan zorakılıqlara qarşı mübarizə qanunla dəstəkləndi. 1986-cı ildə Konqres miqrasiya qanununda Saxta Evliliklə bağlı Düzəlişi qəbul etdi və bu, miqrasiya ilə bağlı uğurlu bir islahat oldu ("*Immigration Reform and Control, Simpson-Mazzoli, Act of 1986*"). Bununla da, ABŞ-da əcnəbi vətəndaşların saxta evliliklə Amerika vətəndaşlığı ala bilmə imkanları xeyli məhdudlaşdı.

Amerikada miqrantlarla bağlı qanunlarda daim dəyişikliklər olunur, lakin hələ də mükəmməl bir qanun əldə etmək çətindir. Bu islahatlar 2012-ci illərdən sonrakı dövrə, yəni B.Obamanın prezidentliyi dövrünə daha çox təsadüf edir. 113-cü Konqres (2013-2014) miqrasiya qanun sistemində dəyişikliklər etməsi ilə daha çox yaddaşlarda qaldı. Uzun müzakirələrdən sonra 2013-cü ildə Senatın bununla əlaqəli təqdim etdiyi layihə Sərhəd Təhlükəsizli-

yi, İqtisadi İmkan və Miqrasiya Modernləşməsi tərəfindən qəbul olundu. 2013-cü ilin iyununda layihə Nümayəndələr Palatasına təqdim olundu. Daha sonra Sərhəd Təhlükəsizliyi bu layihəni Senata da təqdim etdi.

Amerikanın bütün mövcud qanunvericiliklərində kişilərə məxsus hüquqların, demək olar ki, hamısının qadınlara da şamil olunmasına baxmayaraq, miqrasiya ilə bağlı qəbul olunan qanunlarda və hal-hazırda təqdim olunan qanunvericilk layihələrində gender bərabərsizliyi məsələləri həllini tam tapmamışdır.

Amerikada yaşayan miqrantların arasında çox sayda sənədləri düzgün olmayan insanlara rast gəlmək olur, bunların da böyük bir qismi qadınlardır. Sənədləri düzgün olmayan əcnəbi miqrantlar, işlədiyi yerlərdə vergi ödəmədikləri üçün sosial və tibbi sığortadan da məhrumdurlar. ABŞ-da miqrantların ən çox işlədikləri sferalardan biri də kənd təsərrüfatıdır. Burada qadınlar çox vaxt tək deyil, ailələri ilə birlikdə işləyirlər. Əmək haqları ailə başçısı hesab olunan kişilərə verilir və qadınlar da demək olar ki, əməkləri müqabilində əmək haqqı almırlar. Qadınların üstünlük təşkil etdiyi digər sahələr xidmət bölmələridir. Onlar qeyri-qanuni olaraq ev işlərində çalışırlar və heç bir yerdə qeydiyyatdan keçmirlər. Əlbəttə, belə olan halda, nə tibbi, nə də sosial sığortalardan danışmağa dəyər.

2013-cü ildə miqrasiya ilə əlaqəli Sərhəd Təhlükəsizliyinin təqdim etdiyi layihədə mükəmməl peşəsi və təhsili olmayan miqrant qadınların ölkədə qalmasını çətinləşdirən təkliflər vardır. Bu, onların ABŞ cəmiyyətində vətəndaşları daha səriştəli, daha savadlı görmək istəyindən irəli gəlir. Amerikada miqrant qadınlar təhsil və peşəkarlığına görə miqrant kişilərdən çox geri qalırlar.

Vətəndaşlığa qəbul zamanı ən əsas, elmi və texniki qabiliyyətləri yüksək olan, ingilis dilində yaxşı danışan gənc miqrantlara üstünlük verilir. Belə ki, ABŞ-ın adlı-sanlı universitetlərindən məzun olan miqrantların arasında kişilər faiz etibarı ilə daha çoxdur və bu səbəbdən də, Amerika vətəndaşlığına iddia edən savadlı kişilərin vətəndaşlıq ala bilmə imkanları daha yüksəkdir. Vətən-

daşlıq hüququnu verən zaman miqrantın ölkəyə investisiya edəcəyi maliyyənin həcmi, görüləcək işlərin məzmunu da nəzərə alınır. Bu işlərdə də kişi miqrantlar daha aktivdirlər. Bu səbəblər bir çox qadın miqrantların viza, oturum izni almalarına, ölkədə qalıb işləmələrinə, vətəndaşlıq hüququ əldə etmələrinə əngəl törədir. Bu o demək deyil ki, kişilərin Amerikada vətəndaşlıq əldə etmə şansları çox yüksəkdir. Bu məsələdə yaşın, təhsil səviyyəsinin, iqtisadi durumun da əhəmiyyəti böyükdür. Məsələn, kasıb, az savadlı, ingilis dili bilməyən yaşlı kişi miqrantların da vətəndaşlıq alma imkanları çox məhduddur.

Vətəndaşlıq və Miqrasiya Xidmətləri və digər administrativ məmurların qarşılarına qoyduqları əsas məqsəd qeyri-qanuni miqrantların ölkədən deportasiya olunmasıdır. Özlərini miqrasiyanın vəkilləri adlandıran və mübarizə fəaliyyətlərində gender bərabərliyinə önəm verən insanlar konservativ vətəndaşlar tərəfindən yaxşı qarşılanmırlar və xoşagəlməz siyasi və ictimai iqlimlə üzləşirlər. Miqrasiya prosesində qadınlar qədər uşaqlar da əziyyət çəkirlər. ABŞ-da onlar heç də gözlədikləri qədər emfatik, ədalətli, demokratik və mülayim situasiya ilə üzləşmirlər.

Beləliklə, cəmiyyətin tabeçilik statusunda olan qadınlar, xüsusilə, kasıb, qeyri-ağdərili qadınlar tarixən deqradasiyaya uğrayırlar və öz hüquqsuzluqları ucbatından çox əziyyət çəkirlər. Nəticədə, qadınlar hüquqi çərçivədə statuslarını artırmaq, gender bərabərliyini inkişaf etdirmək üçün yollar axtarırlar. Tarixə nəzər yetirəndə miqrasiya qanunun və siyasətin hər zaman qadınları pis vəziyyətə salmasının şahidi oluruq. Ən demokratik ölkə hesab olunan ABŞ kimi dövlətlərdə də miqrant qadınlar çox vaxt ikinci sinif insanları hesab olunurlar.

Real gender bərabərliyi miqrasiya qanununda tam əks olunmamışdır, bu qanunun tətbiqində problemlər var və qanun tam işlək hala gətirilməmişdir. Düzdür, son dövrlərdə miqrant qadınların əldə etdiklər uğurlar çoxdur, əvvəllər yalnız kişilərə məxsus olan bir çox hüquqlardan indi miqrant qadınlar da bəhrələnirlər.

ABŞ-da miqrasiya ilə əlaqəli qanunda bir çox dəyişikliklərin edilməsinə baxmayaraq, miqrasiya qanununda qadınlara qarşı təzyiqin bir çox formalarına (miqrant qadının ölkəyə daxil olması haqqında rəsmi icazənin verilməsi, onlara ailə üzvləri tərəfindən rəsmi şəkildə sponsorluq edilməsi və s.) hələ də təsadüf olunur. Beləliklə, miqrant qadının evli olub-olmaması onun ABŞ-da miqrant kimi qalıb-qalmamasına, rəsmi Amerika vətəndaşlığı ala bilməsinə təsir edir.

**Multikulturalizm və feminist hərəkat.** Amerikada feminizm heç bir halda multikulturalizmdən az vacib hesab edilən cərəyan deyildir. Bu hərəkat qadın identifikasiyası (gender) və bir çox ədəbiyyatlarda “cinslərin müharibəsi” adı ilə gündəmə gəlsə də, əslində bu, qadın və kişilər arasında münasibətlərə aydınlıq gətirməkdən ibarətdir. Feminist hərəkatın aparıcı qüvvələrinə görə dominant kişi mədəniyyəti kişilər tərəfindən yaradılmışdır, belə cəmiyyətdə, əsasən, kişi dəyərlərinə üstünlük verilir və bu dəyərlər vahid və ümumi dəyərlər kimi cəmiyyətin bütün üzvlərinə şamil olunur. Kişilərin subyektiv düşüncələrinə görə qadınlar bütün tarix boyu marginal olmuşdur. Ona görə də, feminist hərəkat cəmiyyətdən qadınlara da tarixə və mədəniyyətə xüsusi töhfələr verən insanlar kimi baxmağı və genderlərarası münasibətləri dəyişməyi, özəl və ictimai sferalar da daxil olmaqla cəmiyyətin bütün sferalarında bərabərliyi bərpa etməyi israrla tələb edir.

1970-ci illərdə feminizmin əsas diqqət mərkəzində qadınların siyasi və iqtisadi sahədə sıxışdırılması məsələləri dururdu. Daha sonra genderlərarası münasibətlərdəki problemlərə, seksual zorakılıq və qadın identifikasiyasının spesifik xüsusiyyətləri ilə bağlı məsələlərə yenidən nəzər salmaq planlaşdırılırdı.

Feministləri ən çox narahat edən problem seksual təngəgətirmə idi. Seksual təngəgətirmə problemi çox qəliz məsələ idi və demək olar ki, həlli çox çətin idi. Neçə onilliklərdir ki, Amerika cəmiyyətində mövcud olan bu problemin həlli mütəmadi olaraq gündəmə gətirilir, lakin hələ ki, arzuolunan nəticə əldə etmək

mümkün görünmür. Məsələnin həllinin çətinliyi seksual təngəgətirmənin sübutu üçün lazımi dəlillərin əldə edilməsinin çox çətin olmasıdır. Digər seksual zorakılıqlardan fərqli olaraq, seksual təngəgətirmənin qeyri-aydın xarakteri onu sübut etməyə imkan vermir. Adətən, seksual təngəgətirmədə istifadə olunan ikimənalı ehyamlı sözlər, seksual işarələr, jestlər, söylənilən sözlərin xüsusi intonasiyası ilə müşayiət olunan ədəbzis davranış sonradan baxıldıqda, tam başqa cür görünür, çünki kontekstdən kənarda bu davranış çox adi, bəzən normal görünür. Seksual təngəgətirmə qurbanı, seksual zorakılıq törədən şəxsin hərəkətindəki seksual elementləri sübut etməyə çətinlik çəkir. Əks tərəf onun heç bir pis fikri olmamasını söyləyir, bütün bu anlaşılmazlığın səmimilikdən, xoş münasibətdən irəli gəlməsini sübut etməyə çalışır və hətta bəzən onu günahlandıran tərəfi utandırmağa da nail ola bilir. Qadın isməti, kişi soyuqqanlığı məsələnin əsl mahiyyətini açmağa imkan vermir.

Ümumiyyətlə, mədəni siyasətin yürüdülməsi zamanı liberal dəyərləri əldə əsas tutmaqla, bütün vətəndaşların maraqlarını nəzərə almaq çox önəmlidir. Multikultural Amerika cəmiyyətində bunu nə qədər mükəmməl həyata keçirməyə çalışsalar da, mədəniyyətlərin toqquşması halları çox tez-tez müşahidə olunur. Elə qeyd olunan seksual təngəgətirmə halları da müxtəlif mədəniyyətlərin nümayəndələri arasında daha intensiv şəkildə baş verir, çünki bir millət üçün normal qəbul edilən hər hansı bir jest, davranış elementi digər millət üçün qeyri-etik görünə bilər. Bu eyni cəmiyyətdə yaşayan xalqların nümayəndələrinin bir-birilərinin mədəniyyət, etik normalar və adət-ənənələrindən xəbərsiz olmaları səbəbindən də baş verə bilər.

Əsrlərdir ki, Amerikada çoxsaylı xalqların nümayəndələri eyni cəmiyyətdə yaşayır və yeni-yeni etnik qrupların bu cəmiyyətə axını hələ də davam edir. Ölkəyə gələnlərin arasında qadınların sayı ildən-ilə artır və ilk növbədə onlar multikultural çətinliklərlə üzləşirlər. Düzdür, bu kişilər üçün də cətindir, lakin qadınlar

üçün ikiqat, üçqat çətindir, çünki onlar həm öz milli dəyərlərinin əsas daşıyıcısı hesab olunurlar, həm də yeni daxil olduqları cəmiyyətin əsrlərlə formalaşmış dəyərlərinə hörmət və ehtiram etməyi bacarmalıdırlar.

Amerika multikulturalizm siyasəti yürüdərkən, çox vaxt multikultural siyasətdə uzun yol qət etmiş, inkişaf etmiş Avropa ölkələrinin təcrübəsindən istifadə edir. Amerikaya elə gəlirdi ki, Fransanın "qaynar qazan" prinsipini əlində əsas tutan məcburi assimilyasiya siyasəti multikultural siyasətdə özünün müsbət nəticəsini verə bilən, ən mükəmməl təcrübədir.

Bu elə bir dövrə (1960-cı illər) təsadüf edirdi ki, müxtəlif istiqamətli vətəndaş hərəkatları çox aktivləşmişdi: feministlər, ölkənin qaradərili əhalisi, müxtəlif azlıqların nümayəndələri bərabər hüquq uğrunda mübarizə aparırdılar. 1960-cı illərin fəalları sübut etməyə çalışırdılar ki, multikulturalizmlə bağlı siyasətdə Amerikanın Fransa təcrübəsini əlində əsas tutması o qədər də qənaətbəxş siyasət deyildir, çünki bu siyasət yalnız avropalı miqrantlar üçün uyğun idi, Amerikada vəziyyət bir qədər fərqli idi. Digər mədəni qruplara olan münasibətdə bu taktika tətbiq olunmurdu, əksinə onlara qarşı diskriminasiya mövcud idi. Amerika hinduları, demək olar ki, aparıcı Amerika cəmiyyətindən tam təcrid olunmuşdu, digər qeyri-ağdərili amerikalılar da özlərini əzilmiş, vədəndaşlıq hüququndan məhrum edilmiş, ikinci növ insan kimi hiss edirdilər.

1960-cı illərdə uzun illər dərisinin rənginə görə əzilən xalqlar dərilərinin rənginə görə yeni bir diskriminasiya ilə, "qara irqçilik"lə üzləşirlər. Amerika cəmiyyətində iki bir-birinə zidd cəmiyyət mövcud idi, birincisi, ağdərililərdən ibarət sivil və prioritet, ikincisi isə, mövcud vəziyyətdən narazı qalan və qəzəbli qeyri-ağdərili etnik qruplar. Bu iki xalq qrupu bütün dövrlərdə bir-biriləri ilə münaqişədə olmuş, sosial partlayışın astanasında durmuşlar. Bütün bunlara baxmayaraq, Martin Luterin başçılığı altında vətəndaş haqları uğrunda mübarizə aparan qaradərililər 12

ildən sonra Amerikanın qeyri-ağdərililərinə qarşı diskriminasiyaya son qoya bilmişdilər.

1964-cü ildə ABŞ prezidenti Lindon Conson "Vətəndaş haqları haqqında Akt"ı imzalamaqla, insan həyatının bütün sferalarında hər cür diskriminasiyanı qadağan etdi. "Vətəndaş haqları haqqında Akt" qanunu 1965-ci ildə qüvvəyə mindi. Bu qanuna görə, irq, din və etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların seçicilik hüququ təmin olundu. Bu sənəd amerikalıların bərabərsizlik uğrunda apardığı mübarizənin ən uğurlu nəticəsi idi. 1970-ci illərdə ABŞ-ın XX senatoru Barbara Mikulski Amerikanın mədəniyyət siyasətində "qaynar qazan" prinsipini dəstəklədi. O qeyd edirdi ki, ABŞ çoxmillətli və çoxmədəniyyətli ölkədir, bu ölkədə hər bir vətəndaşın yaşama hüququ vardır, bu ölkədəki müxtəliflik mövcud millətlərin harmoniyası hesabınadır (Куропятник А.И., 2000 :20). Beləliklə də, hökümət etnik azlıqların faktiki və hüquqi statuslarını Amerikanın ağ əhalisi ilə eyniləşdirmək məcburiyyətində qaldı və bu barədə qanun imzaladı. Bu qanun icma halında yaşayan hindulara da şamil olundu. 1975-ci ildə "hinduların təhsilinin dəyərləndirilməsi və inkişafı haqqında qanun" təsbit edildi və hindu icmaları da müstəqil siyasi vahid kimi qəbul olundu.

Məhz bu dövrdən sonra Qərb dünyasında multikulturalizmin böhranı və iflasa uğraması haqqında müzakirələr gündəmə gəldi. Amerikanın nəzərdə tutduğu model uğurlu olmadı və Köhnə dünyada mozaik cəmiyyət yaratmaq mümkün olmadı. Buna əsas səbəb Amerikada dominant mədəniyyətin etnos üstünlüyünü ağdərili, orta və elit sinif nümayəndələrinə verilməsi və öz dini dəyərlərini daha önəmli hesab etməsi idi. Miqrantlar yenidən Amerikanın gözündə bir-birindən fərqi olmayan eyni cür kütlə hesab olundu. Miqrantların spesifik əxlaq və davranış nümunələri onların mədəniyyətləri ilə üst-üstə düşmədiyi üçün qəbuledilməz hesab olundu. Miqrantların ikinci və hətta üçüncü nəslinin adaptasiya problemi hələ də davam edirdi, ən əsası

onlar öz dini ənənələrini qoruyub saxlayırdılar. Ümumiyyətlə, multikultural siyasətdə kifayət qədər çatışmazlıqlar müşahidə olunurdu.

Hətta Avropanın ən inkişaf etmiş ölkələri də hadisələrin bu şəkildə cərəyan etməsinə hazır deyildilər, əksəriyyət ölkələrdə miqrantlara qarşı aqressiya mövcud idi. Əslində, bu sayda miqrantı Köhnə dünya heç bir zaman görməmişdi. XX əsr miqrantları əsasən siyasilərdən ibarət olmasına rəğmən, hazırki miqrantların miqrasiya səbəbləri çoxşaxəlidir.

**Amerika multikultural cəmiyyətində feminist baxışlar**. Okinə görə, mədəni və dini ənənələrin və təcrübələrin qadın əleyhinə olması qlobal hadisədir. Digər cəmiyyətlərlə müqayisədə Qərb cəmiyyətində genderlər arasında bərabərsizlik azalmışdır. Artıq bu bərabərsizlik Avropaya və Şimali Amerikaya qələn miqrantlar arasında daha az gözə dəyir. 1999-cu ildə Okin öz məqaləsində həm qrup haqlarına multikultural yanaşmaların feminist tənqidini, həm də gender bərabərliyindən üstün hesab edilən irqi bərabərlik prinsiplərini, vətəndaşlıq və multikulturalizmə olan sadə və universal yanaşmanın hüquq, ailə, din, özəl və ictimai sektorun təbiəti prizmasından interpretasiya edir (Okin, Susan M., 1999). Müəllif iddia edir ki, bütün bunları göstərməklə, o heç də multikulturalizm və qrup haqları əleyhinə deyildir. O qeyd edir ki, azlıq təşkil edən qruplarda qadınların əksəriyyətinin özəl və həssas məsuliyyətləri vardır. Patriarxal şərtlər altında yaşayan bu qadınların problemlərindən bəhs edən debatların vaxtı artıq çatmışdır.

Son dövrlərdə dünyanın hər bir tərəfində olduğu kimi, ABŞ-da da multikulturalizmə pozitiv və neqativ yanaşan çoxsaylı cərəyanlar meydana gəlmişdir. Belə cərəyanların mövcudluğu problemin aktuallığından xəbər verir. Feminist düşüncəli tədqiqatçılar da bu məsələyə biganə qala bilməzdilər, çünki multikulturalizm qadınlar üçün daha çox çətinliklər yaradır. Məşhur siyasətçi Ayris Yanq öz çıxışında mədəniyyət fərqliliklərin müdafiəsi üçün

dövlət dəstəyinin vacibliyindən bəhs edir və israr edir ki, “yalnız belə dəstək sayəsində, iqtidar, qruplararası iyerarxik münasibətlər uğurlu transformasiya ola bilər və nəticədə əvvəllər müstəsna hallarda bəzi qruplar üçün nəzərdə tutulan adekvat qərarlar hər kəsə şamil oluna bilər” (Young I., 1990 :96). Belə traktovka Amerika cəmiyyətin demokratikləşdirilməsi üçün çox vacib şərt ola bilər. Başqa bir məşhur filosof Çarlz Teylor yazırdı ki, “Mədəni identifikasiyanın olmaması fərdin həm əxlaqi, həm də psixoloji rahatlığına üçtərəfli ziyan (özünəinam, özünəhörmət və özünəqiymət) vura bilər (Taylor Ch.,1992 : 25). Fərdin avtonomiyası üzv olduğu mədəni qrupla əlaqəsinə təsir edir. “Mədəni fərqliliyə hörmətlə yanaşmanın ən məşhur tərəfdarı olan Vill Kimlika demişdir ki, yalnız hər hansı bir mədəni struktura bağlı olan fərd öz həyatına nəzarət etməyə qadirdir, əks halda, mədəni azlığın nümayəndəsinin yaşaması çətin olar. Onların bir spesifik qrup kimi dövlətin siyasi dəstəyinə ehtiyacları vardır” (Kymlicka W.,1995 :165).

Feminist tənqidçilər belə bir imperativlə razılaşa bilməzdilər, çünki əmin idilər ki, onların opponentləri mədəni müxtəliflıklə demokratik təcrübənin münaqişəsinin mümkünlüyünü inkar etmirdilər. Onlara görə dominant mədəniyyətin fərd üzərindəki təhlükəsi onun avtonomiyasını məhdudlaşdırır və bu, heç də az təhlükəli deyil. Bu da çoxluğun azlıq üzərindəki avtonomiyası qədər təhlükəlidir. Mədəniyyət mənsubiyyəti o adamlara maneçilik törədir ki, o adamlar bu mənsubiyyətdən (ənənə və normalar) azad olmaq istəyir, sanki bunlar onun azadlığına mane olur.

1990-cı illərdə ABŞ-da miqrant icma qadınların üzləşdiyi problemlər ictimai debatlara çevrilmişdi. Dövlət tərəfindən demək olar ki, heç bir dəstək görməyən miqrant qadınlar faktiki olaraq, çox vaxt ərləri tərəfindən zorakılığa məruz qalırdılar. Bu o zaman baş verirdi ki, onlar ənənələrdən imtina edib hüquqi statuslara iddia edirdilər və bunun müqabilində ərləri tərəfindən zorakılıq halları ilə üzləşirdilər. Əgər ABŞ dövlət və cəmiyyəti tərəfindən əvvəl yeni gələn miqrant qruplardan mütləq şəkildə

“amerikalılaşmaq” tələb olunurdusa, o zaman cəmiyyətin ən əsas mədəni-hüquqi münaqişələri diqqət mərkəzində olurdu. Miqrantlar öz mədəni ənənələrini, həyat tərzlərini qoruyub saxlamaq haqqında şüarlar səsləndirəndə, miqrantlardan Amerika hüquqi normalarını qəbul edib onlar kimi yaşamaq tələb olunurdu.

Oğurluq, uşaq yaşında məcburi evlilik, çoxarvadlılıq, genderinə görə mülkiyyət hüququna qoyulan məhdudiyyətlər, boşana bilməmək və s. kimi problemlər miqrantlar arasında təsadüf olunan əsas problemlərdəndir. 1990-cı illərin sonlarında bu problemlər dramatik xarakter almağa başladı. Qohum qadınların öldürülməsində təqsirli bilinən kişi yaxınlar, min bir bəhanə ilə cinayətdən boyun qaçırmaq istəyirdilər, onlar guya “ailənin, nəslin şərəfini qoruyurdular” və bu kimi cinayətlər hər zaman ən çox feminist təşkilatların etirazına səbəb olurdu. ABŞ üçün ən çox təhlükə mövcud hüququ təcrübəni miqrant qrupların öz ənənəvi adətləri ilə əvəz etdiyi zaman baş qaldırırdı. Cinayətkar miqrant törətdiyi hər hansı bir cinayətə öz ənənələri ilə bəraət qazandırmaq istəyəndə, onlara qətiyyən güzəşt olmurdu, çünki bu cəmiyyətdə kəskin etirazlara səbəb ola bilərdi. Feminist tənqidçilər ABŞ Konstitusiyasının diktə etdiyi qanunlardan kənara çıxan heç bir məqama tamaşaçı qismində qalmaq istəmirdilər, çünki onlara görə həm köklü amerikalı vətəndaş üçün, həm də gəlmələr üçün ABŞ Konstitusiyasından sağlam yaşam qarantı ola bilməzdi. Amerikada feministlər multikulturalizm və gender diskriminasiyası mövzusunda müzakirələr aparanda əllərində dövlət Konstitusiyasını əsas tuturdular.

1990-cı illərin ortalarında ABŞ-da miqrant kişilərin qadın qohumlarına qarşı törətdikləri cinayətlərin faizi kifayət qədər yüksək idi və bunların qarşısını vaxtında almaq lazım idi. Nyu-Yorkda həyat yoldaşını öldürən amerikalı-çinli vətəndaşın məhkəmə salonunda özünə bəraəti ondan ibarət idi ki, Çin ənənəsinə görə, ərinə xəyanət edən hər bir çinli qadına məhz əri cəza verməlidir. Təqsirləndirilən şəxsə özünümüdafiə üçün son söz verildikdə o,

"bunu mənə mədəniyyətim məcbur etdi" dedi və faktiki olaraq onun özünəbəraət üçün bundan başqa heç bir arqumenti olmadı.

Liberal məhkəmələr miqrantın mədəni təcrübəsini nəzərə alıb ədalətli olmağa çalışsalar da, onlar miqrantların fərdi hüququnu onun müdafiəsi üçün istifadə etməklə, özlərini tələyə salırdılar. Feminist siyasətçi Aylet Şaçar belə situasiyanı "multikultural zəif paradoks" adlandırmışdır. "Belə çıxır ki, azlıq və çoxluqların bərabərliklərini nizama salmaq üçün nəzərdə tutulan qaydalar azlıqlara mənsub olan fərdlərin haqqını sistematik olaraq pozur" (Shachar A., 2001:3). Bu tezisi inkişaf etdirən məşhur feminist tənqidçi Susan Okin sualı daha kəskin qoyur: "Amerikanın multikulturalizm siyasəti qadınların marağı ilə üst-üstə düşürmü?" Bu suala müəllif özü müxtəlif mədəni rejimlər arasında apardığı təhlilə əsaslanaraq belə cavab verir: "Çoxsaylı mədəniyyətlər patriarxal olduqlarına görə mədəni azlıqların əksəriyyəti (bəlkə də hamısı) onları əhatə edən patriarxal mühitdən daha çox patriarxaldır. Buradan belə nəticə çıxır ki, bu qrupların haqlarını nəzərə alsaq, o zaman qeyri-bərabər gender strukturunu saxlamış olarıq" (Okin S., 1997 :17). Belə mövqe solçu ziyalıların etirazı ilə qarşılandı və onların irəli sürdüyü əsas qınaq ondan ibarət oldu ki, Qərb şovinizm və mədəni imperalizmi haqqında tezis qloballaşma dövrü üçün artıq ənənəyə çevrilmişdir. Tənqidçilərin fikrincə, ABŞ-ın ağ feministləri hər zaman digər millətlərin mədəniyyətinə geri qalmış mədəniyyət kimi baxıblar və düşünüblər ki, onlar heç vaxt emansipasiya əldə edə bilməzlər.

Okinin tənqidini haqlı hesab edən Şeyla Benhabib münaqişənin həlli üçün belə bir konsepsiya irəli sürür ki, multikulturalizm ideologiyası və feministlərin gender bərabərliyi haqqında layihəsi birlikdə həyata keçirilsə, münaqişə həll oluna bilər. Mədəniyyəti fəaliyyət kimi qoruyub saxlaya bilmək insana dünyada öz yerini və identifikasiyasını müəyyənləşdirmək imkanı verir və bu da qloballaşma dövrü siyasətinin ən əsas vəzifəsidir. "Siyasi mənada mədəni özünüifadəetmə hüququ vətəndaşın özünü universal

tanıma hüququna söykənməlidir və bu mənada onlara alternativ imkanlar verilməlidir" (Бенхабиб Ш., 2003 :87).

"Demokratiyanın məşvərəti" modeli də mövcud münaqişənin həlli üçün təklif olunan modellərdəndir, burada üç prinsip təklif edilir. Bu zaman etnik müxtəliflik və bərabərhuquqluluq eyni zamanda nəzərə alınmalı və hər ikisinin təminatı gözlənilməlidir. Konsepsiyanın birinci *prinsip*i "eqalitar qarşılıqdır". Bunun mahiyyəti ondan ibarətdir ki, mədəniyyət, etnik, din, dil və digər azlıqların nümayəndələri heç bir hüququn (mülki, siyasi və iqtisadi) təminatında çoxluqlardan geri qalmamalıdırlar. İkinci *prinsip* Benhabibin təklif etdiyi "iddialar mədəniyyəti, bərabərlik və qlobal dövrdə müxtəliflik" prinsipidir. "Könüllü özünütəyinetmə" o deməkdir ki, insan anadan olanda mənsub olduğu mədəniyyət, din və dili avtomatik qəbul etməməlidir. İnsanın belə bir ehtiyacını ödəməsi üçün ona daha çox imkan vermək lazımdır ki, onun özünüidentifikasiya və özünütəyinetmə üçün daha böyük imkanları olsun. Dövlət vətəndaşa təkcə özünüidentifikasiya haqqını deyil, həmçinin buna nəzarət haqqını da verməlidir və bu digər şəxslərə ziyan gətirmədən həyata keçirilməlidir. Sonuncu üçüncü *prinsip* ondan ibarətdir ki, insana öz qrupundan çıxa bilmək, azad olmaq təminatı verilməlidir. Ola bilsin ki, bununla o bəzi formal hüquq və imtiyazlarını itirə bilər. Feminist tənqidçilərin əksəriyyəti razılaşırlar ki, bütün bunları həyata keçirəndə liberal siyasi-hüquqi qurumların və onların təcrübələrinin qarşılıqlı prinsipini əsas götürərək, demokratik yolla yerinə yetirmək vacibdir.

**Miqrasiyanın gender aspektləri**. Miqrasiya və genderlə bağlı araşdırmalardan məlum olur ki, gender modellərində gender bərabərliyi prinsipləri və mədəni fərqliliklər arasında bənzər gərginliklər hələ də mövcuddur. Araşdırmalar göstərir ki, 1990-cı illərdə milli çoxluğun və etnik azlıqların (ailə normaları da daxil olmaqla) mədəni dəyər və normaları arasında genderləşmiş münaqişələr mövcuddur və bu münaqişələr *onlar* və *bizlər* (gəlmələr, yerlilər) arasındakı baryerə təkan vermişdir (Bredal, Anja, 2005

:5). Etnik azlıqların cəmiyyətdə bərabərhüquqlu vətəndaş kimi özünütanıtma potensialını da önəmli məsələ kimi gündəmə gətirmək vacib məsələlərdəndir. İndiki vəziyyətdə miqrant ailələrdə hər iki valideynin gender bərabərliyi hüququ, gənc miqrant qadınlarla lap çoxdan miqrasiya edən, ölkə Konstitusiyası ilə tam sığortalanan Amerika qadını kimi rəftar edilmə şansını artırır, onların potensialını çoxaldır (Morck, Yvonne., 2005:11). Lakin ailə mədəniyyəti, norma və dəyərlərində fərqliliyə sonsuz ehtiram ictimai sferada onlar üçün baryer yarada bilir.

Bu vaxta qədər aparılan tədqiqatlarda etnik azlıqlarda qadın səlahiyyətlərin artırılması ilə əlaqəli araşdırmalarda əsas diqqət, qadınların ictimai və özəl həyatlarında mövcud olan münaqişə və gərginliklərin üzərinə qoyulmuşdur. Çoxluq azlıq qruplarını necə qəbul edir və azlıqlar onlara necə münasibət bəsləyirlər? Etnik azlıqlar ictimai, özəl arenalarda və gündəlik həyatlarında dominant gender bərabərliyi ilə ailə normaları arasındakı gərginliyi necə müzakirə edirlər? Araşdırmalar göstərir ki, gənc qadınlar bir çox hallarda dilemma qarşısında qalırlar, məsələn, onlar bilmirlər öz din və mədəniyyətlərindən olan gəncə ərə getsinlər, yoxsa, azad seçim edib, sərbəst şəkildə gələcək evlilik partnyorunu seçsinlər. Onların böyük ailələr xoşlarına gəlir, çünki gündəlik həyatda onlar bir-birilərini dəstəkləyirlər və tənha qalmamaqdan sığortalıdırlar. Lakin onlara xoş gəlməyən həyatlarına olan daimi sosial nəzarətdir. Hamı sanki bir-birinin polisidir və hər kəs hamı haqqında hər şeyi bilir. Onlar dilemmanı dəf etmək istəyirlər, lakin bununla bərabər onlar sıxıcı olmayan ideal güclü ailələrin əleyhinə də deyillər. Onlar icmanın gücü, öz müqəddaratını təyinetmə və kişilərlə qadınların eyni hüquqa malik ola bilməsini bir arada görmək istəyirlər.

Araşdırmalarda bir məqam da maraq kəsb edir ki, miqrantlar üçün ictimai sferada, təhsil və əmək fəaliyyətində gender bərabərliyi qəbul ediləndir. Onlar da feminizmə pozitiv mövqedədirlər və cəmiyyətdəki gender bərabərliyini tam dəstəkləyirlər, lakin

onlar Amerika qadınlarının həddən artıq seksual azad olmalarını, ailədə qadın/kişi mütləq bərabərliyini tam qəbul edə bilmirlər. Bunu qəbul etməmələri dindən qaynaqlanır və bu, onların dindən irəli gələn məsuliyyətləri ilə əlaqəlidir.

**Müasir Amerika cəmiyyətində miqrant müsəlman qadın**. Islamda qadın statusuna nəzər salanda, bir tərəfdən, Allah Quran vasitəsilə qadına hər cür bərabərlik vəd edir, digər tərəfdən isə, reallıqda paradokslarla müşayiət olunan məqamlara rast gəlirik, çünki müsəlman cəmiyyətində qadın bərabərliyi deyil, gender assimetriyası daha aydın müşahidə olunur: Ailədə, cəmiyyətdə kişinin ənənəyə görə qadından üstün olması və daha çox siyasi haqlara və azadlığa sahib olması adi hal kimi qəbul olunur.

Gender bərabərsizliyinin bariz nümunəsi dinə görə gender seqreqasiyası, poliqamiya, qızların ərə gedəndə həyat yoldaşı seçimində ülzəşdikləri məhdudiyyətlər, kişi ilə müqayisədə qadınlar üçün boşanmada olan çətinliklər ən əsas problemlərdəndir. Lakin dində "*həm qadın, həm də kişilər Tanrının quludur*" ifadəsi işlədilir. İctimai sferada qadınla kişinin haqqı və imkanı eyni deyildir: …Qərbdə də, xüsusilə ərəblərin dünyasında və bütünlükdə, müsəlman aləmində kişilər qadınlardan daha üstün hüquqlara malikdirlər. Tədqiqat sahəsində müsəlman qadın subyekt kimi götürülür, dövlətin hər iki genderə eyni cür hüquq verməsinə baxmayaraq, o, ənənəyə görə, kişi olduğu üçün cəmiyyətdə əsas rol oynayır, çünki din onun cəmiyyətdə aparıcı, dominant statusunu dəstəkləyir (Сизов, Ю.И и Курбанова Ç.A., 2014:146). Müsəlman əhalinin ərəb qısmı harada yaşamaqlarından asılı olmayaraq qadınlara qarşı çox sərtdirlər və hər zaman onların fəaliyyət dairələrini məhdud çərçivədə saxlamağa səy göstərirlər.

Bu bərabərsizliyin səbəbi nədir və bu mövzunun həqiqətənmi müzakirəyə ehtiyacı var? Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, islam və Qərb perspektivindən bərabərlik anlayışı fərqlidir. Qərbdə bərabərlikdən danışanda, o bərabərlik nəzərdə tutulur ki, burada nə din, nə gender, nə də etnik mənsubiyyət amili rol oy-

nayır. Bunun ən bariz nümunəsi "ABŞ Müstəqillik Deklarasiyası"dır (1176): Biz bəlli bir həqiqətdən çıxış edərək qeyd edirik ki, Tanrı bütün insanları (həyata, azadlığa və xöşbəxtliyə can atan) bərabər yaratmışdır ("*Декларация независимости*", Конгресс, 1776 г.).

Qərbdə KİV müsəlman qadınların portretini belə cızır: tam qapalı, varlığı-yoxluğu hiss olunmayan, çarəsiz, hüquqsuz. Bu da onlar haqqında stereotipləşmiş fikir formalaşdırır. Bu şəkildə təsvir hər birimizə tanışdır (Angha, N., 2015:55).

Əlbəttə, bu tip yazılara sosioloji tədqiqatlarda tez-tez rast gəlinir. Belə qeydlərlə razılaşmamaq çətindir, çünki sosioloji sorğular da deyilənləri təsdiq edir.

Corctaun universitetinin professoru Yvonna Haddad qeyd edir ki, tədqiqatçılar müsəlman qadınların "acınacaqlı statusu"nı araşdıranda bunu cəmiyyətdən təcrid edilmiş şəkildə edirlər. Müsəlman qadınlar adətən təhsilsiz, çadraya bürünmüş, zorakı davranışdan əziyyət çəkən, xilasolmağa möhtac formada təsvir olunurlar (Haddad, Y., 2011:111). Bu kimi sitatların sayını artırmaq olar, lakin bütün sitatlarda əsas diqqət qadınların bu vəziyyətə düşməsində islamı günahlandırmağa yönəldilir.

Belə yanlış təsəvvürün yaranmasında qərbyönlü tədqiqatçıların islam mədəniyyətində qadının sosial status və rolu haqqında kifayət qədər məlumatlarının olmamasıdır. XX əsrin son onilliklərinə qədər bu mövzu tədqiqatçı alimlərin diqqətindən kənarda qalmışdı. İslam dünyasının müxtəlif sahələrini tədqiq edən əsərlərdə "qadın məsələlər"indən səthi bəhs edirlər. Əsasən də islam ədəbiyyatında "dürüst" qadının cəmiyyətdə mövqeyindən yazılır, ən yaxşı halda müasir dünyada təhsilli müsəlman qadının düzgün davranışı barədə yazırlar. Çox ciddi emprik sosioloji tədqiqatlara elə də çox rast gəlmək olmur. Elmi sferalarda bu ehtiyac yalnız 1970-1980-ci illərdə müsəlman qadınlarına yaranan maraqdan sonra oldu. 1990-cı illərdə müsəlman qadınları, islamın müsəlman qadınlarına verdiyi sosial status, islamda gender

problematikası haqqında yazılan əsərlərin sayı pik nöqtəyə çatdı (Offenhauer, P., 2005:5).

İslam cəmiyyətində müsəlman qadınların həyatı haqqında tarixən formalaşan stereotipləşmiş təsəvvürlər təkcə müsəlman dünyasında yaşayıb yaradan tədqiqatçıların "xidməti" deyil, bu həmçinin qeyri-müsəlman tədqiqatçıların müsəlman qadınlar haqqında yazdıqları əsərlərdə belə təsəvvürlər yaratmaq istəyindən irəli gəlir. Belə yanaşmalara qərbyönlü alimlərin əsərlərində daha tez-tez təsadüf olunur. Bu yazıların belə ənənə forması almasına təsir edən ən azı iki amil mövcuddur:

1) həmin ölkələrin müsəlman dünyasından xəbərsiz olması;

2) qeyri-müsəlman tədqiqatçıların islam mədəniyyəti nümayəndələri ilə münasibətlərin hansı model üzərində qurulması.

Bu gün ABŞ-da müsəlman qadınlara olan münasibət bir qədər fərqlidir. Onlar təkcə müsəlman ölkələri ilə əlaqəli Amerika sosial təşkilatların verdiyi məlumatla kifayətlənmirlər. S.M.Xenkinin klassifikasiyasına görə "yerli sakin-miqrant" münasibəti üzərində qurulan dörd əsas model mövcuddur (С. М. Хенкин., 2015:1). Yuxarıda bunların iki növündən (inteqrasiya və assimilyasiya) bəhs etmişdik:

a) inteqrasiya; b) assimilyasiya; c) kənarda qalma – miqrant yerli xalqlara qaynayıb qarışmır və öz həmvətənləri ilə də ünsiyyəti məhduddur; ç) marginallaşma - miqrantlar sanki öz sosial əlaqələrindən zorla qopardılır.

ABŞ-da müsəlman miqrant qadınlar arasında sorğu keçirilmişdir. Sosioloji sorğunun əsas məqsədi ondan ibarət idi ki, Amerika KİV-i müsəlman qadın obrazını cəmiyyətə hansı şəkildə təqdim edir və onların təqdimatı real həyatla nə qədər uzlaşır. Sorğunun cavabından məlum olur ki, sorğuda iştirak edənlərin 81 %-i müsəlman qadının stereotipləşmiş obrazını aşağıdakı kimi görür: Müsəlman qadını hər bir məsələdə kişiyə güzəşt edən, miskin, asılı, geridə qalmış məxluqdur (Yenə orada). Bütün iştirakçılar islam mədəniyyətində qadın və kişi münasibətlərinin, gender rol-

larının qiymətləndirilməsində, demək olar ki, "hörmət" sözünü istifadə edir. Bundan əlavə, onlar qeyd edirlər ki, bizim görmək istədiyimiz "yaxşı" müsəlman fundamental əxlaqi keyfiyyətə malik, gender rollarına "ehtiramla" yanaşmağı bacaran insandır (Yenə orada).

Bununla bərabər dərc edilən tədqiqatlarda, İnternet və telekanallarda siyasi və sosial çətinliklərlə üzləşmələrinə rəğmən, müsəlman qadının müstəqil şəxsiyyət olması barədə çoxsaylı faktlara da rast gəlmək olur. Onların vətənlərində üzləşdikləri "təzyiqlər" (hicab taxma məcburiyyəti, kişilərlə bərabər siyasi arenalarda fəal iştirak etmə məhdudiyyəti və s.) müxtəlif formalarda həyata keçirilə bilər. Bu kimi "təzyiqlər"in siyahısını üzatmaq olar, məsələn, qadınların kişilərdən ayrı nəqliyyatdan istifadə etməsi, mağazalarda qadın və kişilər üçün ayrıca giriş və çıxışın olması, qadının arzu etdiyi təhsili deyil, məsləhətli təhsili alması, işədüzəlmədə genderinə görə üzləşdikləri çətinliklər və s. Bu həqiqətənmi belədir, yoxsa uzaqdan belə görünür?

Kolumbiya universitetinin antropoloqu Leyla Abu-Luxod məqalələrin birində maraqlı bir sual verir: "Müsəlman qadının xilas olmağa həqiqətənmi ehtiyacı vardır?" Müəllif qeyd edir ki, "xilasetmə" dedikdə anlamaq lazımdır ki, onları nədən və kimdən xilas etmək lazımdır? Onların hicab örtməsi – azadlığı boğan əsas simvoldur? İslam qaydasına uyğun azadlıq mümkündürmü? (Abu-Lughod, L., 2002). Heç bir başqa mədəniyyəti islam mədəniyyətinə güclə sırımaq mümkün deyildir, başqa mədəniyyət üçün problem görünən bir məqam islam mədəniyyəti üçün normal haldır. Onlar üçün məhdudiyyət kimi görünən dəyərlər islam mədəniyyəti üçün normal qəbul edilən dəyərlərdir. Müsəlman qadınlarına azadlıq verməyin yolunu bu şəkildə görənlərə L.R. Syukiyaynen haqlı olaraq belə cavab verir: Bəzən deyirlər, "bütün müsəlman qadınlarını azad etmək lazımdır! Onların çadrasını, hicabını, niqabını açıb atmaq lazımdır, onların üzünü, qollarını, ayaqlarını gizlədən geyimləri çıxartdırmaq lazımdır". Mən

əminəm ki, belə bir şey edilsə, bir saatın içərisində onların 15 %-i ölər, çünki bu, onlar üçün faciə, həyatlarının sonu olar, bu, onlara həyatlarını əzablardan xilas etmək kimi deyil, həyatlarının kabusu kimi görünə bilər (Сюкияйнен, Л.Р., 1998).

Heç vaxt müsəlman qadının hicabını açmaqla onu "azad etmək" və ya "xoşbəxt etmək" olmaz (Sovet dövründə bu təcrübə oldu). Əsas onu anlamaq lazımdır ki, əksər müsəlman qadını üçün *hicab* islam əlamətindən çox onların namus, qeyrət simvoludur və onlara görə ləyaqətli qadın hicabsız insanlar arasına çıxa bilməz. Qurana görə, müsəlman qadının bədənini (əl və ayağından başqa) özgə kişinin görməsi qadağandır (*haram*). Hicab örtməklə onlar müqəddəs kitabda yazılanlara əməl edirlər, çünki qadınların yerinə yetirilməsi vacib olan əməllərindən ən əsasları namuslarını qorumaqlarıdır: "Ya Peyğəmbər! Zövcələrinə, qızlarına və mömünlərin övrətlərinə de ki, (evdən çıxdıqda cariyələrə oxşamasınlar deyə, bədənlərini başdan ayağa gizlədən) çarşablarını örtsünlər. Bu onların tanınması (cariyə deyil, azad qadın olduqlarının bilinməsi) və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayan və rəhm edəndir!" ("əl- Əzhab" surəsi, 59). Burada qadınlar arasında da ayrı-seçkiliyə təsadüf edilir, çünki cariyələrin hüququ digər qadınlardan daha məhduddur. Bu da düzdür ki, qadınların bunu məcburən deyil, könüllü etmələri əsas şərtdir. Əlbəttə, bu ayrıca bir tədqiqat işinin mövzusudur və bu məqamda paradoksal hallara həddən artıq çox təsadüf olunur, çünki Quranda yazılanlarla, reallıq arasında da kifayət qədər ziddiyyətlər mövcuddur.

Onu da qeyd etmək lazımdır ki, müasir islam cəmiyyətlərində bütün müsəlmanlar avropalıların bu fikirləri ilə razı deyillər, onlar düşünmürlər ki, hicab açmaqla onlar azad, örtməklə asılı olurlar. Onlara görə qadın azadlığının və asılılığının hicabla heç bir əlaqəsi yoxdur. *Hicab*ın gender diskriminasiyası kimi hesab olunması və azadlıq prinsipinin pozulması ilə heç bir əlaqəsi yoxdur. Bir çox hallarda, hətta ən müasir müsəlman ölkələrində də çox proqres-

siv, ictimai-siyasi arenada fəal qadınlar hicab örtürlər, ABŞ-da da kifayət qədər fəal həyat tərzinə sahib miqrant müsəlman qadınlar *hicab* örtürlər, bəzən bu məcburiyyətdən deyil, qadınların öz seçimlərindən irəli gəlir. Bu qadınların aktiv sosial həyatları var, potensiallarını realizə etmələri üçün imkanları var. Dini əqidənin bu vəzifələri yerinə yetirilməsində heç bir maneçiliyi yoxdur (Деминцева Е.Б., 2009). Buna 2001-ci ilin 1 sentyabr hadisəsindən sonra Yeni Orleanadan olan 21 yaşlı jurnalist və yazıçı Tereza Korbinin islamı qəbul etməsi faktını misal gətirmək olar. CNN-ə müsabiqə verən həmin qadın bunları söyləmişdir: Başıma bağladığım örtük mənim əllərimi bağlamır, o əzilmənin göstəricisi deyildir. Örtük mənə mane olmur, təəccüblü olsa da, islam tamamilə mənim feminist idealımla üst-üstə düşür (Corbin, T., 2015).

Müsəlman qadınların hüquqi müstəvidə diskriminasiyaya məruz qalması amili bir az şişirdilmişdir. Qadının emansipasiyasının onun geyim tərzi ilə heç bir əlaqəsi yoxdur. Qadın istənilən geyim tərzində həyatın bütün sferalarında kişilərin əldə etdiyi uğurları əldə edə bilər. İslam mədəniyyətindən xəbərsiz olan amerikalı və avropalının "müasir qadın hansı keyfiyyətlərə malik olmalıdır" fikri heç də tam məqbul bir ideya kimi qəbul oluna bilməz. Müsəlman qadınına görə də açıq-saçıq geyimləri ilə kişilərlə eyni yerdə olmaq normal hal hesab olunmur. Müsəlman qadın bu idealı fərqli görür və onlar da amerikalı, avropalı qadınların geyindiklərini bəyənmirlər, lakin onlara nə cür geyinmək barədə dərs vermək istəmirlər. Müsəlman qadının ideal gördüyü tam başqadır, onların düşüncəsi Qərb qadının düşüncəsindən köklü fərqlənir. Amerikalı qadınların "öz bədənlərinə ehtiramla yanaşmamaları", hədsiz alkoqol qəbul etmələri, siqaret çəkmələri, nikahdan öncə kişilərlə intim münasibətə girmələri və s. müsəlman qadınlarının kəskin tənqidinə səbəb olur (Hu, Ch.; Pazaki eds., 2009:55).

İslamı müasir müsəlman qadınına qarşı diskriminasiyanın qaynağı hesab etmək və "aksenti dini mənsubiyyətin üzərinə qoymaq", miqrasiyanın, miqrantların inteqrasiyasının müzakirəsində

tez-tez səsləndirilən fikirlərdir (Летняков, Д.Э., 2015). Son vaxtlar bu mövzular miqrantlarla bağlı bu istiqamətdə aparılan bir çox sosial-siyasi müzakirələrin ən popyular mövzularıdır. Əksər Şərq ölkələrində qadın hüquq və azadlığının təmin olunmamasının islamla heç bir əlaqəsi yoxdur. Təcrübə göstərir ki, qadınlarla bağlı yaranan problemlərin səbəbi islam yox, daha az önəm verilən mədəni və sosial-iqtisadi amillərdir (məsələn, patriarxallıq, sonu bilinməyən iqtisadi böhran, yoxsulluq, insanların aşağı səviyyədə yaşaması və s.) və bu amillər müsəlman qadınlarının həyatını məhv edir.

**İslam Amerika multikulturalizmi üçün təhlükədirmi?** Son dövrlərdə müxtəlif mədəniyyətlər əmək miqrasiyası adı altında Qərb dünyasına daşındılar və bu da multikulturalizm üçün yeni problemlər yaratdı. Türkiyə, Şimalı Afrika, Yaxın və Orta Şərqdən ABŞ-a üz tutan müsəlman miqrantlar ölkəni onların təbirincə desək, "islam adlı böyük bir risklə üzbəüz qoydular".

Tarixdə iki hadisə Qərb dünyasını islam dininin böyük təsirinə məruz qala biləcəyini sübut etmışdir. Birincisi, Osmanlı imperiyasının İspaniyanı işğal edib Kordiv xalifətini yarada bilməsi, ikincisi, Osmanlı imperiyasının Avropanın böyük bir qismini zəbt edib Venaya qədər gəlib çıxa bilməsi hadisəsidir. Hər dəfə imperiya zəifləyəndən və ya çökəndən sonra Avropada nümayişkarcasına islam dininə dözümsüzlük göstərilirdi. Elə İspaniya və Balkanlarda uzun illər kök salmış islam mədəniyyətinin sıxışdırılması və məhvi Qərbin islama olan münasibətinə yaxşı misaldır. Düzdür, indi vəziyyət bir az başqa şəkil almışdır. Əmək miqrantları Avropaya aqressor kimi gəlmirlər, onlar hətta cəmiyyətin önəmli qatlarına da daxil olmağı bacarırlar. Bu səbəbdən də, Avropa, Amerika islamla əvvəlki metodlarla mübarizə apara bilmək qabiliyyətinə malik deyil və çox yəqin ki, onlar islamın bu yeni dalğası ilə mübarizə aparmaqda çətinlik çəkirlər. Qərb dünyasında yaşayan müsəlmanla-

rın demoqrafik göstəriciləri, yəni onların sayının sürətlə artması, islam dininin popyularlaşması bu ölkələrin qarşısında yeni öhdəliklər qoyur və Qərb ölkələri bunu özləri üçün böyük təhlükə hesab edirlər. Elə islamafobiyaya səbəb də islamın Qərb dünyasında böyük vüsət almasıdır.

Qərbdə, o cümlədən ABŞ-da multikulturalizm qorxusu hansı dinin nümayəndələrin azlıq və ya çoxluq təşkil edə bilməsidir, çünki ölkənin köklü elit təbəqəsi əsasən yaşlılardan ibarətdir, əhali müsəlmanların hesabına artır. Amerika və Avropanın qərar qəbuletmədə cəmiyyətin üst təbəqələrində təmsil olunan nümayəndələrin əksəriyyəti islam dinini öz cəmiyyətləri üçün ən qorxulu kabus hesab edirlər. Bu səpkidə ən çox həyəcan siqnalı çalan xristian din xadimləridir. Bəzi din və siyasi xadimlər Amerika və Avropa dövlətlərinin gələcəyi haqqında pessimist proqnozlar verirlər və qeyd edirlər ki, 2026-cı ildə Qərb dövlətlərində əvvəllər əhalinin əksəriyyətini təşkil edən xristianların sayı azalacaq, əvəzində müsəlmanların sayı artacaq və ümumiyyətlə, Fransa kimi bəzi dövlətlər müsəlman ölkələri olacaqlar.

**ABŞ-da yəhudi miqrasiyasının gender aspektləri.** Amerika tədqiqatçılarının əksəriyyətinin fikrincə, ölkə cəmiyyətinin formalaşmasına və Amerika iqtisadiyyatının inkişafına böyük töhfələri olan miqrantlar yəhudilərdir. Yahudilərın Amerikaya gəlişinin tarixi çox qədim olsa da, onlar bu torpağa kütləvi şəkildə çox sonralar (XIX əsrin sonları) köç etməyə başladılar, ABŞ-ın dövlət müstəqilliyinin ilkin illərində yəhudilərin azsaylı olmalarına rəğmən, sonralar bu ölkədə onlar aparıcı millətə çevrilə bilmişdilər. O dövrdə yəhudilər əsasən Almaniyadan gəlirdilər. Onların Amerikaya miqrant kimi gəlişlərinin ilk illərində yerli xalqlarda onlara qarşı heç bir antipatiya olmasa da, onların sayı artıqdan sonra əhalidə onlara qarşı antisemitizm əhvali-ruhiyyəsi baş qaldırdı. Yəhudiləri digər miqrantlardan fərqləndirən cəhət ondan ibarət idi ki, Amerikaya yəhudilərin təkcə kişiləri deyil, çox vaxt bütün ailələri miqrasiya edirdilər. Onların ailələrində hər iki vali-

deyn ödənişli işlərdə çalışırdı, çünki yəhudilər ailələrini iqtisadi cəhətdən normal təmin etmək istəyirdilər.

Qadınların tarixi təcrübəsinin fərqləndirici xüsusiyyətlərini tədqiq edəndə onlara təkcə ailə daxilində deyil, həmçinin işdə və cəmiyyətdə də nəzər salmaq vacibdir. Genderin tarixi sinfi və etnik amillərdən çox asılıdır. Analitik kateqoriya kimi müəyyən edilən, sosial və mədəni konstruksiyaya malik olan genderi yenidən öyrənib təyin etmək lazımdır, çünki bu vaxta qədər olan tarixdə əhalinin ən azı tam yarısının təşkil edən qadınların təcrübəsindən ya heç bəhs edilməmişdir, ya da çox səthi bəhs edilmişdir. “Gender cinslərarası fərqlərin əsasında yaranan sosial əlaqələrin əsas elementidir və gender güc əlaqələrini ifadə edən əsas vasitədir ” (Joan Wallach Scott, 1989).

Gender, sinif, sosial və dini-etnik mədəniyyət amillərinin təsiri əsasında formalaşan miqrant yəhudi qadın Amerika cəmiyyətinin siyasi, iqtisadi, mədəni, dini həyatında fəal iştirak etmişdir. Yəhudi kişilərlə eyni mirası, eyni yaşayış yerini, eyni dəyərləri və hətta eyni qurumları paylaşmağı bacaran yəhudi qadını özünəməxsus mədəniyyətini yaratdı və yəhudi kişinin yaratdığı səliqəli icmadan daha fərqli icma qura bildi. Yəhudi icmanın qaydalarından kənara çıxmadan, yəhudi qadınlar icma daxilində öz yerlərini təyin etdilər və öz etnik mənşələrini unutmayaraq, oz gender, sinfi xüsusiyyətlərini əllərində əsas tutaraq, Amerikanın bəxş etdiyi dəyərlərdən faydalanaraq, xüsusi bir mədəniyyət formalaşdıra bildilər. Miqrant yəhudi qadınlar digər miqrant qadınlardan bir çox fərqli keyfiyyətlərə malik olsalar da, onların təcrübəsində yəhudilik hər zaman əsas element hesab olunmuş və yəhudi qadınların genderləri fərqli xüsusiyyətləri ilə hər zaman seçilmişdir.

Miqrant yəhudi qadınların mədəni kökləri Yaxın Avropa yəhudi mədəniyyətinə gedib çıxır və bu mədəniyyətdə, xüsusilə də dini aləmdə qadın və kişilərin rolu kifayət qədər fərqlidir. İctimai-dini sferada bütün nüfuzlu mövqelər kişilər üçün nəzərdə tu-

tulur və hələ uşaq vaxtlarından oğlanlara sinoqoq və icmada öz "düzgün" yerlərini seçmək fikri aşılanırdı. Qızlara da az-çox qeyri-formal təhsil verilirdi, onlar həmçinin analarından ailəyə qayğı və onun saxlanılması ilə əlaqəli bütün vərdişləri öyrənirdilər.

Qeyd etdiyimiz kimi, yəhudilərin Amerikaya miqrasiyasının tarıxı qədim olsa da, onların Amerikaya kütləvi şəkildə axını əsasən 1820-1924-cü illər arası baş vermişdir. XIX əsrin əvvəllərində mövcud olan iqtisadi, sosial və siyasi çətinliklər, sənayeləşmə, urbanizasiya milyonlarla avropalı yəhudini əsrlərlə yaşadıqları torpaqdan "Qızıl Torpağa" - Amerikaya üz tutmağa vadar etdi. XIX əsrin birinci yarısında, yəhudi miqrantlar əsasən, Mərkəzi Avropadan gəlirdilər. Yəhudilərin çoxu Nyu-York, Filadelfiya və Baltimor şəhərlərinə köç edirdilər, alman dilli yəhudi qruplar isə Sinsinnati, Albani, Klivlend, Luisvill, Minnepolis, Sent-Luis, Nyu Orlans, San-Fransisko və Amerika Birləşmiş Ştatlarının digər şəhərlərində məskunlaşırdılar. Digər miqrantlardan fərqli olaraq, yəhudilərin əksəriyyəti elə ilk gündən ABŞ-a öz ailələri ilə birlikdə gəlirdilər. 1886-cı ildən 1914-cü ilə qədər ABŞ-a gələn miqrantların 44 %-i qadın idi. Bu illərdə iki milyondan çox yəhudi Rusiya, Ruminiya və Avstriya-Macarıstandan gəlmişdi. Yəhudi miqrantlar Amerika ailələri ilə çox tez qaynayıb qarışırdı, çünki avropalaşmış yəhudi mədəniyyəti ilə Amerika dəyərləri normal bir şəkildə sintez oluna bilirdi. Yəhudi miqrant qadınlar sanki bütün miqrant qadınların universal xüsusiyyətlərini özlərində cəmləşdirməyi bacarmışdılar. Amerikaya gələndə onlar artıq kapitalist iqtisadiyyatının şəhər həyatı təcrübəsini mənimsəmışdilər. Amerika sahillərinə köç edən digər kənd mənşəli köçkünlərdən fərqli olaraq, yəhudilərin böyük əksəriyyəti şəhər kökənlü idilər. Qadınlar kişilərlə çiyin-çiyinə işləyirdi, ailələr kiçik ticarətlə, məsələn, ayaqqabı tikmə, geyim və digər sahələrdə bizneslə məşğul olurdular və qadınlar bazarda hazır məhsul satmaqla ailələrini iqtisadi cəhətdən dəstəkləyirdilər. Düzdür, yəhudi ailələrin əksəriyyəti Amerikaya ailələri ilə birlikdə köçmüşdülər, lakin ailəsiz köçən kişilər də var

idi. Onlar ailələrinə tam şərait yaratdıqlarına əmin olandan sonra onları yanlarına gətirirdilər. Amerikada yəhudi məhəlləsi kimi tanınan çoxsaylı rayonlar var idi. Sonradan ərlərinin yanına köçə bilən qadınlar, əvvəllər qaldıqları ölkədə uşaqlarını təkbaşına böyütmək məcburiyyətində idilər.

Yəhudi miqrant kişilər digər miqrant kişilərdən daha uğurlu idilər və ailələrini daha firavan saxlayırdılar. Çox az yəhudi ailə tapmaq olardı ki, orada ailənin xanımı işləsin, lakin işləyən yəhudi qadınlara da rast gəlmək olurdu. Ailələr evlərinə yaxın yerlərdə iş yerləri açırdılar və çox vaxt bunlar elə öz ailələrinin ticarət obyektləri olurdu. Evin yaxınlığında işləyən qadın həm ailədəki öhdəliklərini yerinə yetirirdi, həm də ailənin maddi durumunu yaxşılaşdırmaqda ərinə dəstək olurdu. Bəzən ərzaq mağazalarına sahib olan ailələrdə kişi mağazada satıcılıq edirdi, qadın evdə bişintilər hazırlayırdı və bununla da ailənin təminatını dəstəkləyirdi.

Ödənişli iş yerlərinin olmasına rəğmən, yəhudi qadınların ən əsas məsuliyyəti ailə idi. Doğrudur, ailəli qadının əsas öhdəliyi ev və ailə idi, lakin onlar da öz növbələrində ailə büdcəsini artırmağı özlərinə borc bilirdilər. Hətta bəzi enerjili miqrant yəhudi qadınlar ailə iqtisadiyyatına yardım məqsədilə kiçik sahibkarlıqda da özlərini yaxşı mənada sınayırdılar. 1928-ci ildə sosioloq Luis Virt "*The Ghetto*" adlı kitabında belə yazırdı: "Peil ənənəsinə görə qadınların işlətdikləri mağazalar ... qadınlar... Məksvel (Çikaqo) küçəsinin tacirləri arasında ən uğurluları hesab olunurdu. Onlar balıqçılıq, sosis hazırlama və quşçuluq sektorunda monopoliyaya sahib idilər (Louis Wirth, 1928:236). Digər qadınlar da ailələrinin maliyyə vəziyyətini yaxşılaşdırmaqdan ötrü təşəbbüs göstərirdilər. Buna baxmayaraq, hətta biznesdə fəal iştirak edən qadınlar da əsasən ev təsərrüfatı məsuliyyətlərini öz üzərilərinə götürürdülər.

Ərə getməmişdən əvvəl də yeniyetmə qız və gənc qadınlar ödənişli iş yerlərində çalışmaqla ailələrini dəstəkləyiridlər. Maaşın miqdarı və əməyin bölünməsi genderə görə müəyyənləşdiril-

diyi üçün, miqrant qızlar qardaşlarından daha az pul qazanırdılar. Əsas iş yerləri geyim mağazası olan qız-qadınlar da ata və qardaşları kimi, bütün günü işləmələrinə rəğmən, kişilərin aldıqları maaşın 60 %-ini alırdılar. Gənc oğlanlar işlədikləri pulu yığıb saxlayırdılar və gələcəkdə sahibkarlıq fəaliyyəti ilə məşğul olurdular. Bundan başqa, əmək bazarında miqrant yəhudi oğlanlar öz bacıları ilə müqayisədə daha imtiyazlı yerlərdə işləyirdilər. Qadınlar isə daha az peşəkarlıq tələb edilən sahələrdə çalışırdılar. Ağ yaxalıqlı miqrant yəhudilərin böyük bir qismi kişilər idi. Qadınların işləyib-işləməməklərindən asılı olmayaraq, ailədə əmək bölgüsü gendərə görə təyin edilirdi. Qızlar ağır iş günündən sonra mütləq ev işlərində analarına kömək etdikləri halda, oğlanlar belə işlərdən azad idilər.

Hələ 1900-cü ilin əvvəllərində ABŞ-da kifayət qədər yəhudi filontropist cəmiyyətlər mövcud idi. Yəhudi icma liderlərin təşəbbüsü ilə bu təşkilatlar yardım məqsədilə dul qadınların ailələrinə və digər aztəminatlı yəhudi ailələrinə büdcədən 15 % yardım ayırmışdı. Bu xeyriyyəçilik təşkilatından başqa, Milli Fərarilik Bürosu (National Desertion Bureau) fəaliyyət göstərirdi və onlar da valideynini itirmiş uşaqlara sahib çıxırdılar.

Maaş və sosial mobillikdəki gender diferensiasiyasının olmasına baxmayaraq, gənc yəhudi qadınlar da ictimai sferada yerli qadınlar qədər haqqa və hüquqa sahib idilər. Bir gənc qadın fəxrlə öz müsahibəsində belə deyirdi: “Ən xoşagələn məqam odur ki, mən özüm üçün iş tapdım və artıq öz ayaqlarım üzərində dayana bilərəm” (Krause, Corinne Azen, 1978:296). Düzdür, miqrant qızlar maaşların böyük hissəsini valideynlərinə versələr də, öz avtonom hisslərini də inkişaf etdirirdilər. Belə ki, maaşların az hissəsini də olsa, öz ehtiyacları üçün saxlayırdılar. Miqrant yəhudi qızlar asudə vaxtlarında şəhər həyatının əyləncələrində də iştirak edirdilər. Artıq yəhudi qızlar kiçik mağazalardansa, böyük fabriklərdə işləməyə üstünlük verirdilər, çünki burada onlar digər amerikalılarla ünsiyyətdə olurdular və bu da onların daha tez

amerikalılaşmasına şərait yaradırdı. Bu iş yerlərində çalışan gənc qızlar siyası həyatda da fəal iştirak edirdilər, digər miqrant qadınlardan fərqli olaraq, onlar siyasi yığıncaqlarda iştirak edirdilər və ölkədə gedən siyasi hadisələrdən xəbərdar olurdular. Öz siyasi təşkilatlarında rəhbərlik səviyyəsinə qədər yüksəlməyə nail olmasalar da, qadın sufrajist hərəkatında çox fəal iştirak edirdilər.

Birinci Dünya Müharibəsindən əvvəl 1909-cu ildə sufrajist hərəkatın fəalları arasında kifayət qədər yəhudi qadın var idi. Qadın fəallardan Rouz Şneiderman, Paulin Nyuman, Fania Con və Klara Lemliç Şeivlsonun adlarını çəkmək olar. Bu qadınlar iqtisadi şəraitin yaxşılaşdırılması və fəhlə statusunun inkişafı uğrunda mübarizə aparırdılar. 1910-cu illərdə ABŞ-da mövcud olan əmək təşkilatların qadın üzvlərinin arasında yəhudi qadınların da sayı kifayət qədər idi. Bu qadınların sırasında yaşlı yəhudi qadınlar da var idi.

Düzdür, digər etnik qruplarla müqayisədə yəhudi miqrantlar öz övladlarının təhsilinə böyük investisiya qoyurdular, lakin onlar bu istiqamətdə qız övladlarına nisbətən oğlan övladlarına daha çox maliyyə sərf edirdilər. 1903-cü ildə MakKlur jurnalında (McClure Magazine) yəhudi qızı Besi haqqında bir yazı dərc olunmuşdu. Besi qardaşı ilə Nyu Yorkda eyni kollecdə (City College, New York) təhsil alırdı və bu o dövr üçün adi hal deyildi. Bu elə bir dövr idi ki, qızların təhsili, işi, peşəsi ilə bağlı hər bir şey onun gələcək həyatı, ailəsi ilə əlaqəli olmalı idi. Bu da bir çox miqrant qızların Amerika azadlığı, təhsil istəyi ilə bağlı arzularını ürəklərində qoyurdu.

Miqrant yəhudi ailələri uşaqlarına təhsil verməkdə həvəsli idilər və yəhudi ailərində genderdən asılı olmayaraq, ailənin ən kiçik üzvünə ən yaxşı təhsil verilməli idi. Bu yəhüdi ailələrində adət şəklini almışdı. Özünü uğurlu miqrantlardan hesab edən Meri Antin 30 yaşında öz tərcüməyi-halında yazırdı ki, onun bəxti böyük bacısı ilə müqayisədə daha çox gətirmişdi. "*Vəd olunmuş torpaq*" ("*The Promised Land*") adlı əsərində müəllif qeyd edir ki, "ustanın sərt göstərişi altında ağır havası olan atelyedə

işləmək məcburiyyətində qalan bacımdan fərqli olaraq, mən gülərüzlü müəllim yanına, günəş işığı və musiqili sinif otağına gətirildim" (Antin, Mary, 1912:199). Yəhudi miqrantların sosial mobilliyi də genderləşmişdi, oğlanlar həkim və ya hüquqşünas olmaq, qızlar isə müəllim olmaq üçün kolleclərə yollanırdılar. Əlbəttə, I Dünya Müharibəsindən əvvəlki dövrdə heç orta məktəbi belə bitirməyən çoxsaylı yəhudi miqrant oğlanlar müharibədən sonra uğurlu biznesmen olmağı bacarmışdılar. Qızlardan da satıcı və ya kommersiya işçisi kimi işləyənlər var idi. Təəssüf ki, müəllimlikdən başqa digər ixtisaslar üzrə kolleclərdən məzun olan qız və qadınlara evlənəndən sonra işləməyə icazə verilmirdi.

Yəhüdilər təhsilə çox önəm verirdilər, hər vasitə ilə övladların təhsil almalarına yardım edirdilər. Gənc yaşlarında təhsil ala biməyən yəhudilər imkan düşən kimi gecə məktəbində, kollecdə, xeyriyyəçilərin təşkil etdiyi pulsuz kurslarda təhsil alırdılar. Onlar təhsilə amerikalılığın simvolu kimi baxırdılar. 1906-cı ildə, yeniyetmə yaşlarında Amerikaya gələn bir qadın öz xatirələrində belə yazır: "Mən Amerikaya getmək istəyirəm. Mən öyrənmək istəyirəm. Mən həyat görmək istəyirəm və mən məktəbə getmək istəyirəm" (Kramer and Masur 1976 :8). Sosioloqların apardığı araşdırmalara görə, 1920-ci illərdə çoxsaylı yəhudi qadın gecə məktəblərini bitirmişdilər. 1925-ci ildə Filadelfiya gecə məktəbin şagirdlərinin 75 %-i yəhudi qadınlar idi. Bu o miqrant qadınlar idi ki, ən böyük arzuları təhsil almaq idi, lakin Amerikadan əvvəl yaşadıqları ölkələrdə dünyəvi təhsil imkanlarından məhrum idilər və iqtisadi şəraitləri pis olduğu üçün onlar məktəbə də gedə bilməmişdilər. Onlar bu arzularına Amerikaya köçdükdən sonra çatdılar. I Dünya Müharibəsindən bir az əvvəl Amerikaya gələn gənc yəhudi qadın bunu sonralar öz yazılarında belə ifadə edirdi: "Mən hər zaman təhsil almaq istəyirdim. Mən heç vaxt təhsil ala bilmirdim" (Weinberg, Sydney Stahl, 1988 :167).

Amerikaya gələnə qədər yəhudi qadınların yerli yəhudi məktəblərində təhsil almaq şansı çox az idi, belə şansı əksər hallarda,

kişilərə verirdilər. Yəhudilərin əvvəl yaşadıqları ölkədə bu adət-ənənə böyük yer almışdı və Amerikaya köçdükdən sonra da yəhudi icmaları arasında bu adət-ənənə yenə də davam edirdi. Yəhudi gənclərin amerikasayağı identifikasiyaya sahib olmalarında bu ölkədə aldıqları təhsilin çox böyük təsiri var idi. Hətta Amerikaya köçəndən sonra da sinoqoqlarda pulsuz təhsil almaq üçün kişi miqrantlara daha çox yer verirdilər. Din xadimlərinə görə, təhsil kişilərə daha çox lazım idi, qadınların ən ümdə öhdəliyi ailədaxili vəzifələri idi. Əksər yəhudi qadınların ictimai fəaliyyəti cümə günləri ənənəvi nahar hazırlamaqla, yəhudi festivalını təşkil etməklə məhdudlaşırdı. Qadınların ən əsas öhdəlikləri yəhudi milli dəyərlərini qoruyub saxlamaq və onları gələcək nəsillərə ötürmək idi.

Amerikaya köçən yəhudi qadınlar bura gələnə qədər əldə etdikləri əmək vərdişləri sayəsində Amerika iqtisadiyyatında özlərinəməxsus uğur qazana bildilər. Bunun sayəsində onlar tezliklə effektiv istehlakçıya çevrildilər və evdə istehsal etdikləri əmtəəni Amerika bazarlarına çıxarmağı bacardılar. Amerikada sosial islahatçıların fikirlərinə görə, Amerikaya çoxdan gələn yəhudi köçkünlərin orta sinif, təhsilli və yüksək səviyyəli qız nəvələri güclü potensiala malik idilər və bu qadınların potensialından düzgün istifadə etmək lazım idi. Sosial islahatçılar miqrant qadınların milli dəyərlərini qiymətləndirirdi və cəmiyyətin düzənində onların böyük rolu olduğunu dərk edirdilər. Onlar keyfiyyətli amerikalılardan ibarət cəmiyyət formalaşdırmaqdan ötrü bu kimi miqrantların potensialından istifadə etmək istəyirdilər.

Sosial islahatçılara görə, ən təhlükəli məsələ Amerikada yaşayan digər miqrantların yəhudilərə qarşı antisemitist (yəhudi olduğu üçün onlara bəslənilən düşmənçilik hissi) ideyaları gündəmə gətirə bilmələri idi. Onlar heç də miqrantların hamısına orta sinif amerikalı modelini aşılamaq istəmirdilər, çünki bununla onların milli dəyərlərinə xələl gətirilərdi. Onlar multikultural dəyərlərə daha çox üstünlük verdikləri üçün bu məsələlərdə ehtiyatlı olmaq istəyirdilər. Sosial islahatçılar Amerikanın orta sinif modeli ilə

uyğun gəlməyən miqrantların davranışını "deviant" adlandıranlara qarşı çıxırdılar.

Amerika yəhudilərin son yüzillikdəki miqrasiya tarixinə nəzər salsaq, bir çox dəyişikliklərin şahidi olarıq. Amerika tədqiqatçıları 1920-ci ildən sonrakı dövrü ikinci era adlandırırlar ki, bu da iki mərhələyə bölünür. *Birinci mərhələ* 1925-ci ildən 1945-ci ilə qədər davam edir; *ikinci mərhələ* isə II Dunya Müharibəsindən 1960-cı illərə qədərki dövrə təsadüf edir. İlk 20 ildə yəhudi ailələrində kifayət qədər sosial dəyişikliklər baş verdi. II Dunya Müharibəsindən sonrakı dövrdə, demək olar ki, yəhudilər tamamilə amerikalılaşmışdılar və ölkənin müharibədən sonrakı iqtisadi yüksəlişindən faydalanmağa can atırdılar. 1920-ci ildə yəhudi miqrantların ilk nəsli "yəhudi cəmiyyətinin üzvü kimi özlərini təsdiqlədilər" (E.P. Hutchinson, 1956: 13). "İkinci nəslin nümayəndələri hakim cəmiyyətin dəyərlərinə sahib olmağa səy göstərməyə başladılar, münaqişə toxumlarını ... cəmiyyət içərisinə səpdilər" (Kramer and Leventman, 1961:753-54). 1940-cı ildə Amerika yəhudiləri orta sinif Amerika ailəsinin modelinə uyğun gələn ən uğurlu miqrant qrup idi. II Dunya Müharibəsindən sonrakı dövrə təsadüf edən qızıl illərdən ən çox bəhrələnən elə Amerika yəhudi ailələri idi, lakin bu dövrdə yəhudi əhalisinin ətraf ərazilərə yayılması yeni bir yəhudi identifikasiyasının formalaşmasına gətirib çıxardı. Ətraf ərazilərdə, böyük şəhərlərdən kənarda yaşamaq qadın və kişilərin həyat tərzlərində böyük dəyişikliklərə səbəb oldu. Bu yeni məkan onlardan yeni biznes vərdişləri və yeni qabiliyyətlər tələb edirdi. Yaxşı təhsil görmüş qadınlar kişilərdən daha güclü idilər... Bu ənənəvi yəhudi ailələrində baş verən ən güclü dəyişiklik idi. Dinə görə, ailənin böyüyü ata idi, o, ailənin maddi təchizatçısı və uşaqların təhsil almağının əsas təminatçısı idi. Qordonun qeyd etdiyi kimi, artıq bu keyfiyyətlər nəzəriyyədə qalmaqda idi, təcrübədə vəziyyət başqa idi. Bu dövr Amerika cəmiyyətində mədəniyyətin, cavabdehliyin ötürülməsi dövrü idi (A.İ.Gordon, 2017). Yəhüdilərin keçid dövründən bəhs edən Qordon öz əsərində

belə davam edirdi, “mənim müşahidəm... şəhər ətrafında məskunlaşmış yəhudi ailələrin həyatı haqqında apardığım araşdırmalardan bu nəticəyə gəlirəm... bütün böyük qərarları kişi, qalan xirda-xuruş qərarları isə qadın verir”. Böyük qərar deyəndə... müharibə və sülh, sputnik və sateliti nəzərdə tuturam. Kiçik qərarlar deyəndə: uşaq böyütmək, onlar üçün məktəb seçmək, hansı sinoqoqa gedib dua etmək, hansı tərəfə köçüb yaşamaq və hansı evi almaq kimi məsələləri nəzərdə tuturam.

Yəhudi qadın yeni mövqeyə sahib olur ... Beləliklə, o tamamilə biznes işlərinə cəlb olunur ... ər, ümumiyyətlə, evdə-ailədə dini və mədəni məsələlərə az diqqət edir. Ərin uğursuzluğu onun həyat yoldaşının yeni uğurlu statusuna gətirib çıxardı.

Məlum olduğu kimi, boşanma, kəbinsiz ailə qurmaq kimi məsələlər yəhudilər üçün qəbulolunmaz haldır, elə Amerika yəhudiləri də harada yaşamalarından asılı olmayaraq, bu ənənəni qoruyub saxlamağa çalışırlar, lakin son dövrlərdə amerikalı yəhudilər arasında təkvalideynli ailələrə də rast gəlmək olur. Artıq amerikalı yəhudilərin də arasında iki valideyni ilə birlikdə böyüməyən uşaqlara təsadüf olunur və onların faizi son onilliklərdə yüksəlir. Ailə modellərində dəyişikliklər gözə dəyir (S.B. Fishman, 1994 :34).

Şübhəsiz ki, yəhudi ailələrin yeni ailə modeli ikili karyeralı ailələrin inkişafı sayəsində olmuşdur. Son dövrlərdə ailəli olub işləyən qadınların faizi çox yüksəlmişdir. “Bu gün yəhudi qadınların karyera göstəricisi əvvəlki illərlə müqayisədə çox artmışdır. Hətta körpə uşaqları olan yəhudi qadınların arasında da işləyənlər çoxdur. Bostonda, Baltimorda, San Fransiskoda və Vaşinqtonda körpə uşağı olan hər beş nəfər yəhudi qadından üçü işləyir”. Məsələn, 1970-ci ildə professional potensialı olan 24 % qadın işləyirdisə, 1990-cı ildə bu rəqəm artıq 44 %-ə çatmışdı (Yenə orada, s.17).

Məlum olduğu kimi, yəhudi ailələrində məişət zorakılığı, uşaqların seksual zorakılığa məruz qalma halları qəbuledilməzdir. Təəssüf ki, miqrant yəhudi ailələrində belə xoşagəlməz hal-

lara tez-tez də olmasa, arabir təsadüf edilir. 1990-cı ildə "Yəhudi ailələrində cinsi istismara qarşıyıq" adlı bir məqalə dərc olundu və bununla, yəhudi ailələrində zorakılıq yoxdur mifinə son qoyuldu. Amerikada yaşayan 161 yəhudi qadından alınan məlumatlar bu mifi təsdiqləmədi və bu da cəmiyyətdə böyük rezonansa səbəb oldu (Sharon R. Lowenstein,1990).

Son dövrlərdə ailənin məqsəd və funksiyalarında mədəniyyət və irsin ötürülməsində gedən dəyişikliklər yəhudi identifikasiyasına da təsir etmişdir.

S. Beym qeyd edir ki, XX əsrin ortalarında yuxarıdakı vəzifə yəhudi məktəblərinə həvalə olundu. "Biz bu gün yəhudi məktəblərindən təkcə yaxşı təhsil verməyi gözləmirik, biz onlardan yəhudi identifikasiyasını və yəhudi həssaslığını uşaqlara təlqin etməyi də gözləyirik. Əgər yəhudi ailələri ilə məktəblər arasında əməkdaşlıqda qüsur olarsa, yəhudi ailələrində də qüsur olacaqdır" (S. Bayme, 1989).

Bununla da, Amerikada yaşayan yəhüdi qadınların timsalında multikulturalizmin pozitiv xüsusiyyətlərindən ən çox yararlanan uğurlu miqrant qadınların həyat tərzi ilə tanış olduq. Amerikada yaşayan yəhudi qadınların uğurunda orada yaşayan yəhudi kişilərin rolu danılmazdır. Bu gün dünyada hegemon millət kimi formalaşan yəhudi millətindən olan qadınların bu uğurlu inteqrasiya təcrübəsi, təəssüf ki, digər miqrant qadınlar üçün hələ də arzu olaraq qalır.

**ABŞ-da etno-mədəni dəyərlərin nəsillərə ötürülməsində dərsliklərin rolu.** Multikulturalizm amili o qədər güclü amildir ki, onu cəmiyyətin bütün qurumlarının inkişafı üçün əsas götürmək lazımdır. Hətta ən aşağı siniflərin tədris sistemində, xüsusilə də, dərsliklərin tərtibatında multikulturalizm amili nəzərə alınmalıdır. Məktəblərin dərs proqramına milli azlıqların tarix, ədəbiyyat, coğrafiyasına bu vacib elementi daxil etmək vacibdir, çünki bu həmin məktəbdə təhsil alan milli azlığın nümayəndəsinə öz mədəniyyəti ilə tanış olmaq imkanı verir. ABŞ-da yaşayan 14-

24 yaş arası 46 milyon gənc əhali müxtəlif xalqların nümayəndələridir (*Terese M. Volk,* 2004:160). 2009-cu və 2010-cu illərdə Texasda dövlət kurikulum komitəsi azlıqların tələblərini yerinə yetirməkdən ötrü dərsliklərdə bir neçə dəfə dəyişiklik etmişdir.

ABŞ məktəblərin istifadə etdikləri dərsliklərdə, xüsusilə də tarix kitablarında "mədəniyyət müharibələri" olur. 1980-90-cı illərdə milli identifikasiya gündəmdən düşməyən bir mövzu idi və bu barədə gedən qızğın debatlar gündəmi zəbt etmişdi. 11 sentyabr 2001-ci il hadisəsindən sonra bu problemlər daha kəskin xarakter aldı. Dərsliklər Amerika milli identifikasiyasının konsensual görüşünü özündə tam əks etdirmirdi. "Mədəniyyət müharibələri"ni dayandırmaqdan ötrü təcili tədbirlərə zərurət var idi və bu problemləri kökündən həll etmək lazım idi, qalan dünyanın, yəni dominant olmayan xalqların tarixini də Amerika məktəblərin dərsliklərinə daxil edilməsinə böyük ehtiyac var idi. Proqressiv multikulturalistlər çoxşaxəli baxışları özündə ehtiva edən tədrisin tərəfdarı idilər və onlar ABŞ-da yaşayan, irqindən, dinindən, milliyyətindən asılı olmayaraq, onun tarixində mükəmməl izi olan böyük insanların həyat və fəaliyyətini bu dərsliklərə daxil olmasının vəkilliyini edirdilər. Düzdür, çoxsaylı konservativ düşüncəli insanlar bunun əleyhinə çıxış etdilər və multikulturalistləri terrorçuları dəstəkləməkdə günahlandırdılar. Proqressiv multikulturalist təhsil adamları onları fundamental terrorçularla sülhsevər Amerika müsəlmanlarını qarışdırmamağa çağırdılar ("*Aftermath: America's educators reflect on the impact of September11*",2001).

Bəzi nüfuzlu mühafizəkarlar bu yanaşmanı yersiz hesab etdilər və təkid etdilər ki, tarix vətənpərvərliyi, birliyi və daha uzaq keçmişin qəhrəmanlarını, eləcə də 9/11 hadisəsini olduğu kimi təqdim etsin (Lynne Cheney, 2001). Bu mühafizəkarlara görə dərsliklərdə Amerika dəyərlərinin üstünlüyü təlqin edilməlidir və yalnız Amerika cəmiyyəti öyrədilməlidir. Lakin multikulturalistlər tələb edirdilər ki, 9/11 hadisəsi düzgün şəkildə dərsliklərə

daxil olunmalıdır və onu tədris edəndə əsas ideya ondan ibarət olmalıdır ki, bu terrorun arxasında dayananlar Amerikanın demokratik və sülhsevər siyasətini sevməyənlərdir. Təhsil sahəsində kifayət qədər tanınmış, prezident Reyqanın dövründə ABŞ Təhsil Departamentində fəaliyyət göstərən Çester Fin, tədris işçilərinə "Amerika stilli patriotizmi tədris edin" tövsiyəsini edirdi.

Məktəblərdə "fərqliliyə hörmət" prinsipi təlqin olunmalıdır, lakin reallıqda bu ideya müxtəlif üsullarla misinterpretasiya olunur. Proqressiv multikulturalistlərə görə, fərqliliyə hörmət deyəndə etnik azlıqların görüşlərinə hörmət nəzərdə tutulur və tələbələrə həqiqəti söyləmək məsləhət görülür. Onların fikrincə, fərqliliyə hörmət demək o anlama gəlir ki, Amerika cəmiyyəti müxtəlif etnik qrupların kombinasiyasından yaranmışdır və onlarla münaqişə etmək, onlara qarşı diskriminativ münasibət bəsləmək deyil, onlara bərabərlik imkanı yaratmaqdır, əks halda bu onları antoqonizmə sürükləyəcəkdir. Ona görə də, cəmiyyətin inkişafında heç də az rolu olmayan azlıqların təcrübələrini Amerika tarixi dərsliklərinə daxil etməmək elə onlara qarşı diskriminasiya etmək deməkdir.

Dərsliklərdə çatışmayan cəhət təkcə etnik azlıqların tarixini çox az işıqlandırmaq deyil, bundan az önəm daşımayan, Amerika əhalisinin yarısını təşkil edən qadınların tarixdə qoyduğu izlərin dərsliklərə daxil edilməməsi, onların az təbliğ olunması da tarix kitablarını natamam edir. 1997-ci ilin dərsliklərində tarixi hadisələrin illustrasiyasının 85.3 %-ini kişi şəkilləri təşkil edirdi. Hətta son dövrlərin, məsələn, 2003-cü ilin dərsliklərində konservatizmə hələ də təsadüf olunur. 2003-cü ilin dərsliklərində cəmi 22.1 % qadın illustrasiyası yer almışdı. Artıq müasir Amerika fotoqrafları qadın şəkillərini dərsliklərə daxil etmişlər və bu da multikulturalistlərin apardığı mübarizənin nəticəsidir (McGraw-Hill, 2006: 137). Bəzən də dərsliklərdə qədim dövrlər təsvir olunur, anonim şəkillər verilir və nədənsə, bunların hamısı kişi şəkilləri olur ki, bu da multikulturalist ideya və yanaşmalara ziddir.

Multikulturalistlər çətinliklə də olsa, etnik qruplara qarşı diskriminasiya ilə mübarizə aparırlar. XIX əsrin sonu və XX əsrin əvvəllərində qaradərililərə, çinlilərə meksikalılara qarşı açıq-aydın diskriminativ müzakirələr olurdu və konservativ qruplar da onları dəstəkləyirdilər. Amerikanın gündəlik mətbuatında diskriminasiyanın artıq keçmişdə qalması qeyd olunsa da, hələ də onun elementlərinə rast gəlmək olur.

1950-ci və 1960-cı illərin Vətəndaş Hüquqları Hərəkatı diskriminasiyaya qarşı axıra qədər mübarizə apardılar və bu da cəmiyyətin ən böyük uğuru hesab olunmalıdır. Əsərlərində bu problemlərdən ətraflı bəhs edən MakQro-Hil "Sivil Hüquqlar Hərəkatı" adlı fəslini belə yekunlaşdırır: "Diskriminasiya hələ də mövcuddur, lakin bizim ölkəmiz "*hər kəsə azadlıq və hər kəsə ədalət"* idealına yaxınlaşmışdır. Cesse Cekson və Koretta Skot Kinq, Martin Lüter Kinqin dul qalmış həyat yoldaşları kimi tanınmış qadın liderlər bu hərəkatın mirasını yeni minilliyə qədər daşıya bilmişlər (Yenə orada, səh.138). Davamlı tərəqqi kontekstində ölkə vətəndaş ideallarına qarşı aparılan ayrı-seçkilik siyasəti multikulturalizmin mütərəqqi tərəfdarlarının ideayaları ilə üst-üstə düşə bilməz.

Martin Lüter Kinq keçid dövrünün pedaqoqikasına belə münasibət bildirmişdir: "Bizim cəmiyyətdə vəziyyət ədalətsiz görünür. Biz tələbələrimizin ədalətli yetişməsi üçün onlara ədalətsizliklə mübarizə aparmağın yollarını öyrətməliyik". Məsələn, Amerikada tarix dərsliklərində II Dünya Müharibəsində Amerika-Yaponiya konflikti çox ədalətsiz şəkildə təsvir olunur. İndi artıq həqiqəti demək zamanı gəlib çatmışdır. Kimsə bu müharibədə Amerikanın ədalətli olmasını söyləyə bilməz. Amerikalı yazarların arasında bu müharibədə Amerikanın ədalətli olmasını qeyd edənlər kifayət qədərdir, lakin bu müəlliflər heç bir tərəfdən Amerikaya haqq qazandıra bilməz.

Ümumiyyətlə, multikulturalizmin liberal məqsədləri əhəmiyyətli dərəcədə zərər görsə də, sonda amerikalıların kollektiv

şüurunu dəyişdirmək mümkün olmuşdur. Amerika haqqında qətiyyətlə demək olar ki, bu cəmiyyət çoxmədəniyyətlidir. Təfərrüatlar dəyişə bilər, lakin hələ də Yaponiya Amerika müharibəsində ABŞ-ın bu ölkəyə vurduğu ziyanlar tam açıqlanmır və dərsliklərdə bunlar obyektiv işıqlandırılmır. Tarix kitablarında təkcə bu müharibə haqqında qeyri-düzgün məlumat verilməmişdir, digər az önəm kəsb etməyən mühüm tarixi hadisələr (məsələn, Vyetnamla olan müharibə) də vardır ki, bunlar da dərsliklərdə düzgün işıqlandırılmamışdır. Tarix dərsliklərində həqiqət yazılmayana qədər, millətlər arasında ədalət bərpa edilməyəcək, milli azlıqlar öz keçmişini bilməyəcək və milli azlıqlardan olan qadınlar gender bərabərliyi siyasətindən bəhrələnməyəcəkdir. Nəticədə, fərqliliyə hörmət olmayacaq, mədəniyyətlərarası ziddiyyətlər kəskinləşəcək və multikulturalizm qarşısına qoyduğu məqsədlərə çatmayacaqdır.

**Nəticə.** XX əsr tarixə "total qloballaşma" dövrü kimi daxil oldu və bu insan fəaliyyətinin bütün sferalarına təsir etdi. Hələ 1919-cu ildə Paris Sülh Konfransında çıxış edən amerikalı diplomat Stenart Beker belə bir bəyanat verdi: "*Parisi Moskva olmadan başa düşmək mümkün deyil*." Millətlər Liqası və BMT, YUNESKO, YUNİSEF, dünya qlobal İnternet şəbəkəsi, transmilli korporasiyalar, Avropa İttifaqı və sair şəbəkələr iqtisadi, siyasi, sosiomədəni sərhədlərin silinməsinin parlaq sübutudur (Ф.Фукуяма, 1992).

Qloballaşma etnomədəni qrupların özünüdərk prosesinə təkan verdi və müxtəlif mədəniyyətlərin yaxınlaşmasına imkan yaratdi. Mədəniyyətlər arasında fərqlərin "yuyulma"sı milli kimlik böhranına gətirib çıxardı və "Biz kimik? Haradan gəlmişik? Hara gedirik?" sualların cavabını intensivləşdirdi. Beləliklə, "özümüzünkülər" və "yadlar" arasında demarkasiya (sərhəd) xətti çəkildi. Bununla da qloballaşmanın çağırışına cavab olaraq özünəməxsus bəşəri "qaynar qazan" əmələ gəldi və bu, mədəni plürazmin simvolu oldu.

Sözsüz, iki ziddiyyətli başlanğıcdan (qloballaşma və multikulturalizm) əmələ gələn bu maraqlı mədəni fenomen Amerika mədəni məkanı üçün yeni bir zəmin yaratdı. ABŞ-da bir tərəfdən, ikinci dərəcəli hesab edilən ənənəvi dəyərlərlə (etnik, milli, sivil) qlobal dəyərlər müqayisə olunur və Amerika qloballaşma ideyaların və ümumbəşəri dəyərlərin fəal təbliğatçısı qismində çıxış edir, digər tərəfdən isə, XX əsrin ikinci yarısında müasirlik haqqında formalaşan elmi anlayışda qloballaşma və multikulturalizm haqqında tərəddüd hiss olunur. Burada "qaynar qazan"la bağlı ziddiyyətli ideyalar səsləndirilir və sanki multikultural dəyərlərdən narahat kimi görünürlər. Dillərinə gətirməsələr də, bu hətta akademik sferalarda aydın hiss olunur. Məsələn, Amerikanın elmi-publisist səhifələrində hələ də "afro-amerikalılar" kimi xalqların nümayəndələrinə az rast gəlinir. İnsan faktoru ilə əlaqəli elmlərdə "ikili standart"lara yer verilir. Amerikada mədəni universalizm kimi guya "qlobal mədəniyyət"ə üstünlük verilir, lakin bu "qlobal mədəniyyət"in əsas elementləri elə dominant xalq kimi tanınan Avropa mənşəli xalqların mədəniyyətidir. Bu prinsipləri əlində rəhbər tutan ABŞ, daxili siyasətində avropalıların mədəni elementlərinə üstünlük verir, digər xalqların mədəni dəyərlərinə dildə önəm versə də, əslində onları sıxışdırır. ABŞ təkcə bununla kifayətlənmir, o həmçinin xarici siyasətində liderlik iddiasındadır, bütün dünyaya öz prinsiplərini diktə etmək istəyir.

ABŞ dünya liderliyinə iddia etmə istəyini bəzən heç gizlətmir və yeganə "qütb" yaratmaq iddiasında olduğunu açıq bəyan edir. ABŞ rəsmi şəkildə iki tendensiyanı həyata keçirmək istəyir: qloballaşma və mədəni plüralizm. O, mədəni plüralizmin realizəsində, "ikili standart"ı tətbiq edir. Qloballaşma mövqeyində dayanan dünya ictimaiyyəti öz dövlətlər daxilində etnik və digər mədəniyyətlər arasında sərhədləri qoruyurlar. Nəticədə, ABŞ-ın multikultural mövqedən bu şəkildə çıxış etməsi, İ.Krılovun "Qu quşu, durnabalığı və xərçəng" təmsilini xatırladır, çünki Amerikanın bəyan etdiyi multikulturalizmlə reallıqda yürütdüyü siyasət

buna uyğun gəlmir. Bu siyasət ölkəni müxtəlif istiqamətlərə çəkir və bu da multikulturalizm siyasətinin uğurla həyata keçirilməsinə mane olur. Şərti mənada bütün Amerika mədəniyyəti çoxsaylı parçalara bölünmüş nəhəng qayaya bənzəyir və bu qalıqlardan heç cür yenidən möhtəşəm qayanı yaratmaq mümkün deyil, ABŞ-da mövcud olan çoxsaylı xalqların mədəniyyətini də birləşdirib dövlət birliyi yaratmaq olmur. Bu ideya Amerikanın elit ziyalıları tərəfindən neqativ qarşılanır. Bütün deyilənləri ziyalılar Amerika elit təbəqənin oturuşmuş dəyərləri, "Müstəqillik Deklarasiyası", ABŞ-ın Konstitusiyası, demokratik missiyaları üçün real təhlükə hesab edirlər.

Amerikada lokal səviyyədə baş verən proseslər bütün dünya ölkələrində gedən prosesləri xarakterizə edir. Bəzi ziyalı təbəqələrin fikrinə görə, Amerikada 11 sentyabr hadisəsi və ondan sonrakı dövrdə digər ölkələrdə baş verən teraktlar elə plüralizm və tolerantlıqdan qaynaqlanır. Təkcə Amerika alim və siyasi mütəfəkkirləri deyil, bütün dünya ziyalıları mövcud situasiyadan çıxış yolunu axtarırlar. Bu gün dünyada baş verənlər dünyamızı xilas etmək yolunda mütərəqqi addımlar atmağımızın zəruriliyini bir daha gündəmə gətirir. Bəşəriyyət dünyamızı xilas etməkdən çox onu dağıtmaqda israrlı olan nüfuzlu təbəqələrin qarşısında hələ ki, acizdir.

Mültikulturalizmlə bağlı aparılan tədqiqat nəticəsində verilən proqnoz, təəssüf ki, urəkaçan deyildir, sanki "dünyanın son"u lap yaxındadır, hansısa oyunçular öz maraqlarına görə oyunun sonunu uzatmaqla məşğuldurlar. Onlar sanki bunu süni şəkildə edirlər. Əlbəttə, XXI əsrdə yaşayırıq, "sivilizasiyaların toqquşması" dövrüdür, lakin əsrin qabaqcıllarının əsas vəzifəsi qeyd olunan ssenarinin realizə olunmasına mane olmaqdır. Əslində, üçüncü minillik multikultural problematika müstəvisində qeyd olunan problemləri həll etmək gücünə malikdir.

Tədqiqatda əsas aksent multikultural kontekstdə demokratik siyasətdə nəzərə çarpan gender bərabərliyi ilə etnik müxtəliflik

arasında yaşanan gərginliyin üzərinə qoyulmuşdu. Araşdırmada həmçinin ABŞ-da siyasi xadimlərin gender bərabərliyi ilə etnik müxtəliflik arasında yaşanan münaqişə və müzakirələrin interpretasiyası diqqətə çatdırıldı.

Bəhs edilən kontekstdə miqrasiyanın artması, gender bərabərliyi ilə etnik azlıqlar arasında yaşanan gərginlik, təkcə aparıcı siyasi xadimlər arasında deyil, həmçinin vətəndaş cəmiyyətləri təşkilatlatları (qadın və miqrant təşkilatları da daxil olmaqla) üçün də mübahisə doğuran siyasi məsələlərə çevrilmişdir.

ABŞ-a inteqrasiyaya olan müxtəlif yanaşmalara rəğmən, burada etnik azlıqların marginallaşdırılması ilə əlaqəli həm əmək sferasında, həm də cəmiyyətin özündə oxşar problemlər mövcuddur. Feminist alimlər ABŞ-da qadınların gender bərabərliyi ilə mədəniyyət müxtəlifliyi ətrafındakı bənzər gərginlik və münaqişələri müəyyənləşdirmişlər. Bu araşdırmalar demokratiya və miqrasiyanın kəsişməsi barəsində tənqidi suallar əmələ gətirir və məlum olur ki, heç də bəhs etdiyimiz məkan bütün qadınlara eyni cür dəyər vermir. Araşdırmalardan bu nəticəyə gəlmək olar ki, ailə, demokratiya və milli dəyərlər arasında yaranan ziddiyyətlər və ictimai siyasət, diskurslar və vətəndaşlıq normaların çarpazlaşması ilə bağlı aparılan tədqiqata həqiqətən ehtiyac vardır. Təəssüf ki, araşdırmanın sonunda aşağıdakı sualların cavabları hələ də açıq qalır. İnsanlar gündəlik həyatlarında gender, sinif və etnikliklə əlaqəli geyri-bərabərliyin çarpazlaşmasını təcrübədən necə keçirirlər? ABŞ-dakı vətəndaşlıq və gender-bərabərliyi modelinə miqrant qadınların daxil ola bilməsi üçün hansı imkan, hansı potensial və hansı baryerlər mövcuddur?

Vətəndaşlıq, demokratiya, multikulturalizm, miqrasiya və gender-bərabərliyi norma və dəyərləri arasındakı əlaqələrə miqrant qadın perspektivindən yanaşanda maraqlı suallar meydana çıxır. Onlara görə, çoxluq və azlığın mədəniyyətlərində gender konfliktlərinə diqqət yetirilsə, gender məsələlərinə həssas yanaşılsa, bir çox qurumların özlərinin tədqiqata ehtiyacı olduğunu

görmək olar. Gender bərabərliyi və mədəni müxtəliflik arasındakı konfliktə həssas yanaşma ilə aparılan araşdırmaya, həqiqətən, ehtiyac vardır.

Əsas arqumentlər ondan ibarətdir ki, siyasi sistem üçün mövcud olan demokratik çətinlik, etnik azlıq qadınlarına bərabər vətəndaşlıq hüquqları verə bilmə bacarığıdır, onların hüquqlarını tanıma və gündəlik həyatlarında və siyasətdə onlara təsir edə bilmə qabiliyyətidir. Digər gender-siyasi öhdəlik ondan ibarət olmalıdır ki, etnik azlıq qadınları emansipasiya yollarını özləri axtarmalı və elə inkişaf strategiyaları tapmalıdırlar ki, onların köməyi ilə milli çoxluq normaları, etnik azlıqların ailə normaları və gender bərabərliyi arasındakı çətinlikləri dəf edə bilsinlər. Amerika feminist tədqiqatına görə, dominant gender bərabərliyi diskursu də daxil olmaqla, rəsmi gender bərabərliyi diskursları və siyasətini təhlil etməyə ehtiyac vardır. Sözsüz, din, mədəniyyət və ailə formalarının müxtəlifliyini nəzərə alaraq, feminist strategiyanı inkişaf etdirmək lazımdır. Bu zaman patriarxal təzyiq və miqrant qadınlara qarşı olan qeyri-bərabər davranışı da unutmamaq vacib şərtlərdəndir.

Mültikulturalizmin çətinlikləri və onun gender aspektindən araşdırılması, etnik azlıqda olan kişi və qadınların bu prizmadan tədqiq olunması hansı ümumi fikirləri söyləmək imkanı verir? *Tədqiqatlar* göstərir ki, vətəndaşlıq səviyyəsində etnik azlıq qadınların həm özəl, həm də ictimai sferada gərginlikləri mövcuddur. Lakin tədqiqatı mənfi notlarla bitirmək istəməzdim, çünki siyasi fəallar qrupu öz ailə və dəyərləri ilə Amerika çoxluğunun gender-bərabərliyi normaları arasındakı münaqişə və gərginlikləri aradan qaldırmaq iqtidarındadırlar.

**Ədəbiyyat:**

**Azərbaycan dilində**

1. Elşən Bayramzadə, "*Amerika prezidentləri*", Bakı, Kitab Klubu, 2012, 248 səh
2. Səmayə Mustafayeva,"*ABŞ və Böyük Britaniyanın ən yeni tarixu (1918-2007)*", Bakı, 2009, ADPU-nun nəşriyyatı, 350 səh

**English**

3. Abu-Lughod, L., "*Do Muslim Women Really Need Saving? Reflections on Cultural Relativism and Its Others*" // American Anthropologist. Vol. 104, no. 3, 2002. pp. 783-790
4. "*Aftermath: America's educators reflect on the impact of September 11*", NEA Today, 1 November 2001
5. A.İ.Gordon, "*Jews in Transition*" (1949); "*Jews in Suburbia*" (1959), American Jewish Historical Society, Boston, MA and New York, 2017).
6. Angha, N., "*Women in Islam*", İnternational Association of Sufism, New York, 2015
7. *Ann Katherine Isaacs, "İmmigration and Emigration in historical Perspective*",_ *Edizioni Plus, 2007, p. 38*).
8. Antin, Mary, "*The Promised Land*", Boston: Houghton, Mufflin and Co.; Cambridge [Mass.]: Riverside Press, 1912, p.199.
9. *Boening, Astrid B.,* "*Euro-Islam – A Constructivist Idea or a Concept of the English School?*", *European Union Miami Analysis (EUMA), 2007, 4 (12). Miami-Florida European Union Center of Excellence,* 2009, (*pp. 3–10*)
10. Border Security, Economic Opportunity, and Immigration Modernization Act, S. 744, 113th Cong., 2013
11. Bredal, Anja, "*Tackling Forced Marriages in the Nordic Countries: Between Women's Rights and Immigration*

*Control",* in L. Welchman and S. Hossain (eds), Honour Crimes. Paradigms and Violence against Women, 2005, London: Zed Books, p. 5

12. Corbin, T., "*I'm a feminist and I converted to Islam*", Special to CNN, 2015).
13. Elise Foley & Sam Stein, "*Immigration Reform Effort to Begin in Senate Post Inauguration*", Huffington Post, (Nov. 8, 2012, 12:44 PM)
14. E.P. Hutchinson, "*İmmigrants and their Children, 1850-1950*", 1956, New York: Wiley, Census monograph series, pp.13-15.
15. Haddad, Y., "*The Study of Women in Islam and the West: A Select Bibliography*" // Hawwa (Journal of Women of the Middle East and the Islamic World), Vol. 3, Issue 1. Koninklijke Brill NV, Leiden, 2005. pp.111, PP. 111-157.
16. Hu, Ch.; Pazaki, H.; Al-Qubbaj, K.; Cutler, M., "*Gender Identity and Religious Practices of First-Generation Muslim Women Immigrants in the U.S. // Making Connections: In-terdisciplinary Approaches to Cultural Diversity*", 2009, Vol. 11. Issue 1. p. 55. [50-63]
17. Ian Haney Lopez, "*White by Law: The Legal Construction of Race*", NYU Press, 2006
18. "*Immigration Act of 1990*", Pub.L.No.101-649, 104 Stat.4978
19. "*Immigration and Nationality Act of 1952*", Pub. L. No. 82-414, 66 Stat., at 163
20. *Immigration Reform and Control (Simpson-Mazzoli) Act of 1986*", Pub. L. No. 99-603, 100 Stat. 3359
21. Janet Calvo, "*A Decade of Spouse-Based Immigration Laws: Coverture's Diminishment, but Not Its Demise*", 24 N. ILL. U. L. REV, 153, Calvo, Coverture's Diminishment 2004, p.161
22. Joan Wallach Scott, "*Gender, History and Deconstruction:*

*Joan Wallach Scott's Gender and the Politics of History*", GSST, the University of Michigan, Ann Arbor, 1989

23. Kramer and Leventman, "*Children of the Gilded Ghetto: Conflict Resolutions of Three Generations of American Jews*", New Haven, Yale University Press, in Journal of American History, Vol., 48, Issue 4, 1 March 1962, pp. 753-754, 1961
24. Kramer, Sydelle, and Jenny Masur, eds., "*Jewish Grandmothers*", 1976, p. 8).
25. Krause, Corinne Azen, "*Urbanization Without Breakdown: Italian, Jewish, and Slavic Immigrant Women in Pittsburgh*", *Journal of Urban History* 4, no. 3, 1978, p. 296, 291–306
26. Louis Wirth, "*The Ghetto*", University of Chicago Press, 1928, p. 236.
27. Lynne Cheney, "*Mrs. Cheney's Remarks at the Dallas Institute of Humanities and Culture*", Office of Lynne Cheney, 5 October 2001
28. Marcelo M. Suárez-Orozco; Carola Suárez-Orozco, "*The New Immigration: An Interdisciplinary Reader*", *Routledge, 2005, p. 39*
29. McGraw-Hill, "*The American Vision: Modern Times*", "*The Civil Rights Movement*", Chapter 16, 2001, California Edition
30. Morck, Yvonne. "*Multiculturalism and Feminism: No Simple Questions, No Simple Answers*", in A.Eisenberg and J.Spinner-Halev (eds) '*Minorities within Minorities. Equality, Rights and Doversity*', 2005, Cambridge: Cambridge University Press p.11.
31. Nathan Glazer, "*We are All Multiculturalists Now*", Harvard University Press, 1997
32. Offenhauer, P., "*Women in Islamic Societies*", A Selected Review of Social Scientific Literature, Directorate of

Science & Technology, November 2005, p.5

33. Okin, Susan M. "*Is Multikulturalism Bad for Women*?" Joshua Cohen, Matthew Howard and Martha C. Nussbaum. Princeton, Nj; Princeton University Press, 1999a
34. *Peter Caputi; Heather Foster; Linda L. Viney, "Personal Construct Psychology: New İdeas", Wiley & Sons. 2006*
35. Proper, Emberson, "*Colonial Immigration Laws*", Buffalo: William S Hein & Co., Inc., 2003
36. Rachel Hutchins-Viroux, "*Multiculturalism in American History Textbooks before and after 9/11*", in "*American Multiculturalism after 9/11*", edited by Derek 36. Ran Abramitzky, Leah Platt Boustan, and Katherine Eriksson, "*A Nation of Immigrants: Assimilation and Economic Outcomes in the Age of Mass Migration*", in Journal of Political Economy, The University of Chicago Press, Vol. 122, No. 3 (June 2014), pp. 467-506
37. Reva B. Siegel, "*The Rule of Love: Wife Beating as Prerogative*", 105 Yale L.J., 1996, Calvo, Coverture's Diminishment, note 3, p. 161.
38. Rubin and Jaap Verheul, Transatlantic Perspectives, Amsterdam University Press, 2009, p.133-147
39. S. Bayme, "*Jewish Family in American Culture*", İnstitute for American Values Conference: *What Do Families Do?* Stanford University, Jewish Virtual Library, 1989
40. S.B. Fishman, "*Love, Marriage, and Jewish Families: Paradoxes of a Social evolution*", Brandies University Press, New England,1994
41. Shachar A., "*Multicultural Jurisdictions: Cultural Differences and Women's Rights*", Cambridge: Cambridge University Press, 2001. ğ. 3
42. Sharon R. Lowenstein, "*Confronting Sexual Abuse In Jewish Families*", Vol. 15., No. 2, Moment Digital Archive, April 1990

43. Siim, Birte, "*The Challenge of Recognizing Diversity from the Perspective of Gender Equality*," Critical Review of International Social and Political Philosophy 10 (4): 2007 p. 416
44. Taylor Ch., "*Multiculturalism and Politics of Recognition*", Princeton: Princeton Press, 1992. 5, ğ. 25
*45. Terese M. Volk, "Music, Education and Multiculturalism: Foundations and Principles", Oxford University Press, 2004, p.160*
46. "*The Changing American Jewish Family Faces the 1990s*", edited by Steven Bayme and Gladys Rosen, American Jewish Committee, Hoboken, N.J. : KTAV Pub. House, U.S., 1994, p. 34
47."*Trends in International Migrant Stock: Migrants by Age and Sex*", UN Population Division, Department of Economic and Social Affairs, Population, New York, 2013
48. Weinberg, Sydney Stahl, "*The World of Our Mothers"*, The Lives of Jewish Immigrant Women, The University of North Carolina Press, Chapel Hill and London, 1988, p.167).
49. Zangwill, Israel, A play, "*The Melting Pot*"*,* New York: Macmillan, 1908
50. Young I. "*Justice and the Politics of Difference*", Princeton: Princeton University Press, 1990, p. 96

**Rus dilində**

51. Бенхабиб Ш., "Притязания культуры. Равенство и разнообразие в глобальную эпоху", М.: Логос, 2003, с. 87
52. Деминцева Е.Б., "Ислам и интеграция: восприятие религии предков педставителями второго поколения магрибинских иммигрантов во Франции // Ислам в Европе и в России": сб. ст. / сост. и отв. ред. Е.Б., Изд. дом Марджани, 2009. С. 104-133

53. Куропятник А.И. “Мультикультурализм: проблемы социальной стабильности полиэтнических обществ”, СПб., 2000, с. 20
54. “Декларация независимости”, Конгресс, 4 июля 1776 г., Принята единогласно тринадцатью соединенными Штатами Америки
55. Летняков, Д.Э., “Забыть о ‘войне культур’: почему нам необходима ревизия дискурса о миграции” // Философская мысль. — 2015.-№ 5.-С.124-148
56. Сизов, Ю.И., Курбанова З.А., “Социально-правовой статус женщин в мусульманском обществе” // Вестник Волгоградского государственного университета. Сер. 5, Юриспруденция. № 2 (23). 2014. С. 146
57. С. М. Хенкин., “Мусульмане в Испании: проблемы адаптации” // Актуальные проблемы Европы., 2015, № 1.
58. Сюкияйнен, Л.Р., “Ислам и перспективы развития мусульманского мира”. Лекция, прочитанная в рамках проекта “Публичные лекции “Политру”, Государство и право. 1998 №6, 43-45 с. 16., Мусульманское право
59. Ф.Фукуяма, “Конец истории и последний человек”, Free Press, 1992

Qeyd

Qeyd

“Elm və təhsil” nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Dizayner: Zahid Məmmədov
Kompüter tərtibatçısı: Tünzalə Tağıyeva

Çapa imzalanmış: 30.04.2018.
Şərti çap vərəqi: 18,75. Sifariş: № 100.
Kağız formatı: 60x84 1/16. Tiraj: 300.

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4